Crossref
ÜZVÜ

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGİYA

2024
№2 (80)

BAKI-2024

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof. Dr İradə Hüseynova (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

Member of Crossref

DOI:10.30546/3006-0346
ISSN: 2664-4975
E-ISSN: 3006-0346

# GEOSTRATEGY

2024
№2 (80)

BAKU-2024

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Irada Huseynova (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***“GEOSTRATEGY”*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

Siyasi elmlər

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2024.2.80.101

# URMİYA FACİƏSİ (1917-1918) – İNSANLIQ DRAMIDIR

**İRADƏ NURİYEVA**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "Humanitar fənlər" kafedrasının professoru, siyasi elmlər doktoru*

*E-mail: iradanuri@gmail.com*
*Orcid ID: 0000-0002-5309-0009*

1918-ci ildə böyük dövlətlərin təşkil etdiyi xristian ordusunun Cənubi Azərbaycanın qərb bölgəsində - Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə Azərbaycan türklərinə qarşı törətdiyi cinayət XX əsrin ən dəhşətli soyqırımılarından biridir. Soyqırımı türk-müsəlman əhalinin məskunlaşdığı və Osmanlı İmperiyasına yaxın ərazilərdə ermənilər üçün dövlət yaratmaq məqsədilə həyata keçirilmişdir.

I Dünya müharibəsi dövründə Cənubi Azərbaycan ərazisi Rusiya və Osmanlı silahlı qüvvələrinin hərb meydanına çevrildi. 1916-cı ildə Cənubi Azərbaycanın demək olar ki, bütün ərazisi rus qoşunları tərəfindən işğal edildi. Həmin il Osmanlı dövlətinin Hakkari bölgəsində yaşayan xristian assuriyalılar (aysorlar) Rusiyanın dəstəyi ilə öz dövlətlərinə qarşı üsyan etdilər. Lakin Osmanlı qoşunlarına uzun müddət müqavimət göstərə bilməyən on minlərlə aysor (yerli əhali onları "cilov" adlandırırdı) ailəsi Rusiyanın köməyi ilə Cənubi Azərbaycanın Urmiya və Salmas bölgələrinə köçürüldü [6, s. 7-8]. 1918-ci il martın 3-də bağlanmış Brest-Litovsk müqaviləsinin şərtlərinə görə, Çar Rusiyasının qoşunlarının Şimali İrandan (Cənubi Azərbaycandan) çıxarılması ilə eyni zamanda müttəfiq dövlətlər - İngiltərə, Fransa və ABŞ-nin erməni, aysor və Cənubi Azərbaycanda qalan rus silahlı birləşmələrindən təşkil etdikləri xristian ordusu azərbaycanlılara qarşı səlib yürüşü həyata keçirdi.

Rus qoşunlarının İrandan təxliyə edilməsindən sonra ingilislər Osmanlı dövlətinin yolunu kəsmək üçün Urmiya bölgəsində erməni və aysorlarla birləşməyi, digər tərəfdən isə Tehran-Qəzvin yolu üzərindəki Rəşt bölgəsini tutmağı, Xəzər dənizinin sahilindəki Ənzəli limanına, oradan da dəniz yolu ilə Bakıya daxil olub şəhəri ələ keçirən ermənilərlə birləşərək işğal etməyi planlaşdırırdılar. Bakı neftinin digər müttəfiqlərin əlinə keçməsinə imkan verməyən İngiltərə dərhal öz hərbi hissələrini rus qoşunlarının çıxdığı ərazilərdə yerləşdirdi [6, s. 8]. Eyni zamanda, Britaniya hökuməti Osmanlı ordusunun bu bölgələri ələ keçirməməsi üçün ABŞ və Fransa konsulluqlarının köməyi ilə erməni və aysorları dəstəklədi [3]. Persi Sayksın fikrincə, ingilislərin İranın cənub sərhədləri boyunca yerləşən hərbi birləşmələrindən başqa ölkənin şimalına göndərmək üçün kifayət qədər hərbi qüvvəsi yox idi və ən yaxşı ingilis birləşmələrinin yerləşdiyi Bağdad Cənubi Azərbaycandan uzaqda idi. Buna görə də, ingilislər Osmanlı ordusunun hücumlarının qarşısını almaq üçün bölgədə mövcud olan erməni və aysorlarla əlaqə yaratdılar. Rus ordusundan qaçan zabit və əsgərləri də təşkil edib təlim keçdilər [7, s. 60.]. İngilis hərbi birləşmələri Zəncan və Miyanəni işğal etdilər, Xoy və Urmiyada ingilis zabitlərinin komandanlığı altında polis və qoşunlar yerləşdirdilər. Müttəfiqlər rusların əvəzinə erməni və aysorları azərbaycanlılara və osmanlılara qarşı silahlandıraraq rus, ingilis, fransız [6, s. 37] zabitlərinin komandanlığı altında 6 batalyon (4 aysor və 2 erməni batalyonu), 4 batareya, 300 nəfərlik süvari dəstə və bir pulemyot rotası təşkil etdilər [5, s. 5]. Anadolu bölgəsindən geri çəkilən rus qoşunlarının tərkibində olan ermənilər də Urmiyə bölgəsinə gələrək burada yerləşən erməni və aysorlarla birləşdilər. Onlar rus ordusuna məxsus silahları ələ keçirərək Güney Azərbaycanın Urmiya, Salmas, Xoy və digər ərazilərindəki yerli əhaliyə hücum etdilər.

1918-ci ilin fevral-mart aylarında xristian ordusu əsasən Urmiya və Dilman ərazilərində toplaşdılar. Urmiya bölgəsində erməni və aysorların getdikcə şiddətlənən qanlı qırğınlarının qarşısını almaq üçün görüləcək tədbirlər Osmanlı dövləti tərəfindən VI Ordu komandanı Xəlil Paşaya həvalə edildi [6, s. 41]. 1918-ci ilin əvvəlindən erməni və aysor silahlı birləşmələrinin Güney Azərbaycanında türk-müsəlman əhaliyə qarşı görünməmiş qəddarlıqla həyata keçirdikləri qətliamlar fevralın 22-si cümə günü Urmiya sakinlərinin 3 günlük fasiləsiz qırğını ilə başladı [6, s. 44]. Qırğının ilk günü Urmiya şəhərinin Əsgərxan məhəlləsi tamamilə dağıdıldı. T.Dilmagani dövrünün mənbələrinə əsaslanaraq bu hadisəni belə təsvir edir: "Belə bir sürətli və vəhşicəsinə hücumu gözləməyən müsəlmanlar gözlənilmədən yaxalandılar. Onlar hücum etdikləri evlərin sahiblərini öldürür, əşyalarını

qarət edir, sonra yandırırdılar” ... Urmiyanın Novgeçər, Yurtşah və şəhərin cənub hissəsindəki məhəllələrdə yaşayan müsəlmanların böyük hissəsi məhv edildi. Top atəşləri ilə yandırılan şəhər tamamilə dəyişdi, insanların nalə səslərindən qulaq tutulurdu.... [5, s.117-118]. Qırğının ikinci günü də gecə yarısı Çalbaş və Dikəli məhəllələrində top səsləri eşidildi, ... günahsız insanların çığırtıları qulaq batırırdı. Qatillər şəhərin mərkəzindəki Hacı Müstəşarin karvansarasına toplaşaraq yoldan keçən hər kəsi qətlə yetirirdilər. Xristian ordusu gecə saatlarında Urmiya qalası yaxınlığındakı evlərə hücum edərək kişi və qadınları öldürür, əmlakları qarət edir, gənc qadınlara təavüz edirdilər. Fevralın 25-də atəş dayandırıldı və 48 saat ərzində bütün müsəlmanlardan silahlar yığıldı. Əhali yaxınlarının meyitlərini basdırmağa başladı. Ölənlərin sayı o qədər çox idi ki, onları bükməyə kəfən çatışmırdı. Cəsədlərin basdırılması bir neçə gün çəkdi. Gündə 200-ə qədər cənazəni dəfn etmək olurdu. Martın əvvəllərində Urmiya şəhəri tamamilə xristian ordusu tərəfindən tutuldu [5, s.119-133.]. Üşnü bölgəsində də qətliamlar törədildi.

Osmanlı dövləti Urmiya gölü ətrafında erməni vəhşiliyinin qarşısını almaq məqsədi ilə VI və III orduların Cənubi Azərbaycanın müsəlman əhalisindən topladığı qüvvələrlə birlikdə Qars-İrəvan istiqamətində yürüş etməyi planlaşdırırdı. Digər tərəfdən isə İran vəliəhdinin başçılığı altında Təbrizdən hərəkət edən hərbi dəstə ilə Xoyda [6, s. 47] baş verən döyüşdə ermənilər məğlub olaraq qaçdılar. Verilən məlumata görə, ingilis və fransız zabitlərinin komandanlığı altında 4 top və çoxlu odlu silaha malik 3-4 min erməni və Urmiyadan 20-30 km cənubda yerləşən Rəşahan, Xəzmlər, Maşan və Salvatıda xüsusi partizan dəstələri vardı [2]. Erməni-aysor qoşunlarının dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirdikləri misli görünməmiş soyqırımları Urmiyanın kəndlərində də davam edirdi. Çəhirgə və Nazlıçay kənd sakinlərinin möhkəm hasarlarla əhatə olunmuş ucqar Qəhrəmanlı kəndinə qaçdıqlarından xəbər tutan erməni-aysor quldur dəstələri martın ortalarında kəndə hücum etdilər və aprelin əvvəllərində Əlipəncəsi dağının ətəyindəki mövqedən 2 topdan kəndi atəşə tutdular. 334 kənd sakini qətlə yetirildi. Kənddə bir nəfər də olsun sağ insan qalmamışdır. İki-üç il bu kəndin şəhidlərinin sümükləri küçələrdə, həyətlərdə, evlərdə qalmışdır [5, s.173-174.]. 3 aprel 1918-ci ildə xristian ordusu Salmasın mərkəzi Dilmanı ələ keçirdi. Başqa kəndlərdən olan müsəlmanlar xristianların zülmündən qaçaraq Əsgərabad kəndinə sığındılar. Kənd hər tərəfdən mühasirə olunmuşdur. 24 may 1918-ci il şənbə günü xristianlar Xoya hücum etdilər. Urmiya, Salmas, Sulduz və başqa yerlərdən insanlar köməyə gəldilər. Cümə günü, 30 may 1918-ci ildə xristianların silahlı dəstələri Əsgərabada hücum edərək top atəşləri ilə kəndi darmadağın etdilər. Şücaət və mərdliklə vuruşan müdafiəçilər şəhid oldular. Qala divarları dağıdıldı və əhaliyə divan tutuldu. Kənd məscidində gizlənənlərə belə aman verilmədi. Onları tikə-tikə doğrayaraq öldürdülər. Məsciddən çölə çoxlu qan axırdı. Küçələrdə, yollarda, bağlarda gizlənən müsəlmanların hamısını güllələdilər. Əsgərabad qəbiristanlığa çevrildi. Ölənləri basdırmağa insan belə tapılmırdı [6, s. 50-51].

Baş komandanlıq Vəkalət-i Cəliləsinin əmri ilə III Ordu Van istiqamətinə göndərildi və Əli Ehsan Paşanın başçılıq etdiyi IV Nizami ordu Vanı ələ keçirərək erməniləri Saray və Basqalaya doğru təqib etdi. Bundan başqa, Urmiyə istiqamətində hərəkət etmək üçün yaradılmış VI Ordunun xüsusi partizan dəstəsindən ibarət bir taburu 5 aprel 1918-ci ildə Rayatdan Üşnü istiqamətində sərhədi keçdi, digər üç taburu isə Ərbildən Rəvandizə doğru irəlilədi. Vəziyyətin ciddiləşdiyini görən ermənilər İngiltərə ordusuyla birləşmək üçün İran hökumətinə müraciət etdilər. Hökumət ermənilərə yalnız silahlarını təhvil verdikləri təqdirdə buna icazə verəcəyini bildirdi. Bu zaman Urmiya bölgəsindəki ermənilər Mosulda ingilis qüvvələri ilə vuruşan Osmanlı ordusuna hücuma hazırlaşırdı. 1918-ci il mayın 10-da Osmanlının hərbi naziri Ənvər paşanın göstərişi ilə IV nizami ordu Üşnüdən Urmiyaya yürüş etdi [4, s. 548]. Osmanlı qoşunlarının köməyi ilə Dilman və Salmas ermənilərdən azad edildi. Qafqaz cəbhəsindən Andronikin başçılıq etdiyi erməni qüvvələri Culfadan Araz çayını keçərək Xoydan cənuba doğru irəliləməyə başladılar. Ermənilərin məqsədi Təbrizə doğru irəliləyən ingilis qoşunları ilə birləşmək, Osmanlı ordusunu məğlub etmək və sonra Qafqaz cəbhəsinə geri qayıtmaq idi. Lakin Osmanlı ordusu ermənilərin ingilislərlə birləşməsinə imkan vermədi və onları məğlub edərək Araz çayının şimalına doğru geri çəkilməyə məcbur etdi. Bir müddət sonra ingilislər Rəşt-Urmiyə xəttinə və Təbrizdən 10 km məsafədə yerləşən Bazmiç kəndinə yaxınlaşdılar [6, s. 53-54]. Osmanlı ordusunun hərbi hissələrinin Təbrizə doğru hərəkəti ingilis və fransız konsullarını şəhəri tərk etməyə məcbur etdi, hətta Təbrizdə olan ermənilər də qaçmağa başladılar. Osmanlı qoşunları qısa müddətdə ingilislərdən əvvəl Təbrizi ələ keçirdilər, sonra Miyanə, Dəymətaş, Qaraçam və Türkmənçay mövqelərində ingilislərə güclü zərbələr endirərək onları cənub-şərq istiqamətində

geri çəkilməyə məcbur etdilər [1]. 1918-ci ilin iyun ayında Osmanlı qoşunları Xoy şəhərinə çatdılar və oradan Salmasa hərəkət etdilər. Bir neçə gün davam edən döyüşlərdən sonra erməni ordusu məğlubiyyətə uğrayaraq qaçmağa başladı, lakin geri çəkilərkən də kəndləri yandırır, insanları öldürür, məğlubiyyət acısını dinc əhalidən çıxırdı. Bu zaman qaniçən daşnak Andronik Xoy şəhərini tutmaq və erməni-aysor ordusu ilə birləşmək üçün 8 min nəfərlik hərbi dəstə ilə Culfadan hərəkət etdi. Ermənilər Xoy şəhərini tutub əhalini məhv etdikdən sonra özləri ilə gətirdikləri 10 min erməni ailəsini burada yerləşdirmək və Azərbaycanın bu hissəsini Ermənistana birləşdirmək niyyətində idilər. 1918-ci il iyunun 24-də Andronikin ordusu Xoy şəhərini mühasirəyə aldı. Ermənilər Urmiyada törətdikləri vəhşilikləri burada da davam etdirdilər. Şəhər əhalisi silahlı müdafiə ordusu yaradaraq düşmənə ciddi müqavimət göstərdi. Şəhərin müdafiəsində hətta qadınlar da iştirak edirdilər. Ermənilər şəhəri top atəşinə tutdular. Lakin Osmanlı ordusunun Salmasdan yaxınlaşdığını görən ermənilər məğlub olacaqlarını anlayaraq geri çəkildilər. Ermənilər zəif müdafiə olunan şəhər və kəndlərə basqınlarını davam etdirir, yeni faciələr törədirdilər. Onlar Urmiya gölündəki Rusiya hərbi gəmisindən də istifadə etmək niyyətində idilər. 180 nəfər yaxşı təlim keçmiş erməni-aysor hərbçisi bu gəmi ilə Şərəfxana limanına irəliləyib oradakı gəmiləri də ələ keçirmək istəyirdilər. Lakin onlar sahilə çıxanda Osmanlı türkləri və azərbaycanlılarla döyüşdə məhv edildilər. Beləliklə, onların bu planı da iflasa uğradı [6, s. 55-56].

1917-1918-ci illərdə Cənubi Azərbaycanın qərb bölgəsində, əsasən Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə böyük dövlətlərin təşkil etdiyi, əsasən ermənilərdən ibarət olan xristian ordusunun Azərbaycan türklərinə qarşı həyata keçirdiyi soyqırımı nəticəsində 100 minlərlə dinc əhali qətlə yetirildi. Birləşmiş xristian ordusu Cənubi Azərbaycanın qərb bölgəsində onlarla şəhər və kəndi talan edərək yerlə-yeksan etdi, kişi, qadın, uşaq və qocanı fərq qoymadan dünyada misli görünməmiş soyqırıma məruz qoydu. Soyqırımı baş verdiyi dövrdə yaşamış Seyid Əhməd Kəsrəvi yazır ki, Urmiya şəhərində 130 mindən çox insan ermənilər və aysorlar tərəfindən öldürülmüşdür [8, s. 919]. Xristian ordusunun təkcə Urmiyada törətdiyi soyqırımı nəticəsində 100 min dinc sakin həlak olmuşdur. Soyqırımının nəticələri barədə daha dəqiq məlumatı İranın mərkəzi hökumətinin Urmiyadakı kargüzarı Rəhmətullah xan Mötəmidəlvuzərə vermişdir. Bölgələrdə aparılan bu hesabatlara görə: "Şəhərin bəzi məhəllələrinə, eləcə də bəzi kəndlərə dəyən xəsarət və can itkisinin hələ də hesablanmasının davam etməsinə baxmayaraq, I Dünya Müharibəsi başlayandan indiyədək sadəcə qeydə alınan və hesablama vərəqələrində göstərilən can itkisi 160 min nəfər, xəsarət isə təxminən 160 krur tümən idi, ... xəsarət və insan tələfatı qeydə alınmayan məntəqələr də hesablanarsa, dəyən maddi xəsarət 200 krur tümən, insan itkisi isə 200 min nəfər olur" [6, s. 58]. Beləliklə, Güney Azərbaycanında, əsasən Urmiya bölgəsində azərbaycanlılara qarşı törədilən qırğınlar əslində ermənilərin Cənubi Qafqaz, Şərqi Anadolu və İranda türk-müsəlman əhalisini soyqırımına məruz qoyaraq gələcəkdə türksüz "Böyük Ermənistan" yaratmaq planının tərkib hissəsi idi.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. ATASE, K. 400, D.1575, F. 003-10.*

*2. ATASE, K. 3632, D.136, F. 028-04.*

*3. ATASE, K. 4-10481, D.306, F. 51-4.*

*4. Birinci Dünya Harbində Türk Harbi Irak-İran Caphesi 1914-1918, Genel Kurmay Tarih və Stratəjik Etüt Başkanlığı Yayınları, c.3, 2.Kısım, Ankara 2002, s. 548.*

*5. Dilməqani T.Güney Azərbaycan Birinci dünya müharibəsi illərində. (Tərcümə edən və korrektor C. Mirzəyeva). AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı, 2011, s.4-5.*

*6. Güntəkin Nəcəfli. Urmiya bölgəsində azərbaycanlılara qarşı soyqırımı (1917-1918). (ATASE sənədləri əsasında). Bakı: 2017.-112 s.*

*7. Percy Sykes. İran Tarihçesi. Harbi Umumide İran. Erkan-i Harbiye-i Umumiye İstihbarat Dairesi Neşriyatı. İstanbul 1341. s. 63.*

*8. Seyid Əhməd Kəsrəvi."Tarix-e 18 sale Azərbaycan" çap 5, nəşr-e Əmir Kəbir, Tehran 1350.*


**XÜLASƏ**


1917-1918-ci illərdə türk-müsəlman əhalinin məskunlaşdığı və Osmanlı İmperiyasına yaxın ərazilərdə erməni dövləti yaratmaq məqsədilə Cənubi Azərbaycanın qərb bölgəsində - Urmiya, Salmas, Xoy və digər ətraf ərazilərdə Azərbaycan türklərinə qarşı erməni, aysor və Cənubi Azərbaycanda qalan rus silahlı birləşmələrindən təşkil etdikləri xristian ordusunun həyata keçirdiyi soyqırımı nəticəsində 100 minlərlə dinc əhali qətlə yetirilmişdir. Urmiya bölgəsində erməni və aysorların törətdikləri qanlı qırğınların qarşısını almaq Osmanlı dövlətinin VI Ordu komandanı Xəlil Paşaya həvalə edilmişdir. Rus qoşunlarının İrandan təxliyə edilməsindən sonra ingilislər Urmiyada erməni və aysorlarla birləşərək, digər tərəfdən

isə Tehran-Qəzvin yolu üzərindəki Rəşt bölgəsini tutaraq, Xəzər dənizinin sahilindəki Ənzəli limanına, oradan da dəniz yolu ilə Bakıya daxil olub şəhəri ələ keçirən ermənilərlə birləşməyi və Bakı neftinə nəzarət etməyi planlaşdırırdılar. Birləşmiş xristian ordusu Cənubi Azərbaycanın qərb bölgəsində onlarla şəhər və kəndi talan edərək yerlə-yeksan etdi, kişi, qadın, uşaq və qocanı fərq qoymadan dünyada misli görünməmiş soyqırımına məruz qoydu. 1914-1918-ci illərdə isə can itkisi təxminən 200 min nəfər idi.

**Açar sözlər:** *Cənubi Azərbaycan, Urmiya faciəsi, soyqırım, erməni, aysor, ingilis və rus birləşmiş ordusu, Xəlil Paşa.*

## ТРАГЕДИЯ УРМИИ (1917-1918) – ДРАМА ЧЕЛОВЕЧЕСТВА

**ИРАДА НУРИЕВА**
***Доктор политических наук, профессор кафедры «Гуманитарных наук» Азербайджанского Государственного Университета Нефти и Промышленности***

### РЕЗЮМЕ

В 1917-1918 годах с целью создания армянского государства на территориях, населенных турецко-мусульманским населением и близких к Османской империи, в западном районе Южного Азербайджана - Урмии, Салмасе, Хое и других прилегающих районах, в результате геноцида, осуществленного христианской армией, организованной армянскими, айсорскими и оставшимися в Южном Азербайджане российскими вооруженными силами против азербайджанских тюрков, погибло 100 тысяч мирных жителей. Халил-паше, командующему Шестой армией Османского государства, было поручено предотвратить кровавую резню, учиненную армянами и айсорами в районе Урмии. После эвакуации российских войск из Ирана британцы планировали объединиться с армянами и айсорами в Урмии, а с другой стороны занять район Рашт на дороге Тегеран-Казвин, войти в порт Энзели на побережье Каспийского моря, а затем войти в Баку морем и объединиться с захватившими город армянами и контролировать бакинскую нефть. Объединенная христианская армия разграбила десятки городов и деревень в западном регионе Южного Азербайджана и подвергла мужчин, женщин, детей и стариков беспрецедентному в мире геноциду. В 1914-1918 годах человеческие потери составили около 200 тысяч человек.

**Ключевые слова:** *Южный Азербайджан, трагедия Урмии, геноцид, объединенная армия армян, айсоров, англичан и русских, Халил-паша.*

## TRAGEDY OF URMIA (1917-1918) – THE DRAMA OF HUMANITY

**IRADA NURIYEVA**
***Doctor of Political sciences, professor Azerbaijan State Oil and Industry University, Azerbaijan***

### SUMMARY

In 1917-1918, with the aim of creating an Armenian state in the territories inhabited by the Turkic-Muslim population and close to the Ottoman Empire, in the western region of South Azerbaijan - Urmia, Salmas, Khoy and other adjacent areas, as a result of genocide carried out by a Christian army organized by Armenian, Aysor and the Russian armed forces remaining in Southern Azerbaijan against the Azerbaijanian Turkic, killed 100 thousand civilians. Halil Pasha, commander of the 6th Army of the Ottoman State, was assigned to prevent the bloody massacres committed by Armenians and Aysors in the Urmia region. After the evacuation of the Russian troops from Iran, the British planned to unite with the Armenians and Aysors in Urmia, and on the other hand, occupy the Rasht region on the Tehran-Qazvin road, enter the port of Anzali on the coast of the Caspian Sea, and then enter Baku by sea, and unite with the Armenians who capture the city and control Baku's oil. After the evacuation of the Russian troops from Iran, the British planned to unite with the Armenians and Aysors in Urmia, and on the other hand, occupy the Rasht region on the Tehran-Qazvin road, enter the port of Anzali on the coast of the Caspian Sea, and then enter Baku by sea and unite with the Armenians who captured the city, then planned to control Baku oil. The united Christian army looted dozens of towns and villages in the western region of South Azerbaijan and subjected men, women, children and the elderly to an unprecedented genocide in the world. In 1914-1918, the loss of life was about 200 thousand people.

**Keywords:** *Southern Azerbaijan, the tragedy of Urmia, genocide, the united army of Armenians, Aysors, British and Russians, Khalil Pasha.*

UOT 327
DOI:10.30546/3006-0346.2024.2.80.110

# POSTKOLONİAL DİSKURS VƏ ORİYENTALİZM (EDVARD SƏİD)

**NƏRGİZ NAĞIYEVA**
*Bakı Dövlət Universiteti, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

*E-mail: nargiz_nagiyeva@mail.ru*

## Giriş

Uzun müddət müstəmləkəçilik, ilk növbədə, onun iqtisadi, siyasi və hərbi ölçüləri nöqteyi-nəzərindən tədqiq edilmişdir - iqtisadi istismar üsulları, müstəmləkə idarəsinin strategiyaları, ərazilərin hərbi zəbt edilməsi praktikası, müstəqillik uğrunda milli hərəkatlar mövzuları ətraflı işlənib hazırlanmışdır. Postkolonial nəzəriyyənin ortaya çıxması ilə mədəni və ideoloji meyarlar ön plana çıxdı.

Postkolonial nəzəriyyənin mərkəzi F.Fanonun, E.Səidin, H.Bhabhanın, R.Quanın, D. Çakrabartinin əsərləridir ki, onların əsasında 1980-ci illərdən başlayaraq humanitar elmlərin ayrıca sahəsi - postkolonial tədqiqatlar formalaşdı. Qərbin "digərləri", yəni Şərq ilə münasibətlərinin bütün tarixi, həm keçmişin, həm də indinin problemləri - protokolonial, kolonial, postkolonial - bu nəzəriyyənin əsas tədqiqat obyekti oldu.

Postkolonial tədqiqat millət və millətçilik, şərqşünaslıq (orientalizm), identiklik (özünü təmsilçilik), mədəni kimlik axtarışı, multikultural şəxsiyyət, keçmişə münasibət problemlərini öyrənməyə başladı.

Başlanğıcda keçmiş Fransa və Britaniya koloniyalarına, xüsusən də Hindistana yönələn postkolonial tədqiqatlar sürətlə digər bölgələrə yayıldı. 1980-ci illərdə Ranajit Guhanın təşəbbüsü ilə Böyük Britaniyada Subaltern Studies Group yaradıldı və artıq 1993-cü ildə Latın Amerikasında "El Grupo de Estudios Subalternos Latinoamericanos" meydana çıxdı. Lakin bu zamana qədər Latın Amerikası regionu artıq müstəmləkə keçmişini və onun nəticələrini dərk etmək üçün öz ənənəsini formalaşdırmışdı.

Postkolonial nəzəriyyə, tarixi və cari kontekstlərdə bilik istehsalı ilə əlaqəsi çərçivəsində müstəmləkə genişlənməsinin davamlılığını gündəmə gətirməyi qarşısına məqsəd qoydu. Edvard Səid "Oriyentalizm" [2] əsərində əsasını qoyduğu nəzəriyyəyə uyğun olaraq XVIII əsrin sonlarında yolunu Şərq ölkələrinə çevirən Avropa müstəmləkəçilərinin müstəmləkə ekspansiyalarının bu genişlənmələri əsaslandıran biliklər ilə müşayiət olunduğunu qeyd etmişdir. Mişel Fukonun bilik-güc əlaqəsi tezisindən çıxış edən Səid, eyni metodologiya ilə müstəmləkəçilik və şərqçilik arasında ortaqlığa diqqət çəkdi. Bu baxımdan, şərqçilik diskursunda əks xüsusiyyətlərlə təchiz edilərək yaranan Qərb və Şərq kateqoriyaları və aralarındakı ikili ziddiyyətlər Şərq kimi eyniləşdirilən coğrafiyada müstəmləkə genişlənməsini zəruri edirdi.

Avropa müstəmləkəçiləri öz müstəmləkəçilik siyasətlərini izah etmək və haqq qazandırmaq üçün əslində "insanlaşdırdılar", "mədəniləşdirdilər", "inkişaf etdirdilər", "müasirləşdirdilər" deyirdilər.

Postkolonial nəzəriyyənin problem sahələrindən biri də oriyentalizmdir. Oriyentalizm müstəmləkəçiliyin öyrənilməsini yenidən nizamlamaq üçün diskurs anlayışından istifadə edir. O, əsas ədəbi və mədəni mətnlərlə birlikdə "Şərq"in (bu gün Yaxın Şərq adlandırılan) formal öyrənilməsinin müstəmləkəçiliyin fəaliyyətinə töhfə verən müəyyən görmə və düşüncə tərzini necə birləşdirdiyini araşdırır.

Oriyentalizm latın dilində "Oriens" və qərb dillərində "Orient" (günəşin doğduğu yer) terminindən əmələ gəlib. Azərbaycan dilində oriyentalizm Şərq elmi və ya şərqi öyrənən elm kimi tərcümə olunur. Şərq haqqında məlumat əldə etmək cəhdi kimi müəyyən edilir. Lakin, əsasən, şərqşünaslıq Şərqin sistemli tədqiqi və öyrənilməsində, əldə edilən məlumatlar işığında tətbiq tapan bir elmdir. Şərqşünaslığın Şərqə marağı və biliyi Qərbi tərənnüm etmək üçün istifadə olunur. Bu baxımdan, Qərb pozitivliyi təmsil etdiyi halda, Şərq mənfiliklər toplusudur. Qərb üstünlüyü təmsil etdiyi halda, Şərq həmişə onun arxasındadır. Onlar bir-birinə zidd olsalar da, Qərb öz varlığını davam etdirmək üçün həmişə Şərqə ehtiyac duymuşdur [4,11].

Unudulmamalıdır ki, Qərb və Şərqin, yəni qitələrin, coğrafi bölgələrin yaranmasının bir tarixi var. Asiya qitəsinin Yaxın və Uzaq Şərq adlandırılmasına kim qərar vermişdir? Şərq hara görə uzaq və ya ortadadır? Bu sualların cavabına baxanda "Qərb" var. Bu, təkcə coğrafi təsnifat deyil, həm də iqtisadiyyat və siyasətdə mərkəzi konstruksiyadır [6,221]. Şərq Qərbin müstəmləkə məkanına çevrilib. İqtisadi, mədəni və dil cəhətdən möhkəmlənmək üçün Şərqin sərvətlərindən istifadə edirdi. Ancaq bu cəmiyyətlərə mövcud sər-

vətlərini unutdurdu və özlərini aşağı göstərməyə müvəffəq oldu. Bunu edərkən elm, ixtira, filoloji strukturlaşma, sosioloji təhlil və sosial psixologiya kimi sahələrdən alət kimi istifadə etmişdir [3, 60]. Buna görə də demək olar ki, şərqşünaslıq bilik əldə etmək, başqa bir dünyanı idarə etmək, dəyişdirmək və yenidən formalaşdırmaq məqsədini ifadə etmək üsuludur.

Tarixi prosesdə şərqşünaslıq anlayışının əsaslarına nəzər saldıqda o, XIV əsrə gedib çıxır. Bunun əsası Qərbin Şərqə olan marağı, qədim zamanlardan mövcud olmuşdur. Bu zaman avropalılar şərqşünaslığı rəsmi konsensusla universal qanuna çevirdilər. Xristian Qərbdə şərqşünaslığın ilk rəsmi mövcudluğu 1312-ci ildə Vyana Şurasının Qərarları kimi göstərilir [2, 79]. Bundan əlavə, XIII əsrin əvvəllərində Çingiz xanla ittifaq qurmaq üçün Karakoma gələn səfirlər zəngin və sirli Asiya hekayələri yaratmış və bu hekayələr Qərbdə çox məşhur olmuşdur [1,14]. Ərəb icmalarının xristianlaşdırılmasında da şərqşünas münasibəti görmək mümkündür. Raymond Luli buna nail olmağın ən yaxşı yolunun ərəb dilini öyrənmək olduğunu müdafiə edirdi [2, 40].

Şərqşünaslıq Qərbin Şərqə yanaşmasını həvəskar deyil, təcrübə sahələrinə müraciət edərək təsvir edir. Şərqşünaslıq fəaliyyətinə Afrika və Asiya sivilizasiyalarının bütün sahələrində (ədəbiyyat, sosiologiya, mədəniyyət, incəsənət, iqtisadiyyat kimi) tədqiqatlar, həmçinin müasir və qədim mətnlərin tərcüməsi və nəşri kimi bir çox fəaliyyət daxildir. Bu baxımdan şərqşünas diskurs Qərbin hegemon güc sərmayəsidir. Başqa sözlə, onu təcəssüm etdirən müstəmləkə/imperialist güc qurğusu kimi şərh olunur [3, 59-63].

Oriyentalizm öz məzmununa görə etnosentrik quruluşu ortaya qoyur. Başqa sözlə desək, o, yalnız öz irqinə diqqət yetirən və başqalarını istisna edən planlaşdırma yanaşmasına əsaslanır. Bu halda Avropa öz irqini ali irq, digərlərini isə müxtəlif rəng çalarları ilə boyanmış insan toplumları kimi görür. Avromərkəzçilik situasiyadan asılı olaraq, Avropa irqindən olmayanlara ümumiyyətlə ya məhəl qoymur, ya da onlar üzərində hökmranlıq edir. Öz mədəniyyətini mərkəzə qoyan və başqalarını kənarda qoyan bu yanaşma, cəmiyyət üzvləri arasında hər sahədə gözə çarpan şəkildə yayılmış bir travmaya çevrilmişdir [1,15]. Avrosentrik yanaşmanın formalaşmasına nəzər saldıqda, əsası Qədim Yunan və Roma dövrlərində qoyulmuş və xristian Avropası, İntibah, Maarifçilik dövrü və Sənaye İnqilabına qədər uzanan bir macəranı izləmək mümkündür [6, 222].

Şərqşünaslıq təkcə bilik əldə etmək deyil, həm də Şərq biliklərini yaratmaq üsuludur. Şərqşünaslığın əldə etdiyi və yaratdığı biliklər sayəsində Qərb istehsalatda istifadə olunan bir çox xammala, xüsusilə neft və təbii qaza olan tələbatını ödəmişdir. Daha da əhəmiyyətlisi, qızıl və gümüş kimi digər materialları asan və ucuz yollarla təmin etdi. Beləliklə, sənayenin xammal problemini və inkişafın qarşısındakı maneələri aradan qaldırdı [1, 382].

Beləliklə, Oriyentalizmin müstəmləkəçiliklə bağlı yeni bir araşdırma növü yaratdığını söyləmək olar. Səid iddia edir ki, Avropa ədəbi mətnlərində, səyahətnamələrdə və digər yazılarda “Şərq”in təsviri Avropa və onun “digərləri” arasında ikilik yaratmağa kömək etdi, bu ikilik həm Avropa mədəniyyətinin yaradılması və Avropa hegemonluğunun başqa torpaqlar üzərində genişlənməsi, həm də Avropa mədəniyyətinin qorunmasında mərkəz idi. Səidin layihəsi qeyri-avropalılar haqqında biliyin necə bir şey olduğunu göstərməkdir. Onlar üzərində hakimiyyəti saxlamaqla “bilik” statusu aydınlaşdırılır və ideoloji ilə obyektiv arasındakı sərhədlər bulanıqlaşır. Səidin fikrincə, avropalılar “yalan danışırdılar” və ya ayrı-ayrılıqda qeyri-Qərb xalqlarını və ya mədəniyyətlərini bəyənmədilər.

Ötən əsrlər ərzində Şərqdə baş verən heç bir hadisə Qərbin mədəni və siyasi qüvvələrinin müdaxiləsi olmadan baş verməyib. Qərb Şərqi öyrənir, nəzarət edir və istiqamətləndirir. Şərq demək olar ki, tamamilə Avropa ixtirası idi və qədim zamanlardan bəri romantika, ekzotik varlıqlar, heyranedici xatirələr və mənzərələr və heyrətamiz təcrübələrin sığınacağı olmuşdur [2, 11]. Avropalılar üçün əsas Şərqin Avropa təmsilçisi idi, Şərq təkcə Avropaya bitişik deyil: bura Avropanın ən böyük, ən zəngin və ən qədim koloniyalarının yerləşdiyi yerdir, onun sivilizasiyalarının və dillərinin mənbəyidir, onun mədəni rəqib və digərinin ən fərqli və daimi obrazlarından biridir [2, 11].

Avropa mədəniyyətinin əsas elementi bu mədəniyyətin həm Avropada, həm də ondan kənarda hegemonluğunu təmin edən şeydir: Avropa kimliyi ideyası bütün qeyri-Avropa xalqları və mədəniyyətlərindən üstündür.

Oriyentalizm (şərqşünaslıq) müstəqil əhəmiyyət kəsb edən və XVIII-XIX əsrlərdə elmdə yer alan Qərb intizamıdır. O, Şərqi coğrafi mənada deyil, mədəni mənada müəyyən edir.

Avropa mədəniyyəti ya Şərqdən öz sivilizasiya və dil nailiyyətlərini alaraq, ya da həm “mədə-

ni rəqib" kimi, həm də "başqasının" ən dərin və ən sabit obrazı kimi çıxış edən Şərqə qarşı çıxaraq güc və özünəməxsusluq qazandı. Şərqlə Qərbin bu qarşıdurması oriyentalizmin formalaşmasına ən böyük təsir göstərmişdir. Əvvəla, oriyentalizm avropalıların Şərqə fəal münasibətini, onların Şərq üzərində qüdrətinin əksini təcəssüm etdirir. Oriyentalizmin mənasını belə formalaşdırmaq olar: Şərq sivilizasiyalarının böyük nailiyyətləri çox geridə qalıb və indi onların adından yalnız biz, avropalılar danışa və nümunə götürə bilərik [2, 14].

Qeyri-Avropa ölkələrinin öyrənilməsi Avropanın özünün formalaşmasında mühüm rol oynamışdır. Şərqlə davamlı müqayisələr və təzadlar vasitəsilə Avropa ideyası onu xüsusi bir dünya - unikal tarixi təcrübəyə malik sivilizasiya, özünəməxsus norma və dəyərlər sistemi və mütərəqqi model kimi müəyyən edən bir konsepsiya kimi, dünya nizamı, "avropalıları" bütün digər "başqalarından" fərqləndirən bir anlayış kimi möhkəmləndi.

Avropa bir standarta çevrildi və dünyanın qalan hissəsini mühakimə etməli oldu. Avropaya münasibətdə istər-istəməz "geri qalmış" Şərqin taleyi əvvəlcədən müəyyən edilmişdi - avrokapitalist tipinin modernləşdirilməsi və Avropa kursu ilə əhəmiyyətli funksiyası, Qərbə xoş gələn formada özləri haqqında "həqiqəti" qeyri-Qərb mədəniyyətlərinə açmaq idi.

Qeyd etmək lazımdır ki, E.Səidin "Oriyentalizm" və digər əsərlərinin meydana çıxması tədqiqat yanaşmalarının köklü şəkildə yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur. Tədqiqat kursu sosial-iqtisadi və siyasi tarixdən mədəniyyətşünaslığa keçdi. Əsas məqsəd onlarda və onların təqdim etdiyi biliklərin Avropa mədəniyyətinin təkəbbürünün və Avropanın hökmranlığının mühüm tərkib hissəsi olduğunu göstərməkdir.

Bununla belə, Qərb tarixşünaslığında müstəmləkəçiliyin müasir mərhələsini müəyyən edən əsas şey güc və bilik arasındakı əlaqə problemidir. Belə qənaətə gəlinir ki, maarifçilik layihəsi, başqa şeylərlə yanaşı, Avropanı müstəmləkə ekspansiyası yolu ilə dünyanın bütün digər mədəniyyətləri və cəmiyyətləri üzərində hökmranlıq etmək cəhdi idi.

"Oriyentalizm Şərqi formalaşdıran və sonra Avropada təmsil etdiyi birləşmə və daxiletmə elmi olduğuna görə, oriyentalizm empirik siyasət aləmində müstəmləkə toplanması və Şərqin Avropa tərəfindən mənimsənilməsi olan elmi hərəkat idi. Buna görə də Şərq Avropanın həmsöhbəti deyil, onun səssiz "başqası" idi [2, 19].

Edvard Səid müxtəlif bilik sahələrində mütəxəssis olmağı bacaran ərəbəsilli amerikalı alimdir. Onun yazdığı "Oriyentalizm" XX əsrin sonlarının mədəni həyatında mühüm hadisəyə çevrilmiş və indi də öz aktuallığını itirmir, müxtəlif elmi dairələrdə mübahisələrə səbəb olur. Səid kitabda oriyentalizmi müəyyənləşdirmiş, ona mənfi məna verən bir sıra xüsusiyyətlərə də diqqət çəkmişdir.

Oriyentalizmdə Edvard Səid Qərb şüurunda Şərq baxışının necə formalaşdığını və bu baxışdan siyasi məqsədlər üçün necə istifadə edildiyini izləməyə çalışır. O, imperiya mərkəzinin müstəmləkə periferiyası üzərində üstünlüyü ideyasına əsaslanan müstəmləkəçilik konsepsiyasını ifşa etməyə, həmçinin bu cür münasibətlərin müasir dövrdə necə təkrarlandığını göstərməyə çalışır.

"Oriyentalizm" sözünün arxasındakı düşüncə və fəaliyyətin əhatə dairəsini daha çox ingilislərin və Fransanın Yaxın Şərq, İslam və ərəblərlə bağlı təcrübələrinə əsaslanaraq "oriyentalizmi mənalı mövzu edən iqtisadiyyatı təsvir etmək və müzakirə etmək üçün təqdim etməyə çalışdım"[2,13].

Səidin fikrincə, oriyentalizm Qərbə Şərq üçün aparıcı, nəzarətedici, təmsilçi rol təyin etməyi nəzərdə tutan düşüncə tərzidir. Onun fikrincə, Şərq özlüyündə mövcud deyil, Qərbin elmi və siyasi cəmiyyətində yaradılmış təmsilçilikdir.

"Onlar özlərini təmsil edə bilməzlər, başqaları tərəfindən təmsil olunmalıdırlar." – Karl Marksın Şərq xalqları haqqında Səidin öz yaradıcılığına epiqraf kimi götürdüyü bu sözləri oriyentalizmin mahiyyətini ifadə edir. Oriyentalistlər vasitəçilik funksiyasını öz üzərinə götürdülər. Onların Şərqi əsl Şərq deyil, yalnız onun Qərb təmsilçisidir. Nəyə görə Qərbə Şərqi təmsil etmək və onun öyrənilməsi üçün bütöv bir ənənə yaratmaq lazım idi?

İlk şərq məktəbi 1250-ci ildə Toledoda xristian təbliğçiləri tərəfindən yaradılmışdır. Orada ərəb, xristian və yəhudi ilahiyyatı tədris olunurdu. Bu təhsil ocağının məqsədi müsəlmanlar arasında işləmək üçün xristian missionerləri yetişdirmək idi. Gördüyümüz kimi, hələ o zaman Qərbin (xristianlığın) Şərqi "yenidən tərbiyə etmək" və onun üzərində nəzarəti ələ keçirmək məqsədi ilə dərk etmək cəhdləri olub, bunun üçün xüsusi tədqiqat məktəbləri yaradılmağa başlanıb. Səid öz əsərində Şərq və Şərq xalqı baxışının müasir Qərb icması arasında formalaşma

yolunu izləyir. Səidin fikrincə, müstəmləkəçilik tarixini nəzərə alsaq, oriyentalizm adlanan şeyi məhz İngiltərə və Fransa yaradıb. "XIX əsrin son onilliklərindən başlayaraq və ən azı sonrakı əsr yarım ərzində İngiltərə və Fransa bir elm olaraq oriyentalizmdə aparıcı rol oynadılar. İkinci Dünya müharibəsindən sonrakı dövrdə ABŞ-ın postkolonial tədqiqatları da ənənəvi oriyentalizmin bütün xüsusiyyətlərini və məhdudiyyətlərini miras qoyaraq bu sahədə mühüm rol oynamağa başladı. [2, 19] E.Səid öz əsərində hakim Qərblə tabe Şərq arasında qarşıdurmanın necə və hansı məqsədlə yarandığını izah edir. Onun fikrincə, oriyentalist diskurs Qərblə Şərq arasındakı dixotomiyaya (Dixotomiya bir-birindən tamamilə əks və ya köklü şəkildə fərqlənən iki şeyin üst-üstə düşməsidir) əsaslanır, burada Qərb sivil, rasional, sülh və nizama can atan, Şərq isə qeyri-mütəşəkkil, buna öyrəşmiş və tabeçiliyə ehtiyacı olan kimi təqdim olunur. "Başqası" ideyası buradan yarandı - anlaşılmaz, naməlum, yad.

"Başqası"nın bu dar qavrayışı avropalı müstəmləkəçilərlə qeyri-Avropa xalqları arasında müəyyən növ sosial-iqtisadi münasibətləri formalaşdırdı. Rasional, dominant Qərb və irrasional, tabe Şərq obrazı Qərb dünyasının özünü üstün hiss etməsinə imkan verdi ki, bu da onun qeyri-Qərb mədəniyyətləri üzərində hökmranlığının əsasına çevrildi. Müasir dünyada belə münasibət hələ də hiss olunur - xüsusən də müharibədən sonrakı dövrdə ABŞ və ərəb ölkələrində olduğu kimi.

Oriyentalizm Qərb imperializmi ilə onun müttəfiq diskursunun əlaqəsi haqqında iki arqument ehtiva edir. Birincisi, fenomenin bir növ xalq anlayışı kimi ortaya çıxan, oriyentalizmi müstəmləkə idarəçiliyinin rasionallaşdırılması kimi təsvir edir. Səid bu şərqşünaslığı XVIII əsrə - İkinci Britaniya İmperiyası adlandırılan imperiyanın formalaşma dövrünə, daha sonra ABŞ-nin dünya hegemonu kimi Britaniyanı sıxışdırdığı Soyuq müharibə dövrünə aid edir. Məhz bu dövrdə oriyentalizm Şərqin dərk edilməsini təsvir edən və sistemləşdirən bir bilik sistemi kimi çiçəkləndi, həm də bunu Qərbin hökmranlığına haqq qazandıran bir şəkildə həyata keçirdi.

Hər hansı bir hökmranlıq sistemi özünün hökmranlıq mövqeyini əsaslandırmaq və təbiləşdirmək üçün ideoloji diskurs yaratdığı kimi, müstəmləkəçilik də öz qanuni diskursunu yaratmışdır. Burada əsas məqam ondan ibarətdir ki, səbəb-nəticə oxu imperiya hökmranlığından onun yaratdığı diskursa doğru uzanır - sadə dillə desək, müstəmləkəçilik şərqşünaslığı doğurdu.

Səid göstərdi ki, müstəmləkəçi dövlətlərin hazırladığı sosial və mədəni tədqiqatların çoxu əslində onların şərq ölkələri üzərində hökmranlığına haqq qazandırmağa yönəlib.

Amma Səid də bu səbəb-nəticə oxunu döndərən və arqumenti tamamilə yeni bir istiqamətə yönəldən bütün möhtəşəm əsərinin üzərindən keçərək başqa bir tezis irəli sürür. Başqa sözlə, oriyentalizm müasir dövrdən çox-çox əvvəl mövcud olub və Şərqi təsvir etməklə Qərbin müstəmləkəçilik layihəsinə başlaması üçün mədəni şərait yaradıb. Bu təsvirin kökündə tanış və dinamik Qərbdən fərqli olaraq, Şərqi sirli və statik hesab edərək təsnif etmək, sxematikləşdirmək və ekzotikləşdirmək istəyi dayanırdı. Beləliklə, Qərb əxlaqi və elmi tərəqqinin mərkəzi, ekzotik və dəyişməz Şərq isə öyrənilmə və dərk olunmalı, lakin həmişə yad, həmişə uzaq olan bir obyekt elan edildi.

Hər hansı bir hökmranlıq sistemi öz hökmranlıq mövqeyini əsaslandırmaq və təbiləşdirmək üçün ideoloji diskurs yaratdığı kimi, müstəmləkəçilik də öz qanuni diskursunu yaratmışdır.

Səid gizli və aşkar oriyentalizm arasında fərq qoyur. Oriyentalizmin gizli komponentləri onun mahiyyəti, Homerin dövründən bəri mövcud olan və onu diskurs kimi müəyyən edən əsas əxlaqi və konseptual memarlığıdır. Bu ayrı-seçkilik Səidə şərqşünaslığın bir diskurs kimi məkan və zaman ərzində sabit qalmadığı aşkar faktını nəzərə almağa imkan verir. O, asanlıqla etiraf edir ki, Qərbin Şərq haqqında təsəvvürləri əsrlər boyu forma və məzmunca saysız-hesabsız dəyişikliklərə məruz qalıb. Bununla belə, "Şərq biliklərində hər hansı dəyişikliklər baş verirsə, onlar demək olar ki, yalnız açıq oriyentalizmdə bir-birindən tamamilə əks və ya köklü şəkildə fərqlənən iki şeyin üst-üstə düşməsi olur". Başqa sözlə, yalnız şərqşünaslığın əsas prinsiplərinin ifadə tərzi dəyişir, lakin onların mahiyyəti əsrlər boyu az-çox dəyişməz qalır. Səid davam edir: "Gizli oriyentalizmin vahidliyi, sabitliyi zaman ərzində az-çox sabit qalır" [2, 36].

Söhbət təkcə gizli şərqşünaslığın Qərb mədəniyyətinin məsamələrinə nüfuz etməsi deyil. O, belə möhkəm kök saldıqdan sonra, sadəcə qərəzdən kənara çıxır və praktiki oriyentasiyaya çevrilir - reallığı dünyanın necə olması barədə öz ideyasına uyğunlaşdırmaq istəyi. Səidin fikrincə, bu praktiki mövqe zamanla bütün dəyişikliklərə baxmayaraq, antik dövrdən müasir dövrə qədər Şərqi təfəkkürün müəyyənedici

xüsusiyyəti idi. Bu, Şərqlə Qərb arasında münasibətlərin taleyinə çox böyük təsir göstərdi. Səid belə bir sual qoyur: əgər dünya artıq oriyentalizmin bizə tövsiyə etdiyi şəkildə analitik şəkildə təsvir edilibsə, "bunun nəticələrindən insani şəkildə sağ qalmaq mümkündürmü? İnsanları "biz" (Qərb) və "onlar" (Şərq) olaraq ayırmaqla ifadə olunan düşmənçilikdən qaçmağın bir yolu varmı?". Bu ritorik sualdır, çünki Səid üçün cavab açıq-aydın xeyrdir. Gizli oriyentalizmin yaratdığı düşmənçilik Qərb mədəniyyətinin bir sütunu kimi nəsildən-nəslə ötürülür, onun üçün Şərq həmişə bir pillə aşağıdır. Mədəni oriyentasiya kimi daxililəşdikcə və möhkəmləndikcə, yerli əhalini təkmilləşdirmək və sivilizasiya nərdivanına qalxmağa kömək etmək istəyi qarşısıalınmaz olur. O, tədricən Şərq haqqında bilik əldə etməkdən onun üzərində hakimiyyət qurmaq üçün daha iddialı layihəyə keçmək üçün təkan yaradır. Bu prosesin Səidin özünün verdiyi təsviri sitat gətirmək yerinə düşər: "Nəsildən-nəslə ötürülən o "gizli oriyentalizm" həndəsə və ya fizika kimi reallığın bir hissəsi haqqında bir dil kimi mədəniyyətin bir hissəsi idi". Oriyentalizm Şərqə açıqlığa və qəbulediciliyə deyil, onun Şərq üzərində hakimiyyətə dair daxili konstitusiya iradəsinin ardıcıl surətdə təkrar istehsalına arxalanırdı. [2, 53]

Gizli şərqşünaslıq "hakimiyyət iradəsi" kimi təqdim olunurdu – onun praktik istiqaməti belə idi. Faktların obsesif toplanması, Səidin fikrincə, "oriyentalizmi insanların və ərazilərin sistematik toplanmasına ölümcül dərəcədə meyilli etdi".

Səidin bu iddia ilə nə qədər irəli getmək niyyətində olduğu aydın deyil - onun fikrincə, oriyentalizm müstəmləkəçiliyin yüksəlişi üçün sadəcə bir ilkin şərtdir, yoxsa orientalizm daha əhəmiyyətli, hərəkətverici rol oynayır. Lakin aydındır ki, bu arqumentə görə Səid şərqşünaslığı sadəcə olaraq Avropa müstəmləkəçiliyinin nəticəsi kimi deyil, onun yüksəlişində müəyyən mənada məsuliyyət daşıyır.

Oriyentalizmin əsas funksiyası müstəmləkə hakimiyyətinə haqq qazandırmaq, yəni onun səbəbi deyil, nəticəsi olmaqdır.

## Nəticə

E. Səid öz kitabında qərb hegemonluğuna etiraz edən və qərblilik anlayışı ilə dekonstruksiya edilmiş şərqiyyətçilik konsepsiyasını inkişaf etdirir. Eləcə də, Qərb Tədqiqatları Qeyri-Qərb Tədqiqatları tərəfindən dekonstruksiya edilir, belə ki, qeyri-Qərb Tədqiqatları avrosentrizmə və ya qərb üstünlüyünə meydan oxumaq üçün yeni güc kimi ortaya çıxdı. Bununla belə, bir çox tənqidçilər Səidi qərb diskursunun şərqşünaslığına qarşı çıxmaq üçün "qərbpərəstlik" yaratmaqda ittiham edərək, onun "fərq" yaratmaqdansa, Şərqlə Qərb arasında əlaqə yaratmaqla daha az məşğul olduğunu iddia edirdilər.

**Açar sözlər:** *postkolonializm, müstəmləkə, Qərb, Şərq, Avropa, Edvard Səid, oriyentalizm.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Çaycı A. Oryantalizm, Oksidentalizm ve Sanat. (2. Baskı). İstanbul: İnsan Yayınları. 2015, ss. 439*

*2. Edward S.W. Şarkiyatçılık: Batı'nın Şark Anlayışları, Çev. Berna Yıldırım, İstanbul, Metis, 2016, ss. 409*

*3. Güner S. Oryantalizmin Ortaçağ Avrupa'sındaki Düşünsel Kökleri: Batının "Ötekileştirdiği" Müslüman Doğu. Edebiyat Fakültesi Dergisi, 25( 1). 2008. s. 57-73*

*4. Yardım M. Doğu, Batı ve Ötekilik. Konya: Çizgi Kitabevi Yayınları. 2018, ss.174*

*5. Loomba A. Colonialism/Postcolonialism. Routledge, 2015, p.104.*

*6. Lewis B. Oryantalizm Sorunu./ Yıldız, A.(Editör). Oryantalizm Tartışma Metinleri. (İkinci Baskı). Ankara: Doğu-Batı Yayınları, 2014, s.217-245*

**НАРГИЗ НАГИЕВА**
***Доцент Бакинского Государственного Университета,***
***доктор философии по политическим наукам***

## Постколониальный дискурс и ориентализм (Эдвард Саид)

Идея стать доминирующей державой над другими государствами, чтобы сохранить свое присутствие и власть в прошлом, все еще актуальна для Запада. Когда они смотрят на свой нынешний опыт со странами, которыми они управляли как колониями в прошлом, они делают заявления, например, о том, что они проявляют разумные и логичные инициативы, участвуют в торговле и ведут себя в соответствии с человеческими ценностями. Однако, если рассмотреть итоги событий, создается впечатление, что они так и не отказались от колониальной логики.

Долгое время колониализм изучался прежде всего с точки зрения его экономического, полити-

ческого и военного измерения - подробно разрабатывались методы экономической эксплуатации, стратегии колониального управления, практика военной оккупации территорий, национальные движения за независимость. С появлением постколониальной теории на первый план вышли культурные и идеологические аспекты.

Одной из проблемных областей постколониальной теории является ориентализм. Ориентализм использует концепцию дискурса, чтобы по-новому взглянуть на изучение колониализма.

**Ключевые слова:** *постколониализм, колония, Запад, Восток, Эдвард Саид, ориентализм*

**NARGIZ NAGIYEVA**
***Associate professor of Baku State University, Doctor of Philosophy in Political Science***

**Postcolonial Discourse and Orientalism (Edward Said)**

The idea of becoming a dominant power over other states in order to maintain its presence and power in the past is still relevant to the West. When they look at their current experiences with countries that they ruled as colonies in the past, they make statements such as taking reasonable and logical initiatives, engaging in trade, and behaving in accordance with human values. However, if we consider the outcome of events, it seems that they never abandoned the colonial logic.

For a long time, colonialism was studied first of all from the point of view of its economic, political and military dimensions - methods of economic exploitation, strategies of colonial management, practice of military occupation of territories, national movements for independence were developed in detail. With the advent of postcolonial theory, cultural and ideological aspects came to the fore.

Orientalism is one of the problematic areas of postcolonial theory. Orientalism uses the concept of discourse to look at the study of colonialism in a new way.

**Key words:** *postcolonialism, colony, West, East, Edward Said, Orientalism*

UOT 327: 140.8
UOT 327: 930.22 UOT 327
DOI:10.30546/3006-0346.2024.2.80.185

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MİLLİ TƏHLÜKƏSİZLİK AMİLİ KİMİ

**NURƏDDİN MEHDİYEV**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dissertantı*

*E-mail: nuraddin_mehdiyev@yahoo.com*

## Giriş

İnformasiya təhlükəsizliyinin milli təhlükəsizlik amili kimi əhəmiyyətini bir-birinə bağlı olan müasir dünyada qiymətləndirməmək olmaz. Bu kritik əlaqə müxtəlif ölçüləri, o cümlədən kibertəhlükəsizlik, iqtisadi təsirlər, diplomatik nəticələr və hərbi əməliyyatları əhatə edir. İnformasiya təhlükəsizliyi təkcə texniki məsələ deyil, həm də texnoloji yenilikləri, diplomatik təşəbbüsləri və beynəlxalq əməkdaşlığı əhatə edən hərtərəfli yanaşmalar tələb edən milli təhlükəsizlik strategiyasının əsas aspektidir. İnformasiya əsrinin mürəkkəbliklərini idarə edərkən dövlətlər qlobal səhnədə suverenliklərini, sabitliklərini və strateji maraqlarını qorumaq üçün rəqəmsal aktivlərinin qorunmasına üstünlük verməlidirlər.

Qlobal təhdidlərin inkişaf edən mənzərəsini və rəqəmsal texnologiyalara artan etibarı nəzərə alaraq, informasiya təhlükəsizliyinin milli təhlükəsizlik amili kimi həlli heç vaxt bu qədər aktual olmayıb. Kibertəhlükələrin tezliyi, mürəkkəbliyi və şiddəti artmışdır. Milli dövlətlər, kriminal təşkilatlar və hakerlər rəqəmsal infrastrukturun zəifliklərindən istifadə etmək üçün qabaqcıl üsullardan istifadə edirlər ki, bu da milli təhlükəsizlik üçün daimi risk yaradır.

Süni intellekt, Əşyaların İnterneti (IoT) və 5G şəbəkələri kimi inkişaf etməkdə olan texnologiyaların sürətlə mənimsənilməsi yeni hücum vektorlarını təqdim edir və kiber təhdidlərin potensial təsirini gücləndirir. Bu texnologiyaların təhlükəsizliyi zərərli aktorların öz zəifliklərindən istifadə etməsinin qarşısını almaq üçün çox vacibdir [9, 28].

Qloballaşan ticarət və bir-biri ilə əlaqəli maliyyə sistemləri dövründə iqtisadi sabitlik təhlükəsiz məlumat axınından asılıdır. Maliyyə institutlarına, sənaye sektorlarına və ya kritik infrastruktura kiberhücumlar nəinki ayrı-ayrı ölkələri, həm də bütün beynəlxalq iqtisadi nizamı sabitsizləşdirərək ardıcıl təsirlərə malik ola bilər.

Diplomatik münasibətlər və beynəlxalq etimad kiber insidentlər nəticəsində ciddi şəkildə pozula bilər. Diplomatik kommunikasiyaların pozulması və ya kiber-casusluq diplomatik böhranlara səbəb ola, xalqlar arasında etimadı sarsıda və geosiyasi dinamikaya təsir edə bilər.

Müasir hərbi əməliyyatlar böyük ölçüdə informasiya texnologiyalarına və bir-biri ilə əlaqəli şəbəkələrə əsaslanır. Komanda və idarəetmə sistemlərinin, kəşfiyyat vasitələrinin və ya kritik infrastrukturun güzəşti ölkənin müdafiə qabiliyyətini və hazırlığını əhəmiyyətli dərəcədə sarsıda bilər.

Dezinformasiya kampaniyaları və sosial media manipulyasiyası da daxil olmaqla informasiya müharibəsindən istifadə xalqların demokratik prosesləri üçün birbaşa təhlükə yaradır. İctimai rəyin manipulyasiya edilməsi həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə dərin siyasi nəticələrə səbəb ola bilər.

Enerji şəbəkələri, nəqliyyat sistemləri və səhiyyə müəssisələri kimi əsas xidmətlər getdikcə bir-biri ilə əlaqəli rəqəmsal sistemlərdən asılıdır. Kritik infrastruktura kiberhücum vətəndaşların rifahına təsir edən və milli təhlükəsizliyi təhdid edən geniş miqyasda pozulmalara səbəb ola bilər.

Kibertəhlükəsizliklə bağlı aydın beynəlxalq normaların və sazişlərin olmaması problemi daha da gücləndirir. Koordinasiyalı və əməkdaşlıq yanaşması transsərhəd kibertəhlükələrlə effektiv mübarizə aparmaq və kibeməkanda məsuliyyətli dövlət davranışı üçün çərçivə yaratmaq üçün vacibdir [4, 77-78].

Bu amillərin fonunda informasiya təhlükəsizliyinin prioritetləşdirilməsinin aktuallığı göz qabağındadır. Millətlər güclü kibertəhlükəsizlik tədbirlərinə sərmayə qoymalı, beynəlxalq əməkdaşlığı inkişaf etdirməli və rəqəmsal dövrlə bağlı çoxşaxəli riskləri azaltmaq üçün hərtərəfli strategiyalar hazırlamalıdır. Bu çağırışların dərhal həll edilməməsi getdikcə bir-birinə bağlı olan dünyada xalqların sabitliyi, rifahı və təhlükəsizliyi üçün geniş nəticələrə səbəb ola bilər.

## 1. İnformasiya təhlükəsizliyinin milli təhlükəsizliyə təsirləri

Sürətlə inkişaf edən beynəlxalq münasibətlər mənzərəsində informasiya təhlükəsizliyinin rolu milli təhlükəsizliyin hərtərəfli çərçivəsində dayaq

nöqtəsi kimi meydana çıxmışdır. Rəqəmsal texnologiyalar tərəfindən dəstəklənən qarşılıqlı əlaqə informasiyanın mühafizəsinin sadəcə texnoloji problem deyil, həm də bir millətin dayanıqlığının və sabitliyinin kritik müəyyənedicisi olduğu bir dövrün başlanğıcını qoydu.

İnformasiya təhlükəsizliyi məlumatların, rabitə kanallarının və rəqəmsal infrastrukturun icazəsiz girişdən, manipulyasiyadan və ya pozulmalardan qorunmasını əhatə edir. Bu domenin əhəmiyyəti diplomatik, iqtisadi və hərbi işlərin mərkəzinə nüfuz edən kibertəhlükəsizlik sahəsindən çox-çox kənara çıxır. Ölkələr kiber təhdidlər, iqtisadi casusluq və informasiya müharibəsi ilə mübarizə apardıqca, informasiya təhlükəsizliyi ilə milli təhlükəsizlik arasındakı əlaqə getdikcə daha aydın görünür [5, 44].

Müasir geosiyasi mənzərə milli dövlətlərin, qeyri-dövlət aktorlarının və texnoloji irəliləyişlərin mürəkkəb qarşılıqlı təsiri ilə xarakterizə olunur. Milli dövlətlər kəşfiyyat məlumatları toplamaq, ictimai rəyə təsir etmək və düşmənlərin həyati funksiyalarını potensial olaraq pozmaq üçün mürəkkəb üsullardan istifadə edərək kiber əməliyyatlarla məşğul olurlar. Kibercinayətkarlardan tutmuş hakerlərə qədər qeyri-dövlət aktyorları informasiya təhlükəsizliyi mənzərəsinin incəliklərini daha da gücləndirirlər.

İqtisadi təsirlər informasiya təhlükəsizliyi və milli təhlükəsizlik arasında simbiotik əlaqənin digər mühüm tərəfini təşkil edir. Sənaye casusluğu, əqli mülkiyyətin oğurlanması və maliyyə sistemlərinin manipulyasiyası ölkənin iqtisadi rifahına ciddi təsir göstərə bilər. Qlobal iqtisadiyyat daha rəqəmsallaşdıqca, maliyyə institutlarının və kritik infrastrukturun kibertəhlükələrə qarşı həssaslığı möhkəm informasiya təhlükəsizliyi tədbirlərinin vacibliyini vurğulayır [4, 82-83].

Ənənəvi olaraq qapalı qapılar arxasında aparılan diplomatiya indi diplomatik kabellərin və kiber pozuntulara həssas olan həssas kommunikasiyaların mübadiləsi ilə rəqəmsal aləmdən keçir. Həm ənənəvi, həm də kiber-aktiv casusluq dövlət sirrinin, hərbi strategiyaların və kəşfiyyat əməliyyatlarının məxfiliyinə daim təhlükə yaradır və bununla da informasiya təhlükəsizliyinə kompleks yanaşmanı zəruri edir.

Hərbi əməliyyatlar və kritik infrastrukturun qorunmasından tutmuş siyasi təsir və dezinformasiyanın incəliklərinə qədər, bu elementlərin bir-birinə qarışmış təbiəti informasiya əsrinin çağırışlarını həll etmək üçün, dövlətlərin istifadə etdiyi strategiyaları formalaşdırır. Bundan əlavə, beynəlxalq əməkdaşlığın imperativi və kibertəhlükəsizlik problemlərinin həlli üçün diplomatik çərçivələrin inkişafı araşdırılacaq və təhlükəsiz qlobal mühitin yaradılması üçün tələb olunan birgə səylər vurğulanacaq.

İnformasiya təhlükəsizliyi milli təhlükəsizliyin mühüm amili kimi müasir dünyada ölkənin ən qiymətli sərvətlərindən birinə çevrilib. Bu gün informasiya texnologiyaları ölkələrin iqtisadi və siyasi inkişafında, eləcə də milli təhlükəsizliyin təmin edilməsində əsas rol oynayır. Lakin rəqəmsal texnologiyalardan istifadənin artması ilə kiberhücumlar, haker hücumları, məxfi məlumatların oğurlanması, kompüter sistemlərinə haker hücumu və s. riskləri artır [3].

İnformasiya təhlükəsizliyi beynəlxalq siyasi münasibətlər sferasında mühüm amildir və milli təhlükəsizlik anlayışı ilə sıx bağlıdır. Millətlərin texnologiya və informasiya şəbəkələri vasitəsilə bir-birinə bağlandığı müasir dövrdə həssas məlumatların və kommunikasiyaların mühafizəsi əsas məsələyə çevrilib. Beynəlxalq münasibətlər kontekstində informasiya təhlükəsizliyinin milli təhlükəsizlik amili kimi nəzərə alınmalı olan bir neçə əsas aspektini qeyd edirik:

1. Kiber təhdidlər və hücumlar: Hökumətlər kəşfiyyat məlumatları toplamaq, düşmənləri dağıtmaq və ya zərər vurmaq üçün, kiber əməliyyatlarda iştirak edirlər. Nümunələrə dövlət tərəfindən dəstəklənən hakerlik və kibercasusluq daxildir. Kibercinayətkarlar və hakerlər ölkənin informasiya infrastrukturu üçün əhəmiyyətli təhlükələr yarada bilər. Hücumlar hökumət sistemlərini, kritik infrastrukturu və ya özəl müəssisələri hədəfə ala bilər.

2. İqtisadi təsirlər: Millətlər rəqabət üstünlüyü əldə etmək üçün bir-birlərinin sənayelərini hədəfə ala bilərlər. Əqli mülkiyyətin, kommersiya sirlərinin və həssas iqtisadi məlumatların oğurlanması ağır iqtisadi nəticələrə səbəb ola bilər. Maliyyə institutlarına hücumlar və ya maliyyə məlumatlarının manipulyasiyası, iqtisadiyyatları sabitsizləşdirə və qlobal maliyyə sisteminin bütövlüyünü poza bilər.

3. Diplomatiya və dövlət sirləri: Diplomatik əlaqənin pozulması beynəlxalq münasibətləri gərginləşdirə bilər. Məxfi məlumatların icazəsiz açıqlanması, diplomatik böhranlara səbəb ola və bir ölkənin danışıqlar mövqeyinə təsir edə bilər. İnformasiya təhlükəsizliyi dövlət sirlərini, hərbi strategiyaları və kəşfiyyat əməliyyatlarını xarici casusluqdan qorumaq üçün çox vacibdir.

4. Hərbi əməliyyatlar və infrastruktur: Müasir hərbi əməliyyatlar böyük ölçüdə informasiya texnologiyalarına əsaslanır. Komanda və idarəetmə sistemlərinin təhlükəsizliyinin təmin edilməsi ölkənin müdafiə qabiliyyətinin effektivliyini qorumaq üçün vacibdir. Enerji, rabitə şəbəkələri və nəqliyyat sistemləri kimi kritik infrastrukturun qorunması, milli təhlükəsizlik üçün həyati əhəmiyyət kəsb edir. Bu sistemlərə edilən kiberhücumlar ölkənin sabitliyinə ardıcıl təsir göstərə bilər.

5. Siyasi təsir və dezinformasiya: Dövlətlər ictimai rəyi manipulyasiya etmək, dezinformasiya yaymaq və digər dövlətlərdə siyasi proseslərə təsir etmək üçün informasiya müharibəsi aparırlar.

Təbliğat yaymaq, nifaq salmaq və ictimai əhvali-ruhiyyəni manipulyasiya etmək, sosial media platformalarından istifadə bir millətin sabitliyi və beynəlxalq əlaqələri üçün geniş nəticələrə səbəb ola bilər.

6. Beynəlxalq əməkdaşlıq və sazişlər: Millətlər kibertəhlükəsizlik problemlərini həll etmək üçün beynəlxalq müqavilələr və çərçivələr üzərində əməkdaşlıq edirlər. Transsərhəd kibertəhlükələrin yumşaldılması və kiberməkanda məsuliyyətli davranış normalarının yaradılması üçün əməkdaşlıq vacibdir [6, 33].

**2. İnformasiya təhlükəsizliyinin təminatı**

İnformasiya təhlükəsizliyinin pozulması dövlət sirrinin sızması, mühüm infrastrukturun pozulması, iqtisadi itkilər, habelə vətəndaşların fiziki təhlükəsizliyinə təhdid kimi ciddi nəticələrə səbəb ola bilər. İnformasiya təhlükəsizliyi milli təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən məlumatların məxfiliyini, bütövlüyünü və əlçatanlığını qorumağa yönəlmiş tədbirləri əhatə edir. Bura dövlət sirlərinin, kritik infrastrukturun, vətəndaşların şəxsi məlumatlarının və digər həssas məlumatların qorunması daxil ola bilər. Ona görə də informasiya təhlükəsizliyinin təmin edilməsi milli maraqların qorunmasına yönəlmiş dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Bura informasiya texnologiyalarından istifadəni tənzimləyən qanunvericiliyin yaradılması, informasiya təhlükəsizliyi sisteminin inkişafı, informasiya təhlükəsizliyi üzrə mütəxəssislərin hazırlanması və ixtisasının artırılması, habelə informasiya təhlükəsizliyi sahəsində risk və təhdidlər barədə ictimaiyyətin məlumatlılığının artırılması daxildir.

İnformasiya sistemləri və informasiya infrastrukturu lazımi səviyyədə qorunmadan milli təhlükəsizlik təmin edilə bilməz. Bu, təkcə müvafiq siyasət və prosedurların işlənib hazırlanmasını və həyata keçirilməsini deyil, həm də məlumatların təhlükəsizliyini təmin etmək üçün kadrların lazımi bacarıq və alətlərlə hazırlanmasını və təchiz edilməsini nəzərdə tutur. Bundan əlavə, bütün milli informasiya infrastrukturunun bütövlüyünü və etibarlılığını təmin etmək üçün müxtəlif dövlət və özəl qurumlar arasında əməkdaşlıq lazımdır [9, 29].

İnformasiya təhlükəsizliyi (İS) informasiyanın icazəsiz əldə edilməsi, istifadəsi, dəyişdirilməsi, yayılması, məhv edilməsi və digər təhlükələrdən qorunması ilə məşğul olan sahədir. Onun bir çox növləri var, onlardan bəziləri aşağıda verilmişdir:

1. Məxfilik: Bu, məlumatın icazəsiz girişdən qorunmasıdır. Məqsəd yalnız səlahiyyətli istifadəçilərin həssas məlumatlara çıxış əldə etməsini təmin etməkdir.

1. Dürüstlük: Bu, məlumatlara icazəsiz dəyişikliklərə qarşı qorunmadır. Məqsəd ötürülmə və ya saxlama zamanı məlumatların dəyişdirilməməsini və ya pozulmamasını təmin etməkdir.

2. Mövcudluq: Bu, informasiyaya girişin kəsilməsinə qarşı qorunmadır. Məqsəd məlumatın hər zaman səlahiyyətli istifadəçilər üçün əlçatan olmasını təmin etməkdir.

3. Doğrulama: Bu, istifadəçilərin və cihazların autentifikasiyasıdır. Məqsəd yalnız səlahiyyətli istifadəçilərin qorunan məlumatlara çıxışını təmin etməkdir.

4. Avtorizasiya: Bu, səlahiyyətli istifadəçilərə girişin verilməsi prosesidir. Məqsəd icazələrə və giriş hüquqlarına əsaslanan məlumatlara çıxışa nəzarət etməkdir.

5. Audit: Bu, məlumatların istifadəsinə nəzarətdir. Məqsəd məlumatın icazəsiz daxil olmasını və ya istifadəsini aşkar etmək və qarşısını almaqdır.

6. Şifrələmə: Bu, verilənlərin şifrələnməsi yolu ilə məlumatın icazəsiz girişdən qorunmasıdır. Məqsəd məlumatın məxfiliyini və bütövlüyünü təmin etməkdir.

7. Zərərli proqram təminatı: Bu viruslar, qurdlar, troyanlar və digər təhlükələr kimi zərərli proqramlardan qorunmadır. Məqsəd məlumatların pozulmasının və ya məhv edilməsinin qarşısını almaq və sistemin təhlükəsizliyini təmin etməkdir.

8. Şəbəkə hücumlarından müdafiə: Bu, şəbəkə infrastrukturunu hədəf alan hücumlara qarşı qorunmadır. Məqsəd informasiyaya icazəsiz girişin, siste-

min zədələnməsinin və ya onun nasazlığının qarşısını almaqdır [8, 36-38].

9. Fiziki müdafiə: Bu, serverlər, kompüterlər və digər cihazlar kimi fiziki resursların qorunmasıdır.

Milli təhlükəsizliyin əsas şərtləri ölkədən və onun vəziyyətindən asılı olaraq fərqlənə bilər. Bununla belə, ümumilikdə, milli təhlükəsizliyin təmin edilməsi üçün vacib sayılan aşağıdakı şərtləri ayırmaq olar:

1. Siyasi sabitlik və sosial ahəngdarlıq. Siyasi sistemin sabitliyi və ictimai harmoniya dövlətin təhlükəsizliyinin əsasını təşkil edir. Siyasi və ya sosial qeyri-sabitlik zamanı bu, ictimai asayişin və vətəndaşların təhlükəsizliyinin pozulmasına səbəb ola bilər.

2. İqtisadi sabitlik və davamlılıq. İqtisadi sabitlik və davamlılıq milli təhlükəsizliyin mühüm şərtidir. İnkişaf etmiş iqtisadiyyat və yüksək məşğulluq səviyyəsi dövlətə öz təhlükəsizliyini təmin etməyə, müdafiə və təhlükəsizlik sahəsində imkanlarını artırmağa imkan verir.

3. Milli sərhədlərin qorunması. Sərhəd təhlükəsizliyinin təmin edilməsi milli təhlükəsizliyin vacib şərtidir. Sərhədin qeyri-kafi mühafizəsi dövlətin ərazisinə qeyri-qanuni girişə səbəb ola və onun vətəndaşlarının təhlükəsizliyini təhdid edə bilər.

4. Terrorizm və ekstremizmlə mübarizə. Terrorçuluq və ekstremizmlə mübarizə milli təhlükəsizliyin təmin edilməsi üçün mühüm şərtdir. Terrorçu və ekstremist təşkilatlar dövlətə və onun vətəndaşlarına ciddi ziyan vura bilər.

5. İnformasiya texnologiyalarının təhlükəsizliyi və informasiya təhlükəsizliyi. İnformasiya texnologiyalarının təhlükəsizliyinin və informasiya təhlükəsizliyinin təmin edilməsi milli təhlükəsizliyin mühüm şərtidir. Kiberhücumlardan və kibercinayətlərdən qorunma, o cümlədən məxfi məlumatların mühafizəsi informasiya təhlükəsizliyi sahəsində ən mühüm vəzifələrdəndir.

6. Vətəndaşların daxili təhlükəsizlik istiqamətində təhdidlərdən qorunması. Vətəndaşları zorakılıq kimi daxili təhlükəsizlik təhdidlərindən qorumaq mühümdür [8, 138-139].

Rəqəmsal dünyada təhlükəsizliyin təmin edilməsində kiber institutların və idarəetmənin tənzimlənməsi (cyber institutions and governance) mühüm aspektlərdəndir. Kiber institutlar rəqəmsal texnologiyalarla məşğul olan və kiberhücumlara məruz qala bilən təşkilatlardır. Bu qurumlara dövlət qurumları, banklar, şirkətlər, təhsil müəssisələri və bir çox başqa qurumlar daxil ola bilər.

Kiber institutların tənzimlənməsi və idarəçiliyinin əsas aspektlərindən biri kiberməkanı təhlükəsiz saxlayan qanunvericilik və siyasətlərin işlənib hazırlanması və həyata keçirilməsidir. Bura məlumatların saxlanması və istifadəsini tənzimləyən qanunlar, şəxsi məlumatların qorunması, kibercinayətkarlığın tənzimlənməsi və s. aid edilə bilər.

Kiber institutların tənzimlənməsinin digər mühüm aspekti müvafiq təhlükəsizlik və mühafizə tədbirlərinin təmin edilməsidir. Bura antiviruslar və firewallar kimi təhlükəsizlik tədbirlərinin istifadəsi, proqram təminatının müntəzəm yenilənməsi, işçilər üçün kibertəhlükəsizlik təlimi və s. daxil ola bilər [7, 376-377].

Kiber institutların idarə edilməsində mühüm element həm də təhlükəsizlik norma və qaydalarının icrasına nəzarətdir. Buraya təhlükəsizlik monitorinqi, log təhlili və s. daxil ola bilər. İstənilən təhlükəsizlik pozuntusuna tez və effektiv reaksiya vermək üçün effektiv təhlükəsizlik insidentinə cavab mexanizminin olması da vacibdir.

Kiber institutların və idarəetmənin tənzimlənməsi rəqəmsal dünyada təhlükəsizliyin təmin edilməsində mühüm aspektlərdəndir. Onlar müvafiq qanunvericilik və siyasətlərin işlənib hazırlanmasını, müvafiq təhlükəsizlik tədbirlərinin tətbiqini və onların icrasını tələb edir.

ABŞ-da kiber institutlar və idarəetmə bir sıra qanunlara və dövlət qurumlarına tabedir. Kiber institutları tənzimləyən əsas qanunlardan biri dövlət təşkilatlarının məxfi məlumatlarının mühafizəsi tələblərini müəyyən edən 2002-ci ildə qəbul edilmiş İnformasiya Təhlükəsizliyi Aktıdır. Digər mühüm qanun ölkənin informasiya infrastrukturunun qorunması üçün tələbləri müəyyən edən 2014-cü il Kibertəhlükəsizlik İnformasiya İnfrastrukturunun Mühafizəsi Aktıdır. Bundan əlavə, ABŞ-da kibertəhlükəsizliyə və kiber institutlara cavabdeh olan bir neçə dövlət qurumu var. Onlardan biri kibertəhlükəsizlik sahəsində dövlət qurumlarının səylərini əlaqələndirən Milli Kibertəhlükəsizlik və Kommunikasiya İnteqrasiya Mərkəzidir [2]. Həmçinin ABŞ-da kibertəhlükəsizliyin yaxşılaşdırılması üçün tövsiyələr hazırlayan Milli Standartlar və Texnologiya İnstitutu var. Federal Təhqiqatlar Bürosu və Milli Təhlükəsizlik Agentliyinin də kibertəhlükəsizliyi qorumaq və kibercinayətkarlıqla mübarizə apar-

maq üçün öz proqramları var. Ümumiyyətlə, ABŞ-da kibermәkanı təhlükəsiz saxlamaq üçün birlikdə işləyən kiber institutları və hökumətləri idarə edən geniş qanun və hökumətlər vardır [1, 47-249].

Kiber institutlar sahəsində təcrübə Azərbaycanda iqtisadiyyatın müxtəlif sektorlarında və dövlət qurumlarında kibertəhlükəsizliyin yaxşılaşdırılması üçün tətbiq oluna bilər. Kiber institutlar kiberhücumlardan müdafiənin müasir üsullarını və kibertəhlükəsizlik üzrə mütəxəssislərin hazırlanmasını təklif edə bilər. Bundan əlavə, onlar kibertəhlükəsizlik sahəsində tədqiqat və yeni texnologiyaların işlənib hazırlanmasında iştirak edə bilərlər.

İdarəetmə təcrübəsi dövlət idarəçiliyinin inkişafı, biznes şəraitinin yaxşılaşdırılması və xarici investisiyaların cəlb edilməsi üçün tətbiq oluna bilər. İdarəetmə bacarıqları qərar qəbuletmə proseslərini təkmilləşdirmək, biznes proseslərini sadələşdirmək və təşkilatların fəaliyyətini yaxşılaşdırmaq üçün tətbiq oluna bilər. Hər iki sahədə təcrübə tətbiq etməyin mümkün yollarından biri kibertəhlükəsizlik sahəsində təlim və tədqiqatlar üzrə ixtisaslaşmış kiber institutun yaradılması ola bilər. Belə bir qurum kibertəhlükəsizlik üzrə mütəxəssislərin təşkilatların ehtiyaclarını daha yaxşı başa düşmələri və kibertəhlükəsizliklə bağlı qərarların qəbul edilməsində iştirak etmələri üçün idarəetmə təhsili proqramları da təklif edə bilər. Bundan əlavə, idarəetmə təcrübəsindən dövlət orqanlarının idarə edilməsinin təkmilləşdirilməsi, o cümlədən qərarların qəbulu proseslərinin təkmilləşdirilməsi, ictimai işlərdə ictimaiyyətin iştirakının təkmilləşdirilməsi və dövlət orqanlarının səmərəliliyinin artırılması üçün istifadə oluna bilər. Bu, Azərbaycan vətəndaşlarının həyat keyfiyyətinin yaxşılaşmasına və ölkəyə xarici investisiyaların cəlb edilməsinə səbəb ola bilər.

### Nəticə

İnformasiya təhlükəsizliyi müasir geosiyasi mənzərədə milli təhlükəsizliyin ayrılmaz hissəsidir. Millətlər öz maraqlarını qorumaq və beynəlxalq arenada sabitliyi qorumaq üçün kibertəhlükələrin, iqtisadi casusluğun və informasiya müharibəsinin mürəkkəb şəbəkəsində fəaliyyət göstərməlidirlər. Əməkdaşlıq, diplomatik səylər və güclü kibertəhlükəsizlik tədbirlərinin inkişafı, informasiya təhlükəsizliyi problemlərinin həllində ölkənin strategiyasının vacib komponentləridir.

**Açar sözlər:** *İnformasiya təhlükəsizliyi, milli təhlükəsizlik, kibertəhlükəsizlik, beynəlxalq əməkdaşlıq, informasiya əsri.*

### ƏDƏBİYYAT SİYAHISI:

*1. Anagnostakis D. The European Union-United States cybersecurity relationship: a transatlantic functional cooperation/ Journal of Cyber Policy 2021/ vol 6, p. 243-261URL: https://www.tandfonline.com/doi/full/10.1080/-23738871.2021.1916975*

*2. Cybersecurity Policy (NSPD 54), Cybersecurity Policy via EPIC (HSPD 23) // Federation Of American Scientists [Electronic resource]. URL: http://fas.org/irp/offdocs/nspd/nspd-54.pdf (accessed 25 June 2016).*

*3. EU Cybersecurity Strategy/ European Commission/ (2022) URL: https://digital-strategy.ec.europa.eu/en/policies/cybersecurity-strategy*

*4. Information warfare. Separating hype from reality. / Ed. by L. Armistead. – Washington: – 2007. – p. 73-93.*

*5. Information operations. Warfare and the hard reality of soft power. / Ed. By L. Armistead. – Washington: – 2004. – 277 p.*

*6. Kissinger, G. World Order: [Electronic resource] / New York: Penguin Press. – 2014. – 432 p. URL: https://www.academia.edu/10945701/World_Order_by_Henry_Kissinger*

*7. Maranga, M.J., Nelson M. Emerging Issues in Cyber Security for Institutions of Higher Education. IJCSN - International Journal of Computer Science and Network, Volume 8, Issue 4, August 2019/ p. 371-379/ URL: https://www.researchgate.net/profile/Jared-Maranga/publication/335664780_Emerging_Issues_in_Cyber_Security_for_Institutions_of_Higher_Education/links/5d729c32299bf1cb808b4629/Emerging-Issues-in-Cyber-Security-for-Institutions-of-Higher-Education.pdf*

*8. Жидко Е.А. Научно-обоснованный подход к классификации угроз информационной безопасности. Научно-технический журнал №1 (87) 2015, с. 132-140. URL: http://library.oreluniver.ru/polnotekst/-IzvestiyaOrelGTU/ISiT_2015_1.pdf#page=132*

*9. Ромашкина, Н. Проблема международной информационной безопасности в ООН (История, спорные вопросы, перспективы) [Электронный ресурс] / Мировая экономика и международные отношения, 2020, том 64, № 12, с. 25-32.*

– URL: https://www.researchgate.net/profile/Nataliya-omashkina / publication/347874036_Problem_of_International_Information_ Security_in_the_UN/links/602a9636299bf1cc26cb4f03/Problem-of-International-Information-Security-in-the-UN.pdf

**Nuraddin Mehdiyev**
***PhD candidate, The Academy of Public Administration under the President of the Republic of Azerbaijan***
***nuraddin_mehdiyev@yahoo.com***

## INFORMATION SECURITY AS A FACTOR OF NATIONAL SECURITY

### SUMMARY

The significance of information security as a factor of national security cannot be overstated in today's interconnected world. This critical nexus encompasses various dimensions, including cybersecurity, economic implications, diplomatic ramifications, and military operations. Information security is not just a technical issue but a fundamental aspect of national security strategy, requiring comprehensive approaches that encompass technological innovations, diplomatic initiatives, and international cooperation. In navigating the complexities of the information age, nations must prioritize the protection of their digital assets to safeguard their sovereignty, stability, and strategic interests on the global stage.

**Keywords:** *Information security, national security, cyber security, international cooperation, information age.*

**Нураддин Мехтиев**
***Диссертант Академии Государственного Управления при Президенте Азербайджанской Республики***
***nuraddin_mehdiyev@yahoo.com***

## ИНФОРМАЦИОННАЯ БЕЗОПАСНОСТЬ КАК ФАКТОР НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ

### РЕЗЮМЕ

Значение информационной безопасности как фактора национальной безопасности невозможно не переоценить в современном взаимосвязанном мире. Эта важнейшая взаимосвязь охватывает различные аспекты, включая кибербезопасность, экономические последствия, дипломатические последствия и военные операции. Информационная безопасность — это не просто технический вопрос, а фундаментальный аспект стратегии национальной безопасности, требующий комплексных подходов, охватывающих технологические инновации, дипломатические инициативы и международное сотрудничество. Преодолевая сложности информационного века, страны должны уделять приоритетное внимание защите своих цифровых активов, чтобы защитить свой суверенитет, стабильность и стратегические интересы на глобальной арене.

**Ключевые слова:** *Информационная безопасность, национальная безопасность, кибербезопасность, международное сотрудничество, информационный век.*

UOT 327; 339.9
DOI:10.30546/3006-0346.2024.2.80.218

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ QARABAĞ PROBLEMİNİN HƏLLİ MÜSTƏVİSİNDƏ

**MÜBARİZ GÖYÜŞLÜ**
*AMEA Mərkəzi Elmi Kitabaxananın şöbə müdiri, BDU Jurnalistika fakültəsinin dissertantı və müəllimi*

*E-mail: mubariz2011@hotmail.com*

1991-ci il SSRI-nin süqutu, ikiqütblü dünya nizamının yenisi ilə əvəz olunması prosesinin başlanğıcı idi. 80-ci illərdən "qlasnost", "perestroyka" adı altında başlayan bu tarixi proseslər sonralar etnik separatçılıq, dini radikalizm, rəngli inqilablar, hərbi münaqişələr və böyük miqrasiyalar şəklinə düşdü. Frensis Fukuyama baş verən bu hadisələri tarixin sonu və liberalizmin qələbəsi kimi səciyyələndirdi.

SSRİ-nin süqutundan sonra 15 müstəqil dövlət yarandı ki, bunlardan biri də Azərbaycan Respublikası idi. Türkiyə isə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkə oldu. Azərbaycanın da müstəqillik qazandıqdan sonra ən çox güvəndiyi ölkə Türkiyə olmuşdur. Bu güvəncin əsasında hər iki xalqın bir-birinə sosial-mədəni bağlılığı dayanırdı. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisi bunu ən gözəl şəkildə ifadə edir.

Xalqların birliyinin sosial-mədəni səviyyədən siyasi və iqtisadi müstəviyə qaldırılması zərurəti mövcud idi. O zamanın şərtləri daxilində bunları reallaşdırmaq çox çətin idi. Çünki bir tərəfdən, Azərbaycan Rusiyanın, Türkiyə isə ABŞ-nin ciddi təzyiqi və nəzarəti altında idi. Buna görə də, Türkiyə siyasi rəhbərliyi I Qarabağ müharibəsində Azərbaycana yetərli dəstək vermək iqtidarında olmadı. 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ilə Azərbaycanın Türkiyə və Qərb ölkələri ilə əlaqələrinin önü açıldı. Enerji siyasəti Azərbaycanın geosiyasi mövqeyini tədricən gücləndirdi. Azərbaycan mövcud şəraitdən istifadə edərək həm Avropa (xüsusilə Böyük Britaniya), həm də Türkiyə ilə siyasi əlaqələrini inkişaf etdirməyə başladı.

Azərbaycan xalqının Türkiyə və İran ərazisindəki doğma müsəlman-türk toplumundan ayrılması üçün son 200 ildə bir neçə geosiyasi konfiqurasiya qurulmuşdur. İndiki Azərbaycan və İran arasında Türkmənçay müqaviləsi ilə bir sədd çəkilmiş, indiki Türkiyə ilə Azərbaycan əraziləri arasında divar rolunu oynayan Ermənistan dövləti yaradılmışdır. Türkiyə-Azərbaycan əlaqələrinin inkişafı bu səddlərin ortadan qaldırılmasından keçir. Təbii ki, burada söhbət fiziki deyil, psixoloji sədlərin ortadan qaldırılmasından gedir. Son dövrlərdə Azərbaycan və Türkiyə tərəfindən Cənubi Qafqazda irəli sürülən 3+3 əməkdaşlıq formatı buna misal ola bilər. Bu ideya reallaşarsa, Türkiyə Azərbaycan vasitəsilə Orta Asiya dövlətlərinə də çıxış əldə etmiş olur. Türkiyənin keçmiş baş naziri Əhməd Davudoğlu "Strateji dərinlik" əsərində "Azərbaycanın güclü olmadan Türkiyənin bu regionda güclü olmayacağını" yazırdı [12].

Azərbaycan və Türkiyə siyasi münasibətlərinin 2005-ci ildən 2022-ci llədək olan dinamikasına nəzər yetirsək, onun tədricən inkişaf xətti ilə yüksəldiyini qeyd edə bilərik. Bu münasibətlər İkinci Qarabağ müharibəsi və Şuşa Bəyannaməsinin imzalanması ilə özünün pik həddinə çatdı. Bu proseslərin öz məntiqi məcrasına çatmasında tarixi şəxsiyyətlərin və siyasi iradənin rolu danılmazdır. Bu baxımdan, Ümummilli Lider Heydər Əliyev, Prezident İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi liderliyi xüsusi əhəmiyyət kəsb edir.

Türkiyə Azərbaycanın müdafiə və təhlükəsizlik sahəsində NATO standartlarına uyğunlaşdırılması və inkişafı sahəsində islahatlara təqribən 170 milyon dollar məbləğində hərbi yardım göstərmişdir [9]. Azərbaycan və Türkiyənin siyasi münasibətləri, 2006 və 2007-ci illərdə reallaşdırılan iqtisadi və geosiyasi əhəmiyyətli Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri və Bakı-Tbilisi-Qars dəmir yolu xətti layihələri ilə praqmatik müstəviyə keçdi.

Qarabağ münaqişəsinin həlli ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya, Fransa və ABŞ-nin nəzarəti altında idi. Lakin Türkiyə bu məsələdə nə qədər çətin olsa da, öz təsirini göstərməyə çalışmışdır. Bu təsirin ən bariz nümunəsi, Türkiyənin Ermənistan ilə iqtisadi əlaqələrini kəsməsi idi. Türkiyənin bu addımı Azərbaycan üçün çox mühüm əhəmiyyət daşıyırdı. Çünki Ermənistan iqtisadiyyatının inkişaf yolu həm də Türkiyə ilə iqtisadi əməkdaşlıqdan keçirdi. Lakin, ümumilikdə Ermənistan-Azərbaycan münaqişəsində status-kvo məsələsi ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin maraqlarına cavab verirdi. Çünki bu statusun dəyişdirilməsi, bölgədə və dolayısı ilə dünyada mövcud nizamın pozulmasına şərait yarada bilərdi. 2020-ci ildə Şuşanın azad olun-

ması ilə dünyada başlayan proseslər bunu təsdiq etdi və etməkdədir.

ABŞ prezidenti Barak Obamanın Türkiyəyə səfəri öncəsi qardaş ölkənin mətbuatında Türkiyənin yaxın zamanlarda Ermənistanla sərhədlərini açacağı iddiası geniş yayılmışdı [17]. Amerika Marşal Fondunun Ankara ofisinin rəhbəri də bu məsələnin aprelin 24-dən tez baş verəcəyini elan etmişdi. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə hakimiyyətinə qarşı kəskin etiraz mövqeyini bildirdi [8]. Baş nazir Ərdoğan Londondakı Chatham House-da verdiyi açıqlamada normallaşmada Qarabağ məsələsinin hər zaman prioritet olacağını açıqladı. Qarabağ məsələsi müxalifətin sərt reaksiyası ilə qarşılandı. MHP lideri Devlet Bahçeli sərhədlərin açılmasının ancaq üç şərtin yerinə yetirilməsi ilə mümkün ola biləcəyini bildirmişdir: "Bunlardan birincisi, Ermənistanın Türkiyənin ərazi bütövlüyünü şübhə altına alan beynəlxalq hüquqa zidd münasibət və iddialarıdır. İkinci məsələ, Ermənistanın 1915-ci il hadisələrini "soyqırım" olduğu yalanını artırmaqla davam etdirdiyi beynəlxalq qarayaxma kampaniyasıdır. Üçüncü mühüm məsələ, Ermənistanın Dağlıq Qarabağı zorla ilhaq etməsi və Azərbaycan torpaqlarının beşdə birində hərbi işğalını davam etdirməsidir" [11].

22 aprel 2009-cu ildə Türkiyə və Ermənistan arasında münasibətlərin yol xəritəsi açıqlandı və 2009-cu il oktyabrın 10-da İsveçrənin Sürix şəhərində Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılmasını nəzərdə tutan "Əlaqələrin inkişafına dair Protokol", "Diplomatik əlaqələrin qurulmasına dair Protokol" Türkiyənin xarici işlər naziri Əhməd Davudoğlu, Ermənistanın xarici işlər naziri Eduard Nalbandyan tərəfindən imzalandı. Bu protokollar Türkiyə ilə Ermənistan arasında diplomatik münasibətlərin qurulmasını və sərhədlərin açılmasını, həmçinin, Dağlıq Qarabağ şərtinin ortadan qaldırılmasını nəzərdə tuturdu [18]. Bu hadisədən bir gün öncə (9 oktyabr 2009-cu il) Prezident İlham Əliyev AzTV-yə müsahibəsində Azərbaycanın rəsmi mövqeyini sərt şəkildə belə ifadə etmişdir: "Sərhədlər Kəlbəcərin işğalından sonra bağlanmışdır. Yalnız Kəlbəcər azad olunduqdan sonra açılmalıdır" [6].

Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komissiyasına təsdiq olunmaq üçün təqdim edilən protokollar müzakirə edilmədən ləğv edildi. Bundan sonra Ermənistan Konstitusiya Məhkəməsi də protokolları təsdiq etmədi, Türkiyəyə qarşı ərazi və soyqırımı iddialarından imtina etmədiyini bəyan etdi [2].

Bu hadisələrin qaranlıq tərəfləri çox idi. ABŞ və onun Türkiyə daxilindəki qruplaşmaları bu addımın reallaşmasında mühüm rol oynadı. Həmin dövrdə "futbol diplomatiyası" təxribatının reallaşması, Türkiyə iqtidarında antimilli qüvvələrin fəal olmasından irəli gəlirdi. "Futbol diplomatiyası" və Sürix müqaviləsinin fəal müdafiəçiləri qismində daha çox dövrün Prezidenti Abdullah Gül və "qonşularla sıfır sorun (problem)" siyasətinin müəllifi, xarici işlər naziri Əhməd Davudoğlu, onun bir çox diplomatları olmuşdur. Lakin, Baş nazir R.T.Ərdoğan hökumətin beş naziri ilə birlikdə 2009-cu il mayın 13-də Bakıya gələrək Milli Məclisdəki çıxışında demişdir ki, "Dağlıq Qarabağda işğal bitmədən Türkiyə-Ermənistan sərhədləri açılmayacaqdır." [15]. Yəni, Tükiyə iqtidarında iki fərqli mövqenin ortada olması, hakimiyyətdə milli və antimilli güclərin paralel şəkildə təmsil olunduğunu göstərirdi. Sonralar 2016-cı il 15 iyul hadisələri bunu bir daha təsdiq etdi.

Bu hadisələrdən sonra Türkiyə siyasətçiləri və dünyanın aparıcı dövlətlərinin siyasi liderləri anladılar ki, Azərbaycan Qarabağ məsələsində heç bir güzəştə getməz və enerji siyasətindən istifadə edərək Türkiyə və Avropaya müəyyən təsirlər göstərə bilər. Bir çox Türkiyə siyasətçiləri anladılar ki, Azərbaycan-Türkiyə münasibətləri sözün əsl mənasında "Bir millət, iki dövlət" paradiqması üzərində qurulub və hər iki dövlətdə bunu anlamayan siyasətçilərin aqibəti xalqın iradəsi ilə iflasa məhkumdur.

16-17 avqust 2010-cu il tarixlərində Türkiyə prezidenti Abdullah Gül Bakıya səfər etdi və hər iki dövlət arasında "Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında Müqavilə" bağlandı. Bu müqaviləyə əsasən, tərəflərdən biri təhdid və təhlükə ilə üzləşərsə, BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş özünümüdafiə hüququna uyğun olaraq, qarşı tərəflə birgə addımların atılması qərara alındı [7]. Bundan 3 gün sonra Rusiya Prezidenti Dmitri Medvedev İrəvana səfər etmiş və oradakı rus hərbi bazasının qalma müddətinin 49 il uzadılması barədə müqavilə bağlamışdı.

Bir ay sonra (2010-cu il 15 sentyabr) Türk Ölkələrinin Dövlət Başçılarının İstanbulda keçirilən Zirvə Görüşündə Azərbaycan və Türkiyə arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının yaradılması haqqında Birgə Bəyannamə imzalandı və ikitərəfli siyasi əlaqələrin inkişaf etdirilməsi və qlobal məsələlər üzrə əməkdaşlığın əsaslarının yaradılması məqsədilə Şuranın bazasında Birgə Strategiya Planlaşdırma Qrupu yaradıldı.

Türkiyənin Azərbaycan ilə yaxınlaşmasını şərtləndirən bir çox amillər mövcud idi. Bir tərəfdən Tür-

kiyənin Avropa Birliyinə alınmaması, digər tərəfdən, onun Yaxın Şərqə yayılma layihəsinin qarşısının alınması, bazarların məhdudlaşmasına və iqtisadi tənəzzülə şərait yaradırdı. Bu durum, Türkiyəni iqtisadi və siyasi baxımdan ABŞ-dan tam asılı vəziyyətə salır, onu ABŞ-nin Yaxın Şərq siyasətində alət olmağa vadar edirdi. Türkiyədə milli maraqları müdafiə edən siyasi güclər mövcud durumla razılaşa bilməzdilər.

Azərbaycanın öz milli maraqlarından çıxış edərək 2011-ci ildə MDB coğrafiyasında yaradılan Avrasiya Birliyi təşkilatına üzv olmaması, sərbəst ticarət aparılması haqqında müqaviləni imzalamaması, Gömrük İttifaqına qoşulmaması, Türkiyə ilə intensiv yaxınlaşması və Rusiyanın təzyiq dairəsindən çıxmağa çalışması, Azərbaycan-Rusiya münasibətlərini gərginləşdirirdi. Bu gərginlik, 2013-cü il seçkilərindən əvvəl Rusiyadakı azərbaycanlı milyarderlərin təşkilatlanmasında və etnik separatçılıq əlamətlərinin fəallaşmasında özünü büruzə verdi. Buna görə də, 2013-cü il 9 oktyabr seçkilərində prezident seçilən İlham Əliyev birinci xarici səfərini Türkiyəyə etmiş və oradakı çıxışlarının birində demişdir: “Güclü Türkiyə güclü Azərbaycan deməkdir” [19].

Ə.Davudoğlu 2013-cü ilin oktyabrında İsveçrəyə səfər edəndə Türkiyə-Ermənistan münasibətləri ilə bağlı bəzi pozitiv açıqlamalar verib. Bu açaqlamada Qarabağ ərazisinin azad edilməsi şərti ön planda idi [14]. Davudoğlunun açıqlamalarına Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Tiqran Balayan belə cavab vermişdi: “Ermənistan-Türkiyə protokolları ilə bağlı prosesin başlamasından dörd il keçir və o vaxtdan bəri erməni tərəfi Ankaradan bəzi yaradıcı yanaşmalarla bağlı davamlı olaraq eyni köhnə mahnını eşidir. Bütün bu bəyanatlar Ankaranın Ermənistan-Türkiyə protokollarının ratifikasiyasını və icrasını heç bir şərt olmadan əngəlləmək üçün israrlı cəhdindən başqa bir şey deyil. Türkiyə bu bəyanatlara əməl etməkdə qərarlı olduğunu göstərmək üçün addımlar atmalıdır. Amma ola bilməz, çünki bu məsələdə Türkiyənin siyasətini Ankaradan çox Bakı müəyyən edir” [20].

2015-ci il üçün işlərin tam sürətlə davam etdiyini deyən Davudoğlu bunun Ermənistanın Qarabağdan çıxması şərtinə bağlı olduğunu bildirdi. Davudoğlu həmçinin, “Belə olarsa, həm sərhəd qapısı, həm də dəmir yolu açılacaq. Təbii ki, biz bunu Azərbaycanla etmək istəyirik” [13].

Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının (YSƏŞ) 6 oktyabr 2017-ci il tarixli toplantısında hər iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş imzalanmışdır. Həmin toplantıda Prezident İlham Əliyev bildirmişdir: “...Hərbi-texniki sahədə birgə fəaliyyətimiz davam edir. Türkiyənin gündən-günə inkişaf edən hərbi sənaye kompleksi bizim üçün böyük maraq kəsb edir. Biz Türkiyədən hərbi təyinatlı məhsulları alırıq və bundan sonra da alacağıq” [1].

15 sentyabr 2018-ci ildə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş paradda Prezident İlham Əliyev belə demişdir: “Türkiyənin iştirakı olmadan dünyada heç bir məsələ həll oluna bilməz. Yaşadığımız bölgənin tarixi və bu günü bunu əyani şəkildə göstərir. Türkiyənin siyasi imkanları genişlənir, dünyadakı oynadığı rol artır və bu, bizi çox sevindirir. Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da bir o qədər güclü olacaqdır. Türkiyə böyük iqtisadi gücə sahib bir ölkədir. Təsadüfi deyil ki, Türkiyə iqtisadiyyatına milyardlarla dollar xarici sərmayə qoyulur. Təkcə Azərbaycanın Türkiyəyə qoyduğu və qoyacağı sərmayə 20 milyard dollara bərabərdir. Türkiyənin dünya miqyasında çox güclü ordusu var. O, dünya miqyasında ən güclü ordulardan biridir və həm Türkiyə, həm də bizim üçün bu, qürur mənbəyidir.” [3].

2020-ci il sentyabrın 27-də Ermənistanın yeni hücumuna məruz qalan Azərbaycan ordusu işğal olunmuş ərazilərini geri qaytarmaq üçün əks-hücuma keçdi. 44 gün davam edən müharibədə Azərbaycan ordusu işğal olunmuş torpaqlarını geri qaytarmışdır. Noyabrın 10-da Azərbaycan, Rusiya, Ermənistan arasında imzalanan üçtərəfli bəyannamə ilə müharibəyə son qoyulmuş və Ermənistan təslimçilik şərtlərinə imza atmışdır. Türkiyə 44 günlük müharibədə bütün siyasi, diplomatik və hərbi imkanları ilə Azərbaycanı ən yüksək səviyyədə dəstəkləmiş, beynəlxalq hüququn tələblərini yerinə yetirməkdə Azərbaycanı tək qoymamışdır.

İkinci Qarabağ müharibəsində Türkiyənin aparıcı TV kanalları, mətbuat orqanları Azərbaycanda intensiv iş apardılar. Bir çox Türkiyə TV kanalları baş verən hadisələri fasiləsiz birbaşa yayım etdilər. Beynəlxalq mətbuatda (xüsusilə, Rusiya, Fransa) və sosial şəbəkələrdə anti-Azərbaycan xarakterli informasiya təxribatlarının qarşısının alınmasında Türkiyə KİV-ləri (“Haber Türk” TV; “Haber Global” TV; “A Haber” TV; NTV; CNN; “TRT Haber” TV və s.) mühüm rol oynadı.

Müharibə zamanı Türkiyənin Azərbaycana açıq və qeyd-şərtsiz dəstəyi əksər böyük ölkələri narahat etmişdir. Buna baxmayaraq, Türkiyə iqtidarı və Pakistan hökuməti qətiyyətli şəkildə Azərbaycanın haqq işini dəstəkləməkdən bir addım geri çəkilməmişlər. Onların Azərbaycana göstərdikləri dəstək, Rusiya,

Fransa, ABŞ və bir çox ölkələrin geri çəkilməsinə səbəb oldu. Bu amil, müharibədə qələbəni təmin edən ən mühüm amil idi. Prezident İlham Əliyev 9 oktyabr 2020-ci ildə "CNN International" televiziya kanalına verdiyi müsahibəsində bunu təsdiq etmişdi: "Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı." [5].

Geosiyasi durumun bu şəkildə dəyişməsi Ermənistanın öz daxilindən iki cəhbəyə bölünməsinə şərait yaradır. Birinci qrup, mövcud durumu Ermənistanın gələcəkdə iqtisadi və siyasi cəhətdən Türkiyə və Azərbaycandan asılı vəziyyətə düşəcəyini iddia edərək Rusiyanın bölgədə qalmasını təkid edir. İkinci qrup, Ermənistanın Türkiyə və Azərbaycan ilə inteqrasiyadan başqa yolu qalmadığını irəli sürür və Rusiyanın 44 günlük müharibədə Ermənistana xəyanət etdiyini israrla bildirir. Buna görə də birinci qrup Rusiya və İran tərəfindən, ikinci qrup ABŞ və Avropa Birliyi tərəfindən dəstək alır. Lakin Ermənistanda əksər siyasi güclər öz xeyirlərinə olmayan mövcud geosiyasi durumun nə vaxtsa öz xeyirlərinə dəyişəcəyinə ümid etməkdə davam edirlər.

15 iyun 2021-ci ildə Şuşada hər iki ölkənin prezidentləri "Türkiyə Respublikası ilə Azərbaycan Respublikası arasındakı müttəfiqlik münasibətləri haqqında" bəyannamə imzalamışlar. Strateji müttəfiqliyin hüquqi sənədi olan bu bəyannamənin əsas məğzi, tərəflərdən hər hansı birinə təhlükə yarananda BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə zəruri yardım göstərəcəkləri barədə öhdəlik olmuşdur. Yəni, Cənubi Qafqazda Türkiyənin yanında olan Azərbaycanı nə Rusiya, nə də İran təkləyə bilməzlər. Bu hərbi müttəfiqlik, dolayı olaraq Azərbaycanın NATO ilə müttəfiqliyi deməkdir. Çünki Türkiyə NATO-nun çox mühüm və lider dövlətlərindən biridir.

İkinci Qarabağ müharibəsindəki qələbə Azərbaycan-Türkiyə münasibətlərində və Cənubi Qafqazda yeni bir qarşılıqlı faydalı mərhələnin önünü açdı. İkinci Qarabağ müharibəsi Cənubi Qafqazda və digər bölgələrdə separatçılıq problemlərinin həlli üçün mühüm təcrübə yaratdı. Qarabağ savaşı Ermənistan mifini deyil, onun arxasında dayanan Rusiya hərbi mifini ortadan qaldırdı. Müharibədən sonra Bakıda keçirilən zəfər paradında darmadağın olunmuş rus silahlarının nümayiş etdirilməsi buna bariz nümunə idi. Bu, eyni zamanda Türkiyə silahının və hərb məharətinin üstünlüyünü, Türkiyə-Azərbaycan hərbi əməkdaşlığının effektivliyini ortaya qoydu. Türkiyə-Azərbaycan strateji birliyinin hüquqi sənədi olan Şuşa Bəyannaməsi, Orta Asiya türk dövlətləri üçün də gözəl bir nümunə oldu.

Türkiyə və Azərbaycan rəsmilərinin Zəngəzur dəhlizi məsələsini israrlı şəkildə gündəmdə saxlaması onu göstərir ki, hər iki ölkə rəhbəri Türkiyə, Azərbaycan və digər türk dövlətlərini bir araya gətirəcək olan bu layihədən əl çəkməyəcəklər. Onların öz qərarlarında belə qəti addımlar atması onu göstərir ki, Turan layihəsi dərin şəkildə hazırlanmış strateji bir layihədir. Bu layihə, bir çox bölgəni iqtisadi-siyasi maraqlar istiqamətində bir araya gətirə bilən böyük layihədir. Azərbaycan və Türkiyə başçıları tərəfindən irəli sürülən 3+3 əməkdaşlıq platforması bu layihənin tərkib hissəsidir. Turan özündə müxtəlif irq və dinlərdən olan xalqları, dövlətləri bir araya gətirən geosiyasi bir layihədir. Türkiyə və Azərbaycan onun həyata keçirilməsində və ya yeni ədalətli dünya nizamının qurulmasında öndə gedən dövlətlərdir. Unutmaq olmaz ki, bu perspektivlər Qarabağın azad olunması ilə gerçəkləşdi və gerçəkləşməkdə davam edir.

## Nəticə

Türkiyə-Azərbaycan münasibətlərinin formalaşması və inkişafında Qarabağ məsələsinin mühüm rol oynadığı danılmazdır. İkinci Qarabağ müharibəsindən sonra bölgədə baş verən hadisələr göstərdi ki, Qarabağın işğaldan azad olunması məsələsi yalnız Azərbaycanın deyil, həmçinin Türkiyənin və Orta Asiya türk dövlətlərinin əsas məsələsi olmuşdur. Çünki Qarabağın azad olunması, Ön Asiyadan Çinə qədər olan müsəlman-türk dövlətlərinin müstəqil olması, bir araya gəlməsi və inkişaf etməsi deməkdir. ATƏT-in Minsk qrupunun yaradılması, bu səbəblərə görə Qarabağın azad olunmasının qarşısını almağa xidmət etmişdir. Onlar, bölgədə gözlənilən perspektivlərin qarşısını almaq üçün, 2009-cu ildə Sürix danışıqlarını planladılar, 15 iyul 2016-cı ildə Türkiyədə dövlət çevrilişi etməyə cəhd göstərdilər. Lakin onların bu təxribatları özlərinə qarşı işlədi. Türkiyə və Azərbaycan münasibətləri bu hadisələrdən sonra daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsində əldə olunan zəfər Türkiyə və Azərbaycanın birlikdə düşmən güclər üzərində qazandığı zəfər oldu.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. "Azərbaycan və Türkiyə prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər." [Elektron resurs] - URL: https://president.az/articles/25649*

*2. Ermənistan Konstitusiya Məhkəməsinin Tür-*

*kiyə–Ermənistan protokolları haqqında qərarı. [Elektron resurs] / URL: http://www.concourt.am/english/decisions/common/pdf/850.pdf*

*3. Əhmədov E. "Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı: Şuşa Bəyannaməsi" // [Elektron resurs] Xalq qəzeti. - 2021.- 29 avqust. - № 182. - s. 2. URL: https://azertag.az/xeber/Azerbaycan_Turkiye_strateji_terefdasligi_Susa_Beyannamesi_regional_tehlukesizlik_ve_dunyaya_hemreylik_numunesi-2174942*

*4. Həsənov Z. "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrində əsaslı islahatlar aparılır." [Elektron resurs] - URL: https://mod.gov.az/az/news/zakir-hesenov-prezident-ilham-eliyevin-rehberliyi-ile-azerbaycan-silahli-quvvelerinde-esasli-islahatlar-aparilir-27324.html*

*5. "Prezident İlham Əliyevin "CNN International" televiziya kanalının "Connect the World" verilişində müsahibəsi yayamlanıb." [Elektron resurs]. URL: https://president.az/az/articles/view/42434*

*6. "Prezident İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi." [Elektron resurs] 9 oktyabr 2009-cu il, s.186-189 - URL: http://files.preslib.az/site/ialiyev/2009.pdf*

*7. Vəliyev C. "Azərbaycan–Türkiyə münasibətləri: 1991-2016. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016)" [Elektron resurs] /məqalələr toplusu/. Bakı: "Poliart" MMC, 2017, 904 s. URL: https://www.repk.az/uploads/books/0.36.pdf*

*8. "Aliyev'den Ermeni Sınırı Tepkisi." [Elektron resurs] - URL: https://www.haberler.com/aliyev-den-ermeni-siniri-tepkisi-haberi/*

*9. Askerzade A. "NATO Çerçevesinde Azerbaycan-Türkiye Askerî İşbirliği ve Bölgesel Güvenlik Sorunları", [Elektron resurs] Karadeniz Araştırmaları, Sayı: 20, Kış 2009, s.1-17. URL: http://www.karamdergisi.com/Makaleler/121387085_askerzade.pdf*

*10. "Azerbaycan Hançerlenemez." [Elektron resurs] - Hürriyet Gazetesi, URL: https://www.hurriyet.com.tr/gundem/azerbaycan-hancerlenemez-11415184*

*11. "Bahçeli'den Önemli Açıklamalar." [Elektron resurs] - Hürriyet Gazetesi, URL: https://www.hurriyet.com.tr/gundem/bahceliden-onemli-aciklamalar-11530482*

*12. Davudoğlu A. Stratejik Derinlik. İstanbul: Küre Yayınları, 2009.*

*13. "Davutoğlu'ndan sürpriz Ermenistan hazırlığı." [Elektron resurs] - Akşam Gazetesi, URL: https://www.aksam.com.tr/siyaset/davutoglundan-surpriz-ermenistan-hazirligi/haber-258796*

*14. "Davutoğlu: Türkiye-Ermenistan İlişkilerinin Normalleşmesine Önem Veriyoruz." [Elektron resurs] - Haberler.com, URL: https://www.haberler.com/davutoglu-turkiye-ermenistan-iliskilerinin-5170268-haberi*

*15. "Ermenistan Protokolü Askıya Aldı." [Elektron resurs] - Radikal Gazetesi, URL: http://www.radikal.com.tr/dunya/ermenistan-protokolu-askiya-aldi-992945*

*16. "Kamuoyu ve Türk Dış Politika anketi", [Elektron resurs] / Ankara Universiteti Avrupa Toplulukları Araşdırma və Uygulama Merkezi, Ocak 2010, s.68. - URL: http://ataum.ankara.edu.tr/anket.pdf*

*17. Türkiye-Ermenistan Sınır Kapıları Açılıyor. [Elektron resurs] - Hürriyet Gazetesi, URL: https://www.hurriyet.com.tr/gundem/turkiye-ermenistan-sinir-kapilari-aciliyor-11324698*

*18. Türkiye Ermenistan`la Yol haritasını belirledi. // [Elektron resurs] / "Yeni Şafak"; URL: https://www.yenisafak.com/dunya/turkiye-ermenistanla-yol-haritasi-belirledi-182289*

*19. Cornell E. S. "Azerbaijan: Going It Alone, Edit. S. Frederick Starr Svante E. Cornell, Putin's Grand Strategy: The Eurasian Union and Its Discontents, Central Asia-Caucasus Institute & Silk Road Studies Program, 2014, p. 145-155.*

*20. "Yerevan reacts to Ankara's remarks on reviving relations." [Elektron resurs] - Hürriyet Daily News, URL: https://www.hurriyetdailynews.com/yerevan-reacts-to-ankaras-remarks-on-reviving-relations-56247*

## XÜLASƏ

Məqalədə Qarabağ münaqişəsinin yaranması tarixindən həll olunmasına qədər olan dövr qısa olaraq təhlil edilib. Bu problemin yaranma səbəbləri, Ermənistanın Qarabağı işğal etməsi və ona Türkiyə Cümhuriyyətinin, onun rəsmilərinin göstərdikləri təpki araşdırılıb. Qarabağın azad olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün Azərbaycan-Türkiyə birliyinin, strateji müttəfiqliyinin əhəmiyyəti tədqiq olunub. Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin bölgə üçün, xüsusən də Türk dünyası üçün vacibliyi məqalədə təqdim olunub. ATƏT-in Minsk qrupunun yaradılması, bu "üçlüy"ün problemi həll etmək əvəzinə onu dondurması, münaqişənin uzadılması istiqamətindəki fəaliyyəti məqalədə əksini tapıb. Dünyada geosiyasi durumun dəyişməsindən düzgün şəkildə faydalanan Azərbaycanın Qarabağın işğaldan azad edilməsi üçün göstərdiyi siyasi-diplo-

matik çalışmalar təhlildə özünə yer tapıb. II Qarabağ müharibəsinin gedişində Türkiyə mediasının Azərbaycana, onun haqq işinə verdiyi dəstək, informasiya müharibəsində uğur əldə etməkdə oynadığı rol təhlil edilib. Məqalədə II Qarabağ müharibəsindəki qələbənin Azərbaycan-Türkiyə münasibətlərində və Cənubi Qafqazda yeni mərhələnin önünü açdığı vurğulanıb. Azərbaycan-Türkiyə birliyinin 44 günlük müharibədə qalibiyyətinin Cənubi Qafqazdakı digər problemlərin həllinə, Şuşa Bəyannaməsinin imzalanmasına, Mərkəzi Asiya türk dövlətlərinin Türk Birliyində aktivliyinə göstərdiyi təsir də araşdırılıb.

**Açar sözlər:** *Azərbaycan, Türkiyə, II Qarabağ müharibəsi, Zəngəzur dəhlizi, strateji müttəfiqlik, Ermənistan.*

**Мубариз Геюшлю**
***Диссертант факультета журналистики БГУ***

**Отношения Турции и Азербайджана на уровне решения карабахской проблемы**
**РЕЗЮМЕ**

В статье кратко проанализирован период от начала карабахского конфликта до его разрешения. Исследованы причины этой проблемы, оккупация Арменией Карабаха и реакция на это Турецкой Республики и ее официальных лиц. Изучено значение азербайджано-турецкого единства и стратегического союза для освобождения Карабаха и обеспечения территориальной целостности Азербайджана. В статье представлена важность азербайджано-турецкого стратегического альянса для региона, особенно для тюркского мира. В статье отражено создание Минской группы ОБСЕ, ее замораживание этой «тройкой» вместо решения проблемы, затягивание конфликта. Политико-дипломатические усилия Азербайджана, воспользовавшиеся изменением геополитической ситуации в мире, по освобождению Карабаха от оккупации, нашли свое место в анализе. В годы Второй Карабахской войны проанализирована поддержка турецкими СМИ Азербайджана и его законного дела, роль, которую они сыграли в достижении успеха в информационной войне. В статье подчеркивается, что победа во Второй Карабахской войне открыла путь к новому этапу в азербайджано-турецких отношениях и на Южном Кавказе. Также было расследовано влияние победы азербайджано-турецкого союза в 44-дневной войне на решение других проблем на Южном Кавказе, подписание Шушинской декларации, деятельность среднеазиатских тюркских государств в составе Турецкого союза.

**Ключевые слова:** *Азербайджан, Турция, Вторая Карабахская война, Зангезурский коридор, стратегический альянс, Армения.*

**Mubariz Geyushlu**
***PhD candidate at the Faculty of Journalism of BSU***

**Relations between Turkey and Azerbaijan at the level of resolving the Karabakh problem**
**SUMMARY**

The article briefly analyzes the period from the beginning of the Karabakh conflict to its resolution. The causes of this problem, the occupation of Karabakh by Armenia and the reaction of the Turkish Republic and its officials to this are explored. The importance of Azerbaijani-Turkish unity and strategic alliance for the liberation of Karabakh and ensuring the territorial integrity of Azerbaijan has been studied. The article presents the importance of the Azerbaijani-Turkish strategic alliance for the region, especially for the Turkic world. The article reflects the creation of the OSCE Minsk Group, its freezing by this "trinity" instead of solving the problem, and the prolongation of the conflict. The political and diplomatic efforts of Azerbaijan, taking advantage of the change in the geopolitical situation in the world, to liberate Karabakh from occupation, found their place in the analysis. During the Second Karabakh War, the support of the Turkish media for Azerbaijan and its legitimate cause, the role they played in achieving success in the information war, was analyzed. The article emphasizes that the victory in the Second Karabakh War opened the way to a new stage in Azerbaijani-Turkish relations in the South Caucasus. The influence of the victory of the Azerbaijani-Turkish alliance in the 44-day war on the solution of other problems in the South Caucasus, the signing of the Shusha Declaration, and the activities of the Central Asian Turkic states within the Turkish Union was also investigated.

**Keywords:** *Azerbaijan, Turkey, Karabakh War II, Zangezur Corridor, strategic alliance, Armenia.*

UOT 324
DOI:10.30546/3006-0346.2024.2.80.277

# SEÇKİ SİSTEMİ ANLAYIŞI, ONUN MƏZMUNU VƏ ƏSAS MAHİYYƏTİ
## (Yerli və xarici təcrübələr əsasında)

**TACİRƏ ABDULLAYEVA**
*Bakı Dövlət Universiteti,"Siyasi institutlar və sistemlər" ixtisası üzrə doktorant*
*ORCID COD:0009-0000-9296-6344*
*E-mail: haci_qasimli@list.ru*

### Giriş

Seçki dövlət hakimiyyəti nümayəndələrinin, həmçinin ictimai təşkilatların rəhbər orqanlarının seçilməsi üsuludur. Seçkilər qanunda nəzərdə tutulan seçki reqlamentinə uyğun olaraq gizli və açıq keçirilir. Müasir demokratiyanın bərqərar olmasının təsirli mexanizmləri sırasında seçkilər həlledici rol oynayır. Xalq hakimiyyətinin həyata keçirilməsinin təmin edilməsi seçkilər nəticəsində meydana çıxır. Seçki sistemi isə seçkilərin və referendumların necə keçirildiyini və onların nəticələrinin necə müəyyən edildiyini özündə ehtiva edən qanunlar toplusudur. Ölkəmizdə keçirilən seçkilərin bütün mərhələlərində aşkarlığın təmin olunması üçün beynəlxalq hüquqi normalarla bərabər Azərbaycan Respublikasının Seçki Məcəlləsində nəzərdə tutulmuş mövcud prosedurlardan və konkret hüquqi əsaslardan istifadə olunur [1].

Seçki prosesinin müşahidəsi, bir qayda olaraq, müşahidəçinin öz təşəbbüsü ilə və ya qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında aparılır. Seçki komissiyalarının iclaslarında, seçki sənədləri və səslərin hesablanması ilə əlaqədar işin gedişində kütləvi informasiya vasitələri nümayəndələrinin də eynilə iştirak etmək hüququ var. Azərbaycan Respublikasının bütün ərazisində müşahidənin aparılmasına dair ərizə seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək MSK-ya təqdim edilə bilər. Ərizədə müşahidə aparmaq niyyətində olan şəxsin soyadı, adı, atasının adı, yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, zərurət olduqda isə həm də maraqları təmsil olunacaq namizədin adı, qeyri-hökumət təşkilatının, siyasi partiyanın, siyasi partiyalar blokunun adı və hüquqi ünvanı göstərilməlidir. Ərizəyə iki fotoşəkil də əlavə olunmalıdır. Hər bir ərizəyə dair qərar isə onun verildiyi tarixdən başlayaraq 3 gün müddətində qəbul edilir. Ərizəçinin müşahidəçi qismində qeydiyyatından imtina olunması halı yalnız ərizədə göstərilən məlumatlar yanlış olduqda baş verə bilər. Sadalanan bütün vasitə və hüquqi əsaslar ölkəmizdə seçkilərin azad və ədalətli keçirilməsinə, seçki prosesinin Azərbaycan xalqı və seçicisi üçün şəffaf olmasına və daha da təkmilləşdirilməsinə rəvac verən amillərdir.

Seçkilərdə iştirak edən hər kəs təkcə dövlət və cəmiyyətin deyil, həm də öz taleyini həll edir. Müasir demokratik dövlətdə seçkilər xalq hakimiyyətinin həyata keçirilməsində böyük rol oynayır və müasir demokratiyanın əsasını təşkil edir. Müasir dövlətdə seçkilərin zəruriliyi mahiyyət etibarilə onunla tanınır ki, ümumiyyətlə, azad seçkilərsiz demokratik sistem qurmaq hələ heç kimə nəsib olmayıb [5].

### Xarici təcrübə

**Türkiyə.** Türkiyənin seçki sistemi ölkənin siyasi sisteminə, partiyaların iqtidara gəlməsinə, hökumətlərin qurulmasına və hakimiyyətdən getməsinə daim ciddi təsir göstərmiş və göstərməkdə də davam edir. Türkiyədə çoxpartiyalı sistemə keçid ölkə tarixinin ən mühüm dönüş nöqtələrindən biri hesab olunur. Bu sistemin təşkili və həyata keçirilməsi mühüm demokratik addım olsa da, özü ilə bir sıra siyasi və sosial-iqtisadi problemləri də gətirmişdir. Ölkənin seçki sistemi və bunun nəticədə həyata keçirilən seçkilər də bunların arasında mühüm rol oynayır. Türkiyədə 1961-ci ildən bəri mövcud olan və D'Hondt adlanan seçki sisteminə görə, hər bir partiyanın topladığı səs sayı ardıcıl 1, 2, 3 və s. bölünür. Bu proses bölgədən seçiləcək ümumi millət vəkili sayı müəyyən edilənə qədər davam edir. Bundan əlavə, ölkədə 10 faizlik seçki baryerinin tətbiqi (1995-ci ildən bəri qüvvədədir) az səs alan partiyaların parlamentdən kənarda qalmasına və nisbətən çox səs toplayan partiyalardan olan deputat sayının artmasına səbəb olur [8].

### Seçkilərdə D'Hondt üsulu və onun əsas mahiyyəti

Təsvir edilən metod 1878-ci ildə metodologiyanın əsasını qoyan Belçika riyaziyyatçısı Viktor D'Hondt'un adını daşıyır. D' Hondt metoduna əsasən,

səslərin sayının bölünməsi ilə ortalama olaraq təyin edilən yerlərin sayı üstə bir əsasında müəyyən olunur. Beləliklə, birinci yer verildikdən sonra, həmin partiyanın qazandığı səslərin sayı ikiyə bölünür (ilkin bölünmə əlavə bir yerə bərabərdir) və eyni şəkildə ikinci yerə layiq görülən tərəf üçün və s. D'Hondt sistemi 1961-ci ildən bəri Türkiyədə tətbiq olunur və hazırda da qüvvədə olan sistemdir [9].

1990-cı illərdən başlayaraq seçki qanunvericiliyinin islahatları bir sıra dövlətlərdə, o cümlədən dünyanın demokratik dövlətləri olan İtaliyada (1993), Yaponiyada (1994), Yeni Zelandiyada (1996), Böyük Britaniyada (1990-cı illərin sonu), habelə öz müstəqilliyini elan etmiş postsovet respublikalarında həyata keçirilməyə başladı [7].

Qarışıq seçki sistemi majoritar və proporsional seçki sistemlərinin nöqsanlarını istisna etməklə hər 2 sistemin ünsürlərinin müxtəlif kombinasiyasından ibarət olan seçki sistemidir. Bu zaman majoritar və proporsional seçki sistemlərinin müsbət cəhətlərindən ya bərabər, ya da birinə üstünlük verməklə istifadə olunur. Qarışıq seçki sisteminin əsas xüsusiyyəti bundan ibarətdir ki, seçkili orqanın üzvlərinin bir hissəsi majoritar, digər hissəsi isə proporsional seçki sistemi əsasında seçilir [3, s.21].

**Almaniya.** Almaniyanın Əsas Qanununun 38-ci maddəsinə əsasən, ölkənin parlamenti hesab olunan Bundestaqın (Federal Məclisin) deputatları ümumi, birbaşa, azad, bərabər və gizli seçkilər yolu ilə seçilir. Qeyd etmək lazımdır ki, Bundestaq Almaniyanın ümumi, bərabər, birbaşa seçkilər və gizli səsvermə nəticəsində bilavasitə əhali tərəfindən seçilən yeganə dövlət orqanıdır. Bundestaqa növbəti seçkilər hər 4 ildən bir keçirilir. Bundestaqın səlahiyyət müddətinin başa çatmasına ən çoxu iki ay qalmış, lakin parlamentin səlahiyyət müddəti bitməmiş yeni seçkilər keçirilməlidir. Bundestaq vaxtından qabaq buraxıldıqda növbədənkənar seçkilər 60 gün müddətində keçirilir. Qqeyd etmək lazımdır ki, AFR-in tarixində növbədənkənar parlament seçkiləri cəmi 3 dəfə - 1972, 1983 və 2005-ci illərdə keçirilmişdir. Seçkilərdən sonra yeni parlamentin ilk iclas günündə əvvəlki çağırış Bundestaqın səlahiyyəti başa çatmış sayılır. Bundestaq deputatlarının seçkiləri qarışıq seçki sistemi əsasında keçirilir; bu zaman majoritar və proporsional seçki sistemləri bərabər nisbətdə tətbiq edilir. Yəni deputatların nominal sayının yarısı birmandatlı seçki dairələri üzrə nisbi çoxluqlu majoritar seçki sistemi əsasında, digər yarısı çoxmandatlı seçki dairələri üzrə proporsional seçki sistemi əsasında seçilir. Qeyd etmək lazımdır ki, Bundestaqın deputatlarının sayı nominal olaraq 598 müəyyən olunmuşdur. Ona görə də deputatların 299-u majoritar, digər 299-u isə proporsional seçki sistemi əsasında seçilir.

Bundestaq deputatlarının seçkilərində aktiv və passiv seçki hüququ 18 yaşdan yaranır. Lakin aktiv və passiv seçki hüququnun yaranması bəzi digər hallardan da asılıdır. Belə ki, ümumi qaydaya görə, seçkilər günü 18 yaşı tamam olan, AFR ərazisində mənzili olan və ya digər qanuni əsaslarla (mənzil kirayə müqaviləsi və s.) 3 aydan az olmayan müddətə yaşayan, seçki hüququndan məhrum edilməmiş alman vətəndaşları aktiv seçki hüququna malikdirlər. Xidməti vəzifəsi ilə əlaqədar xarici ölkələrdə daimi yaşayan dövlət məmurları, hərbi qulluqçular və onların ailə üzvləri aktiv seçki hüququnu saxlayırlar [4].

**Yaponiya.** Yaponiya parlamentinin hər 2 palatası ümummilli nümayəndəlik orqanı sayılır və bütün xalqı təmsil edən seçkili üzvlərdən ibarətdir - Nümayəndələr Palatasının 480, Müşavirlər Palatasının isə 242 üzvü var. Nümayəndələr Palatasının səlahiyyət müddəti 4 ildir. Hər ümumi parlament seçkiləri zamanı palatanın bütün tərkibi yenidən seçilir. Konstitusiyaya görə, Nümayəndələr Palatası səlahiyyət müddəti başa çatmamış, vaxtından qabaq buraxıla bilər. Nümayəndələr Palatasından fərqli olaraq Müşavirlər Palatası heç vaxt tam tərkibdə yenidən seçilmir. Müşavirlərin səlahiyyət müddəti 6 il müəyyən edilmişdir. Hər 3 ildən bir müşavirlərin yarısı yenidən seçilməlidir. Müşavirlər Palatasının buraxılması imkanı Konstitusiya ilə nəzərdə tutulmayıb. Yaponiya parlamentinin hər 2 palatası ümumi və birbaşa seçki hüququ, gizli səsvermə yolu ilə qarışıq seçki sistemi əsasında seçilir. Seçkilərin hansı palataya keçirilməsindən asılı olmayaraq majoritar və proporsional seçki sistemləri eyni nisbətdə tətbiq olunur (təxminən 1,5:1 nisbətində) [6].

Müqayisə üçün qeyd edə bilərik ki, dövlət müstəqilliyini əldə etdikdən sonra Azərbaycan Respublikası da idarəetmənin demokratikləşdirilməsinə, hüquqi dövlət quruculuğuna onun normativ-hüquqi əsasının müəyyən olunmasından başladı. Belə ki, 18 oktyabr 1991-ci il tarixli "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı və onun əsasında 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi – referendum yolu ilə qəbul olunan Azərbaycan Respublikasının yeni Konstitu-

siyası (1) özündə dünyanın inkişaf etmiş demokratik dövlətlərinin təcrübəsində uğurla sınaqdan çıxmış bir çox ümumbəşəri dəyərləri, demokratik prinsipləri, habelə seçki hüququnun əsaslarını təsbit etməklə demokratik hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulmasının əsasını qoydu. Qeyd edək ki, hər bir ölkədə olduğu kimi, Azərbaycan Respublikasında da seçki sistemi Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və digər normativ-hüquqi aktları ilə tənzimlənir [2].

**Bu sahəyə dair sənəd axını**

Qeyd edək ki, ölkəmizdə seçki sisteminə dair fundamental elmi əsərlər yazılaraq müxtəlif oxucu kütləsinin nəzərinə çatdırılmaqdadır. Seçki sisteminə dair məlumatları (Kitablar, kitabçalar, məqalələr, monoqrafiyalar və s.) təkcə elektron informasiya resurslarından (internet) deyil, həm də respublikada fəaliyyət göstərən müxtəlif kitabxana-informasiya müəssisələrindən də ənənəvi formada əldə etmək olar. Belə kitabxanalar sırasında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasını xüsusilə qeyd edə bilərik. Apardığımız araşdırmalar zamanı Milli Kitabxananın fondunda olan seçki sahəsinə dair sənəd-informasiya resurslarının statistikasını nəzərinizə çatdırırıq (Bax: cədvəl-1).

**M.F.Axundov adına Milli Kitabxananın elektron kataloqunda mövcud olan seçki sisteminə dair sənəd-informasiya resurslarının statistikası**

**Cədvəl-1**

| İllər | Say |
|---|---|
| 2010 | 10 |
| 2011 | 11 |
| 2012 | 8 |
| 2013 | 4 |
| 2014 | 6 |
| 2015 | 3 |
| 2016 | 3 |
| 2017 | 3 |
| 2018 | 10 |
| 2019 | 6 |
| 2020 | 5 |
| 2021 | 1 |
| 2022 | 2 |

**Mənbə:** *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fondu əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

**Müasir dövrdə seçki sistemində İKT-nin rolu**

Müasir cəmiyyətdə əsas məqsəd bütün prosesləri daha sadə, daha sərfəli etməkdir. Daha səmərəli, daha inamlı bir seçki sistemi üçün informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə ehtiyac yaranır. Seçkilərdə İKT-nın tətbiqi onun nəticələrinin qısa zaman ərzində hesablanıb elan edilməsinə, maliyyə vəsaitlərinin qənaətinə və seçki sisteminin şəffaflaşmasına səbəb olur. Seçki sisteminin elektronlaşdırılması elektron dövlət formasının tərkib hissəsi sayılır.

Elektron seçki sisteminin üstünlükləri. Elektron seçki sisteminin üstünlüklərini aşağıdakı şəkildə xarakterizə etmək olar:

1. Seçici fəallığının yüksək olması;
2. Səsvermə prosesində və səslərin sayılması zamanı xətaların aradan qalxması;
3. Seçki sisteminə inamın artması;
4. Seçicinin yalnız bir namizədə səs verə bilməsi;
5. Etibarsız sayılan səslərin sayının azalması;
6. Fiziki imkanları və vaxtı məhdud olan seçicilərin daha praktik səs verə bilmələri;
7. Seçim prosesində gizliliyin təmin olunması;
8. Seçkilərdə qanun pozuntularının azaldılması;
9. Nəticələrin daha qısa zaman ərzində müəyyən olunması;
10. Mövcud seçki prosesinə nisbətən daha az insan əməyindən istifadə edilməsi;
11. Maliyyə xərclərinə qənaət edilməsi.

**Elektron seçki sistemində xarici təcrübə (Hindistan, Kanada)**

**Hindistan.** Bu ölkədəki seçkilərdə Electronic Voting Machines ("EVM") sistemindən istifadə edilir. Seçki sistemində EVM-lərin sınaq istifadəsinə 1990-cı ildən sonra başlanıldı və1998-ci ildən bütün ölkə üzrə tətbiq edildi. Hindistanda tətbiq edilən bu qurğular iki hissədən ibarətdir. Səsin qeyd hissəsi (səsvermə hissəsi) və bu hissənin naqillə birləşdiyi elektron səslərin toplandığı hissə (müşahidə, nəzarət hissəsi). İki hissə bir-biri ilə beş metrlik naqillə bağlıdır. Nəzarət hissəsi seçki nəzarətçisinin yanında, səslərin qeyd edildiyi hissə isə səsvermə kabinələrində yerləşdirilir. Seçici seçimini kağız üzərində deyil, elektron qurğu üzərində seçdiyi namizədin və ya partiyanın adının qarşısındakı düyməni basmaqla edir. Birdən çox düyməyə basmaq mümkün deyildir. Qeyd hissəsindəki mavi düymə basıldıqda səsvermə düyməsi avtomatik olaraq bağlanır. Seçici düyməni təkrar bassa belə, başqa bir səs qeyd edil-

mir. Beləliklə, hər bir seçici bir səsdən istifadə etmiş olur. Axırıncı seçici səsini verdikdən sonra nəzarətçi "bağla" düyməsini basır. Bundan sonra EVM heç bir səsi qəbul etmir. Səslərin qeyd hissəsi namizədlərin saylarından asılı olaraq artırıla bilər. Belə ki, səsvermə hissəsinin hər birində16-ya qədər namizədin adı yer alır. Bu hissələri dörd dəfə artırıb namizədlərin adını 64-ə çatdırmaq olar. Sistem bəsit, ucuz və yenidən proqramlaşdırılmayan mikroçiplər vasitəsilə edilir. Bu mikroçiplər hazırlanan zaman onlara yazılan proqramı sonradan dəyişmək mümkün deyildir. Hər hansı müdaxilənin qarşısını almaq məqsədilə proqramın yenidən dəyişdirilməməsi üçün qapağı açmağa cəhd edərkən cihaz avtomatik olaraq sönür. Seçki başa çatan zaman cihaz möhürlənir. Bir EVM-də maksimum 3840 səsi qeyd etmək mümkündür. Səs sayma imkanı sürətlidir, bu sistemdə maksimum 2 saat ərzində nəticələr hesablana bilər. Bir EVM-in işləməsi üçün 6 volt yetərli sayılır. Bir EVM-in qiyməti təxminən 200 dollara yaxındır. Elektron seçki sistemində ilk maliyyə qoyuluşu yüksək olsa da, burada ənənəvi seçki sisteminə xas olan kağız bülletenlərə çəkilən xərclər, onların daşınması, saxlanması, sayılması, bunlarla iş görən işçi qrupuna çəkilən xərclər yoxdur. Ona görə də elektron seçki daha səmərəli olur. Hindistan kimi oxuma-yazma problemi olan ölkələrdə EVM-lərdən istifadə daha səmərəlidir. Çünki seçici, sadəcə, bir düyməni basmaqla səs verə bilir. EVM-lər Hindistanda seçkilərə inamı artırmışdır. Onların seçki saxtakarlıqlarının qarşısı alınmış və bununla da, şikayətlər bitmişdir. EVM-lərdə iş zamanı hansısa problem yaransa, bu, səsin qeyd hissəsində baş verə bilər. Bu zaman yalnız həmin hissəni dəyişdirib yenisini qoymaqla seçki prosesini davam etdirmək olar. Verilən səslər onların toplandığı nəzarət hissəsində olduğundan yenidən səsverməyə ehtiyac yaranmır. Mikroçiplərdəki informasiya 10 il müddətinə saxlanıla bilər. EVM-lərin xüsusiyyətlərinə və faydalılığına diqqət etsək, onun klassik seçkidən daha üstün olduğu görünər [10].

**Kanada.** Kanadada federal seçkilərdə klassik seçkidən istifadə edilməsinə baxmayaraq, ərazi üzrə seçkilərdə 1990-cı ildən etibarən elektron seçkidən istifadə edilir. Artıq kiçik ərazilərdə bu iş başlanmışdır və əyalət səviyyəsində tətbiqi planlaşdırılır. Kanadada vahid elektron seçki standartları yoxdur. Bəzi yerlərdə ABŞ standartları tətbiq edilir. Seçkini hər bir əyalət öz standartı ilə keçirir. Misal olaraq, bəzi əyalətləri göstərmək olar: Markham bölgəsində ABŞ-nin Election Systems & Software firmasına məxsus sistemdən istifadə edilir. Edmontda, Albertdə 2004-cü illərdə touch monitorlu sistemlərdən istifadə edilmişdir. Saint John və New Brunswick əyalətləri 2004-cü ildə optik oxuyucuları tətbiq etmişdir. Ontario, Markham və Prescott əyalətlərində internetlə səsvermə sistemindən istifadə edilmişdir [11].

**Nəticə**

Seçki hüququ ölkənin konstitusiyası ilə müəyyən olunur. Müasir dövrdə elektron seçki yeni bir proses olduğundan onun tətbiqi və inkişaf etdirilməsi üçün üstünlüklərini və çatışmazlıqlarını aşkar etmək, dəyərləndirmək və ictimaiyyətə çatdırmaq istiqamətində düşünülmüş addımlar atılmalıdır. Xüsusilə onu qeyd etməliyik ki, 44 günlük qələbədən sonra müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq işğaldan azad edilmiş ərazilərimizdə keçirilən seçkilərdə vətəndaş fəallığı müşahidə olunub. 2024-cü il Prezident seçkilərinin doğma torpaqlarımızda-Xankəndi şəhərindəki 14 və 15 saylı məntəqələrdə, 123 saylı Kəlbəcər Seçki Dairəsində, 121 saylı Laçın Seçki Dairəsində, 125 saylı Zəngilan-Qubadlı Seçki Dairəsində, 118 saylı Ağdam Şəhər Seçki Dairəsində, 119 saylı Ağdam kənd Seçki Dairəsində seçkilərin azad və şəffaf keçirilməsi bir daha ölkəmizi üçün çox qürurverici bir an idi.

**ƏDƏBİYYAT SİYAHISI:**

***Azərbaycan dilində***

*1. Azərbaycan Respublikası Konstitusiyası, 12 noyabr 1995.*

*2. Azərbaycan Respublikası Seçki Məcəlləsi: Bakı, Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəşri.-2024.-296 s.*

*3. Əlibəyli, Q. Parlament seçkilərində qarışıq seçki sisteminin tətbiqi (Almaniya və Yaponiya təcrübəsi) // Qanun". -2015.-№8.-S.-20-26.*

***Rus dilində***

*4. Берлявский Л.Г. Избирательное право Итальянской Республики и Федеративной Республики Германии: сравнительный анализ / http:// works, bepress. com/ cgi/ viewcontent. cgi? article= 1109& context =leonid_berlyavskiy*

*5. Мухамеджанов А.З. Избирательное законодательство Узбекистана: эволюция и прак-тика реализации // Государство и право, 2014, № 7, с. 103.*

*6. Политическая система современной Японии: Учебное пособие. М.: Аспект Пресс, 2013, 384 с.*

7. *Современные избирательные системы. Вып. 1: Великобритания, Канада, Мексика, Польша / Д.В.Лафитский, Н.М.Касаткина, А.Г.Орлов, Н.Ю.Трещетенкова. М.: РЦОИТ: Норма, 2006. - 496 с.*

***Elektron resurslar***

8. *https://en.wikipedia.org/wiki/Electoral_system_of_Turkey*

9. *https://elecciones.generales23j.es/en/informacion-general/visitas-virtuales/metodo-dhont*

10. *https://nios.ac.in/media/documents/srsec317newE/317EL18.pdf*

11. *https://www.elections.ca/content.aspx?section=res&dir=ces&document=part1&lang=e*

## XÜLASƏ

Məqalədə seçki prosesi anlayışı, bu prosesdə aşkarlığın təmin edilməsi məsələləri öz əksini tapmışdır. Azərbaycan Respublikasının bütün ərazilərində müşahidənin aparılmasına dair təlimatlar qeyd edilmiş, yerli və xarici təcrübələr əsasında seçki sisteminin fərqli cəhətləri müqayisəli şəkildə göstərilmişdir. Xarici ədəbiyyatlara istinad olunaraq Türkiyə seçki sistemində mövcud olan “D'Hondt üsulu” haqqında məlumatlar, elektron seçki sisteminin üstünlükləri qeyd edilmişdir. Həmçinin, məqalədə konkret kitabxana nümunəsi əsasında seçki sahəsinə dair sənəd axını haqqında da statistik göstəricilər öz əksini tapmışdır.

**Açar sözlər:** *Seçki anlayışı, seçki sisteminə dair sənəd axını, seçkilər, seçki hüququ, seçki sistemi, xarici təcrübə, D'Hondt üsulu, elektron seçki sistemi.*

## РЕЗЮМЕ

В статье отражено понятие избирательного процесса и вопросы обеспечения прозрачности этого процесса. Были отмечены руководящие принципы проведения наблюдения на всех территориях Азербайджанской Республики, а также проведено сравнение различных аспектов избирательной системы на основе местного и зарубежного опыта. Со ссылкой на зарубежную литературу были отмечены сведения о существующем в избирательной системе Турции «методе Д’Ондта», а также отмечены преимущества электронной избирательной системы. Также в статье отражены статистические показатели документооборота в избирательной сфере на примере конкретной библиотеки.

**Ключевые слова:** *Понятие выборов, документооборот по избирательной системе, выборы, избирательное право, избирательная система, зарубежный опыт, метод Д'Ондта, электронная избирательная система.*

## SUMMARY

The article reflects the concept of the election process and the issues of ensuring transparency in this process. Guidelines for conducting surveillance in all territories of the Republic of Azerbaijan were noted, and the different aspects of the election system were compared based on local and foreign experiences. With reference to foreign literature, the information about the "D'Hondt method" existing in the Turkish election system was noted, and the advantages of the electronic election system were noted. Also, statistical indicators on the flow of documents in the electoral field based on a specific library example are reflected in the article.

**Keywords:** *Concept of election, document flow on electoral system, elections, right to vote, electoral system, foreign experience, D'Hondt method, electronic election system.*

УДК 32: 141.82(091)
DOI:10.30546/3006-0346.2024.2.80.327

# ВЛИЯНИЕ МАРКСИЗМА-ЛЕНИНИЗМА НА НАЦИОНАЛЬНУЮ ИДЕНТИЧНОСТЬ АЗЕРБАЙДЖАНА

**ЭМИЛЬ ЗАДАЕВ**
*Бакинский государственный Университет, докторант*
*E-mail: sheyxzade1@gmail.com*

## ВВЕДЕНИЕ

Распространение коммунизма в Азербайджане в начале XX века является ключевым моментом в истории страны, определившим её политическое и социально-экономическое развитие на долгие десятилетия. Этот процесс был тесно связан с общей политической динамикой в Российской империи и позднее в Советском Союзе. Марксизм, будучи идеологией для масс предопределил вектор развития многих народов в XX веке, в том числе и азербайджанского. Несмотря на коллапс коммунистического мира, его влияние укоренилось в политических культурах многих стран и проявляется по сей день.

Актуальность данной работой трактуется тем, что сам таковой объект исследования, а именно политическое сознание народов постсоветского пространства, вызывает жаркие дискурсы в научном пространстве, ввиду прохождения нескольких стадий социальных экспериментов за довольно короткий период времени с исторической точки зрения. Буквально за весь XX век это пространство успело пройти этап ранней индустриализации с элементами капиталистического рынка и зарождающимся классом буржуазии. Затем, после Октябрьской революции начался резкий переход к построению социализма. Он сопровождался тяжелыми до сего не практикующимся опытом различных социальных и политэкономических явлений (национализация, НЭП, коллективизация, пятилетки, репрессии и т.д.). После провального эксперимента и развала СССР, на заре XXI века, страны соцлагеря вновь стали на рельсы рыночной экономики и интегрировались в глобальный рынок. Конечно, такие процессы не могут не оставить след в самосознании народов и его политической культуре. До сих пор многие ученые, которые анализируют политическую или экономическую систему стран постсоветского пространства, затрудняются выдавать конкретные данные. Либо же их результаты сильно разнятся. Все это благодаря сложной структуре взаимоотношений социума и идеологических потрясений, которые волнообразно отдавались в сознании народов. В данном контексте особую занимательную роль занимает марксизм или марксизм-ленинизм, так как именно эта интерпретация внедрялась в массовое сознание Азербайджанского народа после военного вторжения большевиков в 1920 году. За 70 лет произошло довольно много значимых явлений в Азербайджане, которые предопределили векторы развития страны и народа. И когда, мы анализируем текущее положение дел в независимой Азербайджанской Республике, а именно экономическая модель, система общественных отношений, национальные интересы и идентичность, марксизм так или иначе проявляется в тех или иных отраслях. При этом очень важно выделить как положительные, так и отрицательные аспекты этого влияния.

Исходя из этого, объектом этого исследования является политическое сознание азербайджанского народа, которое на разных этапах своего развития по-своему воспринимало импульсы, идущие со стороны внешней среды.

Предметом тут непосредственно будет марксизм-ленинизм как свойство, создающее и оказывающее влияние на объект и на сегодняшний день.

В качестве основных методов будет использоваться контент анализ: Изучение политических речей, официальных документов, СМИ и литературы, чтобы понять, как отражается влияние марксизма-ленинизма в публичном дискурсе Азербайджана. Помимо этого, будет применятся сравнительный анализ, чтобы сравнить политические и культурные тенденций в Азербайджане в период активного влияния марксизма ленинизма.

Цель данной статьи – это оценить степень влияния марксизма-ленинизма на политическое сознание и культуру и дать характеристику основным трендам этого влияния в современной политической системе Азербайджанской Республики.

**СОДЕРЖАНИЕ**

В конце девятнадцатого века национальная идентичность в регионе менялась и не была популярной концепцией. До правления большевиков конкурирующие идеологии по-разному определяли тюркоязычное большинство, населявшее как исторический Азербайджан, так и к югу от реки Араз и управляемые русскими Бакинская и Элизаветпольская губернии на севере [12, с. 513].

Сразу после завоевания Азербайджана большевиками в апреле 1920 года началась "консолидация" советской власти. Схема была уже хорошо отработана: средства связи и транспорт перешли под контроль большевиков, промышленность была национализирована, ячейки коммунистической партии распространились, в то время как все другие партии были запрещены, а противники большевизма были арестованы, сосланы или расстреляны [12, с. 515]. Постепенно коммунистические доктрины стали проникать в различные сферы жизни людей, такие как политика, экономика, культура, религия и т.д. Все это в свою очередь вызывало, как и пагубное так и в некотором роде позитивное влияние на модернизацию общества. Марксизм, будучи модернисткой и революционной идеологией пытался внедрить прогрессивные и светские идеи в ранний период становления Азербайджанской Социалистической Республики.

В 1920-е годы советский режим начал рассматривать Азербайджан как модель модернизации и развития, которую можно было бы представить народам Ирана и Турции. Если Украина была советским Пьемонтом на западных границах, то Азербайджан играл ту же роль на южной границе [11, с. 31]. К примеру, когда большевики решили созвать 1800 делегатов из колониальных и полуколониальных частей Азии на Конгресс народов Востока в сентябре 1920 года, Баку был естественным выбором для съезда [10, с. 58]. Когда в 1926 году советские власти организовали Первый съезд тюркологов, местом его проведения снова стал Баку [5]. Поскольку в Баку предпринимались уверенные шаги по модернизации, азербайджанские большевики чувствовали себя комфортно, сравнивая свои достижения с ситуацией в Турции и Иране. После Первой мировой войны поражение революций на Западе привело большевиков на Восток. В первые годы правления большевиков восточная политика Советской России и коммунистического лагеря, находящегося под ее влиянием, включала Турцию, Иран и Афганистан. Азербайджан находился в центре этой политики. В те времена главный фронт борьбы с Британской империей на Востоке проходил через Иран, и в этой борьбе широко использовались имя и возможности Азербайджанской ССР - прифронтовой страны. Азербайджан превратился в некий форпост модернизма в регионе для мусульманских соседей [10, с. 53]. Большевики с большим энтузиазмом подхватил этот тренд.

На протяжении всей своей истории правительство Советского Союза (а до него и правительства царской России) часто пыталось манипулировать этническими группами других государств в целях продвижения своих собственных интересов. Государства, расположенные непосредственно на юге, были особенно уязвимы из-за их близости и потому, что в них проживают меньшинства, этнические аналоги которых находятся непосредственно за границей с Советским Союзом. Эта ирредентистская ситуация позволила советской пропаганде играть на теме о том, что каждое из меньшинств северо-западной Турции, северного Ирана и Афганистана не должно находиться под управлением чужеземцев, а должно быть воссоединено с (якобы) автономной родиной, а именно, с Грузинской, Армянской, Азербайджанской Туркменской, Узбекской или Таджикской Социалистическими Республиками. Более того, хотя Ленинское различие между правом на самоопределение и правом осуществлять это право оставляло за партией право решать, поддерживать или нет то или иное сепаратистское движение. В дореволюционных трудах Ленина и Сталина ясно говорилось, что самоопределение включает право национальных групп на выход из много этнического государства. Но, отказывая в праве на самоопределение своим меньшинствам в послереволюционный период, Советский Союз, Северный Вьетнам и Китай стойко поддерживали лозунг самоопределения народов некоммунистических государств и территорий. Такого рода двусмысленная трактовка марксизма ставит под вопрос идею самоопределения для Азербайджана [7, с 195-200]. Получается, что Советский Азербайджан был не против выступать проводником социальной «свободы» на Востоке, в то время

как его народ не мог на практике применить эти принципы на себе. На практике Советский Азербайджан боролся за права своих соседей не для того, чтобы продвигать идеи интернационала на Ближний Восток, а для того, чтобы расчленить некоммунистические режимы с дальнейшей перспективой вовлечения новых территорий с национальными меньшинствами в состав АССР. Тогда, какое отношение классовая борьба и право самоопределения народов имеет к чистому проявлению империалистических замашек большевистской верхушки и ее сателлитов на Южном Кавказе? Очевидно, что идеалистическая модель, выстроенная Марксом и Лениным, постепенно прогибалась под давлением более прагматической группировки во главе с Сталиным. К началу 1930-х на фоне потенциальной конфронтации в Европе, сближения Турции и Ирана с Западом, Сталин вовсе пересмотрел свою политику и роль Азербайджана на Востоке.

Внутренние факторы в Советском Союзе также сыграли важную роль в пересмотре национальной политики. Написание советской предыстории в 1920-е годы происходило под влиянием видного ученного марксиста Николая Марра, выдающегося востоковеда и лингвиста. По мнению Марра, этногенез не имел значения в формировании идентичности, поскольку современные языки и народы сами имели смешанное происхождение и возникли в результате тесных взаимоотношений между различными популяциями в глубоком прошлом [8, с. 125]. По мнению Марра, идентичности являются функцией экономических условий и способов производства [8, с. 130]. На протяжении многих веков одно и то же население на данной территории трансформировалось из одной этнолингвистической идентичности в другую в результате социально-экономической трансформации. Марр, используя экономический детерминизм, согласно заветам Маркса, отвергнул понятия «родины», «протонароды» и их «протоязыки», которые были очень популярны среди всех строителей наций. Это в свою очередь шло вразрез с доктринами дореволюционной интеллигенции, которая как правило выстраивало политическую культуру вокруг тюркской идентичности.

Вдобавок учения Марра разбавлялись нарративами марксистского историографа М.Н. Покровского, который реформировал классические имперские и национальные нарративы согласно Марксистским схемам, в которых классовая борьба была главным субъектом. Подход Покровского больше интересовался торговым капитализм, подъемом рабочего класса, классовая борьбой и аналогией немецких крестьянских войн в истории как русских, так и нерусских народов Советского Союза [3].

Как итог, в интеллектуальном пространстве Азербайджана появилось несколько течений в академических кругах, которые занимались вопросом национального самосознания. Первая группа – это так называемые консерваторы, которые уже в другой форме, продолжали дело дореволюционной интеллигенции. Они верили, что протюркский подход может быть решением вопроса идентичности и самосознания, учитывая современное тюркскую лингвистическую идентичность.

Вторая группа ученых, вдохновившись популярными в то время марксистскими теориями, подчеркивали коренной характер народа Азербайджана. Они признали факт языкового сдвига, но отвергли связь с турецким наследием. Эти ученые основывали свой подход на теориях Николая Марра [4, с. 10]. Они считали современное население смесью различных этнических групп и культур. Они не объясняли этногенез азербайджанской нации общей или преобладающей этнической принадлежностью. Примечательно, что эта детуркофицированная азербайджанская идентичность стала официальной после 1937 года и сохранялась до конца Советского Союза, многие последователи этого течения, так и не увидели реализацию своих идей. В конце 1936 года, параллельно с событиями на общесоюзном уровне, Багиров начал кампанию против кадров в высших учреждениях. И под репрессии попали ученые всех групп.

Ухудшение отношений Советского Союза с Турцией и Ираном превратило Азербайджан из витрины социализма в форпост на Ближнем Востоке. Кроме того, важными факторами следует считать политику национального строительства в Турции и Иране, которые имели этнолингвистические и религиозные связи и культурную близость с Азербайджаном. В то время как разногласия между Советским Союзом и его ближнево-

сточными соседями росли, турецкий и иранский национализм стали официальными идеологиями в своих странах, что привело к защитной переформулировке национальной идентичности в советском Азербайджане.

Новая линейная траектория истории следовала за формированием последовательных государств от античности до сталинской конституции 1936 года. Возрождающаяся национальная история должна была определить древние корни народов, их золотой век и национальных героев в древности. Хотя различные объяснения этих изменений в написании истории не входят в задачу данной статьи, нацистское правление, которое стимулировало идеологическую конфронтацию и пропагандистскую битву, сыграло важную роль. Важным моментом этих изменений в написании истории является то, что они требовали исконного и древнего повествования о национальной идентичности в Советском Союзе.

Большевикам важно было установить баланс между идентичностями и сохранить мир в регионе, чтобы реализовать свои модернистские проекты. Этногенез и древняя история тюркоязычных народов Азербайджана должны были быть построены таким образом, чтобы они могли утверждать, что они являются коренными жителями Южного Кавказа. Как итог детюркифицированная азербайджанская идентичность стала официальной после 1937 года и сохранялась до конца Советского Союза. Баку как важный центр тюркологии до 1937 года, был лишен тюркологов.

Чтобы достичь еще одного элемента первобытности и обеспечить золотой век, мидяне также были интегрированы в национальную историю. Эта претензия к мидянам нашла одобрение на самом высоком уровне в Москве. В апреле 1938 года в Москве был организован десятидневный фестиваль (декада) азербайджанского искусства [2]. Утверждается, что на этом приеме Сталин почтил азербайджанский народ, подняв бокал за «азербайджанский народ, который является очевидным потомком великой цивилизации Мидии». Сталинская интерпретация истории Азербайджана стала принципом, и в последующие годы мидийцев стали считать неарийскими предками азербайджанцев [9, с. 9]. История Азербайджана становилась все более обособленной от тюркского прошлого, и возникший пробел был заполнен включением иранского прошлого в азербайджанскую историю. Кроме того, авторы подразумевали, что даже если и была тюркизация, это не означало, что азербайджанцы были тюркского происхождения. По крови они были предками древних европеоидов, тех же исконные предки других кавказских народов. Следовательно, интернационалистские теории Марра использовались для построения пространственно определенной исконной национальной идентичности. Было бы упрощением объяснять смену тюркской идентичности на азербайджанскую в 1937 году следствием советской политики «разделяй и властвуй» в отношении тюркских народов. То, что сделали Сталин и Багиров в 1930-е годы, отделило титульную национальную идентичность от турецкого и иранского влияния и построило сильную и независимую азербайджанскую идентичность. Вместо того, чтобы быть периферией политий, возникших на Иранском нагорье, или частью более широкой турецкой истории, азербайджанская идентичность и Азербайджан как территория стали эпицентром новой национальной истории и самосознания.

## ЗАКЛЮЧЕНИЕ

Формирование азербайджанской национальной идентичности и самосознания, истоки которой лежат на современных территориях Азербайджанской Советской Социалистической Республики, было продуктом как внутренних, так и международных факторов. Влияние марксистских исследований неоспоримо в этом процессе. Покровские и Маристские элементы перешли от лингвистического определения нации к территориальному, что позволило в построении национальной идентичности включить древнее население Прикаспийского региона между Кавказом и рекой Аракс и Мидией дальше на юг, как древних предков Азербайджанской нации. На первый взгляд может показаться, что согласно марксистской философии сделано это было для реализации идеи исконного братства между тремя народами Южного Кавказа. Несомненно, исторически узаконенное братство между азербайджанцами, армянами и грузинами было важно для большевиков, которые стремились к быстрой модернизации и развитию регионального масштаба после этнорелигиозных столкновений, разрушений и

ужасов предыдущих десятилетий. Но на деле все это было сделано только после того, как были выявлены угрозы, вызванные конкурирующими националистическими движениями, которые развивались по соседству в Иране и Турции. На первый взгляд может показаться, что изменение национальной идентичности и построение независимой азербайджанской национальной истории является отвратительным имперским планом, но на деле это является реакцией на многочисленные события в стране и за рубежом. Устранив любое историческое родство с турецкими или иранскими народами по ту сторону границы, Советский Азербайджан теперь мог играть роль бастиона, когда отношения с Турцией и Ираном становились все более напряженными. Все эти факторы создали благоприятную почву для усиления национального самосознания среди широких масс, так как любой политический дискурс создавался преимущественно для рабочего класса. Элиты же бдительно продвигали и пропагандировали национальную идею, но с социалистическим уклоном. А с приходом первого секретаря ЦК Компартии Азербайджанской ССР Гейдара Алиева в Азербайджане 14 июля 1969 года во всех сферах, в том числе и в области национально-нравственных ценностей и культуры началась эпоха Возрождения [1, с. 69]. По итогу марксизм, который в теории всегда себя противопоставлял идее национализма, сам того, не подозревая лишь усилил национальные сантименты и помог взрасти целое поколение интеллектуалов, которые позже поведут народ к воссозданию полноценного независимого национального государства.

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Əliyev, A. Qasımov, Ə. Qasımov, N. "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu". Bakı, 1998.*

*2. "Декада Азербайджанского исскуства", Бакинский Рабочий, 1938, 2.*

*3. "Против антимарксистской концепции М. Н. Покровского": Сб. ст. / Акад. наук СССР. Ин-т истории ; Ред. : Б. Греков, Ем. Ярославский, С. Бушуев. - М. ; Л.: Акад. наук СССР, 1939 - 1940.*

*4. Зифельдт-Симумяги, А. Р. "Тюркологические этюды". Баку: Изд-во АзГНИИ, 1930, с. 8-16.*

*5. Первый Всесоюзный тюркологический съезд, Баку, 1926.*

*6. George, L. "Russia and the West in Iran, 1918-1948: A Study in Big Power Rivalry". Ithaca, NY, 1949, pp. 6-8.*

*7. Hajda, L. "Ethnic politics and ethnic conflict in the Ussr and the post-soviet states." Humboldt Journal of Social Relations, vol. 19, no. 2, 1993, pp. 193–278.*

*8. Nourzhanov, K. and Christian, B. "State Formation in the Soviet Era, 1917 to the 1960s." Tajikistan: A Political and Social History, ANU Press, 2013, pp. 51–74.*

*9. R. Conquest, ed., "The Politics of Ideas in the USSR", London, 1967, pp. 8-9.*

*10. Shnirelman, A. "From Internationalism to Nationalism: Forgotten Pages of Soviet Archaeology in the 1930s and 1940s," in Nationalism, Politics and the Practice of Archaeology, ed. P.L. Kohl and C. Fawcett, Cambridge, 1995, pp. 120-38.*

*11. Terry, M. "An Affirmative Action Empire: Nations and Nationalisms in the Soviet Union, 1923 1939". Ithaca NY, 2001.*

*12. Yilmaz, H. "The Soviet Union and the Construction of Azerbaijani National Identity in the 1930s." Iranian Studies, vol. 46, no. 4, 2013, pp. 511–33.*

## РЕЗЮМЕ

**Эмиль Задаев**

***Бакинский Государственный Университет, докторант***

**ВЛИЯНИЕ МАРКСИЗМА-ЛЕНИНИЗМА НА НАЦИОНАЛЬНУЮ ИДЕНТИЧНОСТЬ АЗЕРБАЙДЖАНА**

Данная статья исследует влияние марксизма-ленинизма на формирование и развитие национальной идентичности в Азербайджане. Рассматривается исторический контекст внедрения и распространения идей марксизма-ленинизма в регионе, а также их влияние на формирование национального самосознания азербайджанского народа. В статье анализируются основные аспекты марксистско-ленинской идеологии, которые оказали влияние на национальное самосознание, включая подходы к национальному вопросу, автономии и самоопределению народов. Для достижения целей исследования использовались контент анализа, изучение политических речей, официальных документов, СМИ и литературы. Результаты исследования показывают, что марк-

сизм-ленинизм оказал значительное влияние на формирование национальной идентичности азербайджанского народа, включая его отношение к истории, культуре и языку. Однако, влияние идеологии было неоднозначным и часто вызывало дискуссии и противоречия в обществе, что отражается на современной политической и культурной ситуации в регионе.

**Ключевые слова:** *марксизм-ленинизм, национальная идентичность, Азербайджан, идеология, политика, культура.*

**Emil Zadayev**
***Baku State University, doctoral student***
***Email: sheyxzade1@gmail.com***

## THE INFLUENCE OF MARXISM-LENINISM ON THE NATIONAL IDENTITY OF AZERBAIJAN

### SUMMARY:

This article explores the influence of Marxism-Leninism on the formation and development of national identity in Azerbaijan. The historical context of the introduction and dissemination of the ideas of Marxism-Leninism in the region, as well as their influence on the formation of the national identity of the Azerbaijani people, is considered. The article analyzes the main aspects of Marxist-Leninist ideology that influenced national identity, including approaches to the national question, autonomy and self-determination of peoples. To achieve the objectives of the study, content analysis, study of political speeches, official documents, media and literature were used. The results of the study show that Marxism-Leninism had a significant influence on the formation of the national identity of the Azerbaijani people, including their attitude to history, culture and language. However, the influence of ideology was ambiguous and often caused discussions and contradictions in society, which is reflected in the modern political and cultural situation in the region.

**Key words:** *Marxism-Leninism, national identity, Azerbaijan, ideology, politics, culture.*

**Emil Zadayev**
***Bakı Dövlət Universiteti, doktorant***
***E-poçt: sheyxzade1@gmail.com***

## MARKSİZM-LENİNİZMİN AZƏRBAYCANIN MİLLİ KİMLİKİNƏ TƏSİRİ

### XÜLASƏ:

Bu məqalədə marksizm-leninizmin Azərbaycanda milli kimliyin formalaşması və inkişafına təsiri araşdırılır. Bölgədə marksizm-leninizm ideyalarının yayılmasının tarixi şəraiti, onların Azərbaycan xalqının milli kimliyinin formalaşmasına təsiri nəzərdən keçirilir. Məqalədə milli kimliyə təsir edən marksist-leninist ideologiyanın əsas aspektləri, o cümlədən milli məsələyə, xalqların muxtariyyətinə və öz müqəddəratını təyin etməsinə yanaşmalar təhlil edilir. Tədqiqatın məqsədlərinə çatmaq üçün məzmun təhlili, siyasi nitqlərin, rəsmi sənədlərin, KİV və ədəbiyyatın öyrənilməsindən istifadə edilmişdir. Tədqiqatın nəticələri göstərir ki, marksizm-leninizm Azərbaycan xalqının milli kimliyinin formalaşmasına, o cümlədən onun tarixə, mədəniyyətə və dilə münasibətinə mühüm təsir göstərmişdir. Lakin ideologiyanın təsiri qeyri-müəyyən idi və tez-tez cəmiyyətdə müzakirələrə və ziddiyyətlərə səbəb olurdu ki, bu da regionun müasir siyasi və mədəni vəziyyətində özünü göstərir.

**Açar sözlər:** *Marksizm-leninizm, milli kimlik, Azərbaycan, ideologiya, siyasət, mədəniyyət.*

UOT 32
DOI:10.30546/3006-0346.2024.2.80.385

# AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN HÜQUQİ STATUSU

**ŞAHMİR YADİGAROV**
*Azərbaycan Turizm və Menecment Universitetinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: muxtar_h@list.ru*

Azərbaycan Respublikasının Konstitusiyasında informasiya və məlumatla bağlı xüsusi maddələr vardır ki, onlar Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin inkişafının ilkin hüquqi əsasını təşkil edə bilər. Mahiyyət etibarı ilə ictimaiyyətlə əlaqələr, dövlət idarəetmə sisteminin cəmiyyət qarşısında şəffaflığını ifadə edən bir sistemdir. Demokratik bir ölkə kimi dövlət və onun orqanlarının cəmiyyət qarşısında hesabatlılığı Azərbaycanda siyasi sistemin əsas özəlliklərindən biri olmuşdur. Bu xüsusda ictimiayyətlə əlaqələrin qanunverici əsası kimi hər şeydən öncə Azərbaycan Respublikasının Konstitusiyasından danışmamaq mümkün deyil. Burda, Azərbaycan Respublikasının Konstitusiyasının 57-cı maddəsi əsas götürülməlidir. Konstitusiyanın 57-cı maddəsində qeyd olunur ki, Azərbaycan Respublikası vətəndaşlarının dövlət orqanlarına şəxsən müraciət etmək, habelə fərdi və kollektiv yazılı müraciətlər göndərmək hüququ vardır [1].

Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin həyata keçirilməsinin hüquqi əsasları Konstitusiyanın qeyd edilən maddəsi ilə tamamlanmır. Bu sahədə normativ-hüquqi sənədlərin təşkili üzrə qanunverici bazanın araşdırılması zamanı belə qənaətə gəlmək olur ki, idarəetmənin əsas funksiyalarından biri kimi ictimaiyyətlə əlaqələr üzrə xüsusi, vahid qəbul edilmiş qanun yoxdur. Bununla belə, müxtəlif dövlət orqanlarında mətbuat xidməti və ictimaiyyətlə əlaqələr işinin təşkili üzrə əsasnamələrin təhlili mu mexanizmin qanunverici əsasları hesab olunan bir çox sənədlərin müəyyən edilməsinə imkan verir. Məsələn Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin əsasnaməsində qeyd olunur ki, dövlət orqanlarında ictimaiyyətlə əlaqələr işi Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Dövlət qulluğu haqqında Qanunu, Məlumat azadlığı haqqında Qanun, İnformasiya əldə etmək haqqında Qanun, İctimai iştirakçılıq haqqında Qanun, Kütləvi İnformasiya vasitələri haqqında Qanun, Azərbaycan Respublikasının müvafiq sahə üzrə fərman və sərəncamları, Nazirlər Kabinetinin sərəncamları kimi normativ sənədlər əsasında təşkil olunur [90]. Qeyd edilən sənədlərin adı digər dövlət qurumlarının da ictimaiyyətlə əlaqələr üzrə orqanlarının əsasnamələrində qeyd edilir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin Əsasnaməsində qeyd olunur: Şöbə öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının “Dövlət qulluğu haqqında” və digər qanunlarını ... rəhbər tutur [5]. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr şöbəsinin 2007-ci ildə təsdiq edilmiş və bu günə kimi aktual olan əsasnaməsində qeyd edilir ki, ictimaiyyətlə əlaqələr işinin təşkilində idarə aşağıdakı qanunverici aktlara əsaslanır: Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında, Azərbaycan Respublikasının Qanununa, “Kütləvi informasiya haqqında” Azərbaycan Respublikasının qanununa, “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikasının Qanununa, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının və bələdiyyələrin İnternet informasiya ehtiyatlarının yaradılması Formaları və Qaydaları"na əsaslanır.

Azərbaycan Respublikasında dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr işinin qanunverici əsaslarını müəyyən etmək üçün qeyd edilən qanunvericilik aktlarını nəzərdən keçirmək olduqca önəmlidir.

Bu sahədə önəmli qanunlardan biri “İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu” dur. Qanun Azərbaycan Respublikası Prezidentinin 17 dekabr 2005-ci il Sərəncamı ilə qüvvəyə minmişdir. Qanunun birinci maddəsində qeyd olunur, bu qanun Azərbaycanda ali qanun kimi Azərbaycan Respublikasının Konstitusiyasının 50-ci maddəsinin realizəsi funskiyasını daşıyır və bu maddədən irəli gələn məsələləri həll edir. Qanunun 9-cu

maddəsində qeyd olunur ki, informasiya sahibləri rolunda Azərbaycan Respublikasının dövlət orqanları və bələdiyyələr, o cümlədən ictimai funksiya yerinə yetirən hüquqi şəxslər (publik hüquqi şəxslər) çıxış edir. [11]

Dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr işinin təşkilinin əsasını təşkil edən əsas normativ-hüquqi sənədlərdən biri Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə 03.04.1998-ci ildə qüvvəyə minmiş "İnformasiya, informasiyalaşma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu" olmuşdur. Qeyd edilən qanunun 3-cü maddəsi İnformasiyalaşdırma sahəsində dövlət siyasəti" adını daşıyır. Bu maddədə sadalanan istiqamətlərdən biri dövlət informasiya ehtiyatları əsasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların müvafiq informasiya ilə təmin olunması üçün şərait yaradılması adını daşıyır [2]. Dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr mexanizminin tətbiqinə yol açan hüquqi normatriv aktlardan biri 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış və 2014-cü ilin iyulunda qüvvəyə minmiş "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının qanunu olmuşdur [9]. Kifayət qədər geniş təyinatı olan bu qanun Azərbaycanda dövlət orqanlarında ictimai şuraların yaradılması ilə nəticələnmişdir. Bu məsələyə ölkə başçısı İlham Əliyev də xüsusi diqqət ayırır. Prezidentin mövqeyinə görə, ictimai iştirakçılıq dövlət orqanlarının fəaliyyətinə ciddi nəzarət mexanizmidir. O, 10 mart 2020-ci il tarixində parlament qarşısında çıxışında bunu xüsusi olaraq qeyd edir: "İctimai nəzarət olmasa, ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə, bəzi hallarda qanunsuzluqlar, qanun pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür" [9]. İctimai nəzarət ictimaiyyətlə əlaqələrin nəticələrindən biridir. Onun əsas qayəsidir. İctimaiyyətlə əlaqələr cəmiyyət tərəfindən idarəetmə sisteminə nəzarətin təmin olunmasında böyük rol oynayır. Yuxarıda qeyd edilən qanun bu mənada ictimaiyyətlə əlaqələr mexanizminin geniş yayılmasına yol açmış olur. Qeyd edilən qanun 21 maddədən ibarətdir və onun bəzi məqamları ictimaiyyətlə əlaqələr mexanizminin hüquqi bazası rolunda ifadə oluna bilər. Qanunun giriş hissəsində qeyd olunur ki, bu qanun Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsi üzrə vətəndaşların dövlət idarəetmə prosesində iştirakı proseslərini tənzimləyir. Qanunun 3-cü maddəsində ictimai iştirakçılığın əsas məqsədləri qeyd olunur:

1. Vətəndaşların idarəetmə prosesinə cəlb olunması,
2. Mərkəzi və yerli icra hakimiyyəti orqanlarına və yerli özünüidarəetmə orqanlarına ictimai nəzarətin həyata keçirilməsi,
3. Dövlət orqanlarının fəaliyyətində şəffaflıq və aşkarlığın təmin olunması [10].

Göründüyü kimi ictimai iştirakçılıq dolayı yolla ictimaiyyətlə əlaqələrin təşkili prosesinin bir elementi kimi təqdim olunur. Belə ki, burada vətəndaş iştirakçılığının məhz dövlət idarəetmə prosesinin aşkarlanması və şəffaflaşması məqsədi ilə təmin olunması qeyd olunur.

Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələrin təşkili işində mühüm normativ-hüquqi sənəd kimi 19 iyun 1998-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq edilmiş və qüvvəyə minmiş "Məlumat azadlığı haqqında Qanun"unun adını çəkmək olar. Dövlət idarəetmə orqanları və bələdiyyələrdə ictimaiyyətlə əlaqələr işinin təşkilində bu qanunun xüsusi əhəmiyyəti var. Qanun dövlət orqanları üçün informasiyanın yayılması prosedurlarının texniki qaydalarını müəyyən edir. Qeyd edilən qanun 1998-ci ildə qəbul edilmiş olsa da bu günə kimi aktualdır. Qeyd edilən qanunun "Məlumatların əldə edilməsi üçün təminatlar" adlı 6-cı maddəsində məlumatın əldə edilməsi yolları təsnifləndirilir. Təsnifləndirilmiş yollardan birinci və ikincisi məhz dövlət orqanlarının ictimaiyyətlə əlaqələr işinin təşkilinə aiddir. Burada qeyd olunur ki, "məlumatın əldə edilməsi aşağıdakı yollarla təmin edilə bilər:

1. Dövlət hakimiyyət orqanlarının və bələdiyyələrin öz fəaliyyətləri və qəbul olunmuş qərarları barədə məlumatlar vermələri yolu ilə;
2. Dövlət hakimiyyət orqanlarında məlumatın əldə edilməsi üçün informasiya xidmətlərinin yaradılması ilə" [11, s.12].

İctimai xarakterli məlumatlar "Məlumat azadlığı haqqında Qanun"da qeyd edildiyi kimi açıq tipli məlumatlardır. Qanun belə məlumatların işıqlandırılması yollarının təsnifatını belə verir: internet informasiya ehtiyatları, rəsmi nəşrlər, kütləvi informasiya vasitələri ilə, kitabxana, ictimai informasiya mərkəzləri, kütləvi istifadənin mümkün olduğu digər yerlər-

də sənədlərlə tanış olmaq üçün şəraitin yaradılması, fiziki və hüquqi şəxslərə məlumatların təqdim edilməsi və s.[11, s. 12]

Dövlət idarəçiliyində ictimaiyyətlə əlaqələr dedikdə, hər şeydən öncə, dövlət orqanlarının cəmiyyət və onun institutları ilə informasiya mübadiləsini həyata keçirən mexanizm haqqında təsəvvürlər gəlir. İctimaiyyətlə əlaqələrin təşkili və cəmiyyətlə informasiya mübadiləsi mexanizmindən danışarkən öncə kütləvi informasiya vasitələri yada düşür. Məhz onlar ictimaiyyətlə əlaqələrin təşkil olunmasında, cəmiyyətə və vətəndaş cəmiyyəti instutlarına informasiyanın çatdırılması işində praktiki olaraq 70%-lik yükü öz üzərinə götürür. Bu mənada Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələrin hüquqi-normativ əsaslarından danışarkən "Kütləvi informasiya vasitələri haqqında" Qanundan yan keçmək mümkün deyil. Azərbaycanda bu qanun 7 dekabr 1999-cu ildə qəbul edilmişdir. 2015-ci ilin 20 yanvarına kimi 14 dəfə dəyişikliyə uğramışdır.[7]

Qeyd edilən qanunun 8-ci maddəsinə görə KİV təsisatları və təmsilçilərinin cəmiyyətdəki iqtisadi, siyasi, ictimai və sosial durum haqqında, dövlət orqanlarının, bələdiyyələrin, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin, siyasi birliklərin, siyasi partiyaların, vəzifəli şəxslərin fəaliyyəti ilə bağlı operativ dürüst məlumat almaq hüququ var. 8-ci maddə eyni zamanda dövlət orqanları və bələdiyyələrin KİV-ə məlumat formalarını təşkilatların öz üzərinə buraxır. Burada sonuncuların sorğusu və mətbuat konfrans formaları qeyd edilir. KİV haqqında Qanunun 8-ci maddəsi məlumat mübadiləsi prosesində dövlət orqanları və bələdiyyələrin xüsusiləşmiş instansiyalarının qurulmasını tövsiyə kimi qeyd edir.

Müasir Azərbaycanda dövlət idarəetmə sistemində ictimaiyyətlə əlaqələr sisteminin təşəkkül tapmasında mühüm addımlardan biri 2015-ci il 30 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə qüvvəyə minən "Vətəndaş müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu olmuşdur. Qanunun giriş hissəsində qeyd edilir ki, bu qanun Azərbaycan Respublikasının Konstitusiyasının 57 və 94-cü maddələrinin təmin edilməsinə xidmət edir. Qeyd edilən maddələr isə dövlət orqanlarının fəaliyyəti haqqında məlumat əldə etmək hüququnu təsbit edir. Qanunun bir çox maddələri və bir sıra məqamlar Azərbaycanda idarəetmə sistemində ictimaiyyətlə əlaqələr mexanizminin realizəsi baxımından əhəmiyyətlidir. Qanun idarəetmə sistemində cəmiyyətdən gələn siqnalların şikayət formalarının baxılması qaydalarını tənzimləyir.

Azərbaycanda dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr işinin təşkili təkcə qeyd edilən qanunlarla tənzimlənmir. Əslində bir çox sahələr üzrə vətəndaş müraciətlərinə baxılması üzrə müxtəlif qanunverici aktlar var ki, bunlar "Vətəndaş müraciətləri haqqında Qanun"un 5-ci maddəsində öz əksini tapmışdır.[3]

Qanunun 17-ci maddəsində qeyd olunur ki, medianın informasiya almaq hüququ vardır ki, bu hüquq da dövlət tərəfindən təmin edilir. Media qurumları informasiya almaq üçün vətəndaş cəmiyyəti institutlarına, siyasi partiyalara, dövlət orqanlarına, bələdiyyələrə müraciət edə bilər, real iqtisadi, siyasi, sosal və cəmiyyətin həyatı ilə bağlı bütün sahələr haqqında, o cümlədən vəzifəli şəxslərin fəaliyyəti barədə informasiya ala bilər. Qanunun 17-ci maddəsinin 2-ci bəndində qeyd olunur ki, yuxarıda qeyd olunan təsisatlar media qurumlarına informasiyanı yazılı müraciət, mətbuat konfransı, brifinq və digər formalarda verə bilərlər.[12]

Müasir Azərbaycanın dövlət idarəçilik sistemində ictimaiyyətlə əlaqələr institutunun qanunverici bazasını təkcə bu sənədlər təşkil etmir. Ümumiyyətlə, dövlət idarəçiliyinin demokratikləşməsi, rasionallaşması, modernləşməsi ilə əlaqədar nəzərdə tutulan islahatlarda həmişə bu məsələyə xüsusi diqqət ayılmışdır. Dövlət idarəçilik sisteminin inkişafı ilə bağlı bir sıra qəbul edilən strategiya və proqramlarda da idarəetmə orqanlarında ictimaiyyətlə əlaqələr mexanizminin təşəkülü və inkişafı, genişlənməsi məsələsi qeyd olunmuşdur. Belə proqramların qəbulu, əsasən, daha geniş miqyasda informasiya cəmiyyətinə keçid tendensiyaları ilə bağlıdır, desək, yanılmarıq. Bu proqramlardan ən əhəmiyyətlisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 11 avqust 2010-cu il tarixində təsdiq olunmuş "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı" hesab edilə bilər. Qeyd edilən proqramda informasiya cəmiyyətinə keçid prosesi ilə əlaqədar dövlət idarəetmə sistemində, dövlət orqanlarında informasiyalaşma prosesi ilə bağlı məqsədlər açıqlanırdı:

1. ... hüquqi və fiziki şəxslərin dövlət orqanlarının fəaliyyəti haqqında məlumatlara, həmçinin döv-

lət, ictimai və sahə informasiya resurslarına çıxışının genişləndirilməsi, informasiya və kommunikasiya xidmətlərinin genişləndirilməsi və onların keyfiyyətinin artırılması;

Dövlət idarəçiliyinin bütün səviyyələrində İKT həllərinin tətbiqi, dövlət informasiya sistemləri və resurslarının formalaşdırılması və inkişaf edirilməsi [4].

İdarəetmədə ictimaiyyətlə əlaqələrin təşkilinə stimul verən normativ-hüquqi aktlardan biri də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 16 fevral 2011-ci ildə təsdiq etdiyi "Dövlət və yerli özünüidarəetmə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydaları" olmuşdur.

Dövlət idarəetmə orqanlarında ictimaiyyətlə əlaqələr institutunun formalaşmasında mühüm rol oynayan mühüm sənədlərdən biri Azərbaycan Respublikasının Prezidenti tərəfindən 28 iyul 2007-ci il 2292 nömrəli sərəncamla təsdiq edilən "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya" olmuşdur. Milli strategiyanın II hissəsində şəffaflıq və korrupsiyaya qarşı mübarizənin əsas prinsipləri açıqlanır və onlardan ikisi ictimaiyyətlə əlaqələrin genişlənməsi üçün mühüm əhəmiyyət kəsb edir. Burada söhbət informasiya azadlığının və hesabatlılığın təmin edilməsindən gedir. Qeyd olunur ki, bir sıra yayılması təhlükəli olan məlumatlar istisna olmaqla dövlət orqanları öz fəaliyyəti haqqında informasiyanı daim dayanıqlı şəkildə ictimaiyyətə çatdırmalıdır. Dövlət orqanları vətəndaş cəmiyyəti institutları, ayrı-ayrı vətəndaşlara, kütləvi informasiya orqanlarına fəaliyyətin məzmunu və nəticələri barədə məlumatların verilməsini təmin etməlidir. Bu prinsip dövlət orqanlarında ictimaiyyətlə əlaqələr üzrə təsisatların yaradılmasını zəruri edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin 2011-ci il 16 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası"na əsasən yerli özünüidarəetmə orqanlarının aktlarının informasiya sistemləri vasitəsilə açıqlanması nəzərdə tutulmuşdur. İnformasiya sahiblərinin aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması sorğu verilmədən həmin aktların internet informasiya ehtiyatlarında yerləşdirilməsidir. İnformasiya sahiblərinin aktları dedikdə, hüquqi aktlar (normativ-hüquqi aktlar, normativ xarakterli aktlar və qeyri-normativ hüquqi aktlar), hüquqi aktların layihələri və məhkəmə aktları nəzərdə tutulur.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. "Hüquq yayım evi", 2023. 83 səh.*

*2. Azərbaycan qəzeti 23 iyun 1998-ci il. N. 141*

*3. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin İnsan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsi haqqında Əsasnamə. Azərbaycan Respublikası ədliyyə nazirinin 06.03 2007-ci il tarixli 6-T №-li əmri*

*4. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2010-2012-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan) https://e-qanun.az/framework/19936*

*5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin İctimaiyyətlə Əlaqələr şöbəsinin əsasnaməsi. Elektron resurs: https://www.economy.gov.az/storage/files/files-with-long-title/558/FRf4oqRGxoO0XYscXOSMPmuA9AEqTfEp7eHTM5B.pdf*

*6. Dövlət və yerli özünüidarə orqanlarının aktlarının elektron informasiya sistemləri vasitəsilə açıqlanması Qaydası*

*7. http://prokurorluq.nakhchivan.az/2018-08-03-10-17-52/2018-08-03-10-23-07/qanun/41-ar-qanunlar/221-kutlevi.html*

*8. https://president.az/az/articles/view/1614*

*9. Xalq Cəbhəsi.- 2021.- 2 mart.- S.9*

*10. İnformasiya və məlumat azadlığı haqqında sənədlər toplusu. Bakı. Qanun. 2007. 600 səh*

*11. Məlumat azadlığı haqqında Azərbaycan Respublikasının Qanunu – Bakı, Qanun nəşriyatı. 2012. 20 səh*

*12. "Media haqqında" Azərbaycan Respublikasının 2021-ci il 30 dekabr tarixli 471-VIQ nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə https://president.az/az/articles/view/55400*


## XÜLASƏ


Məqalə Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində PR mexanizminin həyata keçirilməsinin hüquqi əsaslarının təhlilinə həsr edilmişdir. Qeyd olunur ki, ictimai əlaqələr institutunun tətbiqi Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində şəffaflıq, məlumatların açıqlanması və hesabatlılıq kimi mühüm prinsiplərin qorunmasının təzahürüdür. Bu, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit olunub. Araşdırma nəticəsində məlum olub ki, Azərbaycanda ictimaiyyətlə əlaqələr işinin təşkili vahid qanunvericiliklə

tənzimlənməsə də, bu mexanizmin həyata keçirilməsinə imkan verən kifayət qədər normativ-hüquqi aktlar mövcuddur.

**Açar sözlər:** *Azərbaycan, dövlət idarəçiliyi, ictimaiyyətlə əlaqələr, hüquqi baza.*

**SUMMARY**

The article is devoted to the analysis of the legal basis for the implementation of the PR mechanism in the public administration system of the Republic of Azerbaijan. It is noted that the introduction of the institution of public relations is a manifestation of the protection of such important principles as transparency, information disclosure and accountability in the public administration system of the Republic of Azerbaijan. First of all, this is established by the Constitution of the Republic of Azerbaijan. As a result of the study, it is known that although the organization of public relations work in Azerbaijan is not regulated by unified legislation, there is a sufficient number of regulatory legal acts that allow the implementation of this mechanism.

**Keywords:** *Azerbaijan, public administration, public relations, legal base.*

**Ядигаров Шахмир Юсиф оглы,**
***докторант кафедры международных отношений Азербайджанского университета туризма и менеджмента***

**РЕЗЮМЕ**

Статья посвящена анализу правовой основы реализации механизма PR в системе государственного управления Азербайджанской Республики. Отмечается, что введение института связей с общественностью является проявлением защиты таких важных принципов, как прозрачность, раскрытие информации и подотчетность в системе государственного управления Азербайджанской Республики. Прежде всего, это установлено Конституцией Азербайджанской Республики. В результате исследования известно, что хотя организация работы по связям с общественностью в Азербайджане не регулируется единым законодательством, существует достаточное количество нормативных правовых актов, позволяющих реализовать данный механизм.

**Ключевые слова:** *Азербайджан, государственное управление, общественные отношения, правовая база.*

UOT 327.5
DOI:10.30546/3006-0346.2024.2.80.434

# HİBRİD MÜHARİBƏ ANLAYIŞI HAQQINDA

**GÜLNAZ YUSİFLİ**
*Bakı Dövlət Universiteti,*
*"Beynəlxalq münasibətlər" ixtisası üzrə magistrant*
*E-mail: gulnazabbasli03@gmail.com*

Sivilizasiyalar yarandığı gündən müharibələr də yaranmışdır. Müharibələrin başlıca səbəbləri hələ qədim zamanlardan əmlak bərabərsizliyinin meydana gəlməsi, cəmiyyətdə təbəqələşmənin yaranması, yeni ərazilər, təbii sərvətlər, əlverişli coğrafi mövqelər uğrunda və s mübarizələr idi. Bu mübarizə amillərinin bir çoxu bu gün də aktual olaraq qalır. Elə bu baxımdan, cəmiyyətlərin tarixi inkişafı ilə bağlı olaraq müharibələr də zaman-zaman miqyasına, formasına görə təkamül yolu keçərək irəliləmişdir. Çağdaş dövrümüzün yeni müharibə növlərindən biri də hibrid müharibələr hesab olunur. Burada qeyd etmək lazımdır ki, hibrid müharibə anlayışı tamamilə yeni olmaya bilər. Bir çox analitiklər bunun müharibənin özü qədər qədim olduğunu iddia edirlər. Buna baxmayaraq, dövlətlər birbaşa silahlı toqquşma zamanı və ya daha da əhəmiyyətlisi olmadıqda öz düşmənlərini ram etmək üçün qeyri-dövlət aktorlarından və informasiya texnologiyalarından istifadə etdikləri üçün hibrid müharibə son illərdə əhəmiyyətli və aktuallıq qazanmışdır.

Bununla belə, zamanla bu münaqişələrə səbəb olan fikirlər dəyişmişdir. Belə ki, "soyuq müharibə" və ya müharibələrə səbəb olan siyasi ideyalar, kommunizm və demokratiya yox, əsasən avtokratik ölkələrdə problem yaradan regional, etnoloji və qəbilə rəvayətləri və ya dini motivli qruplar və şəbəkələr idi. Bu müddət ərzində dövlət və sərhəd nəzarətinin azaldılması ilə külli miqdarda pul və təsir əldə edən mütəşəkkil cinayətkar qrupların sayı getdikcə artdı və bu qruplar onlara ya maliyyə dəstəyi, ya da silah və qlobal terror qrupları kimi digər resurslara çıxış əldə etməyə imkan verdi və bu, minlərlə itkiyə səbəb oldu [2].

Lakin bu münaqişələrin miras qoyduğu qlobal cəmiyyət üçün ən böyük problem onların qərb milli dövlət modelini şübhə altına almaları idi və bu, hələ də belədir. 1648-ci ildə Vestfaliya Sülhündən sonra inkişaf etdirilən Birləşmiş Millətlər Təşkilatına üzv olan bütün dövlətlər tərəfindən razılaşdırılan bu, daxili və xarici gücün bir millətin əsas məsuliyyəti olduğuna dair razılaşmaya əsaslanır və eyni zamanda dövlətin dövlətə çevrilməsi üçün hüquqi çərçivəni müəyyənləşdirir [3].

Hibrid müharibənin kökü hərbi strategiya, siyasi məqsədlər və müxtəlif qeyri-hərbi alətlərdən istifadənin birləşməsindən ibarətdir. Hibrid müharibə ənənəvi müharibə və sülh anlayışına meydan oxuyur, çünki o, sadə hərbi deyil, məqsədə çatmaq üçün qeyri-hərbi vasitələri nəzərdə tutur. Hibrid müharibə düşmənlər arasındakı asimmetriyalardan istifadə etməklə inkişaf edir. Birbaşa, simmetrik qarşıdurmalarda iştirak etmək əvəzinə, hibrid müharibə rəqibin zəif tərəflərindən istifadə etməyə çalışır. Bu, qeyri-dövlət aktorlarından, qeyri-qanuni qüvvələrdən və ya düşmənin hərbi üstünlüyünü kompensasiya etmək üçün qeyri-ənənəvi üsullardan istifadəni əhatə edə bilər. Məqsədlərinə çatmaq üçün qeyri-müəyyənliyə və inkarlığa əsaslanır. Bu, dövlət aktorlarına inandırıcı inkarı qoruyub saxlamağa və öz hərəkətlərinə birbaşa aidiyyətdən qaçmağa imkan verir. Dövlət tərəfindən maliyyələşdirilən və qeyri-dövlət subyektləri arasında sərhədləri gizlətməklə, beynəlxalq ictimaiyyətin təsirli şəkildə cavab verməsi və məsul tərəfləri məsuliyyətə cəlb etməsi çətinləşir. Hibrid müharibə müxtəlif münaqişə sahələri arasında sərhədləri bulandırır. O, adi müharibə, qeyri-müntəzəm müharibə, informasiya müharibəsi, kiber müharibə, iqtisadi müharibə və psixoloji əməliyyatların elementlərini birləşdirir. Bu domenlərin inteqrasiyası ənənəvi hərbi qüvvələrin qeyri-dövlət aktorları, kibertəhdidlər və informasiya manipulyasiyası ilə qarşılıqlı əlaqədə olduğu mürəkkəb və bir-biri ilə əlaqəli döyüş meydanı yaradır [3].

Hibrid müharibənin mənşəyini hərbi strateqlərin münaqişələrdə üstünlük əldə etmək üçün müxtəlif taktikaların birləşməsindən istifadə etdiyi qədim dövrlərə aid etmək olar. Bunlardan biri də muzdluluqdur. Beynəlxalq hüquqi bazaların olmadığı şəraitdə muzdlu fəaliyyətlər cinayət hesab edilmir və açıq şəkildə aparılır, muzdluların özləri ilə işəgötürənləri arasında şəxsi iş kimi rəftar edilirdi. Orta əsrlərdə vikinqlər Bizans imperatorlarının şəxsi mühafizəsi üçün işə götürülən ən erkən muzdlular arasında idi. Son orta əsrlərdə kondottieri (italyanca "condotta" terminindən götürülmüşdür, hərbi xidmət üçün müqavilə deməkdir) İtaliyada şəhər-dövlətlər ara-

sında gedən daxili müharibələrdə görkəmli fiqurlar kimi meydana çıxdı. 15-17-ci əsrlərdə Avropa müharibələrinə müxtəlif Avropa ölkələrindən gələn müstəqil muzdlu dəstələr əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bu dövrdə muzdlulardan geniş istifadə olunması iqtisadi mülahizələrdən irəli gəlirdi, çünki daimi ordu saxlamaq baha başa gəlirdi və münaqişələr daha sərfəli olduğu sübuta yetirilməzdən əvvəl xüsusi tapşırıqlar üçün peşəkarları işə götürmək çox baha başa gəlirdi. Tədricən, hibrid müharibə daha çoxşaxəli oldu. Onun aparılması üsulları inkişaf etdi, yeni alətlər əlavə edildi. Belə vasitələrdən biri informasiya müharibəsidir. Hibrid müharibənin əsas komponenti olan informasiya müharibəsi Qərbdə məharətlə istifadə olunur. Bunun bariz nümunəsi IV İvanın hakimiyyəti dövründə Britaniyanın Rusiya haqqında mənfi imic yaratmaq kampaniyasını göstərmək olar. Rusiyaya qarşı informasiya kampaniyası 1558-ci ildə Moskva dövlətinin Livoniya müharibəsinə girməsi ilə, Qərb mətbəələri tərəfindən hazırlanan vərəqələrin çoxalması ilə üst-üstə düşdü. Bu vərəqələrdə Rusiya qüvvələrinin törətdiyi iddia edilən vəhşiliklər təsvir olunurdu və uyğun illüstrasiyalarla müşayiət olunurdu. 1569-cu ildə İvan Qroznu üsyankar vətəndaşları yatırmaq üçün Böyük Novqoroda qarşı hərbi kampaniya təşkil etdi. Qərb mənbələri fürsətdən istifadə edərək rus çarını tiran kimi qələmə verdilər. İngilis diplomatı Jerome Gorsay, “Rusiya haqqında qeydlər” əsərində, İvanın şəxsi hərbi qüvvəsi olan opriçniklərin o dövrdə Novqorod əhalisinin 400 min sakini keçməməsinə baxmayaraq, 700 minə qədər novqorodlunu qətlə yetirdiyini iddia etdi. Qərb qonşularının bu cür hərəkətləri Romanovlar sülaləsi Rusiya taxtına keçdikdən sonra da davam etdi və bu, Rusiya haqqında mənfi təsəvvürlərin formalaşdırılması üçün davamlı səylərin göstərildiyini göstərir [3].

Müasir dövrdə hibrid müharibənin siyasət meydanında iki mühüm hadisədən sonra özünə getdikcə populyarlıq qazandığını vurğulamaq vacibdir. Birincisi, 2005-ci ildə ABŞ-nin iki hərbi rəsmisinin “hibrid müharibələrin yüksəlişi” haqqında qeydləri və müasir müharibədə ənənəvi və qeyri-ənənəvi strategiyaların, metodların və taktikaların birləşməsini, eləcə də müasir münaqişələrin psixoloji və ya informasiya ilə əlaqəli aspektlərini vurğulaması idi. İkincisi, Rusiyanın 2014-cü ildə Krımı işğal etməsi və “inkar edilə bilən” xüsusi təyinatlıları, yerli silahlı qüvvələri, iqtisadi nüfuzu, dezinformasiyanı və Ukraynadakı ictimai-siyasi qütbləşmədən istifadə edərək öz məqsədlərinə nail olması idi [1]. Beləliklə, göründüyü kimi, hibrid müharibə beynəlxalq müharibə və münaqişə tədqiqatlarında ortaya çıxan bir anlayışdır və açıq hərbi əməliyyatlara girmədən rəqibin hərəkətlərini pozmaq və aradan qaldırmaq üçün çoxdomenli müharibə yanaşmasının bir hissəsi kimi, kibermüharibə kimi qeyri-ənənəvi metodlardan istifadəni nəzərdə tutur. Konsepsiya kifayət qədər yeni olsa da və hərbi ədəbiyyatda yalnız 2007-ci ildən bəri tanınmışdır. Rusiyanın həm Ukraynada, həm də Krımda hərəkətləri, Böyük Britaniya və ABŞ-da seçkilərə müdaxiləsi və sosial media xəbər xidmətlərinə təsirləri bu cür yeni müharibə formasına misaldır.

Bəzi xarici ekspertlər belə hesab edir ki, hibrid müharibə mübahisəli bir konsepsiya olaraq qalır və onun hamılıqla razılaşdırılmış tərifi yoxdur. O, konseptual aydınlığın olmaması, sadəcə olaraq hər şeyi əhatə edən ifadə və ya səs-küy olması və siyasət müzakirələrinə yeni heç nə gətirmədiyi üçün çoxlu tənqidlərə məruz qalır. Buna baxmayaraq, konsepsiya bizə müasir və gələcək təhlükəsizlik və müdafiə problemləri ilə bağlı əsas anlayışlar təqdim edir. Sadə dillə desək, hibrid müharibə həm adi, həm də qeyri-ənənəvi güc alətlərinin və təxribat alətlərinin qarşılıqlı təsiri və ya birləşməsini nəzərdə tutur. Bu alətlər və ya alətlər antaqonistin zəifliklərindən istifadə etmək və sinerji effektlər əldə etmək üçün sinxronlaşdırılmış şəkildə qarışdırılır. Kinetik alətləri və qeyri-kinetik taktikaları birləşdirməyin məqsədi döyüşən dövlətə optimal şəkildə zərər vurmaqdır. Bundan əlavə, hibrid müharibənin iki fərqli xüsusiyyəti var. Birincisi, müharibə ilə sülh vaxtı arasındakı sərhəd qaranlıq olur. Bu, o deməkdir ki, müharibə həddini müəyyən etmək və ya ayırd etmək çətindir [1].

Hibrid müharibənin ikinci təyinedici xüsusiyyəti qeyri-müəyyənlik və atribusiya ilə bağlıdır. Hibrid hücumlar, ümumiyyətlə, çox qeyri-müəyyənliklə qeyd olunur. Bu cür qeyri-müəyyənlik hibrid aktorlar tərəfindən atribusiya və cavabı çətinləşdirmək üçün bilərəkdən yaradılır və genişləndirilir. Başqa sözlə, hədəfə alınan ölkə ya hibrid hücumu aşkar edə bilmir, ya da onu törədən və ya sponsorluq edən dövlətə aid edə bilmir. Aşkarlanma və atribusiya hədlərindən istifadə etməklə, hibrid aktor hədəf dövlətin siyasət və strateji cavablar hazırlamasını çətinləşdirir.

Hibrid müharibə hərbi əməliyyatlar, kibermüharibə, dezinformasiya kampaniyaları və iqtisadi təzyiq də daxil olmaqla ənənəvi və qeyri-ənənəvi üsulları

birləşdirir. Qeyri-xətti müharibə, əksinə, ənənəvi döyüş meydanını pozan, döyüşçülərlə mülki şəxslər və ya müharibə və sülh dövrləri arasında fərq qoymağı çətinləşdirən strategiyaya aiddir. Bu strategiyalar 21-ci əsrdə dövlət və qeyri-dövlət aktorlarının tammiqyaslı adi müharibəyə əl atmadan strateji üstünlüklər əldə etməyə çalışdıqları üçün getdikcə daha çox yayılmışdır [5]. Məlumatlardan aydın olduğu kimi hibrid müharibənin elementlərinə hələ orta əsrlərdə də rast gəlinir, lakin 2000-ci illərin əvvəllərindən etibarən yeni müharibə üsullarını təsvir etmək üçün məşhur bir anlayışa çevrilmişdir.

Hibrid və qeyri-xətti müharibə 21-ci əsrdə münaqişə və müharibədə ən əhəmiyyətli inkişaflardan ikisini təmsil edir. Onların mürəkkəbliyi və axıcılığı bu müharibə formalarını və döyüşçülərlə mülki əhali arasında və müharibə ilə sülh arasında ənənəvi sərhədlərin bulanıqlığını xarakterizə edir. Hibrid müharibə hərbi əməliyyatlar, kibermüharibə, dezinformasiya kampaniyaları və iqtisadi təzyiq daxil olmaqla, ənənəvi və qeyri-ənənəvi üsulları birləşdirən münaqişə növüdür. Bu müharibə forması tək bir forma və ya ölçü ilə məhdudlaşmır və müharibənin bütün ölçüləri üzrə müntəzəm və qeyri-qanuni taktikaların qarışığını ehtiva edə bilər [5].

Qeyri-xətti müharibə, əksinə, ənənəvi döyüş meydanını pozaraq, döyüşçülərlə mülki şəxsləri və ya müharibə və sülh dövrlərini ayırd etməyi çətinləşdirir. Müharibənin bu forması böyük strategiya yanaşmasından istifadə edir, burada güc tətbiqi münaqişəsi əsas məqsəd deyildir. Əvəzində məqsəd rəqibin zəif cəhətlərindən istifadə edən mürəkkəb və axıcı vəziyyət yaratmaqdır.

Hibrid taktikalar, o cümlədən şəhər partizan müharibəsi, pilotsuz təyyarələr kimi mürəkkəb silahlar, dezinformasiya, adam oğurluğu və hətta terrorizm, Əfqanıstan və İraqa beynəlxalq müdaxilələr, sünnilər və şiələr arasında dinlərarası müharibə, "Əl-Qaidə" kimi transmilli terror qruplarının strategiyaları və İsraillə "Hizbullah" arasındakı müharibələr buna nümunədir. Bu cür hücumlar çoxsaylı, heterogen idi, demək olar ki, həmişə qeyri-müəyyənlik müşahidə olunur və müharibə qaydalarına az əhəmiyyət verirdi. Beləliklə, hibrid müharibə nizami ordular arasında adi qarşıdurmalarla səciyyələnən I və II Dünya müharibələri kimi 20-ci əsrin "köhnə müharibələrindən" uzaqlaşmanı təmsil edir, eyni zamanda 1990-cı illərin "yeni müharibələrinə" mürəkkəblik əlavə edirdi [6].

Hibrid müharibə təkcə düşməni sarsıtmaq üçün geniş və genişlənən alətlər dəsti təklif etdiyinə görə deyil, həm də onun təhlükəsizliyini iki cəbhədə pozmağa imkan verdiyinə görə münaqişə dinamikasını qaranlıq edir. Bu, həm də hibrid müharibənin ümumi məqsədləri ilə əlaqədardır. Qabiliyyət cəbhəsində, hədəflənmiş dövlətin siyasi, hərbi, iqtisadi, sosial, informasiya və infrastruktur sahələrində zəiflikləri nəzərəçarpacaq dərəcədə və funksional olaraq zəiflədilmiş şəkildə istifadə olunur [6].

Hibrid müharibədəki təcavüzkarlar öz maraqlarına uyğun beyin mərkəzlərini, siyasi partiyaları, hərəkatları, etirazları, QHT-ləri və təşkilatları maliyyələşdirməyi seçirlər. Bu cür maliyyələşdirmə həm də hədəflənmiş dövlətin sabitliyini pozmaq və ya hədəflənmiş rejimə qarşı siyasi rıçaq əldə etmək üçün edilə bilər. Proksi serverlərdən istifadə etməklə kiberhücumlar, kibercasusluq və hakerlik həm də hibrid müharibə kateqoriyasında kibermüharibə kimi məlumat toplamaq, həssas məlumat əldə etmək üçün istifadə olunur [4].

Beləliklə, yuxarıda təhlil edilən məlumatları yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, müasir dövrümüzdə özünə aktuallıq qazanmış və siyasi, hərbi ədəbiyyatda adı tez-tez hallanan "hibrid müharibə" anlayışının elementlərinə hələ orta əsrlər dövründə baş vermiş bir çox müharibələrin gedişində rast gəlinir. Bununla belə, əksər dövlətlər bəzi hallarda açıq müharibə və münaqişələrdən qaçsalar da, birbaşa silahlı toqquşma zamanı öz düşmənlərini ram etmək üçün qeyri-dövlət aktorlarından və informasiya texnologiyalarından istifadə edərək hibrid müharibə aparır. Hibrid müharibə müxtəlif münaqişə sahələri arasında sərhədləri itirir. O, adi müharibə, qeyri-müntəzəm müharibə, informasiya müharibəsi, kiber müharibə, iqtisadi müharibə və psixoloji əməliyyatların elementlərini özündə birləşdirir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Arsalan B. Hybrid Warfare – New Threats, Complexity, and 'Trust' as the Antidote // https://www.nato.int/docu/review/articles/2021/11/30/hybrid-warfare-new-threats-complexity-and-trust-as-the-antidote/index.html*

*2. Hybrid warfare - identifying the cause of potential conflict is important - not the ways and means? // https://www.proquest.com/docview/1872206451#:~:text=The%20adaptability%2C%20agility%20of%20forces,portfolios%20during%20modern%20war%20fighting.*

*3. Hybrid Warfare: Origins and Evolution // https://sgpjournal.mgimo.ru/2022/2022-10/hybrid-warfare-origins-and-evolution*

*4. Kenneth R. Drone Wars: China Has $400 Billion at Stake in Iran Oil, FORBES (Sept. 16, 2019), https://www.forbes.com/sites/kenrapoza/2019/09/16/drone-wars-china-has400-billion-at-stake-in-iran-oil/#335d36f468a3*

*5. Joshua Ball. The Changing Face of Conflict: What is Hybrid Warfare? // https://globalsecurityreview.com/hybrid-and-non-linear-warfare-systematically-erases-the-divide-between-war-peace/*

*6. War by all means: the rise of hybrid warfare // https://www.cidob.org/en/articulos/cidob_report/n_8/war_by_all_means_the_rise_of_hybrid_warfare*

## XÜLASƏ

Məqalədə müasir dövrümüzdə getdikcə aktuallıq kəsb edən "hibrid müharibə" anlayışından bəhs olunur. Aparılan araşdırmalar göstərir ki, müharibələrin başlıca səbəbləri hələ qədim zamanlardan əmlak bərabərsizliyinin meydana gəlməsi, cəmiyyətdə təbəqələşmənin yaranması, yeni ərazilər, təbii sərvətlər, əlverişli coğrafi mövqelər uğrunda və s mübarizələr idi. Bu mübarizə amillərinin bir çoxu bu gün də aktual olaraq qalır. Elə bu baxımdan cəmiyyətlərin tarixi inkişafı ilə bağlı olaraq müharibələr də zaman-zaman miqyasına, formasına görə təkamül yolu keçərək irəliləmişdir. Çağdaş dövrümüzün yeni müharibə növlərindən biri də hibrid müharibələr hesab olunur. Burada qeyd etmək lazımdır ki, hibrid müharibə anlayışı tamamilə yeni olmaya bilər. Bir çox analitiklər bunun müharibənin özü qədər qədim olduğunu iddia edirlər.

**Açar sözlər:** *hibrid, müharibə, cəmiyyət, sivilizasiya, anlayış.*

## РЕЗЮМЕ

В статье говорится о понятии «гибридная война», которое становится все более актуальным в наше время. Проведенные исследования показывают, что основными причинами войн с древнейших времен были возникновение имущественного равенства, расслоение в обществе, борьба за новые территории, природные ресурсы, выгодное географическое положение и т.д. Многие из этих факторов выживания остаются актуальными и сегодня. С этой точки зрения, в связи с историческим развитием обществ, войны время от времени проходили эволюцию по своим масштабам и формам. Гибридные войны считаются одним из новых типов войн нашей современной эпохи. Здесь следует отметить, что концепция гибридной войны, возможно, не является совершенно новой. Многие аналитики утверждают, что она так же стара, как сама война.

**Ключевые слова:** *гибрид, война, общество, цивилизация, понимание.*

## ABSTRACT

The article talks about the concept of "hybrid war," which is becoming increasingly relevant in our time. Conducted research shows that the main causes of wars since ancient times were the emergence of property equality, stratification in society, the struggle for new territories, natural resources, favorable geographical location, etc. Many of these survival factors remain relevant today. From this point of view, in connection with the historical development of societies, wars from time to time underwent evolution in their scale and forms. Hybrid wars are considered one of the new types of wars of our modern era. It should be noted here that the concept of hybrid warfare may not be entirely new. Many analysts argue that it is as old as war itself.

**Key words:** *hybrid, war, society, civilization, understanding.*

UOT 327; 930.22
DOI:10.30546/3006-0346.2024.2.80.475

# BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ HƏRBİ DİPLOMATİYA

**DURSUN MUSTAFAYEVA**
*Bakı Slavyan Universiteti, magistrant*

*E-mail: dursun.mustafayevaa@gmail.com*

## 1. Giriş

Beynəlxalq münaqişələrin və terror fəaliyyətlərinin artması, dünya birliyinin qarşılıqlı anlaşmazlığı, beynəlxalq problem və təhdidlərə qarşı birgə, tam konstruktiv fəaliyyətin olmaması beynəlxalq təhükəsizliyin təminatı sahəsində anarxiya yaradır. Beynəlxalq diqqətin dövlətlərin diplomatik fəaliyyətinə yönəlməsini tələb edir. Siyasi sabitlik, demokratik dəyərlər və beynəlxalq standartlara hörmətlə yanaşı, dövlətin müdafiə və hərbi qüdrəti onun beynəlxalq münasibətlər sistemində yerini müəyyən edən əsas amillərdəndir. Bu amilləri qarşılaya bilməyən dövlətlər beynəlxalq aləmdə autsayder sayılır. Dövlətlər arasında yarana biləcək gərginliyi və münasibətləri balansda saxlamaq üçün diplomatiyanın müxtəlif formalarından istifadə edilir. Bunlardan ən vacibi hərbi diplomatiyadır. Hərbi diplomatiya ictimai diplomatiya, dövlətin milli maraqları və xarici siyasətinin hərbi komponentlərini özündə birləşdirir. Geniş yer tutmamasına baxmayaraq, hərbi diplomatiya beynəlxalq münasibətlərin vacib bir hissəsidir. Çünki o ünsiyyəti yaxşılaşdıra, gərginliyi azalda və müharibələrin qarşısını ala bilər. Bu, sülh və təhlükəsizliyin qorunması üçün vacib olan qarşılıqlı etimad və anlaşmanın qurulmasında dövlətlərə kömək etmək baxımından labüddür. Bu, həmçinin dövlətlərə hərbi planları əlaqələndirməyə, təhlükəsizlik məsələlərini həll etməyə və ortaq məqsədlərə nail olmaq üçün əməkdaşlıq etməyə imkan verir. Bundan əlavə, hərbi diplomatiya sülhməramlı və humanitar yardım əməliyyatları, eləcə də dövlətlər üçün böhrana effektiv reaksiya üçün potensial təklif edir. "Nəticədə, hərbi diplomatiya dövlətlərə qloballaşan dünyada maraqların həyata keçirilməsinə kömək edən mühüm vasitədir"[3, s.43].

Hərbi diplomatiya təxminən XVII əsrdən etibarən ölkələrin öz hərbi personalını məlumat toplamaq, müşahidələr aparmaq və müttəfiq ölkələrlə əlaqə saxlamaq üçün xaricə göndərməsi nəticəsində meydana çıxmağa başlamışdır. Bu vaxt ərzində çox da dəyişməyərək XX əsrə qədər davam etmişdir. 1961-ci ildə Vyana Konvensiyası zamanı hərbi attaşelər digər diplomatlarla eyni hüquq və səlahiyyətlərə malik idilər və təxminən 30 il sonra, "Dəmir Pərdə"nin süqutundan sonra hərbi attaşelərin/personalın vəzifələri məlumat toplamaqdan və müşahidə etməkdən daha çox diplomatik missiyaları yerinə yetirməyə doğru dəyişmişdir.

Hərbi diplomatiya müxtəlif nəzəriyyəçilər tərəfindən "yumşaq güc" kateqoriyasına aid edilir. Hərbi diplomatiya kontekstində böhranın idarə edilməsi məsələsi, ümumiyyətlə, üç mərhələdə nəzərdən keçirilir. Bu addımlar müvafiq olaraq "Sülh mühitinin yaradılması", "Sülhün qurulması" və "Sülhün Qorunması"dır. Bir dövlətin ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini müdafiə etmək onun qoşunlarının başlıca vəzifəsidir. Bununla belə, müxtəlif tədqiqatlar göstərir ki, müasir döyüşlərə son qoymaq üçün təkcə hərbi qüdrət yetərli deyil. Bu mənada xarici siyasətin əsas prioritetlərindən biri "yumşaq güc" komponentlərinin "sərt güc" proseslərinə daxil edilməsidir. Yəni, dövlətin qüdrəti düşmənlərinin üzərinə bomba atmaq qabiliyyəti ilə deyil, güc tətbiq etmədən hədəflərinə çatmaq qabiliyyəti ilə müəyyən edilir. "Yumşaq güc" çərçivəsində hərbi diplomatiya ilə ümumi ictimai diplomatiya fəaliyyətlərinin istifadəsində birlik olduğu görünür. Qeyd edildiyi kimi, hərbi güc təhdidi və ya iqtisadi sanksiyalar kimi "sərt güc" üsulları kəşfiyyat idarəsi, diplomatiya şəbəkəsi və müdafiə kimi "yumşaq güc" üsulları ilə birlikdə tətbiq oluna bildikdə "ağıllı güc" anlayışı ortaya çıxır. Bunu isə ABŞ xarici siyasətində açıqca müşahidə etmək olur. "Gücün üç fərqli şəkildə istifadə oluna biləcəyini nəzərə alsaq, "yumşaq güc"dən istifadədə hərbi diplomatiya ilə ümumi ictimai diplomatiyası arasındakı yeganə fərq istifadə olunan üsuldur"[ 5, s. 67]. Nəticədə, ictimai diplomatiya dolayı metoddan istifadə etdiyi halda, hərbi diplomatiya birbaşa metoddan istifadə edir. Müasir elmi ədəbiyyatın öyrənilməsi prosesində hərbi diplomatiya, onun prinsipləri, istiqamətləri və vasitələri haqqında konkret və aydın anlayışa rast gəlinməmişdir. "Hərbi diplomatiya" sözünün tərifini vermək çətindir. Buraya "Müdafiə diplomatiyası", "Təhlükəsizlik diplomatiyası", "Hücum diplomatiyası" və s. aid etmək olar. Onların müəyyən üst-üstə düşən anlayışları və məqsədləri olsa da, "Hərbi diplomatiya" hədəfin formalaşdırılması və həyata keçirilməsi

baxımından onlardan fərqlənir. “Müdafiə diplomatiyası” və ya “Hərbi diplomatiya”nın istifadəsi adətən müəlliflərin seçimi ilə müəyyən edilir. Məsələn, K.A. Mutanna “Hərbi diplomatiya”ya, Tarak Barkavi isə “Müdafiə diplomatiya”sına üstünlük verir. Ancaq son illərdə bu mövzuda mübahisələr müşahidə edilir. Anton du Plessis tərəfindən irəli sürülmüşdür ki, "Hərbi diplomatiya" tam olaraq hərbi attaşelər kimi hərbi diplomatların fəaliyyətlərinə aiddir, "Müdafiə diplomatiyası" isə ölkənin bütün müdafiə qurumunu əhatə edir. Məhz bu arqument xəttinə əsasən “Müdafiə diplomatiyası” termininə üstünlük verir [9].

Hərbi diplomatiya həyata keçirilərkən onu diqqətlə qiymətləndirmək lazımdır. Diplomatiya və hərbi gücdən balanslı şəkildə istifadə etmək vacibdir. “Hərbi diplomatiya” anlayışı kifayət qədər geniş olub hərbi nümayəndələrin diplomatik danışıqlarından tutmuş, dövlətin Silahlı Qüvvələrinin hazırlığına və hərbi hissələrin beynəlxalq hərbi təlimlərdə iştirakına qədər dövlətin ixtisaslaşmış təşkilatlarının müxtəlif fəaliyyətlərini əhatə edə bilər. Hazırkı elmi ədəbiyyatda hərbi diplomatiyanın bir neçə dar və ya daha geniş şərhləri mövcuddur. Həm nəzəriyyə, həm də diplomatik praktikanın məqsədləri üçün hərbi diplomatiyanı daha dar mənada başa düşmək və onu əsasən Müdafiə Nazirliyinin və digər digər güc strukturlarının nümayəndələri tərəfindən həyata keçirilən fəaliyyətlər məcmusu kimi xarakterizə etmək daha məqsədəuyğun görünür. O cümlədən təhlükəsizlik və müdafiə siyasəti sahəsində dövlətin xarici siyasət maraqlarını həyata keçirməyə yönəlmiş danışıqlardan və diplomatik vasitələrdən istifadəyə əsaslanan ixtisaslaşmış dövlət qurumları tərəfindən də həyata keçirilə bilər.

**2. Hərbi diplomatiya ilə bağlı fikirlər**

Tarixin bir çox böyük mütəfəkkirləri qeyri-hərbi məsələlərə, hərbi fəaliyyətin qaçılmaz təsirini dərk etmək zərurətinə toxunmuşlar. Hərbi fəaliyyətlə diplomatiya, iqtisadiyyat, informasiya, kəşfiyyat və milli idarəetmə strukturlarının digər elementləri arasında əlaqə əsrlər boyu mövcud olmuşdur. Sun Tzu, Böyük Fridrix, Karl fon Klauzevits və Alfred Tayer Mahan kimi hərbi mütəfəkkirlər və peşəkar mütəxəssislər bu amillərin qarşılıqlı əlaqəsini və optimal effektivliyə nail olmaq üçün onları əlaqələndirmək və inteqrasiya etmək zərurətini başa düşürdülər. Konkret olaraq, hərb ilə diplomatiya arasındakı münasibət müxtəlif formalarda olur və geniş mənalar spektrini əhatə edir. Bu nəzəriyyəçilər və mütəxəssislər hərbin xarici siyasətin həyata keçirilməsində vasitə kimi istifadə etməklə xarici əlaqələrin inkişaf etdirilməsinin effektivliyinə inamlarını qeyd edirlər. Çinli hərbi nəzəriyyəçi Sun Tzu hərbi, diplomatiya və milli gücün digər elementləri arasında qırılmaz əlaqənin bəlkə də ən erkən müdafiəçisidir. Sun Tzu Hücum Strategiyasına dair yazılarında dolayı yolla həm informasiyanın, həm də diplomatiyanın rolundan bəhs edir. "Çünki yüz döyüşdə yüz qələbə qazanmaq ustalıq zirvəsi deyil. Döyüşmədən düşməni ram etmək məharətin zirvəsidir” [6, s. 67].

Karl fon Klauzevitsin "Müharibə haqqında" kitabı xarici siyasətdə diplomatiya və hərbi fəaliyyət alətlərini birləşdirən hərbi fəlsəfəyə dair ən əhəmiyyətli əsərlərdən biri olaraq qəbul edilir [4, s.79]. E.Willardın araşdırmalarından məlum olur ki, Böyük Fridrix Prussiya hökmdarı kimi rəsmi diplomatiya ilə məşğul olmaqla yanaşı, həm də “Böyük Fridrixin generalları üçün təlimatı”nda ictimai və hərbi diplomatiyanın əhəmiyyəti haqqında geniş yazmışdır. Böyük Frederik və Karl fon Klauzevitsə görə, hərb xarici siyasət məqsədlərinə çatmaqda həlledici rol oynayır və münaqişədən daha çoxunu əhatə edir [10].

ABŞ Hərbi Dəniz Qüvvələrinin kapitanı Alfred Thayer Mahan, Frederik və Klauzevitsin nəzəri və praktiki baxışlarını dənizə tətbiq etməklə "dəniz gücü" anlayışını əsaslandırdı. Bu mənbəyə görə, Mahan bu ideyanı dəniz hərbi diplomatiyası vasitəsilə diplomatik, informasiya, hərbi və iqtisadi məqsədlərə çatmaq üçün bir üsul kimi irəli sürür. Kapitan Mahanın "Dəniz gücünün tarixə təsiri" kitabı həm dəniz təsirlərinin tarixi tədqiqi, həm də ABŞ-nin bütün dünyada təsirinin artması üçün nəzəri plandır [11].

Korkdakı İrlandiya Milli Universitetinin əməkdaşı Endryu Kotteyi və Böyük Britaniyanın Esseks Universitetinin prorektoru Entoni Forster kimi xarici ekspertlər hərbi diplomatiyaya dövlətin xarici siyasətində qarşıya qoyulan məqsədə nail olmaq üçün zəruri vasitə kimi baxırlar [2]. Hindistanlı polkovnik K.Mutanna hərbi diplomatiyanı silahlı qüvvələrdən xarici siyasət aləti olaraq istifadə etmək kimi müəyyən edir [7]. Bratislava İqtisadiyyat Universitetinin beynəlxalq münasibətlər fakültəsinin fəlsəfə doktoru P.Rusinyak hərbi diplomatiyanı dövlətin siyasi təhlükəsizliyi baxımından vacib alət kimi qeyd etmişdir [10].

**3. Hərbi diplomatiyanın mexanizmləri**

Hərbi diplomatiya ikitərəfli və çoxtərəfli formalarda özünü büruzə verir. O, iki əsas mexanizm vasitəsilə bu münasibətləri gücləndirmək üçün yolların tapılmasına əsaslanır. İki dövlət arasında ikitərəfli

diplomatiyadan istifadə edildiyi halda, çoxtərəfli diplomatiya ikidən çox dövlətlər, o cümlədən beynəlxalq təşkilatlar arasında əlaqələri əhatə edir. İkitərəfli və çoxtərəfli hərbi diplomatiya "yumşaq güc" parametri olaraq hərbi sahələrdə əməkdaşlığı təşviq edir və dövlətin təhlükəsizliyinin müəyyən dərəcədə təminatında rol oynayır. Dövlətin maraqlarının təşviq edilməsinin səmərəli mexanizmi olan hərbi-diplomatik fəaliyyətin ikitərəfli formatı Müdafiə Nazirliyi, Xarici İşlər Nazirliyi, onun səfirlikləri və konsulluqları, digər hüquqi və institusional qurumlar vasitəsilə həyata keçirilir. Bura müdafiə nazirinin, parlamentarilərin, qərargah rəislərinin xarici dövlətlərin nümayəndələri ilə görüşləri, səfərləri və s. daxildir. İki dövlət ümumi təhlükəsizlik strategiyaları və siyasətləri haqqında məlumat mübadiləsi edə, təhlükəsizlik məsələləri ilə bağlı bir-birini məlumatlandıra, həmçinin fəlakətlərin və ya humanitar böhranların qarşısının alınması, nəticələrinin aradan qaldırılması məqsədilə bir-birini dəstəkləyə bilər. Humanitar yardım və böhranların idarə edilməsi sahəsində əməkdaşlıq iki dövlət arasında əlaqələri gücləndirir. Müdafiə sənayesi sahəsində silah sistemlərinin təchizatı, birgə layihələr və ya texnologiya transferi kimi məsələlər hər iki dövlətin müdafiə qabiliyyətini artırmaq məqsədi daşıyır. İki dövlətin hərbi personalı arasında təlim və mübadilə proqramları ikitərəfli hərbi əlaqələrin mühüm tərkib hissəsidir. Bu cür proqramlar hərbi personal arasında ünsiyyəti artırır və birgə əməliyyat potensialını gücləndirir.

İkitərəfli hərbi diplomatiyanın bu gün yerinə yetirdiyi və ya yerinə yetirə biləcəyi əsas funksiyalar sırasına aşağıdakıları daxil edə bilərik:

1. Qəbul edən dövlətdə silahlı qüvvələr və təhlükəsizlik vəziyyəti haqqında məlumatların toplanması və təhlili;

2. Göndərən və qəbul edən dövlətin silahlı qüvvələri arasında əməkdaşlığın, ünsiyyətin və qarşılıqlı əlaqələrin təşviqi;

3. Səlahiyyətli nümayəndələrin işgüzar səfərlərinin təşkili;

4. Göndərən dövlətin hərbi hissələrinin qəbul edən dövlətdə dinc şəraitdə qalması;

5. Göndərən və qəbul edən dövlət arasında silah və hərbi texnika ilə bağlı sazişlərin imzalanması;

6. Göndərən dövlətin və onun silahlı qüvvələrinin qəbul edən dövlətdə rəsmi mərasimlərdə və digər tədbirlərdə təmsil olunması [8];

Qəbul edən dövlətin təhlükəsizlik vəziyyəti və silahlı qüvvələri haqqında məlumatların toplanması və təhlil edilməsini göstərilənlər arasında nisbətən mühüm funksiya kimi qeyd edə bilərik. Məhz 1-ci bəndə diqqət yetirsək, görərik ki, həmin funksiya bilavasitə hərbi attaşenin fəaliyyətinin əsas hissəsini təşkil edir. Hərbi diplomatiya hərbi attaşenin rolu ilə bilavasitə bağlıdır. Vəzifəsi təyin edildiyi ölkədə müdafiə xarakterli hadisələri müşahidə etmək və qiymətləndirmək, habelə xarici hərbi elita ilə əlaqə saxlamaq olan hərbi attaşe, tam diplomatik statusa sahib olan hərbi diplomatdır [1].

Çoxtərəfli hərbi diplomatiya bütün iştirakçı tərəflərin xarici siyasətinin hərbi komponentləri üzrə qərarların qəbul edilməsində beynəlxalq münasibətlər sisteminə ikidən çox aktorun cəlb edilməsi təcrübəsi kimi müəyyən edilir. Hərbi məsələlər üzrə beynəlxalq forumlar, konfranslar, simpoziumlar, seminarlar, görüşlər, kollektiv beynəlxalq təlimlər, beynəlxalq sülhməramlı fəaliyyət, beynəlxalq hərbi idman tədbirləri və s. buraya daxildir. Çoxtərəfli hərbi diplomatiya regional, subregional sahələrdə əməkdaşlıq imkanlarını artırmaq məqsədi daşıyır və beynəlxalq səviyyələrdə münaqişələrin idarə edilməsində mərkəzi rol oynayan müxtəlif institusional tərəfdaşlıqlar vasitəsilə münaqişənin qarşısının alınması həyata keçirilir. Hərbi diplomatiyanın çoxtərəfli forması beynəlxalq münasibətlər sisteminə yaxşıya doğru yön verən beynəlxalq müqavilələr üzrə danışıqları nəzərdə tutur. Hərbi diplomatiya böhran vəziyyətlərinə müdaxilə etmək və münaqişələrin qarşısını almaq məqsədi daşıyır. Bir çox dövlət böhranı həll etmək və ya dairəsinin genişlənməsinin qarşısını almaq üçün müxtəlif təşkilatlar, sammitlər, zirvə görüşləri çərçivəsində bir araya gəlir. Bir dövlət digər dövlətlərlə çoxtərəfli çərçivədə əməkdaşlıq edərək beynəlxalq böhranlara müdaxilə edə bilər. Bu, təbii fəlakətlərə, humanitar böhranlara və ya terror hücumlarına qarşı ola bilər. Çoxtərəfli hərbi diplomatiya, ümumiyyətlə, ümumi təhlükəsizlik məqsədlərinə nail olmaq məqsədi daşıyır. İki və ya daha çox dövlət ümumi təhlükəsizlik təhdidləri ilə mübarizə aparmaq, sülhü qorumaq və ya regional sabitliyi təmin etmək üçün mütəmadi olaraq görüşlər keçirilir.

Həmçinin hərbi diplomatiya beynəlxalq alyanslar (NATO kimi) və ya təşkilatlar (BMT-nin sülhməramlı qüvvələri kimi) çərçivəsində də həyata keçirilir. Bu cür strukturlar dövlətlərə əməkdaşlığa əsaslanan ümumi müdafiə strategiyaları hazırlamaq, regional və beynəlxalq təhlükəsizliyi artırmaq imkanı verir. Əlavə olaraq, dövlətlər arasında hərbi təlim proqramları və əməkdaşlıq müqavilələrinin imzalanması, ordular arasında qarşılıqlı əlaqəni artıra və birgə əməliyyat potensialını yaxşılaşdıran əsas amillərdən biridir.

**4. Nəticə**

Hərbi diplomatiya mexanizmləri "yumşaq güc" parametri kimi dövlətin müsbət imicini yaratmağa, müəyyən hərbi sahələrdə əməkdaşlığı təşviq etməyə və dövlətin müvafiq səviyyədə təhlükəsizliyini təmin etməyə kömək edir. Çünki hərbi diplomatiyanın ikitərəfli və çoxtərəfli mexanizminin əsas vəzifəsi dövlətin beynəlxalq münasibətlər sistemində irəliləməsi, həmçinin beynəlxalq və regional təhlükəsizliyin təmin edilməsində rolunun artırılmasıdır. Tarixən müdafiə diplomatiyasının əsas oxu hesab edilən düşmənə və ya maraq toqquşması olan digər aktora qarşı hərbi əməkdaşlıq formasında reallaşan realpolitika vurğusu "köhnə müdafiə diplomatiyası" kimi qəbul edilir. Bu baxımdan, "köhnə müdafiə diplomatiyası" ilə 1990-cı illərdən etibarən potensial düşmənlərlə işləmək, onlarla əməkdaşlıq etmək, demokratiyaya dəstək vermək, yaxşı idarəçiliyi və insan haqlarını təşviq etmək, onların öz təhlükəsizlik problemləri ilə mübarizə aparmaq üçün zəmin yaratmaq məqsədi daşıyan "yeni müdafiə diplomatiyası" anlayışı bir-birindən ayrı qiymətləndirilməlidir. Diplomatiya dolayı üsuldan istifadə etdiyi halda, müdafiə diplomatiyası birbaşa metoddan istifadə edir. Hərbi diplomatiya diplomatik məqsədlərə nail olmaq üçün hərbi qüvvələrin istifadəsini nəzərdə tutan beynəlxalq münasibətlərin əsas komponentidir. Qeyd etmək lazımdır ki, beynəlxalq münasibətlər nəzəriyyəsində hərbi diplomatiya siyasi və ya iqtisadi diplomatiyanın digər növləri ilə müqayisədə kiçik yer tutur.

Hərbi diplomatiya anlayışı ilə bağlı bəzi əsas məqamlar mövcuddur.

1. Təhlükəsizlik siyasəti: Hərbi diplomatiya çox vaxt dövlətin təhlükəsizlik siyasətinin bir hissəsi kimi nəzərdən keçirilir. Hərbi güc milli müdafiə, təhlükəsizlik və maraqlar üçün istifadə edilə bilər.

2. Sülhə tətbiq: Hərbi diplomatiya yalnız münaqişə vəziyyətlərində deyil, həm də sülh dövründə də istifadə edilə bilər. Hərbi əməkdaşlıq, birgə təlimlər və ya hərbi yardım proqramları kimi fəaliyyətlər vasitəsilə dövlətlər arasında əlaqələri gücləndirə bilər. Müdafiənin təmin edilməsi təkcə hərbi gücə əsaslanmır. Enerji, nəqliyyat, informasiya texnologiyaları, qida, səhiyyə; Bu elementlər müdafiə məsələsində mühüm yer tutur.

3. Mürəkkəb diplomatik strategiya: Hərbi diplomatiya çox vaxt mürəkkəb diplomatik strategiya tələb edir. Hər hansı bir dövlətin hərbi gücündən istifadə etmək qərarı diqqətlə nəzərdən keçirilməli və milli maraqlar, təhlükəsizlik məqsədləri və diplomatik münasibətlər nəzərə alınmalıdır.

4. Beynəlxalq əməkdaşlıq: Hərbi diplomatiya beynəlxalq əməkdaşlıq və ittifaqlar çərçivəsində də istifadə oluna bilər. Dövlətlər arasında hərbi əməkdaşlıq ümumi təhlükəsizlik məqsədlərinə nail olmaq üçün mühüm elementdir.

***ƏDƏBİYYAT SİYAHISI:***


*1. Sadiyev, S. Dövlətlərarası münasibətlərdə hərbi diplomatiyanın rolu // Azərbaycan Ordusu; 18 may 2022-ci il, – s. 6.*

*2. Cottey A. Reshaping Defence Diplomacy New Roles for Military Cooperation and Assistance / A. Forster – Routledge; 2005- p. 84*

*3. Cimbala S.J. Conflict Termination and Military Strategy: "Coercion, Persuasion, and War" // Taylor & Francis; 2019 – p. 208*

*4. Clausewitz C. V. On War// Princeton University Press; 1984 – p. 732*

*5. Drab L. Defence Diplomacy – An important tool for the implementation of foreign policy and security of state // Security and Defence Quarterly; 2018; No. 20(3) -p. 71*

*6. Griffith, S. B. "Sun Tzu, The Art of War" //New York:Oxford University Press; 1963 – p. 77*

*7. Muthanna, K.A. "Military Diplomacy." Journal of Defence Studies 5.1; 2011 - 15.*

*8. Pajtinka, E. Military diplomacy and its present functions // Security Dimensions. International & National Studies; 2016 - No. 20. – p. 194.*

*9. Winger G. The Velvet Gauntlet: A Theory of Defense Diplomacy // IWM Junior Visiting Fellows' Conference Proceedings, Vol. XXXIII 2014- p. 14*

*10. Willard J. E. Military Diplomacy: An Essential Tool of Foreign Policy at the Theater Strategic Level // School of Advanced Military Studies United States Army Command and General Staff College Fort Leavenworth, – Kansas; 2006 – p. 65*

*11. "Mahan's The Influence of Sea Power upon History: Securing International Markets in the 1890s" // https://history.state.gov/milestones/1866-1898/mahan*


**XÜLASƏ**


Hərbi fəaliyyət ilə diplomatiya, iqtisadiyyat, informasiya, kəşfiyyat və s. arasında əlaqələrin kökü çox qədimlərə dayanır. Bir çox nəzəriyyəçi və ekspertlər xarici siyasətin həyata keçirilməsi vasitəsi kimi əlaqələrin möhkəmləndirilməsində ordudan istifadənin səmərəliliyi barədə fikirlərini bildirirlər. Beynəlxalq münasibətlərin aktorları arasında hərbi əməkdaşlıq ümumi təhlükəsizlik məqsədlərinə nail olmaq üçün vacib ünsürdür. Hərbi diplomatiya bir neçə for-

mada olur; ikitərəfli və çoxtərəfli. Bu mexanizmlərdən istifadə edərək qarşılıqlı əlaqələri dərinləşdirmək üçün müvafiq strategiyaların hazırlanması məqsədi daşıyır. İkitərəfli hərbi diplomatiyanın əsas funksiyalarına silahlı qüvvələrin fəaliyyəti və təhlükəsizlik vəziyyəti haqqında məlumatların toplanması, silahlı qüvvələr arasında əməkdaşlığın, ünsiyyətin və qarşılıqlı əlaqələrin təşviqi, işgüzar səfərlərin təşkili, silah və texnika ilə bağlı işgüzar müqavilələrin dəstəklənməsi daxildir. Çoxtərəfli hərbi diplomatiya dedikdə isə bütün iştirakçı tərəflərin xarici siyasətinin hərbi komponentləri üzrə qərarların qəbul edilməsi prosesinə ikidən çox aktorun cəlb edilməsi təcrübəsi kimi müəyyən edilir. Çoxtərəfli diplomatiya regional və subregional şəraitdə əməkdaşlıq şanslarını genişləndirməyi nəzərdə tutur. Beynəlxalq səviyyədə mühüm rol oynayan müxtəlif institusional əməkdaşlıqlar vasitəsilə münaqişələrin qarşısının alınması, eləcə də münaqişələrin idarə edilməsinə xidmət edir.

**Açar sözlər:** *hərbi diplomatiya, beynəlxalq münasibətlər sistemi, güc siyasəti, mexanizmlər, əməkdaşlıq.*

**DURSUN MUSTAFAYEVA**
***Master student of Baku Slavic University***
***dursun.mustafayevaa@gmail.com***

**SUMMARY**

The relationship between military activity and areas such as diplomacy, economics, information, intelligence, etc., has its roots in the very old. Many theorists and experts express their views on the effectiveness of the military as a means of applying foreign policy in strengthening relations. military cooperation between actors of international relations is an important element for achieving common security goals. Military diplomacy takes several forms; bilateral and multilateral. It aims to develop appropriate strategies for deepening mutual relations using these mechanisms. The main functions of bilateral military diplomacy include gathering information on the activities of the armed forces and the security situation, promoting cooperation, communication and mutual relations between the armed forces, organizing business visits, and supporting business agreements related to arms and equipment. Multilateral military diplomacy is defined as the practice of involving more than two actors in the process of making decisions on the military components of the foreign policy of all participating parties. Multilateral diplomacy involves expanding the chances of cooperation in regional and subregional settings. It serves conflict prevention as well as conflict management through various institutional cooperations that play an important role at the international level.

**Keywords:** *military diplomacy, system of international relations, power politics, mechanisms, cooperation*

**ДУРСУН МУСТАФАЕВА**
***Магистрант Бакинского Славянского Университета***
***dursun.mustafayevaa@gmail.com***

**РЕЗЮМЕ**

Связь между военной деятельностью и такими областями, как дипломатия, экономика, информация, разведка и т.д., уходит корнями в очень старые времена. Многие теоретики и эксперты выражают свои взгляды на эффективность военных как средства применения внешней политики в укреплении отношений. Военное сотрудничество между субъектами международных отношений является важным элементом достижения общих целей безопасности. Военная дипломатия принимает различные формы: двустороннюю и многостороннюю. Она направлена на разработку соответствующих стратегий углубления взаимоотношений с использованием этих механизмов. Основные функции двусторонней военной дипломатии включают сбор информации о деятельности вооруженных сил и положении в области безопасности, содействие сотрудничеству, общению и взаимоотношениям между вооруженными силами, организацию деловых визитов, и поддержку деловых соглашений, касающихся оружия и оборудования. Многосторонняя военная дипломатия определяется как практика вовлечения более двух субъектов в процесс принятия решений по военным компонентам внешней политики всех участвующих сторон. Многосторонняя дипломатия предполагает расширение возможностей сотрудничества на региональном и субрегиональном уровнях. Она служит целям предотвращения конфликтов, а также урегулирования конфликтов посредством различных форм институционального сотрудничества, которые играют важную роль на международном уровне.

**Ключевые слова:** *военная дипломатия, система международных отношений, силовая политика, механизмы, сотрудничество.*

UOT 327(4/9)
DOI:10.30546/3006-0346.2024.2.80.521

# ZƏNGƏZUR DƏHLİZİ VƏ "YENİ İPƏK YOLU": İQTİSADİ-SİYASİ PERSPEKTİVLƏR

**SƏİDƏ MƏMMƏDOVA**
*Azərbaycan Turizm və Menecment Universitetinin Beynəlxalq münasibətlər kafedrasının doktorantı*

*E-mail: s.mammadova@gmail.com*

Azərbaycanın qətiyyətlə qalib gəldiyi İkinci Qarabağ müharibəsinin nəticələri regionda yeni düzənin yaranmasına səbəb olub. Bu, Azərbaycanın Cənubi Qafqaz regionunda siyasət və iqtisadiyyatda əsas təsiredici rolunu təsdiqləyir. Bu mühüm nailiyyət regionun siyasi və iqtisadi görünüşünü ümumiyyətlə dəyişdi. Bu, yeni əməkdaşlıqlar üçün müsbət mühit yaratdı. Azərbaycan müharibənin qalibi kimi əməkdaşlıq və sülh üçün real ideyalar irəli sürüb.

Bundan sonrakı mərhələdə Azərbaycan və Ermənistan arasında nəqliyyat və kommunikasiya qurmaq çox vacibdir. 10 noyabr 2020-ci il bəyanatında hər iki ölkə bu ərazidə iqtisadi və nəqliyyat əlaqələrini bərpa etmək barədə razılığa gəlib. Bu o deməkdir ki, Rusiya Sərhəd Xidməti Azərbaycanın qərb hissələri ilə Naxçıvan arasında logistikanın təhlükəsiz olmasını təmin edəcək. Bu, insanların, nəqliyyat vasitələrinin və malların hər iki istiqamətdə asanlıqla hərəkət etməsinə imkan verəcək. 10 noyabr bəyanatının 9-cu bəndində qeyd olunur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidməti həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək" [1].

44 günlük Vətən müharibəsindəki tarixi qələbə Azərbaycana dünyada daha önəmli bir tranzit ölkə statusunu qazandırıb. Bu baxımdan, reallaşması ehtimal edilən Zəngəzur nəqliyyat dəhlizi Azərbaycandan daha çox və qısa zamanda yüklərin daşınması imkanı yaradır. Təsadüfi deyil ki, İtaliyanın "İl Sole 24 Ore" qəzetinin müxbirinin dövlət başçısına ünvanladığı suallardan biri də Zəngəzur nəqliyyat dəhlizi ilə bağlı olub. Prezident İlham Əliyev Azərbaycanın dünyada tranzit ölkə kimi əhəmiyyətini xüsusi vurğulayaraq demişdir:

"Bütün bu işlər Rusiya-Ukrayna müharibəsindən əvvəl görülüb. Rusiya-Ukrayna müharibəsi Xəzərin şərq sahilindəki şirkətlər üçün bir siqnal oldu ki, bu marşrut daha da yaxından nəzərdən keçirilməlidir. Biz isə yaxşı tariflər təklif edir və bütün zəruri logistika dəstəyi təmin edirik. Yəni açıq dənizə çıxışı olmayan ölkə olaraq Azərbaycan bu gün regional nəqliyyat mərkəzinə çevrilir - təkcə şərqdən cənuba və geriyə deyil, həmçinin şimaldan cənuba. "Şimal-Cənub" nəqliyyat dəhlizi Azərbaycandan keçir və başqa marşrut variantı yoxdur. Həmin dəhliz, məsələn, Rusiya şirkətləri üçün əhəmiyyətli olur, çünki bu gün sanksiyalar səbəbindən onlar Avropa məntəqələrinə yük daşıya bilmir. Yəni Azərbaycandan keçərək İrana və Fars körfəzi sahillərinə gedən marşrut Rusiya şirkətləri üçün ən cəlbedici olur. Bunu Fars körfəzindən Azərbaycan vasitəsilə Rusiyaya uzanan marşrut haqqında da demək olar" [7, s.7].

İran İslam Respublikası ilə Şərqi Zəngəzur-Naxçıvan-İran dəhlizinin açılması barədə imzalanan Anlaşma Memorandumu Trans-Xəzər marşrutunun beynəlxalq əhəmiyyətini daha da artırıb. Belə ki, yeni dəhlizlə gün ərzində 500 giriş və 500 çıxış olmaqla, gündə 1000 nəqliyyat vasitəsinin keçidi təmin olunacaq. Bu isə yükdaşımada böyük rəqəmdir və Çin başda olmaqla, bütün dövlətlər bundan məmnundur. Bir sözlə, yeni təşəbbüslərin və maraqların artması Azərbaycanın beynəlxalq tranzit ölkə kimi əhəmiyyətini göstərir [9].

Özbəkistan və Türkmənistan prezidentləri səviyyəsində Cənubi Asiya və Cənubi Qafqazın nəqliyyat-logistika imkanlarına yanaşma da deməyə əsas verir ki, Mərkəzi Asiya ölkələrinin yeni nəqliyyat dəhlizlərindən, o cümlədən Azərbaycanın tranzit imkanlarından istifadədə maraqlar böyükdür. Zəngəzur dəhlizi ilə bağlı digər vacib məqamlardan biri də Aşqabad müqaviləsi ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivlər yaratmasıdır. Aşqabad müqaviləsi Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafı və digər nəqliyyat dəhlizləri ilə birgə fəaliyyətin təmin edilməsi məqsədilə imzalanıb. Bu ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizi vasitəsilə Avrasiya bazarlarına çatdırılması Şərqi Zəngəzur və Qarabağın iqtisadi potensialının artırılmasında da xüsusi rol oynaya bilər [5].

Zəngəzur dəhlizinin yaradılması iqtisadi üstünlüklərdən əlavə regional sabitliyə və əməkdaşlığa töhfə verə bilər. İqtisadi inteqrasiyanı və ortaq rifahı təşviq etməklə, dəhliz Cənubi Qafqazdakı xalqlar arasında siyasi fikir ayrılıqlarını aradan qaldırmağa və qarşılıqlı anlaşmaya kömək edə bilər. Bu ahəngdar mühit iqtisadi inkişafın və diplomatik əlaqənin müsbət əks əlaqəsini gücləndirərək, artan ticarət və əməkdaşlıq potensialını daha da gücləndirə bilər.

Zəngəzur dəhlizinin "Kəmər və Yol" Təşəbbüsünə inteqrasiyası Azərbaycanın geniş və müxtəlif ticarət tərəfdaşları şəbəkəsi ilə əlaqəsini əhəmiyyətli dərəcədə artırmaq potensialına malikdir, nəticədə iqtisadiyyatın diversifikasiyası üçün imkanlar açır və ölkənin məhdud bazar diapazonundan asılılığını azaldır. Böyük İpək Yolu layihəsinin geniş əhatə dairəsi Asiya, Avropa və Afrika da daxil olmaqla bir çox qitələrə yayılır. Zəngəzur dəhlizi vasitəsilə Azərbaycan müxtəlif ticarət tərəfdaşlarının çoxluğuna çıxışı təmin edərək bu hərtərəfli şəbəkəyə daxil ola bilər. Bu şaxələndirilmiş giriş Azərbaycana yeni bazarları, məhsulları və sənayeləri kəşf etməyə imkan verir, vahid bazara və ya ticarət tərəfdaşına həddən artıq asılılıqla bağlı riskləri azaldır [6].

Zəngəzur dəhlizi vasitəsilə bir çox bazarlara çıxış imkanı Azərbaycana daha çox iqtisadi dayanıqlılıq verir. Bir bazarda iqtisadi sarsıntılar və ya pozulmalar digər bazarlardakı imkanlardan istifadə etməklə azalda bilər. Bu gücləndirilmiş dayanıqlıq davamlı iqtisadi artıma və sabitliyə töhfə verir ki, bu da ölkənin uzunmüddətli inkişafı üçün mühüm əhəmiyyət kəsb edir [2].

İqtisadi dayanıqlıq hər bir ölkənin davamlı inkişafı və sabitliyi üçün əsas sütundur. Zəngəzur dəhlizinin "Kəmər və Yol" Təşəbbüsü çərçivəsində strateji istifadəsi Azərbaycanın çoxsaylı bazarlara çıxışı təmin etməklə onun iqtisadi dayanıqlığını gücləndirməyə hazırdır. Bu çıxış təkcə iqtisadi sarsıntıların təsirini azaldır, həm də regional münaqişələrin qarşısını almaq, müxtəlif millətlər arasında əməkdaşlığı inkişaf etdirmək və uzunmüddətli inkişafa töhfə vermək potensialına malikdir.

Unutmaq olmaz ki, iqtisadi şoklar qlobal iqtisadi mənzərənin ayrılmaz hissəsidir. Siyasi gərginliklər, ticarət mübahisələri, təbii fəlakətlər və ya maliyyə böhranları ölkənin ticarət yollarını və bazarlarını poza bilər. Azərbaycana Zəngəzur dəhlizi vasitəsilə bir çox bazarlara çıxış imkanı verməklə, ölkə öz gəlir mənbələrini diversifikasiya etmək və qəfil şokların mənfi təsirlərini minimuma endirmək imkanı əldə edir. Bir bazar tənəzzüllə qarşılaşdıqda, alternativ bazarlarla əlaqə qurma qabiliyyəti təsirləri azaldır və sabitliyə daha yumşaq keçidi asanlaşdırır.

Zəngəzur dəhlizinin strateji mövqeyi onun Mərkəzi Asiya ilə Türkiyə/Avropa arasında birbaşa quru əlaqəsi rolunu oynamağa imkan verir. Mövcud variantlarla müqayisədə daha qısa və səmərəli ticarət marşrutu təmin etməklə, dəhliz ticarət həcmini artıra və nəqliyyat xərclərini azalda bilər, bununla da Mərkəzi Asiya ölkələrindən Türkiyəyə və Avropaya ticarət axınını cəlb edə bilər. Dəhlizin yaradılması Cənubi Qafqaz və Anadolu vasitəsilə tarixən Mərkəzi Asiyanı Aralıq dənizi ilə birləşdirən qədim ticarət yollarını potensial olaraq canlandıracaq. Bu marşrutların modernləşdirilməsi və optimallaşdırılması ilə Zəngəzur dəhlizi tarixi ticarət əlaqələrini canlandıra və cəlb olunan regionlar arasında daha sürətli və fasiləsiz ticarətə imkan yarada bilər. Mərkəzi Asiya, Türkiyə və Avropa arasında ticarətin asanlaşdırılmasında dəhlizin rolu bu müxtəlif regionlar arasında iqtisadi inteqrasiyaya töhfə verə bilər. Təkmilləşdirilmiş əlaqə transsərhəd investisiya, texnoloji transfer və bilik mübadiləsinə, iştirakçı ölkələrdə iqtisadi artım və inkişafa təkan verə bilər [8].

Zəngəzur dəhlizinin inteqrasiyası çətin relyefə və ya siyasi amillərə görə tez-tez coğrafi əlaqəsi kəsilmiş ölkələr arasında əməkdaşlığı təşviq edə bilər. Birbaşa ticarət yolunun yaradılması xalqların tarixi gərginlikləri aşaraq və ortaq maraqları təşviq edərək əməkdaşlıq səylərinə cəlb edilməsi üçün stimul yaradır.

Mərkəzi Asiya enerji resursları ilə zəngindir və dəhliz Türkiyə və Avropaya enerji ixracı üçün daha səmərəli marşrut təmin edə bilər. Enerji ticarəti iqtisadi əlaqələrin təməl daşı ola bilər və dəhlizin yaradılması enerji təhlükəsizliyinə və istehlakçı ölkələr üçün diversifikasiyaya töhfə verə bilər.

Zəngəzur dəhlizinin "Kəmər və Yol" Təşəbbüsünə daxil edilməsi Çinin Cənubi Qafqazdakı maraqlarına bir neçə təsir göstərə bilər. Zəngəzur dəhlizi Çini Cənubi Qafqaza və onun hüdudlarından kənara birbaşa quru yolu ilə təmin edəcək, onun ticarət yollarını şaxələndirəcək və dəniz kanallarından asılılığı azaldacaq. Bu, Çinin regionda əlaqələrini və ticarət imkanlarını artıracaq. Cənubi Qafqaz strateji cəhətdən əsas enerji istehsal edən və enerji istehlak edən regionlar arasında yerləşir. Dəhliz Çinə Xəzər dənizi regionunda enerji resurslarına daha rahat çıxış təklif edə və potensial olaraq onun enerji təhlükəsizliyini gücləndirə bilər [4].

Çin ticarət yolları boyunca regionlarda sabitliyi qiymətləndirir. Dəhlizin iqtisadi əməkdaşlığı inkişaf etdirmək və gərginliyi azaltmaq potensialı Çinin ti-

carət və investisiya layihələri üçün sabitliyi saxlamaq marağına uyğun ola bilər. Çinin sözügedən təşəbbüsü tez-tez infrastruktur layihələrinin maliyyələşdirilməsini və dəstəklənməsini əhatə edir. Dəhlizin yaradılması Çinə mühüm nəqliyyat və logistika infrastrukturuna sərmayə qoymaq və inkişaf etdirmək üçün imkanlar təklif edə bilər ki, bu da onun regionda mövcudluğunu daha da möhkəmləndirə bilər.

Çin Cənubi Qafqaz ölkələri ilə diplomatik əlaqələrini dərinləşdirmək, regionda öz təsirini və bazarlara çıxışını artırmaq üçün dəhlizin inkişafında iştirakından istifadə edə bilər. Ancaq Zəngəzur dəhlizi "Kəmər və Yol" Təşəbbüsünün bir hissəsi olarsa, bu, ABŞ-ı Cənubi Qafqazdakı siyasətinə yenidən baxmağa vadar edə bilər. ABŞ öz maraqlarını qorumaq və təsirini saxlamaq üçün Çinin Cənubi Qafqazdakı mövcudluğu ilə daha fəal şəkildə əlaqə saxlamalı ola bilər. Bu, diplomatik səylərin artmasına və bölgədə Çinlə potensial əməkdaşlığa səbəb ola bilər.

Əgər dəhliz Cənubi Qafqazda iqtisadi artımı və sabitliyi gücləndirərsə, ABŞ öz təsirini və rəqabət qabiliyyətini saxlamaq üçün region ölkələri ilə daha dərin iqtisadi tərəfdaşlıqlar qurmağa çalışa bilər. ABŞ Cənubi Qafqazda öz müttəfiqliklərini və tərəfdaşlıqlarını gücləndirməklə, Gürcüstan, Azərbaycan və Ermənistanla əlaqələrini potensial olaraq gücləndirməklə Çinin təsirini balanslaşdırmağa çalışa bilər.

Cənubi Qafqaz enerji tranziti marşrutları üçün vacib olduğundan, ABŞ regionda enerji təhlükəsizliyinin təmin edilməsinə və şaxələndirilməsinə diqqət yetirə, Çinin mövcudluğunu tarazlaşdırmaq üçün potensial olaraq Avropa ilə əməkdaşlıq edə bilər. ABŞ öz siyasətindən dəhliz boyu sabitliyi və əməkdaşlığı təşviq etmək üçün öz təsirindən istifadə edərək regional münaqişələrin həlli səylərini dəstəkləmək üçün istifadə edə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin Bəyanatı. 10 noyabr 2020 / -president.az, URL: https://president.az/az/articles/view/45923*

*2. Baxşəliyev, R. Zəngəzur dəhlizi: Asiya Avropaya birləşir // Azərbaycan.-2021.- 28 oktyabr.- S.1; 3.*

*3. Ceyhun Bayramov: Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün geniş imkanlar yaranıb. Xalq qəzeti [İnternet resursu] / URL: https://xalqqazeti.com/pdf/xalq%201%20aprel%202022.pdf*

*4. Gawliczek, P.; Iskandarov, K. The Zangezur corridor as part of the global transport route (against the backdrop of power games in the South Caucasus region). Security and Defence Quarterly. 2023;41(1):36-53.*

*5. Guliyev, A. Old and current logistics managament in Azerbaijan and economic benefits of international logistic management in Azerbaijan. İzmir: İzmir Ekonomi Üniversitesi, 2022. 141 sayfa.*

*6. Qurbanqızı, Z. Zəngəzur dəhlizi yeni dünya reallığıdır // Respublika.-2023.- 26 may.- S.1;4.*

*7. Rüstəm Kamal, Azərbaycan regional nəqliyyat mərkəzinə çevrilir. Azərbaycan. - 2022.- 14 sentyabr.- S.7.*

*8. TRT World. What is the Zangezur Corridor and why does it matter to Eurasia? / -trtworld.com, URL: https://www.trtworld.com/magazine/what-is-the-zangezur-corridor-and-why-does-it-matter-to-eurasia-58405*

*9. Vaqif Bayramov, Qüdrətli Azərbaycan güclü region deməkdir. Xalq qəzeti.-2021.- 21 sentyabr.- S.1;2.*

*10. Zəngəzur dəhlizi: Geosiyasi maraqların toqquşduğu arena // Türküstan.-2021.- 6-12 aprel.- S.13.*

**SAIDA MAMMADOVA**
***Doctoral student of the Department of International Relations of Azerbaijan University of Tourism and Management***

## ZANGAZUR CORRIDOR AND "NEW SILK ROAD": ECONOMIC AND POLITICAL PERSPECTIVES
## SUMMARY

The Belt and Road Initiative, also known as the 21st Century Silk Road, is a vast infrastructure and investment project that aims to connect Asia, Europe and Africa through transport networks. Many countries have joined this initiative and signed agreements to attract Chinese investments. Analyzing diplomatic relations in this context involves assessing the motives behind participation. Some countries see it as a push for modernization and development, while others seek political influence or balance between global powers. Turkey is trying to strengthen its geopolitical influence by participating in the Great Silk Road project. By establishing regional relations, engaging in economic diplomacy and strengthening security cooperation, Turkey aims to establish itself as a major player in the geopolitical landscape of Eurasia. This is in line with its strategic goals of expanding influence and regional stability. NATO's position regarding Turkey's participation is complex. The Zangezur cor-

ridor, which is planned to be integrated into the "One Belt and Road" Initiative, has an important potential by strengthening the expanded trade relations between the Karabakh region and Nakhchivan, and promoting economic integration and stability in the South Caucasus. It will serve as a strategic road connecting Europe with Asia, providing efficient routes for goods and resources, diversifying trade options and strengthening economic stability. This corridor also promises diplomatic cooperation, conflict resolution and regional development.

**Keywords:** *Zangezur corridor, "Belt and Road" initiative, China, Azerbaijan, South Caucasus, "New Silk Road".*

**САИДА МАМЕДОВА**
***Докторант кафедры Международных отношений Азербайджанского Университета Туризма и Менеджмента***

## ЗАНГАЗУРСКИЙ КОРИДОР И «НОВЫЙ ШЕЛКОВЫЙ ПУТЬ»: ЭКОНОМИЧЕСКИЕ И ПОЛИТИЧЕСКИЕ ПЕРСПЕКТИВЫ

### РЕЗЮМЕ

Инициатива «Один пояс, один путь», также известная как «Шелковый путь 21 века», представляет собой обширный инфраструктурный и инвестиционный проект, целью которого является соединение Азии, Европы и Африки через транспортные сети. Многие страны присоединились к этой инициативе и подписали соглашения о привлечении китайских инвестиций. Анализ дипломатических отношений в этом контексте предполагает оценку мотивов участия. Некоторые страны видят в этом толчок к модернизации и развитию, в то время как другие стремятся к политическому влиянию или балансу между мировыми державами. Турция пытается усилить свое геополитическое влияние, участвуя в проекте Великого шелкового пути. Устанавливая региональные отношения, занимаясь экономической дипломатией и укрепляя сотрудничество в области безопасности, Турция стремится утвердиться в качестве крупного игрока на геополитическом ландшафте Евразии. Это соответствует ее стратегическим целям расширения влияния и региональной стабильности. Позиция НАТО в отношении участия Турции сложна. Зангезурский коридор, который планируется интегрировать в инициативу «Один пояс и путь», обладает важным потенциалом, укрепляя расширенные торговые отношения между карабахским регионом и Нахчываном, способствуя экономической интеграции и стабильности на Южном Кавказе. Он будет служить стратегической дорогой, соединяющей Европу с Азией, обеспечивая эффективные маршруты для товаров и ресурсов, диверсифицируя варианты торговли и укрепляя экономическую стабильность. Этот коридор также обещает дипломатическое сотрудничество, разрешение конфликтов и региональное развитие.

**Ключевые слова:** *Зангезурский коридор, инициатива «Один пояс, один путь», Китай, Азербайджан, Южный Кавказ, «Новый шелковый путь».*

### XÜLASƏ

"21-ci əsrin İpək Yolu" kimi də tanınan "Kəmər və Yol" Təşəbbüsü Asiya, Avropa və Afrikanı nəqliyyat şəbəkələri vasitəsilə birləşdirməyi hədəfləyən geniş infrastruktur və investisiya layihəsidir. Bir çox dövlətlər bu təşəbbüsə qoşularaq Çin sərmayələrini cəlb etmək üçün müqavilələr imzalayıblar. Bu kontekstdə diplomatik münasibətlərin təhlili iştirakın arxasında duran motivlərin qiymətləndirilməsini nəzərdə tutur. Bəzi ölkələr buna modernləşmə və inkişafa təkan kimi baxır, digərləri isə qlobal güclər arasında siyasi təsir və ya tarazlıq axtarır. Türkiyə Böyük İpək Yolu layihəsində iştirak etməklə öz geosiyasi təsirini gücləndirməyə çalışır. Regional əlaqələr qurmaq, iqtisadi diplomatiya ilə məşğul olmaq və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirməklə Türkiyə özünü Avrasiyanın geosiyasi mənzərəsində əsas oyunçu kimi göstərməyi hədəfləyir. Bu, onun təsir və regional sabitliyin genişləndirilməsi kimi strateji məqsədlərinə uyğundur. NATO-nun Türkiyənin iştirakı ilə bağlı mövqeyi mürəkkəbdir. "Kəmər və Yol" Təşəbbüsünə inteqrasiya olunması planlanan Zəngəzur dəhlizi isə Qarabağ regionu ilə Naxçıvan arasında genişlənmiş ticarət əlaqələrini gücləndirməklə, Cənubi Qafqazda iqtisadi inteqrasiyanı və sabitliyi təşviq etməklə mühüm potensiala malikdir. O, Avropanı Asiya ilə birləşdirən, mallar və resurslar üçün səmərəli marşrutlar təmin edən, ticarət variantlarını şaxələndirən və iqtisadi dayanıqlığı gücləndirən strateji yol kimi xidmət edəcəkdir. Bu dəhliz həm də diplomatik əməkdaşlıq, münaqişələrin həlli və regional inkişaf vədini verir.

**Açar sözlər:** *Zəngəzur dəhlizi, "Kəmər və Yol" təşəbbüsü, Çin, Azərbaycan, Cənubi Qafqaz, "Yeni İpək Yolu".*

UOT 327;930.22
DOI:10.30546/3006-0346.2024.2.80.564

# İSRAİL-FƏLƏSTİN MÜNAQİŞƏSİ VƏ ABŞ-NİN ROLU: SİYASİ DƏSTƏK VƏ DİPLOMATİK TƏŞƏBBÜSLƏR

**MƏLƏK CƏFƏRLİ**
*Azərbaycan Memarlıq və İnşaat Universiteti,*
*Beynəlxalq münasibətlər ixtisası üzrə doktorant*

*E-mail: rzaeva.m15@gmail.com*
*Orcid id: 0000-0002-7232-8465*

"Müqəddəs torpaq" iddiaları səbəbindən onilliklərdir ki, davam edən İsrail-Fələstin münaqişəsi son dövrlər yenidən kəskinləşərək aktual mövzulardan birinə çevrilmişdir. Yaxın Şərq regionu daim super dövlətlərin diqqət mərkəzində olmuşdur və İsrailin güclü tərəfdarı kimi Amerika Birləşmiş Ştatları münaqişənin ən əhəmiyyətli aktorlarındandır. Ancaq buna baxmayaraq, ardıcıl Amerika administrasiyaları biri İsrail və digəri Fələstin olmaqla iki dövlətlə nəticələnəcək sülh prosesi üçün yol xəritələri təklif edib, ənənəvi olaraq iki tərəfin rəqabət aparan iddialarını uzlaşdıracaq diplomatik həll yolunu irəli sürməyə çalışıb.

Yaxın Şərqdə kök salmağa çalışan sionizm ərəb dünyasında yerləşmiş xarici hərbi-siyasi baza yaratmaq məqsədi daşıyan hərəkat olmuşdur ki, burada öncə İngiltərə, daha sonra ABŞ dəstəyi danılmazdır. Tarixi təkanı hələ Teodor Herzl tərəfindən 1896-cı ildə qoyulan "Yəhudi dövləti" əsəri olmuşdur ki, Avropada anti-semitizmdən xilas olmaq üçün yəhudilərə sığınacaq yaradılması ideyasını təbliğ edirdi. [7] Altı milyon yəhudinin öldürüldüyü İkinci Dünya müharibəsinin Holokostundan sonra miqrasiya sürətlənmiş və nəticədə yəhudilərin tarixi məskəni hesab olunan Fələstin torpaqlarında yəhudi və ərəb olmaqla iki dövlətin yaradılması qərarına BMT Baş Assambleyası tərəfindən səs verilmişdir. İsrail dövlətinin rəsmi şəkildə qurulmasından sonra, yəni 1948-ci ildə, ilk Ərəb-İsrail müharibəsi baş vermiş və onilliklər ərzində silahlı qarşıdurmalar, terror aktları şəklində müasir dövrə qədər davam edən münaqişəyə çevrilmişdir. [7]

1967-ci ildə baş verən "Altı günlük" müharibə isə İsrail dövlətinin Şərqi Qüdsü, İordan çayının qərb sahilini və Qəzzanı işğal etməsi ilə nəticələnmişdir. Baxmayaraq ki, ərəb dünyası güclü birlik olub baş verən prosesə sərt reaksiya vermiş, ancaq İsrailin Qərb tərəfdarları sayəsində qalibiyyəti ilə hesablaşmalı olmuşlar. Daha sonradan ABŞ prezidenti Cimmi Karterin təşəbbüsləri nəticəsində İsrail və Misir başçıları bir araya gəlmiş, 1978-ci ildə iki həftə davam edən danışıqlardan sonra Kemp Devid müqaviləsi imzalanmışdır ki, ilk dəfə olaraq ərəb ölkəsi tərəfindən İsrail rəsmi dövlət kimi tanınmış və işğal etdiyi torpaqlar üzərində legitimliyi qəbul edilmişdir [3].

Buradan belə anlaşılır ki, yəhudi dövləti yarandığı ilk vaxtlardan etibarən ABŞ-İsrail münasibətləri yalnız diplomatik deyil, həm də hərbi-siyasi əlaqələri özündə əks etdirir. Heç təsadüfi deyil ki, ABŞ uzun müddətdir Yaxın Şərqi diqqət mərkəzində saxlayır və regionun əsas hərəkətverici qüvvəsi olan İsrail-Fələstin münaqişəsində əhəmiyyətli aktor kimi İsrail dövlətinə verdiyi dəstəklə balanslaşdırmaya, regional sabitliyin təmin olunmasına çalışır. Təbii ki, burada bir sıra strateji məqsədlər var. Bunlar, ardıcıl administrasiyalar tərəfindən Rusiya və İran təsirinin qarşısının alınması, İsrailin təhlükəsizliyinin qorunması, demokratiyanın təşviqi, enerji resurslarının təmin olunması, terrorizmlə mübarizə və s. ibarətdir.

Bu istiqamətdə müəyyən addımlar atılmışdır ki, onlardan biri də 1998-ci ildə Bill Klinton administrasiyasının İsrail və Fələstin arasında "iki dövlətli həll" prinsipi əsasında danışıqların yaradılmasına təşəbbüsü idi. Bu prinsip ardıcıl administrasiyaların öz həll təkliflərini irəli sürməyə şərait yaratmışdır ki, onlardan "Sülh üçün yol xəritəsi" (C.Buş), "Altı prinsip" (C.Kerri), "Rifah üçün sülh" (D.Tramp) planlarını qeyd etmək mütləqdir. Ancaq Tramp administrasiyası müəyyənləşdirilmiş siyasətdən bir qədər uzaqlaşaraq, danışıqlarda ABŞ-ın "neytral" aktor rolunu pozmuş, müxtəlif məsələlərdə İsrailə dəstək verərək, 2020-ci ildə tarixə "İbrahim Sazişləri" adı ilə düşən BƏƏ və İsrail arasında əlaqələrin normallaşdırılmasına yönələn razılaşmaya vasitəçilik etmişdir. [7]

2023-cü il İsrail-Fələstin münaqişəsinin aktuallaşan yeni dövründə ABŞ-nin regiona döyüş təyyarələri, silahlar, hücum qrupları göndərməsi, eyni zamanda İsrail tərəfinə diplomatik-siyasi dəstək verməsi diqqəti Bayden administrasiyasının bu böhrandakı xarici siyasət mövqeyinə yönəltdi. Ötən ilin 7 oktyabr tarixində, "Əl-Əqsa Fırtınası" əməliyyatları başladıqdan qısa zaman sonra müharibəyə ən tez reaksiya verən dövlətlərdən biri ABŞ olmuşdur. Əslində, Fələstin-İsrail münaqişəsinin həllini çətinləşdirən ən əsas amillərdən biri də ABŞ

başda olmaqla digər aktorların münaqişəyə öz maraq prizmasından müdaxilə etməsidir. İsrail dövləti yarandıqdan qısa zaman sonra ABŞ hökuməti tərəfindən tanındığı nəzərə alınarsa, heç də təsadüfi deyil ki, ABŞ bu müharibədə Təl-Əvivə hərbi-diplomatik dəstək göstərəcəkdir. Konqres ABŞ büdcəsinin müzakirə etdikdən sonra İsrailə hər il verdiyi hərbi yardım paketini təsdiqlədi. Hərbi dəstəklə yanaşı diplomatik olaraq da İsrailin tərəfində olduğunu göstərmək məqsədilə dövlət katibi E.Blinken də bölgəyə göndərilmişdi. [5]

İsraildən əsir düşənlərin azad edilməsi məqsədilə ABŞ müharibənin əvvəllərində region dövlətləri ilə intensiv diplomatik fəaliyyət həyata keçirirdi və atəşkəsin elan olunması üçün heç bir səy göstərilmirdi. Ancaq bir qədər sonra ABŞ humanitar reaksiyası çərçivəsində fələstinlilərin keçməsi üçün Qəzzadan Misirə dəhlizlərin açılması və İsraildən quru əməliyyatlarını təxirə salmasını tələb etdiyi qərarı onu göstərdi ki, Blinkenin İordaniya, İsrail və Fələstin də daxil olmaqla 7 region ölkəyə səfəri zamanı bağlı qapılar arxasında ərəb liderləri tərəfindən ciddi mesajlar alması bu dəyişikliyə səbəb olmuşdur. Eyni zamanda, Co Bayden və Mahmud Abbas (Fələstin prezidenti) arasında olan telefon danışığı zamanı, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasının hər iki münaqişə tərəfinin öhdəliyi olduğu, beynəlxalq hüquqa riayət olunmasının gərəkli olduğu kimi məsələlər müzakirə olunmuşdur və bundan əlavə, Fələstin prezidenti, mülki şəxslərin məcburi köçünün əleyhinə olduğunu, Qəzzaya təcili humanitar yardım olunmasının vacibliyini vurğulamışdır.

Güclü yəhudi diasporasının təsiri və yuxarıda sadalanan səbəblər də daxil olmaqla ABŞ administrasiyası "Altı günlük" müharibədən bəri öz hərbi-diplomatik dəstəyi ilə daim İsrailin tərəfkeşi rolunda çıxış edib və regionda özünə strateji müttəfiq kimi görərək ölkənin güclənməsi və inkişafı üçün çalışıb. Bu məqsədlə, Yaxın Şərqdə münaqişənin həllinə yönəlmiş bütün proseslərdə iştirak edərək, Oslo razılaşmaları, Yaxın Şərq dördlüyü, Kemp-Devid danışıqları kimi mühüm siyasi-diplomatik təşəbbüslərdə fəal vasitəçi rol oynamışdır. C.Bayden administrasiyasından əvvəl, D.Tramp prezidentlik dövründə də ənənəvi siyasətdən kənara çıxaraq səfirliyini Qüds şəhərinə köçürərək İsrailin paytaxtı kimi tanımışdır.

Modern dünya reallığında, İsrailin tərəfdarı kimi açıq və sərt müdaxilə kimi ABŞ-nin yanaşmasını təkcə yəhudiyönümlü siyasət kimi deyil, maraqlar prizmasından Ukrayna yanaşması ilə birlikdə nəzərdən keçirmək məqsədəuyğun olardı. Təbiidir ki, keçən əsrin 90-cı illərindən bəri, dünya dövlətləri, xüsusilə hegemon dövlətlər öz siyasi-iqtisadi güclərini birbaşa yox, dolayı yol ilə - yəni digər münaqişələr üzərindən yarışdırırlar.

Beynəlxalq sferada özünə rəqib kimi gördüyü digər güclü dövlətlərə qarşı Amerika digər kiçik aktorları dəstəkləməklə qarşılıq verir. Bu, "dünya düzənini" qorumaq məqsədilə beynəlxalq arenanın oyunçularını balanslaşdırmaq siyasəti kimi qələmə verilir və təsadüfi deyildir ki, Bayden administrasiyası, Avropada Ukraynanı, Şərqi Asiyada Tayvanı, Yaxın Şərqdə İsraili müdafiə edilməli olan müttəfiq kimi görür. Bununla, ABŞ həm İsrail kimi kiçik aktorların təhlükəsizlik baxımdan təhdidlərdən qoruyub, eyni zamanda rəqib aktorları cəsarətlənməyə imkan vermədən beynəlxalq nizamı "balanslaşdırır".

ABŞ-nin böhrandakı mövqeyini şərtləndirən əsas amillərdən biri də İsrailin diplomatik cəhətdən təcrid olunmasının qarşısını almaq və zəifliyini aradan qaldırmaq məqsədilə hərbi-siyasi kömək göstərərək ərəb dövlətləri ilə arasında olan normallaşmanı təmin etməkdən ibarətdir. Ancaq İsrail tərəfini gücləndirərək dəstəkləmək "təhlükəsizlik dilemmasını" aktual edir ki, bu zaman digər aktorlar İsrailə qarşı gəlməyə çəkinsələr belə, getdikcə hərbi-siyasi cəhətdən güclənən bu dövlət cəsarətlənərək irəli gedə bilər ki, bunu İran və onun qüvvələrinə qarşı ədalətli olmayan cavab hücumlarını mümkün edir.

Belə vəziyyətdə, digər beynəlxalq aktorların da maraqlı olduğu və bir neçə cəbhənin açıldığı geniş bir münaqişəyə ABŞ icazə verməyəcək, çünki Bayden administrasiyası İsrail tərəfini dəstəkləsə belə, Yaxın Şərq münaqişəsində özünün iştirakını lüzumlu hesab etmir. ABŞ-nin İsraili dəstəkləməsi təbiidir ki, digər dövlətlərlə də onu qarşı-qarşıya qoyur. Bunlardan ən əsas İran tərəfinə nəzər yetirsək, bəyanatda bu dövlətə hücum olunmaması təqdirdə münaqişəyə heç bir müdaxilə edilməyəcəyini görmək mümkündür. Lakin, ikili standartlar yürüdən İran belə bəyanət verməsinə baxmayaraq, ona müttəfiq aktorlar vasitəsilə böhranı alovlandıra biləcəyi mesajını da ictimaiyyətə ötürür. Bundan əlavə, Yəməndə "Xusi" qruplaşması, İraqda Bədr təşkilatı, həmçinin Hizbullah ABŞ-nin münaqişəyə birbaşa müdaxiləsi şəraitində müharibəyə cəlb olunacaqlarını bəyan etmişlər [6].

İsrailin dilemma qarşısında qalmağının əsas səbəblərindən biri, münaqişəyə ani olaraq hərbi hazırlığının olmaması durumunda əməliyyata cəhd etməsidir, çünki dövlət həm də siyasi liderlik böhranının yaşandığı bir dövrdən keçir. Bu səbəbdən, quru əməliyyat-

ları ilə bağlı Amerika rəsmiləri İsrailin hərbi-siyasi strategiyası olmadan başlamasının risklərinin çoxluğuna diqqət çəkmişdir. Çünki İsrailin Fələstinə qarşı qeyri-müəyyən strateji məqsədlərlə hücumlar təşkil etməsi, dəqiq əməliyyatlar tələb edən quru döyüşlərinə hərbi-kəşfiyyat və siyasi-diplomatik baxımından nə dərəcədə hazırlıqlı olub-olmamasını şübhə altında qoyur. ABŞ administrasiyasının İsrailə hərbi-diplomatik yardım göstərməsi, heç də Yaxın Şərq region münaqişəsində maraqlı olması deyil, yəhudi tərəfini təhdidlərdən qorumaq, zəifliyini aradan qaldırmaq və digər maraqlı aktorların müharibəyə cəlb olunmadan vəziyyəti balanslaşdırmaq siyasəti olduğu məlum olur.

Ümumilikdə, Yaxın Şərq böhranında ABŞ mövqeyinin liderliyini saxlamaqda bir sıra problemlərlə üzləşir. İlk növbədə, İran Amerika üçün İsrail ilə bağlı xarici siyasət strategiyasında mərkəzi yer tutan, həm Yaxın Şərq, həm də onun hüdudlarından kənarda əsas təhlükə kimi çıxış edir. Hazırdakı Bayden administrasiyası Trampın kəskin çıxışlarından fərqli olaraq İran rəsmilərinin bəyanatlarına etimad göstərmə səviyyəsi və danışıqlara qayıtmaq baxımından seçilir. Digər tərəfdən, Çin sülh prosesində ABŞ-nin liderliyi qarşısında digər təhdiddir, çünki əsas strateji rəqib kimi beynəlxalq məsələlərdə Çinin rolu, xüsusilə sülh vasitəçisi kimi artmaqdadır. Bu, həmçinin, İsrail-Çin iqtisadi əməkdaşlığının artırılması mövqeyindən də diqqət kəsb edir ki, son illər ərzində İsrailin üçüncü ən böyük investoru kimi çıxış edən Çin idxalda dominant yerə sahibdir.

Xarici problemlərdən əlavə, ABŞ administrasiyası qarşısında daxili problemlər də dayanır ki, bunlardan da ən əsas partiyaların İsrail-Fələstin böhranı ilə bağlı fikir ayrılıqlarıdır. Bu da regionda sülh və təhlükəsizliyin qorunması ilə bağlı respublikaçılar və demokratlar arasında olan yanaşmaların qeyri-sabit siyasətlə nəticələnən fərqliliyindən irəli gəlir. Təbii ki, bu ABŞ-İsrail hərbi-diplomatik əməkdaşlığın sadiqlikdən daha çox, müharibə zamanı qeyd-şərtsiz dəstək olub birbaşa və ya dolayı yolla müdaxilə baxımından müzakirələrə səbəb olur.

B.Obamanın prezidentliyi dövründə Yaxın Şərqə səfəri zamanı yaranan ziddiyyətləri partiyalararası fikir ayrılıqlarına misal göstərmək olar. Bu zaman, Fələstin xalqının öz müqəddəratını təyin edərək, milli dövlət yaratmaq hüququnu tanıyan B.Obama, İsrailin mübahisəli ərazilərdə (İordan çayının qərb sahili) yaşayış məntəqələrinin genişləndirməsini pisləmiş və bu münaqişənin hər iki tərəfin maraqlarını nəzərə almaqla regional əməkdaşlığa nail olmaq üçün formul təklif etmişdir. Lakin bütün bu ziddiyyətlərə baxmayaraq, Obamanın prezidentliyinin sonlarında iki ölkə arasında üçüncü anlaşma memorandumunun imzalanması, İsrailin yerini ABŞ-nin prioritet müttəfiqi kimi qoruyub saxlamışdır.

Bayden administrasiyası isə sələflərindən fərqli olaraq prezidentliyin ilk zamanlarında münaqişə tərəfləri arasında vəziyyəti pisləşdirə biləcək addımlardan qaçmağa çalışmış və ənənəvi Yaxın Şərq siyasət prinsiplərinə sadiq olaraq, mübahisəli ərazilərdə məskunlaşmanın genişləndirilməsinin qəbuledilməzliyi, İsrailin təhlükəsizliyinin təmin edilməsi və ərəb ölkələri ilə regional əməkdaşlığa nail olunması siyasət kursunu bəyan edən çıxışlar etmişdir. İsrail-Fələstin münaqişəsinin danışıqlar yolu ilə "iki dövlətli" həlli əsasında mümkünlüyü prinsipini qorumaq və hər iki tərəfin hüquqlarını müdafiə etmək mövqeyi baxımından 2022-ci ilin payız aylarında, eləcə də 2023-cü ildə keçirilən görüşlərdə həm prezident C.Bayden, həm də dövlət katibi E.Blinken tərəfindən vurğulanmışdır [2].

Qlobal miqyasda müxtəlif səviyyələrdə İsrail-Fələstin münaqişəsi müəyyən risklər və imkanlar yaradır ki, bu da, öz növbəsində, ABŞ-nin daxili və xarici siyasətinə ikili şəkildə təsir edir. Nəzəriyyədə daxili və xarici siyasətin bir-birinə qarşılıqlı şəkildə təsir etdiyi, yəni xarici siyasətdə yol verilən səhvlər özünü daxili siyasətdə də büruzə verməsi prinsipi vardır [1]. Bu baxımdan, analiz etdikdə, ABŞ-da partiyalararası və partiyalardaxili mübarizəyə Qəzzada baş verən proseslər təsir göstərə bilər. Qeyd etmək olar ki, mötədil və sol partiyalar arasındakı parçalanma, həmçinin vəziyyəti pisləşən hakim demokrat partiyası bu baxımdan problemləri daha da çətinləşdirir və öz növbəsində 2024-cü il seçkilərinə mənfi təsirsiz ötüşmür. Çünki İsrailyönlü mövqelərinə görə Bayden administrasiyası ərəb və müsəlman diasporasının dəstəyini itirə bilər. 2020-ci ildə yəhudi diasporasının üzvlərinin də böyük çoxluğunun Baydenə səs verdiyini nəzərə alsaq, administrasiyanın Yaxın Şərq siyasəti ilə uzlaşmayanların səs itkisini kompensasiya edə bilməyəcəyi qənaətinə gəlmək mümkündür [9]. İlk baxışdan respublikaçılar üçün vəziyyət müsbət fonda inkişaf etsə də, diqqətlə analiz edildikdə məlum olur ki, HƏMAS-ın hücumuna hazırlaşmadığına görə İsrail hökumətini tənqid edən və Hizbullahı "çox ağıllı" təşkilat adlandıran D.Trampın şərhləri həm Bayden administrasiyası, həm də İsrail hökuməti və Amerika yəhudilərinin tənqidinə səbəb olub. Eyni zamanda, respublikaçılar müxalifət partiyasının statusundan, həmçinin Nümayəndələr Palatasına nəzarətdən faydalanır.

Nəticə etibarilə, sözdə "ikitərəfli həll" yolunu dəstəklədiyini bəyan edən ABŞ rəsmiləri, praktik olaraq bu məsələ ilə bağlı fəaliyyət istiqamətində deyil və danışıqların baş tutması üçün doğru zaman olmadığını vurğulamışlar. Buna səbəb ərəb ölkələrinin Fələstin məsələsində əvvəlki qədər aktiv olmaması, xüsusilə, ərəb ölkələrinin İsrail ilə münasibətlərini yumşaldan "İbrahim razılaşmalarından" sonra sülh təşəbbüsləri öz mənasını itirmişdir. Bunun da bariz nümunəsi odur ki, Fələstinin tanınması ərəb ölkələrinin İsrail ilə normallaşma istiqamətindəki fəaliyyətində gündəmə gəlməmişdir və bu da "iki dövlətli həll" məsələsini ABŞ tərəfindən kənara qoyulmasına təkan olmuşdur. ABŞ-nin regionda daha rahat müdaxiləsinə şərait yaradan digər amil isə Rusiyanın Ukrayna müharibəsi ilə məşğul olduğu təqdirdə əvvəlki gücünü itirməsidir.

Son hadisələr onu göstərdi ki, Bayden administrasiyası "iki dövlətli həll" prinsipini gündəmə gətirərək sülhün bərqərar olması üçün vacib olduğu vurğulandı və bununla da bir daha aydın oldu ki, İsrail-Fələstin münaqişəsi tam həllini tapmayınca Yaxın Şərqdə daimi sülh və təhlükəsizlikdən söhbət gedə bilməz. İsrail dövlətinin təhlükəsizliyinin təmin olunması ABŞ üçün olduqca vacibdir, çünki bu Yaxın Şərq regionunda Amerikanın mövcudluğuna zəmanət verir. Bununla da, Yaxın Şərqlə əlaqədar ənənəvi siyasətin bərpası, İsrailin yeni koalisiya hökumətinin yaratdığı problemlərin və İran, Çin kimi aktorların yarada biləcəyi təhlükələrin aradan qaldırılması ABŞ üçün ən əsas vəzifələrdəndir. Danılmaz faktdır ki, ABŞ-nin güclü strategiyası və dünyanın super güclərindən olması lazım gəldiyi təqdirdə Yaxın Şərq regionunda tərəflər arasında vasitəçi aktor rolunu oynamaq və rəqiblərinə qalib gəlmək iqtidarındadır.

Xüsusilə, "iki dövlətli həll" prinsipi ilə nizamlanma müəyyən töhfələr verə bilər. Ancaq regionda Misir, Türkiyə, Rusiya, Çin, İran kimi rəqib aktorların maraqlarının toqquşması, tərəflərarası razılaşmaya vasitəçilik etmək önündə maneələrlə qarşılaşdırsa da, müəyyən zaman sonra ABŞ vasitəçiyə olan ehtiyacdan mümkün qədər yararlanaraq vəziyyəti öz xeyrinə yönəldəcəkdir. Qlobal səviyyədə isə mənzərə Amerika üçün bir o qədər də ürəkaçan deyil, çünki Yaxın Şərqdə son dövr münaqişənin yenidən kəskinləşməsi ABŞ-ın "Asiyaya dönüşünü" ləngitməyə vadar edə, həm də onu Ukrayna hadisələrindən yayındıra bilər və administrasiya bütün dünyanı ABŞ-nin eyni vaxtda iki müharibə aparmağa qadir olduğuna inandırmağa çalışsa da, bu cür bəyanatlar o qədər də inandırıcı görünmür.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Bakı, Mütərcim, 2007. - 208 səh.*

*2. Бреславцева А. Политика Дж. Байдена по урегулированию ближневосточного конфликта: новые вызовы, старые проблемы. 24.05.2023 [elektron resurs]URL:https://www.imemo.ru/publications/policy-briefs/text/politika-dzh-baydena-po-uregulirovaniyu-blizhnevostochnogo-konflikta-novie-vizovi-starie-problemi*

*3. Erden K. 1948'den Bugüne, Tarihi ve Siyasi Yönleri ile "İsrail-Filistin Sorunu". Anlambilim MTÜ Sosyal ve Beşerî Bilimler Dergisi. Yıl: 2023, Cilt: 3, Sayı: 1, ss.262-274.*

*4. Feierstein G., Rudman.M., Ford.R., Abercrombie-Winstanley G., Winer J. Expert Views: US diplomacy and the Israel-Hamas war. 25.10.2023. [elektron resurs] / URL:https://www.mei.edu/publications/expert-views-us-diplomacy-and-israel-hamas-war*

*5. Gezer G. ABD bundan sonra İsrail-Filistin ihtilafının çözümünde bir rol oynayabilecek mi? 16.10.2023 [elektron resurs] / URL: https://www.indyturk.com/node/667441/t%C3%BCrki%CC%87yeden-sesler/abd-bundan-sonra-i%CC%87srail-filistin-ihtilaf%C4%B1n%C4%B1n-%C3%A7%C3%B6z%C3%BCm%C3%BCnde-bir-rol*

*6. İlhan B. İsrail-Filistin meselesinde ABD ne yapmaya çalışıyor? 27.10.2023 [elektron resurs] / URL: https://www.aa.com.tr/tr/analiz/gorus-israil-filistin-meselesinde-abd-ne-yapmaya-calisiyor/3029700*

*7. Robinson K. What Is U.S. Policy on the Israeli-Palestinian Conflict? 12.07.2023 [elektron resurs] / URL: https://www.cfr.org/backgrounder/what-us-policy-israeli-palestinian-conflict*

*8. Usher B. Israel Gaza: US in diplomatic dash to contain conflict. 17.10.2023. [elektron resurs] / URL:https://www.bbc.com/news/world-us-canada-67128900*

*9. Юрк А. "Ад и Израиль": как США справляются с очередным обострением палестино-израильского конфликта. 3.11.2023 [elektron resurs] / URL:https://russiancouncil.ru/analytics-and-comments/analytics/ad-i-izrail-kak-ssha-spravlyayutsya-s-ocherednym-obostreniem-palestino-izrailskogo-konflikta/*


## XÜLASƏ


Tədqiqatda, 2023-cü il İsrail-Fələstin münaqişəsinin aktuallaşan yeni dövründə ABŞ-nin Yaxın Şərq regionundakı aktor kimi fəaliyyəti, siyasi strategi-

yası, diplomatik dəstəyi və həll təşəbbüsləri araşdırılmışdır. Ötən il 7 oktyabr tarixində, "Əl-Əqsa Fırtınası" əməliyyatları başladıqdan qısa zaman sonra müharibəyə ən tez reaksiya verən dövlətlərdən biri ABŞ olmuşdur. Əslində, Fələstin-İsrail münaqişəsinin həllini çətinləşdirən ən əsas amillərdən biri də ABŞ başda olmaqla digər aktorların öz maraq prizmasından məsələyə müdaxilə etməsidir. İsrail dövləti yarandıqdan qısa zaman sonra ABŞ hökuməti tərəfindən tanındığı nəzərə alınarsa, heç də təsadüfi deyil ki, ABŞ bu müharibədə Təl-Əvivə hərbi-diplomatik dəstək göstərəcəkdir. Son hadisələr onu göstərdi ki, ABŞ administrasiyası "iki dövlətli həll" prinsipini yenidən gündəmə gətirərək sülhün bərqərar olması üçün vacibliyi vurğulandı və bununla da bir daha aydın oldu ki, İsrail-Fələstin münaqişəsi tam həllini tapmayınca Yaxın Şərqdə daimi sülh və təhlükəsizlikdən söhbət gedə bilməz.

**Açar sözlər:** *ABŞ, İsrail-Fələstin münaqişəsi, Bayden administrasiyası, "iki dövlətli həll" prinsipi, Yaxın Şərq, təhlükəsizlik dilemması.*

**Malak Jafarli**
***Azerbaijan University of Architecture and Construction, lecturer***
***rzaeva.m15@gmail.com***

**The Israeli-Palestinian conflict and the role of the United States: political support and diplomatic initiatives**

**SUMMARY**

In this analytical study, the activities of the United States as an actor in the Middle East region, its political strategy, diplomatic support, and resolution initiatives were examined in the new era of the Israeli-Palestinian conflict in 2023. Shortly after the start of the "Al-Aqsa Storm" operations on October 7 of last year, one of the countries that reacted the fastest to the war was the United States. In fact, one of the main factors complicating the resolution of the Palestinian-Israeli conflict is the interference of other actors, including the United States, in the matter from the perspective of their own interests. Considering that the state of Israel was recognized by the US government shortly after its creation, it is no coincidence that the US will provide military and diplomatic support to Tel Aviv in this war. Recent events have shown that the US administration has re-introduced the principle of the "two-state solution" and emphasized its importance for the establishment of peace, thus making it clear once again that there can be no talk of permanent peace and security in the Middle East unless the Israeli-Palestinian conflict is fully resolved.

**Key words:** *USA, Israeli-Palestinian conflict, Biden administration, "two-state solution" principle, Middle East, security dilemma.*

**Малак Джафарли**
***Азербайджанский Университет Архитектуры и Строительства, преподаватель***
***rzaeva.m15@gmail.com***

**Израильно-палестинский конфликт и роль США: политическая поддержка и дипломатические инициативы**

**РЕЗЮМЕ**

В исследовании рассматривалась деятельность США в ближневосточном регионе, политическая стратегия, дипломатическая поддержка и инициативы по урегулированию в новую эпоху израильско-палестинского конфликта в 2023 году. 7 октября прошлого года, вскоре после начала операции «Буря Аль-Аксы», одной из стран, которая быстрее всех отреагировала на войну, были США. Фактически, одним из основных факторов, осложняющих разрешение палестино-израильского конфликта, является вмешательство других государств, в том числе США, с точки зрения собственных интересов. Учитывая, что государство Израиль было признано правительством США вскоре после его создания, неслучайно США окажут военно-дипломатическую поддержку Тель-Авиву в этой войне. Недавние события показали, что администрация США вновь ввела принцип «решения двух государств» и подчеркнула его важность для установления мира. Тем самым еще раз стало ясно, что не может быть и речи о постоянном мире и безопасности на Ближнем Востоке до тех пор, пока не будет полностью разрешен израильско-палестинский конфликт.

**Ключевые слова:** *США, израильско-палестинский конфликт, администрация Байдена, принцип «решения двух государств», Ближний Восток, дилемма безопасности.*

UOT 316.285
DOI:10.30546/3006-0346.2024.2.80.615

# MÜASİR DÜNYADA ETNİKLİYƏ DAİR NƏZƏRİ MÜLAHİZƏLƏRİN TƏHLİLİ

**MƏRYƏM ORUCLU**
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun Antropologiya Mərkəzinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru,dosent*

*E-mail: oruclu.meryem@gmail.com*

Müasir dövrdə xüsusilə, polietnik dövlətlərin dağılması nəticəsində dünyanın etno-siyasi palitrası ciddi dəyişikliklərə məruz qalmışdır. Belə ki, bir çox amillərin təsiri ilə dünyanın demək olar ki, bütün regionlarında bəşəriyyət etnik münaqişələrdən qaynaqlanan təhlükə ilə üz-üzədir. Bu proseslərdən daha çox əziyyət çəkən isə millətlər və xalqlardır. Dünyada cərəyan edən etno-siyasi proseslərin mahiyyətini dərindən dərk etmək və bu prosesləri düzgün qiymətləndirmək üçün etniklik anlayışının mahiyyətini və etnikliyə münasibətdə tarixən formalaşan fərqli yanaşmaları araşdırmaq zəruridir.Tarixən tədqiqatçılar arasında etniklik anlayışına, o cümlədən etnik mədəniyyətin təbiəti ilə əlaqədar fərqli yanaşmalar mövcud olmuş və olmaqdadır. Bu sahədə tədqiqatçılar arasında fikir birliyi yoxdur.

Etnikliyin mənşəyi və mahiyyəti ilə bağlı irəli sürülən nəzəriyyələrdən biri primordializm nəzəriyyəsidir. "Primordializm" terminini ilk dəfə 1957-ci ildə antropoloq Edvard Şils dinin insanları bir xəyali cəmiyyətə bağlamaq qabiliyyətinə dair bir məqalədə təqdim etmişdir (1,s.21-22). Primordializm nəzəriyyəsinin tərəfdarları ən qədimdən, hətta ibtidai icma dövründən sonradan "etnos" adlandırılan kollektiv icmaların mövcud olduğunu iddia edirlər. Etniklik fenomeninə primordialist yanaşma tərəfdarları hesab edirlər ki, əzəli bioloji əlamətlər və xüsusiyyətlər, xüsusilə ərazilər mövcud olduğuna görə etnik qruplar və millətlər mövcuddur. Hər hansı etnik qrupa mənsub olan insanlar arasında qohumluq əlaqəsi mövcuddur. Bəhs edilən bu qohumluq eyni zamanda etnik qrupların öz ailələrinə oxşarlığını fikirləşməsinə imkan yaradır. Etnik qrupa mənsub olan insanlar arasında harmoniya qardaşlıq əlaqələri səviyyəsindədir. Burada etnik dil isə qohumluq dilidir. Etnik qrupların qrup daxilində davranışları da ailə qaydalarına uyğun olaraq formalaşdırılır. Məsələn, Qabon və Kamerunda bir-biri ilə mübarizə aparan qəbilə və etnik qrup üzvləri yenidən birləşib mübarizəyə başlayanda, onlar özlərinin əvvəlki nizamsızlığını ailə daxilində baş verən adi dava-dalaş kimi izah edirdilər. Bu fikirlərin müəllifi olan tədqiqatçı alim Donald L. Horovitsə görə, etnik qohumluq əlaqələri ailənin etnikliyə analoji təsirindən yarana bilməz. Belə ki, ikili arasında daha çox birbaşa əlaqələr mövcuddur. Hər hansı mənsubiyyət ailə münasibətlərinin qohumluğundan yaranır və bu prosesdə etnik əlaqələr ailə əlaqələrində piramidvari şəkildədir. Bəzi kiçik etnik qruplar qəbilələrin qohumluq əlaqələri fonunda çox zəif görünür. Burada əsas və əhəmiyyətli rolu adət-ənənəsi, dini, dili olan nisbətən daha böyük yarımqruplar və böyük qruplar oynayır (14,s.57).

Primordialist yanaşma tərəfdarları əsas olaraq etnikliyə daha çox diqqət yetirir və hətta bir qrup tədqiqatçılar etnik müharibələri dərisinin rənginə, dini mənsubiyyətinə, qan qrupuna və digər əlamətlərinə görə həmrəy olmuş bir qrup insanların özünü dərk etməsi uğrunda mübarizəsi kimi qeyd edir (3,s.62). Primordialist nəzəriyyənin tədqiqatçıları etnikliyə münasibətdə əsasən iki yanaşma üzərində dayanırlar. Bunlar biososial və sosial-tarixi yanaşmalardır. Etnikliyə biososial yanaşmanın tərəfdarları Çarlz Darvinin formalaşdırdığı məşhur təbii seçmə qanunlarını həm də insan cəmiyyətinə şamil edir və hesab edirlər ki, insan özünü qoruma və nəsil saxlamaq instiktinə tabe olur. İnsan genlərini qorumaq və yaymaq üçün məhz təbiət tərəfindən "proqramlaşdırılmışdır". Biososioloqların fikrincə, insanın təkamül yolu ilə öz mövcudluğu uğrunda mübarizəsi kollektivdə baş verir və eyni zamanda kollektivin bir hissəsi olmaq istəyi insan təbiətinə xas olan xüsusiyyətdir. Uzun müddət ərzində formalaşan və eyni zamanda müəyyən dərəcədə sabitliyi qoruyub saxlamağı bacaran kollektivdə tədricən müəyyən genofond yaradılır. Bu genofondun daşıyıcıları öz mövcudluqlarını mühafizə etmək, genlərinin sağ qalmasını təmin etmək, o cümlədən icmanın bioloji sağlamlığını qorumaq və özünü çoxaltmaq üçün digər insan populyasiyaları ilə mübarizə aparırlar (10,s.38).

Qərb tədqiqatçıları içərisində etnikliyə biososial yanaşmanın görkəmli nümayəndəsi hesab olunan Pyerom van der Berqenin fikrincə, etniklik hər şey-

dən əvvəl əcdadlara meyillidir. Məhz bu cür əcdadlara bağlılıq etniklik fenomenində əsas və həlledici rol oynayır (9,s.220).

Etnikliyə biososial yanaşmaya daha çox maraq göstərən L.N.Qumilyov etnosu bəşəriyyətin təkamülü üçün nəticə deyil, ilkin şərt hesab edir. O, qeyd edir ki, həqiqətən müxtəlif xalqlar müxtəlif tarixi dövrlərə və fərqli tarixi talelərə malikdirlər. Həmin fərqli talelər isə ayrı-ayrı insanların xarakterini formalaşdıran şəxsi tərcümeyi-hallar kimi silinməz iz qoyurlar. İnsanların onları qidalandıran təbiətlə gündəlik təması vasitəsi ilə onları əhatə edən coğrafi mühit də etnoslara təsirsiz qalmır. Eyni zamanda bu prosesdə əcdadlardan miras qalan adət-ənənələr də öz rolunu oynayır, o cümlədən qonşuluqda olan etnik əhatə ilə ənənəvi düşmənçilik və yaxud dostluq da özünün mədəni təsirini göstərir. Bu prosesdə dinin də əhəmiyyətli dərəcədə təsiri var. Bütün bunlarla bərabər. hər hansı təbii hadisə kimi, məhz etnoslara məxsus olan inkişaf qanunları mövcuddur (6,s.14). Müasir dövrdə elm aləmində etnikliyə biososial yanaşma o qədər də populyar deyil. Etnikliyə dair primordialist nəzəriyyədə sosial-tarixi və mədəni-psixoloji yanaşmalar tədqiqatçılar arasında hələ də kifayət qədər üstünlük təşkil edir. Bu yanaşmanın tərəfdarları etnikliyi çoxəsrlik tarixi təcrübə nəticəsində formalaşan davamlı sosial fenomen, təcrübəli qrup kimi xarakterizə edirlər. Y.Bromley də məhz etnosu tarixən müəyyən ərazidə formalaşan, oxşar mədəniyyəti və psixologiyası olan və digər qruplardan fərqlənən sosial-mədəni birlik kimi təqdim edir (4,s.9). Bu nəzəriyyənin tərəfdarları etnik kimliyi doğulduğu gündən bəri əldə etdiyi qapalılığı fərdin əsas xüsusiyyəti kimi izah edirlər. Burada hər hansı bir sinif və ya siyasi amillər mövcud deyil. Yəni etnik mənsubiyyətinə görə rusiyalı Rusiya, Kanada və digər ölkələrdə də dəyişməz olaraq qalır (5, s.20-39).

Primordialist nəzəriyyənin tərəfdarları bu yanaşmada həm güclü, həm də çoxlu sayda zəif amillərin olduğunu qeyd edirlər. Onlar güclü amil dedikdə, hər zaman sosial həmrəyliyə diqqəti cəlb edirlər. Belə ki, dərinin, saçların rəngi kimi digər fiziki əlamətlərlə sosial həmrəyliyin elementar formasını müəyyənləşdirən, xarici görünüşünü əks etdirən çoxlu sayda qruplar mövcuddur. Bu cür həmrəylik ümumi şəkildə xalqın gücünə əsaslanır və "biz kimik" sualı ortaya çıxdıqda ümumi düşmən, ümumi dil, ümumi tarix anlayışları meydana gəlir. Zəif amillər sırasına isə etnik qrupların hansı səbəbdən dəyişikliyə uğraması, yenidən meydana çıxması ilə bağlı düşüncələr aiddir. Bütün bunlar da onu göstərir ki, etniklik fenomeninin çox mürəkkəb təbiəti var və etniklik xarici əlamətlərə görə izah oluna bilməz (13,s.6).

Etniklik fenomeninin mahiyyəti ilə bağlı olan nəzəriyyələrdən biri də instrumentalizm nəzəriyyəsidir. London İqtisadi Məktəbinin alimi Entoni Smitin göstərdiyinə görə, bu nəzəriyyə 1960-1970-ci illərdə Amerika Birləşmiş Ştatlarında etniklik fenomeninin təhlili ilə əlaqədar keçirilən müzakirələr zamanı gündəmə gəldi (7,s.48-49). Xüsusilə 1970-ci illərin ortalarında Qərb tədqiqatçıları arasında etniklik fenomenini hakimiyyət, status, sərvət uğrunda aparılan mübarizədə istifadə olunan alət kimi qəbul edən instrumental yanaşma geniş yayılmışdır. Etnikliyə bu yanaşmanın yaradıcıları hesab edirdilər ki, cəmiyyətdə mövcud olan insan qrupları arasındakı fərqlər hər bir qrupun etnik kimliyinin formalaşması üçün əsas ola bilər. Bu da öz növbəsində qruplararası münasibətlərin xarakterini müəyyən edir və etnik qrupları məqsədyönlü şəkildə siyasi fəaliyyətə səfərbər edir (10,s.47).

İnstrumental nəzəriyyə tədqiqatçıları əsas diqqəti etnik kimliyin rasional aspektinə yönəldirlər (2,s. 62-63). Onlar müəyyən bir vəziyyətdə insanların reaksiyasını bir növ etnikliyin düşüncəsi kimi qiymətləndirirlər. Belə vəziyyətdə isə etnik kimliyin tarixi resurslardan, o cümlədən öz məqsədlərinə nail olmaq üçün siyasi imkanlardan məqsədyönlü və özünəməxsus şəkildə istifadə etmək imkanı meydana gəlir.

İnstrumentalizmin bəzi tədqiqatçıları etnik həmrəyliyin "struktur şərtlər" adlandırdıqları sosial şəraiti necə gücləndirdiyinin təhlili ilə kifayətlənirlər. Lakin digər tədqiqatçılar daha da irəli gedərək müəyyən sosial şəraitin istənilən siyasi, iqtisadi və digər sosial məqsədlərə nail olmaq üçün bir vasitə kimi etnik kimliyin rasional strateji seçiminə necə gətirib çıxardığını təhlil edirlər ki, bu da öz növbəsində qrup həmrəyliyini gücləndirir. Bununla əlaqədar demək olar ki, instrumental konsepsiyasında siyasi yanaşma adlandırılan göstəricilər də mövcuddur və o, rasional seçim nəzəriyyəsinə əsaslanır (10,s.48).

Rasional seçim nəzəriyyəsinə əsaslanan bəzi instrumentalist tədqiqatçılar (Heçter, Banton) hesab edirlər ki, müxtəlif mənşəli və kökənli insanların qarşılıqlı münasibətdə olduqları situasiyalarda etnik kimliklər vəziyyətin şərtlərinə və tələblərinə uyğun olaraq qabardıla bilər, vurğulana bilər və ya gizlədilə bilər. Elə bir vəziyyət yarana bilər ki, fərdin öz etnik kimliyini açıqlaması hər hansısa bir səbəbdən onun

mənafeyinə uyğun olsun. Məhz bu zaman insanlar öz etnik mənsubiyyətini vurğulamaqda maraqlı olurlar. Lakin digər bir situasiyada isə etnik kimliyi vurğulamaq insana sərf etmirsə, o zaman insan öz etnik mənsubiyyətini açıqlamaqda maraqlı olmur və hətta bəzən gizlədirlər. O cümlədən geyim və özünü aparma tərzi də vəziyyətə uyğun olaraq dəyişə bilər. Məhz vəziyyətə görə dəyişən bu etniklik nəzəriyyəsinə görə, liderlər etnikliyi siyasi məqsədlərinə uyğun olaraq idarə edə bilərlər. Buna görə də liderlər bu cür hallarda etniklik fenomenindən yüksək səviyyədə faydalanmağa və bu nəzəri ideyaları geniş yaymağa çalışırlar (1,s.23).

Etnik problemlərin təhlilində istifadə olunan rasional seçim nəzəriyyəsinin tərəfdarlarından olan amerikalı tədqiqatçı Devid Leytin insanların müxtəlif qruplarda eyni vaxtda yaşayıb fəaliyyət göstərməsinə və onların hər birində müxtəlif rollar oynamasına diqqəti cəlb edir. Onun fikrincə, buna görə də hər bir insanda eyni vaxtda bir çox kimliklər - ailə, cins, sinif, dini və etnik kimliklər ortaya çıxır. Bu zaman insan vəziyyətdən asılı olaraq həmin anın ehtiyaclarına və həyat məqsədlərinə uyğun olan kimliyi seçir. Belə bir situasiyada insan mücərrəd kollektiv kimliyi üçün deyil, öz mənafeyi üçün ağlabatan seçim edir. Buradan belə nəticə çıxır ki, müxtəlif kimliklər fərdin dəyişən şəraitdən istifadə edə biləcəyi xüsusi resurs növüdür. Buna görə də kimliyə (identikliyə) fərdin öz məqsədlərinə çatması vasitələrindən biri kimi qiymət verilir. Burdan belə nəticəyə gəlmək olar ki, ayrı-ayrı fərdi kimliklərin, o cümlədən etnik və milli kimliklərin dəyişməz əsası yoxdur və ola bilməz. Hər bir şəxs öz mənafeyindən çıxış edir və bu maraqlar ona hansısa mücərrəd kollektiv kimliklərdən asılı olmayan fəaliyyət tərzini diktə edir. Leytin Baltikyanı ölkələrdə rusdilli əhalinin ehtimal olunan assimilyasiyası və Baltikyanı ölkələrin mədəniyyətinə tam inteqrasiyası ilə bağlı həssas bir konsepsiya irəli sürdü. Onun fikrincə, prestij mülahizələri təbii olaraq maddi amillərlə tamamlanır. Eyni zamanda qeyd etmək lazımdır ki, etnik mənsubiyyəti seçərkən bu amillər prestijdən daha əhəmiyyətli olur və ya daha ağır gəlir. Məsələn, prestij mülahizələri bir vaxtlar Alyaskanın bir çox yerli sakinlərinə öz mənşəyini unutdurdu və özlərini yerli əhalinin dominant əksəriyyəti ilə eyniləşdirməyə məcbur etdi (16). İnstrumentalizmin bəzi ideyalarını qüsurlu hesab edən bəzi tədqiqatçılar hesab edirlər ki, əslində etnik fərdlərin seçimi tamamilə azad ola bilməz və etnik kimlik nisbi xarakter daşımır. Digər tərəfdən isə bu nəzəriyyə irrasional etnik amilləri nəzərə almır. Bir vasitə kimi onun səmərəliliyi yalnız maraqlardan deyil, həm də etnik identikliyin emosional qavrayışlarından asılıdır (11,s.19).

1970-1980-ci illərdə primordialist və instrumentalist nəzəriyyə tərəfdarları olan tədqiqatçılar arasında gedən müzakirələr daha intensiv xarakter aldı. Bu nəzəriyyələr arasında fərq ondan ibarətdir ki, insanların mənşəyinə, qohumluğuna əhəmiyyət verən primordialist tezislər çox zaman xalqın özünü anlaması, özünü dərk etməsi, etnik ortaqlığı və birliyinin izahı ilə uyğun gəlir. Etnikliyə instrumentalist yanaşma isə daha çox siyasi elitanın strategiyalarını və motivlərini izah edir. Primordialistlər öz nəzəriyyəsi çərçivəsində etnik kimliyin dəyişdirilməsi məsələsini izah etməkdə çətinlik çəkirlər. Lakin instrumentalist yanaşma isə bu cəhətdən daha güclü görünür. Digər tərəfdən instrumentalizm tədqiqatçıları etnik kimliklərin uzun bir tarixi dövr boyunca necə və hansı səbəbdən qorunub saxlanmasını izah etməkdə çətinlik çəkirlər.

Etnikliyə dair digər yanaşma funksionalizmdir ki, onun da əsasları O. Kont və Herbert Spenser tərəfindən qoyulmuşdur. Funksionistlər etnikliyə zamanla məhdudlaşan fenomen kimi baxırlar. Bu nəzəriyyənin tərəfdarları üçün mədəniyyətin necə fəaliyyət göstərməsi, insanların hansı ehtiyaclarını ödəməsi, mədəni norma və dəyərlərin necə ötürülməsi vacibdir. Bu nəzəriyyənin tədqiqatçıları ingilis alimləri B.Malinovski və A.R.Redkliff-Braundur. İngilis antropoloqlarının başlıca predmeti daha çox tədqiq olunan cəmiyyətlərin sosial quruluşunu qohumluq sistemləri, icma, tayfa və sinfi təsisatlar şəklində öyrənməkdir. Onların fikrincə, mədəniyyətlər arasındakı fərqlər mədəniyyətlərdən asılı olmayan əsas ehtiyacların ödənilməsi üsulları ilə bağlıdır. Malinovski bu üsulları "həyatın mədəni standartı" adlandırırdı. Sonralar funksionalizmin bu müddəaları etnik münaqişələr üzrə bəzi tədqiqatçılar üçün "öz milli müqəddaratını təyinetmə" naminə zorakılığa və hətta terrora haqq qazandıran bir nəzəriyyənin formalaşması üçün əsas oldu (10,s. 42).

Funksionalizm etnologiyanın bütün sahələrində ilk olaraq tətbiqi xarakterini bəyan etdi. Belə ki, onun ardıcılları Afrikadakı ingilis koloniyalarında və Britaniya Hindistanında aktual siyasi problemlərin həllini təmin etmək üçün tətbiqi elm kimi sosial antropologiyanı yaratmağa çalışdılar. Burada birinci və əsas siyasi vəzifə isə ənənəvi cəmiyyətlərin üstünlük təşkil etdiyi ərazilərdə idarəetmənin təşkili məsələsi idi.

Beləliklə, ingilis müstəmləkə siyasətində "dolayı nəzarət" anlayışı işlənb hazırlandı ki, bu da müstəmləkə ərazilərində və burada yaşayan tayfalara və xalqlara ənənəvi hakimiyyət institutlarının köməyi ilə nəzarət etmə problemini həll edirdi (10,s.43).

Etniklik fenomeni ilə bağlı olan nəzəriyyələrdən biri də konstruktivizm nəzəriyyəsidir. Bu nəzəriyyənin əsasları 1967-ci ildə tədqiqatçılar Piter Berger və Tomas Lukman tərəfindən qoyulmuşdur. Onlar sosial reallığı qiymətləndirərək qeyd edirlər ki, insanlar birlikdə onu əhatə edən insan mühitini, onun sosial-mədəni və psixoloji təsisatlarının məcmusunda yaradırlar. Lakin bunların heç biri insanın bioloji quruluşunun məhsulu kimi başa düşülə bilməz və o, yalnız xarici sərhədləri müəyyən edir. Qeyd edək ki, xüsusilə XX əsrin 90-cı illərində konstruktivizm nəzəriyyəsi ümumi paradiqma kimi diqqəti cəlb etməyə başlayır. Konstruktivizm müxtəlif qrupların əsasında dayanan etnikliyi inkar etmir, lakin etnikliyin sonrakı inkişafına cəmiyyətin sosial strukturu prizmasından qiymət verir. Konstruktiv yanaşma əvvəlcə ABŞ-də və digər immiqrant ölkələrdə daha çox populyarlıq qazandı. Bu ölkələrdə konstruktivizm nəzəriyyəsinin populyarlığı avtoxton mədəniyyət daşıyıcılarının birləşmə əsasında yaratdıqları dövlət təsisatlarından ibarət olan polietnik cəmiyyətlərdən fərqli olaraq bu ölkələrdə uzun müddət etnik qrupların olmaması ilə izah edilir. Burada, əlbəttə ki, aborigen əhali istisna olunur. Etnikliyin dünya elmində ən geniş yayılmış anlayışı etnikliyi sosial identikliyin kateqoriyası, simvolik ayrı-seçkilik yolu ilə yaradılmış situasiya fenomeni kimi müəyyən edən norveçli alim F. Bartın adı ilə bağlıdır. F. Bart hesab edirdi ki, etnik sərhəd sosial həyatı istiqamətləndirir, yəni etnik sərhədlər qrup fərqliliyinin əsaslarının formalaşması üçün ən mühüm meyar kimi önə çıxır. F. Bart etnikliyi həqiqi bir əsası və sosial məzmuna malik olan kimlik kimi izah edirdi. F. Bart daha çox etnik qrupların uzun zaman ərzində nəsildən- nəslə keçməsinə və qalıcı olmasına diqqəti cəlb edir. Uzun illər belə izah olunmuşdur ki, ortaq mədəniyyət, bəzi hallarda ortaq dil, ənənələrin özəyi və ortaq təcrübəsi ilə bərabər ortaq din etnik qrupun uzun müddət davamlılığı üçün əsas yaradır. Buradan belə çıxır ki, ümumi mədəniyyətin özəyi digər qruplara qarşı sərhədlərin təməlini qoyur. Bu məntiqə görə etnik fərqlərin təbii izahı odur ki, öz-özünü qoruyub saxlayan xalqlar az və ya çox dərəcədə qonşu xalqlardan izolyasiya şəraitində yaşayırlar (1,s.24). Bu məntiqi qəbul etməyən F. Bart hesab edirdi ki, bir qrupun ümumi mədəniyyəti, dini və dili başqaları ilə sərhədlər yarada bilməz. Əksinə, mövcud qrupun ümumi dilinə, mədəniyyətinə və dininə şərait yaradan etnik sərhədlərin olmasıdır. F.Bart göstərir ki, etnik fərqlərin meydana gəlməsi və saxlanılması qrupların təcrid vəziyyətində yaşamasına görə deyil, əksinə qrupların sərhəd boyunca baş verən qarşılıqlı sosial əlaqədə yaşadıqlarına görədir. Yəni etnik kimliklər bir-biri ilə qarşılıqlı münasibətdə müəyyən edilirlər (3,s.25).

Etnikliyə kontruktivist yanaşmanın digər nümayəndəsi B. Andersonun icmanın təsviri ilə bağlı konsepsiyasında etnik qrupların sosial xarakter daşımasının vacibliyi qeyd olunur. 1930-cu ildə Belçika müstəmləkəçilərinin Ruandada Tutsi/Hutu qəbilələrinin fərqlərini mal-qara sahibləri, fiziki əlamətlər və kilsə qeydləri əsasında kodifikasiya etdikdən sonra etnikliyə konstruktivist yanaşmanın tərəfdarları Ruandanı nümunə kimi qeyd edirlər. Çünki kimlik kartları yuxarıda qeyd edilən kimi hazırlandı və bu sənədlər 1994-cü il qırğınlarında əsas rol oynadı (15,s.27).

Konstruktivizmin bəzi nümayəndələri hesab edirlər ki, etnik əlamətlərin hər biri -dil, mədəniyyət və adət-ənənə müəyyən dərəcədə yalnız etniklik fenomeni üçün deyil, həm də ictimai-sosial münasibətlərin digər növləri üçün də xarakterik ola bilər. Belə yanaşma B.Anderson, V.Domingez, D. Rotşild və başqalarının tədqiqatlarında öz əksini tapmışdır (8,s.25).

Etniklik fenomeninə yuxarıda bəhs etdiyimiz yanaşmaların qarşılıqlı olmasını nəzərdə tutan və xarakterizə edən digər bir nəzəriyyə inteqrativ nəzəriyyə son zamanlar diqqəti cəlb edir. Bu yanaşmanın nümayəndəsi A.S. Tatunça görə, etnik şərhləri bioloji, idealist, sosial-sinfi və psixoloji olaraq birmənalı şəkildə vermək lazımdır (12,s.73).

Beləliklə, etniklik fenomeninə aid primordializm nəzəriyyəsi bioloji olaraq və dəyişməz etnik əlaqələri qəbul etdiyi halda, instrumental yanaşma daha çox etnik əlaqələrin mübahisəli və dəyişkənliyini qəbul edən postmodernizm və postkolonializm üçün daha tipikdir. Postmodernizm dedikdə, etnik kimliyin yenidən qurula bilməsi, dekonstruktə oluna bilməsi, onun daha sonra yeni məzmunda başqa bir formada meydana gələ bilməsi nəzərdə tutulur. Bu instrumental baxışa əsasən etnik kimlik bir çox digər kimlik quruluşları arasında bir konstruksiyadır. Primordialist yanaşma isə hesab edir ki, etniklik yalnız qrup əlaqələri və kollektiv kimliklərdən bəhs edən ümumi sosioloji və sosial-psixoloji nəzəriyyələrin köməyi ilə

təsvir edilə və izah edilə bilməyəcək bir unikal fenomendir. Primordialist yanaşmaya görə, etniklik fenomeni etnikliyə aid olan xüsusi nəzəriyyə tələb edir. İnstrumental yanaşma isə etniklik fenomeninin qrup əlaqələri, kimliklər və hakimiyyət haqqında ümumi ictimai elm nəzəriyyəsinin köməyi ilə çox asanlıqla izah edilə biləcəyini vurğulayır.

**Açar sözlər:** *etniklik, primordializm, instrumentalizm, konstruktivizm, funksionalizm.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. *Kərimi Səadət. Azərbaycanın milli və siyasi ideologiyası haqqında. "Elm və təhsil" nəşriyyatı, Bakı, 2018, 145s.*

2. *Аклаев А.Р. Этнополитическая конфликтология. Анализ и менеджмент, М, Дело, 2005, 472с.*

3. *Альтерматт У. Этнонационализм в Европе. М, Рос.гуманит.ун-т, 2000, 367с.*

4. *Бромлей Ю.В. Очерки теории этноса. М., 1983, 390с.*

5. *Буянова Н.В. Спесифика и причины этнополитического конфликта. Ученные записки Казанского Гос. Университета, 2007,с. 20-39.*

6. *Гумилев Л.Н. Этногенез и биосфера . Земли-СПБ: Питер, 1999,230с.*

7. *Энтони Смит. Национализм и модернизм: Критический обзор современных теории нации и национализма. Праксис (Серия"Новая наука политики"), 2004, 464 с.*

8. *Дробижева Л.М. Социальные проблемы межнациональных отнощений в пост-советской Россий. М., Праксис, 2003, 320 с.*

9. *Малахов В.С. Национализм как политическая идеология. М., КДУ, 2005,320с.*

10. *Тишков В.А., Шабаев Ю.П. Этнополитология: политические функции этничности : (Учебник для вузов) Тишков В.А., Шабаев Ю. П.- М., Издательство МГУ, 2011, 376 с.*

11. *Тишков В.А. Идентичность и културная границы. М., Наука,1997, 230 с.*

12. *Татунц С. А. Этносоциология: проблемы, перспективы преподавания. Вестн. Моск. ун-та. Сер.18. Соц. и пол.-2000, №1,с.67-77.*

13. *Кочесоков Р.Х. Этнические конфликты. Нальчик, 2007, 90 с.*

14. *Donald Horowitz L. Ethnic Groups in conflict. Berkeley, CA: University of California Press, 1985, 700p.*

15. *Mamdani M. When Victims become killers: Colonializm, Nativizm and the Genoside in Rwanda. Princeton,NJ: Prinseton University Press // Theories of ethnic conflict // WWW.en.Wikipedia. org*

16. *https: //cyberleninca.ru- Лейтин Д.Теория политической идентичности. Этническая мобилизация и межэтническая интеграция. Москва, ЦИМО,1999,с.65-102.*

**MARYAM ORUCLU**
***Anthropology Center of the Institute of Archeology and Anthropology of ANAS, leading researcher, associate professor***

### Analysis of theoretical considerations of ethnicity in the modern world

### SUMMARY

The article iz devoted to the analysis of theoretical considerations put foward on the consept of ethnicity. Thus, in the article, the existing theories on ethnicity were grouped and extensively analyzed. Also, similar and different aspects of the theories related to the mentioned topic are examined and presented. Including the reasons of different approaches to the concept of ethnicity are examined in detail in the article.
**Key words:** *ethnisity, primordialism, istrumentalism, constructivism, funcsionalism.*

**МАРЬЯМ ОРУДЖЛУ**
***Ведущий научный сотрудник, доцент Центра Антропологии Института Археологии и Антропологии НАНА***

### РЕЗЮМЕ

Статья посвящена анализу теоретических соображений, выдвинутых по поводу понятия этничности. Таким образом, в статье сгруппированы и подробно проанализированы существующие теории этничности. Также были рассмотрены сходные и различные аспекты теорий, связанных с упомянутой темой, в отнощении этнической принадлежности. В том числе в статье подробно рассматриваются причины различных подходов к понятию этничность.

**Ключевые слова:** *этничность, примордиализм, инструментализм, конструктивизм, функционализм.*

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.667

# KEÇMİŞ ERMƏNİSTAN SSR-in BASARKEÇƏR RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI (1948-1988-ci illər)

**BƏXTİYAR ƏHMƏDOV**
*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu, tarix üzrə fəlsəfə doktoru*
*E-mail: emlak2017@mail.ru*

Göyçə mahalı Azərbaycanın ən qədim tarixə malik ərazilərindən biri olmaqla tarixən Azərbaycan xalqının təşəkkül tapdığı vahid və nəhəng areala daxildir. Qədim zamanlardan bu ərazilərdə yaşayan avtoxton əhali dil, maddi və mənəvi mədəniyyət, iqtisadi həyat şərtləri, ənənəvi təsərrüfat sahələrinin xüsusiyyətləri baxımından Azərbaycanın digər ərazilərində yaşayan əhali ilə mənşə birliyinə malik olmuş və xalqımızın çoxəsrlik tarixi ənənələrinin formalaşmasında mühüm rol oynamışdır [6, 22].

XIX əsrin II yarısı – XX əsrin əvvəllərində də İrəvan bölgəsinin inzibati-ərazi bölgüsündə nəzərə çarpacaq əhəmiyyətli dəyişikliklər baş vermədi. Bütün bu dövr ərzində Göyçə mahalı Yeni Bəyazid qəzasının tərkibində qaldı.

SSRİ-nin 1926-cı il yanvarın 1-ə olan ərazi inzibati bölgüsündə ZSFSR-in tərkibinə daxil olan Ermənistan SSR-nin inzibati cəhətdən 8 qəzadan, 936 nahiyədən və 827 kənd sovetindən ibarət olduğu bildirilirdi [16, 21].

1930-cu ildə “İrəvan quberniyası” inzibati bölgüsü ləğv olundu. Ermənistan SSR-nin ərazisində 5 dairə təşkil olundu: Zəngəzur, Leninakan, Lori, Sevan və Yerevan. Göyçə gölü hövzəsinə daxil olan torpaqlar Sevan dairəsinin tərkibinə daxil idi. Bu ərazilərdə 3 rayon – Basarkeçər, Yeni Bəyazid (Kamo) və Martuni rayonları yaradıldı.

Basarkeçər adlı kənd kimi hələ “İrəvan əyalətinin icmal dəftəri”ndə [7, 61] Məzrə nahiyəsinə daxil olan kəndlərin sırasında qeyd edilmişdir.

1988-ci ildə nəşr olunmuş Ermənistan SSR-in inzibati ərazi bölgüsünə aid kitabda Basarkeçər (Vardenis) rayonunun ərazisi 1151 kv.km, 14 kənd sovetində birləşmiş 37 yaşayış məntəqəsindən ibarət olmuşdur. Əhalisinin sayı 60,4 min nəfər, o cümlədən 13,3 min nəfər şəhər əhalisi, 47,1 min nəfər isə kənd əhalisi idi [15, 128].

Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin 11 iyun 1969-cu il fərmanı ilə Basarkeçər rayonunun adı dəyişdirilərək Vardenis adlandırılmışdır [10, 128].

Cənubi Qafqazda müsəlmanlara, ilk növbədə də Azərbaycan türklərinə qarşı genişmiqyaslı cinayətkar əməllərindən heç vaxt əl çəkməyən ermənilər və ruslar tərəfindən XX əsrin ortalarında azərbaycanlılara qarşı növbəti deportasiya siyasəti həyata keçirildi. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 saylı qərarı və 1948-ci il 10 mart tarixli 754 saylı sərəncamı Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı oldu.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın müstəqilliyi – Respublika günü münasibətilə söylədiyi nitqində demişdir: “Azərbaycan xalqına bu dövrdə vurulan ən böyük zərbələrdən biri də 1948-1953-cü illərdə Azərbaycan xalqına qarşı sovet hakimiyyəti tərəfindən edilmiş ən böyük ədalətsizlikdir. Təəssüflər olsun ki, tarixçilərimiz və hamımız nədənsə bu hadisəyə o vaxtlar da və indi də, xüsusilə dövlət müstəqilliyimizi əldə edəndən sonra da doğru-düzgün qiymət verə bilməmişik” [3, 4].

Tarixi faktlar onu göstərir ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR-dən köçürülməsi qərarı iqtisadi amillərlə bağlı olmayan sırf siyasi qərar idi. Məqsəd tarixi Azərbaycan torpaqları olan Ermənistan SSR ərazisindən azərbaycanlıları tamamilə çıxarmaq, əvəzində xaricdə yaşayan erməniləri bu ərazilərə köçürmək, Türkiyə ilə sərhəd boyunca xristian koridorunu bir qədər də genişləndirmək idi.

Bunu 23 dekabr 1947-ci il Ermənistan SSR-dən “azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin” qərarı da təsdiq edir. Bu qərarın 11-ci maddəsində açıqca deyilir: “Ermənistan SSR Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistana gələn erməniləri yerləşdirmək üçün istifadə etsinlər” [3, 83].

Azərbaycanlıların Ermənistan SSR-dən bu deportasiyası ərəfəsində Göyçə mahalını əhatə edən inzibati ərazi hissələrində – Krasnoselo, Basarkeçər, Martuni, Yeni-Bəyazid rayonlarında ümumilikdə 37850 nəfər əhali yaşayırdı. Bu axımdan Ermənistan SSR-in azərbaycanlılar yaşayan, tədqiqatımıza uyğun rayon və kəndlərini göstərmək yerinə düşərdi.

Krasnoselo rayonunun Ardanış, Ağbulaq, Cil, Toxluca, Armixep kəndlərində 7250 nəfər azərbaycanlı yaşayırdı. Basakeçər rayonunun Babacan, Pəmbək, Güney, Şişqaya, Göysu, Kəsəmən, Canəhməd, Bala Məzrə, İnəkdağ, Zod, Qanlı, Azad, Zərkənd, Nərimanlı, Qayabaşı, Əzizli, Qaraqoyunlu, Sarıyaqub, Daşkənd, Aşağı Subatan, Çiçəkli, Qoşabulaq, Tustülü kəndlərində yalnız azərbaycanlılar, Böyük Məzrə, Yuxarı Zağalı, Yarpızlı, Çaxırlı kəndlərində isə azərbaycanlılar və ermənilər qarışıq yaşayırdılar və ümumi sayları 14750 nəfər idi [3, 236].

Artıq yuxarıda da qeyd edildiyi kimi, 1947-ci il dekabr ayının 23-də "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" SSRİ Nazirlər Sovetinin qərarı çıxır. 1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Soveti həmin qərarın faktiki reallaşdırılması üçün xüsusi bir sərəncam qəbul edir. Köçürmə ilə əlaqədar tədbirlər bu sərəncamda ətraflı şərh olunurdu.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilirdi ki, 1948-1950-ci illərdə "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min azərbaycanlı kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülsün. Onlardan 10 min nəfərin 1948-ci ildə, 40 min nəfərin 1949-cu ildə, 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulurdu. Azərbaycan SSR və Ermənistan SSR Nazirlər sovetlərinə tapşırılırdı ki, köçürüləcək əhali arasında köçürmənin şərtləri və köçürülənlərə dövlət tərəfindən 7 güzəşt haqqında geniş izahat işləri aparılsın. Köçürülənlər ilə onların yola salınmasından ən geci 10 gün qabaq bütün hesablar aparılsın, qazandıqları əmək günlərinin haqqı ödənilsin, köçənlərin şəxsi istifadəsində olan bütün əmlakın, o cümlədən heyvan və quşların aparılmasına da şərait yaradılsın [11, 8-9].

Həmin qərarla Ermənistandan köçürülən azərbaycanlı əhaliyə aşağıdakı "güzəştlər" nəzərdə tutulurdu: köçürülən hər ailəyə pulsuz olaraq iki tona yaxın ev əşyası və kənd təsərrüfatı heyvanları aparılması; köçürülən ailələrin ailə başçısına 1000* manat, hər ailə üzvünə isə 300 manat pul yardımı göstərilməsi; köçürülənlər üçün Kür-Araz ovalığında nağd pulla hər ailə başçısına 1,5 sentner və hər ailə üzvünə isə 0,5 sentner taxıl satın almağa icazə verilsin və s.

1948-ci il mart ayının 10-da SSRİ Nazirlər Sovetinin İ.Stalinin imzası ilə "Ermənistan SSR-dən azərbaycanlı kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" qəbul etdiyi sərəncamda göstərilirdi ki, o, "SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarına əlavədir". 1948-ci il 10 mart tarixli sərəncamda artıq köçürmə ilə əlaqədar konkret tədbirlərdən bəhs olunurdu. Burada qeyd edilirdi ki, Ermənistan SSR-dən Kür-Araz ovalığına köçən kolxozçular özləri ilə əsas istehsal vasitələrini-kənd təsərrüfatı maşınlarını, avadanlığı, canlı və mexaniki qoşqu qüvvələrini, bütün növdən olan ev heyvanlarını və quşları, arı ailələrini, nəqliyyat vasitələri və başqa əşyaları da apara bilərlər. Dəyirmanlar, çoxillik ağaclar, elektrik stansiyaları və başqa mədəni-məişət tikililəri isə buraya daxil deyildir [11, 10].

Hələ 1948-ci ilin martında Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi H.Seyidov Ermənistanda olmuşdular. Onlar Ermənistan SSR rəhbərləri ilə azərbaycanlılar yaşayan rayonlara yollanaraq kolxozçular arasında köçürmənin qaydaları və şərtləri haqqında izahat işləri aparmışdılar. Azərbaycan SSR Nazirlər Sovetinin 1948-ci il 13 may tarixli qərarına əsasən həmin il Ermənistan SSR-in Yerevan şəhərinin Stalin və Spandaryan rayonlarından, habelə Basarkeçər, Vedi, Artaşat, Noyenberyan, Oktenberyan, Zəngibasar və başqa rayonlardan Azərbaycana 2757 təsərrüfatın (12177 nəfərin) köçürülməsi planlaşdırılırdı. Onlardan 6215 nəfərini Kür-Araz ovalığında, 5962 nəfərini isə Azərbaycanın digər rayonlarında yerləşdirmək nəzərdə tutulurdu. Köçürülənlər Bakının Əzizbəyov və Voroşilov rayonlarında, habelə Gədəbəy, Xanlar, Şamxor, Martuni, Səfərəliyev, Qasım İsmayılov, Göyçay, Quba, Bərdə, Ağstafa, Ucar, Ağcabədi, Salyan kənd rayonlarında yerləşdirilməli idi [11, 14].

Göyçə mahalının inzibati ərazi vahidlərindən 1949-cu ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi ilə bağlı nəzərdə tutulan planı izləmək yerinə düşərdi. Belə ki, 1949-cu ildə Basarkeçər rayonunda yaşayan azərbaycanlı əhalinin konkret olaraq 3 kəndindən yazda və payızda köçürüləcək əhalinin və onların təsərrüfatlarının sayını göstərmək olar. Yuxarı Zağalı kəndindən yazda 71 təsərrüfatı olan 287 nəfər, payızda isə yenə də 71 təsərrüfatı olan 287 nəfərin köçürülməsi plan-

** Sovet-alman müharibəsi və ondan sonrakı ilk illərin sürətli inflyasiyası şəraitində bu çox cüzi məbləğ idi – B.Ə.*

laşdırılmışdı. Çaxırlı kəndindən 148 təsərrüfatı olan 748 nəfər, payızda isə yenə də 148 təsərrüfatı olan 748 nəfərin köçürülməsi planlaşdırılmışdı. Eynilə də Qanlı kəndindən 66 təsərrüfatı olan 343 nəfər, payızda isə yenə də 66 təsərrüfatı olan 343 nəfərin köçürülməsi planlaşdırılmışdı [3, 233].

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarı ilə 1949-cu ildə Ermənistan SSR-dən Azərbaycana 40 min nəfər azərbaycanlının köçürülməsi planlaşdırılırdı. 1948-ci il köçürməsinin nəticələri göstərdi ki, qırx min nəfər adamı yerləşdirmək o qədər də asan məsələ deyil. Belə ki, 1948-ci ildə köçürülən 10 min nəfər nisbətən daha çox mənzil ehtiyatı olduğu onların eyni bir vaxtda köçürülməsinə, respublikanın müxtəlif rayonlarına paylanmasına baxmayaraq onların çoxu qaramal tövlələrində yerləşdirilmişdi. Belə bir şəraitdə 40 min nəfəri Kür-Araz ovalığına köçürmək və yaşayış evləri, həyətyanı sahələrlə təmin etmək praktiki cəhətdən qeyri-mümkün idi [11, 17].

1948-1953-cü illərdə Ermənistan SSR-in tərkibində olan Göyçə mahalını əhatə edən Basarkeçər, Yeni Bəyazid (Kamo), Aşağı Qaranlıq (Martuni) rayonlarından da azərbaycanlı əhali zorla köçürülməyə məruz qalmışdır.

Basarkeçər rayonundan azərbaycanlı əhalinin köçürülməsi 1951-1953-cü illərin köçürülmə planına salınmışdır. Lakin rayonun ermənilərlə qarışıq olan Yarpızlı, Qızılvəng, Yuxarı Zağallı, Kərkibaş və Qanlı kəndlərinin əhalisi 1948-ci ildə köçürülməyə məruz qalmışdır [9, 195].

1948-1953-cü illərdə Basarkeçər rayonundan əhalinin Azərbaycan SSR-ə köçürülmə planını aşağıdakı cədvəllərdə izləyə bilərik.

**1948-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülmə planı [3, 171-173]**

| Ermənistan SSR-dən haradan, nə qədər və nə vaxt köçürülənlər | | | | | | | | Azərbaycan SSR-də köçürülənlər üçün nəzərdə tutulmuş | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Miqdarı | | O cümlədən | | | | Rayon | Kənd | Kolxoz | Miqdarı | | O cümlədən | | | |
| | | | | Yazda | | Payızda | | | | | | | Yazda | | Payızda | |
| | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | | | | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qızılvəng | 54 | 245 | 54 | 245 | | | Gədəbəy | Novosaratovka | «Qırmızı Oktyabr» | 70 | 320 | 70 | 320 | - | - |
| | Tüstülü | 10 | 56 | 10 | 56 | | | | Novosaratovka | «Qırmızı Oktyabr» | 10 | 56 | 10 | 56 | - | - |
| | Yarpızlı | 11 | 569 | 118 | 569 | | | | Novosaratovka | Voroşilov adına | 11 8 | 569 | 11 8 | 569 | - | - |
| | Zağalı | 8 | 263 | 57 | 263 | | | Xanlar | Arıqıran | «Zakfederasiya» | 57 | 263 | 57 | 263 | - | - |
| | Zod | 57 | 403 | 70 | 403 | | | | Xanlar | Telman adına | 10 0 | 400 | 10 0 | 400 | - | - |
| | | 70 | | | | | | Şamxor | Leninkənd | Həzi Aslanov adına | 50 | 200 | 50 | 200 | - | - |
| | | | | | | | | | Şamxor | Klara Setkin adına | 50 | 200 | 50 | 200 | - | - |

**1948-ci il üçün təsdiq olunmuş plana uyğun olaraq Ermənistan SSR-dən köçürülmüş kolxozçular haqqında Azərbaycan SSR Nazirlər Soveti yanında Köçürmə İdarəsinin məlumatı, sentyabr 1948-ci il [3, 218]**

| Haradan və nə qədər köçürülür | | | | Harada və nə qədər məskunlaşdırılır | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| **Rayon** | **Kənd** | **Təsərrüfat** | **Nəfər** | **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** |
| Basarkeçər | Yarpızlı | 118 | 569 | Gədəbəy | Novoivanovka | Voroşilov adına | 118 | 569 |
| | Zağalı | 57 | 263 | Gədəbəy | Arıqıran | "Zakfederasiya" | 57 | 263 |
| | Çaxırlı | 145 | 515 | Gədəbəy | Orconikidze | | | |
| | | | | Gədəbəy | Ağamalı | | 145 | 515 |
| | | | | Gədəbəy | Maarif | | | |
| | | | | Gədəbəy | Alekseyevka | | | |
| | **Cəmi:** | **320** | **1347** | | | **Cəmi:** | **320** | **1347** |

**1948-ci ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovlağına köçürülməsi haqqında [3, 243]**

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** | **Rayon** | **Kənd** | **Kolxoz** | **Təsərrüfat** | **Nəfər** |
| Basarkeçər | Qızılvəng | "İnternasional" | 87 | 358 | Gədəbəy | Novaya Saratovka | "Qırmızı Oktyabr" | 87 | 235 |
| Basarkeçər | Tustülü | "İnternasional" | 18 | 87 | Gədəbəy | Novaya Saratovka | "Qırmızı Oktyabr" | 18 | 87 |
| Basarkeçər | Zod | Kirov ad. | 95 | 502 | Xanlar | Xanlar | | 95 | 502 |
| Basarkeçər | Çaxırlı | | 26 | 136 | Gədəbəy | - | Telman | 26 | 136 |
| Basarkeçər | Yarpızlı " | Kirov ad. | 151 | 662 | Gədəbəy | - | ad. | 15 | 662 |
| | | | | | | | - | 1 | |
| | | | | | | | - | | |

**1949-cu il noyabrın 5-dək Ermənistan SSR-dən kolxozçuların və onların təsərrüfatlarının köçürülməsi sahəsində həyata keçirilmiş işlərin vəziyyəti haqqında Köçürmə İdarəsinin rəisi N.D.Allahverdiyevin Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini İ.K.Abdullayevə arayışı [3, 336]**

| Haradan və nə qədər köçürülür | | | Haradan və nə qədər məskunlaşdırılır | | |
|---|---|---|---|---|---|
| Rayon | Təsərrüfat | Nəfər | Rayon | Təsərrüfat | Nəfər |
| Basarkeçər | 373 | 1725 | Yevlax | 120 | 560 |
| | | | Ucar | 90 | 394 |
| | | | Gədəbəy | 163 | 771 |

**1953-cü ildə azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında [3, 681]**

| Haradan və nə qədər köçürülür | | | | | Məskunlaşdığı yer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər | Rayon | Kənd | Kolxoz | Təsərrüfat | Nəfər |
| Basarkeçər | Qaraimanlı | Molotov ad. | 55 | 273 | Mirbəşir | Qarraqan | Bağırov ad. | 55 | 273 |
| Basarkeçər | Qoşabulaq | Stalin ad. | 74 | 377 | Mirbəşir | Borsunlu | Stalin ad. | 74 | 377 |
| Basarkeçər | B.Məzrə | Kaqonoviç ad. | 17 | 90 | Mirbəşir | Borsunlu | H.Hacıyev ad. | 17 | 90 |
| Basarkeçər | K.Məzrə | Əzizbəyov ad. | 75 | 382 | Mirbəşir | Kəngərli | Kirov ad. | 75 | 382 |
| Basarkeçər | Basarkeçər | - | 1 | 6 | Bərdə | - | - | 1 | 6 |
| Basarkeçər | Nərimanlı | Nərimanov ad. | 34 | 152 | Bərdə | Şərəfli | Telman ad. | 34 | 152 |
| Basarkeçər | Daşkənd | "Krasnıy Paxar" | 127 | 583 | Bərdə | Şirvanlı | T.Quliyev ad. | 127 | 583 |
| Basarkeçər | Zarkənd | - | 24 | 114 | Bərdə | - Mirbəşir/ | - | 24 | 114 |
| Basarkeçər | Ağkilsə | "Qızıl Şəfəq" | 20 | 97 | Bərdə | İsmayıllı | Stalin ad. | 20 | 97 |
| Basarkeçər | Ağkilsə | "Qızıl Ordu" | 5 | 27 | Mirbəşir | Qapanlı k/s | "Bakı fəhləsi" | 5 | 27 |

Ermənistan rəhbərləri türk əhalisinin olduqca sıx yaşadığı Basarkeçər rayonunun əhalisini köçürmək üçün Ermənistan SSR Nazirlər Sovetinin sədr müavini Çarçoğluyan başda olmaqla respublikanın vəzifəli şəxsləri yük maşınları ilə birgə rayona gəlib, 600 ailənin köçməsini tələb etmişlər [9, 195].

Basarkeçər RPK-nın birinci katibi Talıb Müsayevin göstərişi ilə RPK-nın əməkdaşları Y.Rzayev, T. Əmiraslanov, Q.Məmmədov və başqalarının səyi ilə rayonun azərbaycanlı əhalisinin müqaviməti təşkil edilmiş, komissiya üç gün rayonda qaldıqdan sonra 150 boş maşınla geri qayıtmışdır [4, 200].

T.Musayev köçürmə işində yol verdiyi səhv və nöqsanlara görə Ermənistan K(b)MK və Kirovakan Dairə Komitəsi bürosunda işdən azad edilərək ciddi partiya cəzası almışdır [9, 223-224].

1948-ci ildə Basarkeçər rayonunun Zod kəndindən gələn 100-dən çox ailənin 16-sı sonradan geri qayıtmışdır [3, 564].

1989-cu ildə SSRİ rəhbərliyi 40-cı illərdə deportasiyaya məruz qalmış xalqların hüquqlarının bərpası haqqında qərar qəbul etsə də, 1948-1953-cü illərdə Ermənistandan deportasiya edilmiş azərbaycanlılar həmin xalqların siyahısına daxil edilmədi. Ümum-

milli lider Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı [2] həmin illərdə xalqımıza qarşı həyata keçirilmiş tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi, onun beynəlxalq ictimaiyyətin nəzərinə çatdırılması üçün çox ciddi bir zəmin yaratmışdır.

Qeyd etdiyimiz kimi, Basarkeçər rayonunda bu aksiya qismən ağrısız oldu. Daha doğrusu, o illərdə Basarkeçərdə türklərin demoqrafik üstünlüyü səbəbi ilə rəhbərlər arasında türklərin üstünlük təşkil etməsi burada ermənilərə istədikləri qədər əl-qol açmağa imkan vermədi. O zaman Basarkeçər rayon partiya komitəsinin birinci katibi olan Talıb Musayevin və SSRİ Ali Sovetinin Ermənistandan olan yeganə azərbaycanlı deputat Aydın Məmmədovun qətiyyəti sayəsində Basarkeçərdə türklərin deportasiyası kütləvi xarakter almadı. Bu iki şəxsiyyət çevik manevrlə erməniləri Basarkeçərin boşaldılmasından bir növ çəkindirməyə müvəffəq oldular. Belə ki, onların birgə təşəbbüsü sayəsində Mircəfər Bağırov Basarkeçərdən köçürülənlərin Gəncə, Xanlar, Tərtər, Bərdə zonasında yerləşdirilməsini təmin etdi və bu da ermənilərin gözləmədiyi əks prosesə təkan verdi. Deportasiyaya məruz qalmış Basarkeçər əhalisinin gəlişindən az sonra Gəncə, Xanlar, Tərtər zonasında məskunlaşmış ermənilərin Ermənistan SSR-ə üz tutması erməni ideoloqlarının planları ilə əsla uyuşmurdu və ona görə də onlar Basarkeçərdən deportasiyanı dayandırmaq məcburiyyətində qaldılar. Bununla belə, Talıb Musayevin və Aydın Məmmədovun cidd-cəhdlərinə baxmayaraq, 1948-1953-cü illərdə Basarkeçərin 7 kəndindən təxminən 5591 türk deportasiyaya məruz qaldı ki, bu faciəvi statistikanın da göstəriciləri belədir: Yarpızlıdan 1400, Qanlıdan 640, Qızılvəngdən 1421, Zoddan 1400, Yuxarı Zağalıdan 400, Çaxırlıdan 200, Kərkibaşdan 130 nəfər hökumət səviyyəsində öz dədə-baba yurdundan didərgin salınmışdır. Amma bu, rəsmi qərarla köçürülənlərin sayıdır. Həmin dövrdə müəyyən təzyiqlər səbəbi ilə Ağkilsə, Daşkənd, Göysu, Canəhməd, Tüstülü, Subatan kəndlərindən qeyri-rəsmi olaraq köçənlərin sayı təxminən rəsmi statistikadakı rəqəmə bərabər idi. Düzdür, sonrakı illərdə bu adamların bir qismi öz boş qalmış yurdlarına döndülər, amma dönənlərin ümumi sayı köçürülənlərlə müqayisədə heç 20 faiz belə təşkil etmirdi. Bu qayıdışı əngəlləyən əsas səbəblərdən biri həmin illərdə türk toponimlərinə və türk ziyalılarına qarşı həyata keçirilən total genosid faktı idi.

Ermənistanda antitürk, antimüsəlman təbliğatı XX əsrin 60-cı illərində yenidən var gücü ilə işə salınmışdır. N.S.Xruşşovun hakimiyyətinin son illərində "Böyük Ermənistan" ideyası A.İ.Mikoyanın təşəbbüsü ilə sovet idarə aparatının gündəliyinə qaldırıldı. N.S. Xruşşovun aqrar siyasətindən – SSRİ-nin iqtisadi regionlara bölünməsi siyasətindən istifadə edən Mikoyan ona təklif etdi ki, Ermənistan SSR-də və Naxçıvan MSSR-də iqtisadiyyatın əlverişli inkişafı üçün Naxçıvan MSSR-nin Ermənistan SSR-ə birləşdirilməsi vacibdir. Xruşşov bu işi Azərbaycan ziyalılarının müzakirəsinə verdi. Nəticədə bu sərsəm ideya baş tutmadı. Bu illərdə Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibətdə müəyyən sabitlik baş verdi. Bu dövrdə respublikanın stalinçi rəhbərlərinə qarşı həyata keçirilən kəskin və ədalətli tədbirlər yerlərdə məsuliyyət hissini müəyyən qədər artırır, hər hansı bir ekstremist hərəkətin qarşısı alınırdı. Lakin ermənilərin "mets yeğerni" – "böyük qırğın" adlandırdıqları 1915-ci il hadisələrinin 50-ci ildönümü yaxınlaşdıqca ərazi tələbləri, türklərə qarşı ögey münasibət baş qaldırmağa başlamışdı. 1962-1963-cü illərdə Ermənistan KP MK bürosunda Azərbaycan və Türkiyəyə torpaq iddiaları haqqında Moskvaya göndərilən ərizələrlə əlaqədar məsələlər müzakirə olunan zaman gizli söhbətlərdə belə bir fikir də söylənirdi ki, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri A.İ.Mikoyan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini N.S.Xruşşov qarşısında qaldırmış, Xruşşov isə buna cavab olaraq demişdir ki, kifayət qədər hərbi avtomaşınlar ayırıb ermənilərin bir gecə ərzində Dağlıq Qarabağdan Ermənistana köçürülməsi barədə tapşırıq verə bilər [12, 74].

Lakin 1964-cü ildə N.S.Xruşşovun hakimiyyətdən kənarlaşdırılması müvəqqəti sakitliyi pozdu. Ermənistanda "mets yeğerni" – "böyük qırğın" adlandırdıqları hadisənin 50-ci ildönümünü hazırlıq işləri genişləndi. Bu tədbirin keçirilməsində xarici ölkələrdə fəaliyyət göstərən "Daşnaksütyun" partiyasının və digər irticaçı-millətçi partiya və qrupların məqsədləri, son qayəsi Ermənistan SSR rəhbərliyinin fəaliyyəti ilə üst-üstə düşür, hər iki tərəfdə aparılan təbliğat işi bu məqsədə yönəldilirdi. Belə ki, iddia edirdilər ki, "qırğın" üçün Türkiyə hökuməti və xalqı məsuliyyət daşıyır, "əzəli Ermənistan" torpaqları yenidən birləşdirilməli, "Böyük Ermənistan" dövləti yaradılmalıdır [8, 112].

Hələ 1960-cı illərdən başlayaraq Ermənistan SSR-

də azərbaycanlılardan rəhbər vəzifədə olanların böyük əksəriyyətini ermənilərlə əvəz etdilər. Göyçə mahalının Basarkeçər, Krasnoselo, həmçinin Qarabağlar, Zəngibasar, Vedi rayonlarında (bu bölgələrdə əhalinin 75-90% azərbaycanlılar idi) rayon partiya komitələrinin azərbaycanlı olan birinci və ikinci katibləri heç bir əsas olmadan işdən azad edildilər [5, 54].

1964-cü ildə Ermənistan SSR-in rəsmi dairələri Moskvanın razılığı ilə uydurma "erməni genosidi"-nin 50 illiyinin qeyd edilməsi haqqında qərar qəbul etdilər. Erməni millətçiləri 1965-ci ilin fevralında cəllad Andranik Ozanyanın anadan olmasının 100 illiyini təntənəli surətdə qeyd etdilər. Həmin dövrdə Ermənistanı Yenidən Birləşdirmə Komitəsi yaradılmışdır. Bu hərəkata gizli surətdə Ermənistan KP MK-nın o zamankı birinci katibi Y.N.Zarobyan, ikinci katibi H.Bağdasaryan, Ermənistan SSR Elmlər Akademiyasının prezidenti V.Hambarsumyan və b. rəhbərlik edirdilər [1, 123].

1965-ci il aprel ayının 23-25-də İrəvan şəhərində keçirilən tədbirlər kulminasiya nöqtəsinə çatdı. İrəvan şəhərində 400 min erməni küçələrə çıxaraq, "genosid qurbanları"nın xatirəsinə ucaldılmış memoriala doğru axışırdı. Kütlənin önündə erməni katolikosu ilə birlikdə respublikanın rəhbərləri addımlayırdılar. Kütlənin başı üzərində qara parça ilə örtülmüş rəmzi tabut və "Böyük Ermənistan", "Qoparılmış ərazilər Ermənistana qaytarılmalıdır!", "İntiqam!" sözləri yazılmış şüarlar aparılırdı. Bu hadisədən sonra Ermənistan SSR-in azərbaycanlı əhalisinin sıxışdırılmasına başlanıldı, xüsusən İrəvanda, Göyçədə, Leninakanda, Kirovakanda, Qafanda avtobuslarda, bazarlarda, ictimai yerlərdə azərbaycanlılar təhqir olunur, döyülürdü [8, 113; 5, 55].

1961-ci ildə SSRİ hökuməti xaricdə yaşayan ermənilərin yeni dəstəsinin qəbul edilməsi haqqında qərar qəbul etmişdir. Ermənistan KP MK-nın 1961-ci il oktyabr plenumunda qərara alınmışdır ki, ermənilərin 1946-1948-ci illərdə köçürülməsi zamanı əldə edilən təcrübəyə əsaslanaraq, onlara mənzil fondu ayırmaqla, məktəblər və s. sosial obyektlər təşkil etməklə repatriantların yerləşdirilməsinə başlanılsın. 1962-ci ilin əvvəlindən başlayaraq Kiprdən, Misirdən, İrandan, ABŞ-dan, Türkiyədən, Uruqvaydan, Argentinadan ermənilərin yeni köç dalğası başladı. 1962-1965-ci illərdə xarici ölkələrdən Ermənistan SSR-ə 7 min erməni köçürülmüşdür. Ümumiyyətlə isə 1962-1973-cü illərdə xaricdən gəlmiş 26 min nəfər erməni burada yerləşdirilmişdir [1, 124].

Bu dövrdə də həyata keçirilən diskriminasiya siyasəti nəticəsində azərbaycanlıların Ermənistan SSR ərazisindən Azərbaycana kütləvi axını davam etmişdir.

Tarix boyu azərbaycanlıların öz dədə-baba torpaqları olan indiki Ermənistan Respublikası ərazisindən məcburən və kütləvi zorakılıqla qovulmasının sonuncu mərhələsi 1988-1989-cu illərdə baş vermişdir.

1988-ci il fevralın 20-də keçmiş DQMV-nin Xalq Deputatları Soveti "Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibindən çıxarılaraq Ermənistan SSR-in inzibati-ərazi bölgüsünə daxil edilməsi haqqında" qərar qəbul etməsi millətlərarası münasibətləri daha da kəskinləşdirdi.

Bu qərardan sonra Ermənistanın siyasi dairələrində də milli münaqişəyə təhrik edən siyasi tələblər irəli sürülməyə başladı. 1988-ci il iyun ayında keçirilən on birinci çağırış Ermənistan SSR Ali Sovetinin yeddinci sessiyasında DQMV Xalq Deputatları Sovetinin bu qərarı müzakirəyə çıxarıldı. Bu sessiyada erməni deputatlar öz siyasi riyakarlıqlarını nümayiş etdirərək bu qərarı ciddi cəhdlə müdafiə etdilər. Sevan seçki dairəsindən deputat olan A.M.Kirakosyan öz nitqində deyirdi: "Deputat yoldaşlar! Ali Sovetin bugünkü sessiyasında müzakirə olunan məsələ-Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə keçməsi barədə DQMV Sovetinin qərarı qanuni tələbdir və bu, həyata keçirilməlidir..." [13]. Bu sessiyada DQMV-in qəbul etdiyi qeyri-qanuni qərarı müdafiə olundu və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul edildi.

Dağlıq Qarabağ ermənilərinin bu əsassız qərarı erməni katolikosu Vazgen tərəfindən də birmənalı şəkildə müdafiə olunmuşdur. Onun 1988-ci il iyulun 7-də Ermənistan televiziyası ilə çıxışında erməniçilik təfəkkürünə əsaslanılaraq tarixi Azərbaycan torpağı olan Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi qərarı alqışlanmışdır. O, öz çıxışında ermənilərə müraciət edərək deyirdi: "Mən bütün dünya ermənilərinin katolikosu müqəddəs Eçmiədzindən yenidən öz sözümlə sizə müraciət edirəm. Keçən fevralın sonlarında Qarabağın erməni əhalisi birgə qərarla ana Ermənistana birləşmək arzusunu ifadə etdi. Sovet Ermənistanı və xarici ermənilər fəxr ediləcək birlik və intizamla qarabağlıların ədalətli arzularına tərəfdar çıxdılar... Erməni analar, bacılar, qardaşlar, xüsusilə siz gənclər xalqın və vətənin ali mənafeyini unutmayın. Ararata qoruyun..." [13].

Ermənistan siyasi və dini dairələrinin bu mənfur addımlarından sonra ermənilər, hər yerdə olduğu kimi, Göyçədə də açıq hərbi təcavüzə cəhd göstərdilər. 1988-ci il mart ayının 26-nı "Sumqayıtın qisas günü" elan etmiş "Krunk" cəmiyyətinin çağırışına cavab olaraq ermənilər Basarkeçərdə də qanlı aksiyalar törətmək iddiasına düşmüşdülər. Guya bu qırğının qarşısını almaq istəyən SSRİ rəhbərliyinin hiyləgər taktikası da əslində hələ 1988-ci il martın 26-da, yəni faciəvi 1918-ci il qırğınlarının 70-ci ildönümü günlərində Ermənistanın türklərdən təmizlənilməsi üçün real şərait yaratmışdı. Belə ki, guya millətlərarası toqquşmaya yol verməmək mahiyyəti daşıyan fövqəladə vəziyyət rejimi, o vaxt cəmi 300-500 türkün yaşadığı Yerevan şəhərində, bir nəfər türkün belə yaşamadığı Leninakanda tətbiq edilmiş, türklərlə ermənilərin qarışıq yaşadıqları kənd rayonları isə "unudulmuşdu". Əlverişli şəraitdən yararlanan "Krunk" əsasını Türkiyə və İrandan köçürülənlərin təşkil etdiyi Martuni və Kamo rayonlarındakı fəalları səfərbər edərək, onları demoqrafik üstünlük türklər tərəfdə olan Basarkeçərə yeritmişdilər və …martın 26-da "Krunk" fəalları gözlənilənin tam əksi olan mənzərə ilə rastlaşdılar. Basarkeçər rayon mərkəzinin türk kəndlərinə yaxın qəsəbəsində – "Zod ORS" deyilən hissədə yaşayan ermənilər gecə ikən qəsəbəni tərk edərək, təhlükəsiz evlərə çəkilmişdilər [14, 113].

1988-ci il noyabr ayında Ermənistanın SSR Ali Sovetinin sessiyasında aprelin 24-nün 1915-ci il ermənilərin genosid günü elan edilməsi erməni şovinizmini daha da fəallaşdırdı. Bu haqda "Sovet Ermənistanı" qəzetinin 17 noyabr 1988-ci il tarixli sayında yazılmışdı: "Aprelin 24-nün 1915-ci ildə ermənilərin genosid qurbanlarının xatirə günü elan edilməsi barədə Ermənistan KP MK sentyabr (1988) plenumuna verilən məruzədəki təklif respublika zəhmətkeşləri tərəfindən bəyənilmişdir. Bu təklifin qəbul edilməsi məqsədəmüvafiq hesab edilmişdir..." [13].

1988-ci il noyabr ayının 22-də Ermənistanın SSR Ali Sovetinin sessiyası öz işini yarımçıq dayandıraraq, bütün instansiya rəhbərlərinə "noyabr ayının 28-dək respublikanın türklərdən təmizlənməsini təmin etmək" tapşırığı verildi. Ermənistanın bütün rayonlarına şamil edilən bu qərarın təsir dairəsinin mərkəzinə şübhəsiz ki, Göyçə mahalı və Ağbaba bölgəsi düşürdü. Çünki 1988-ci ilin noyabr ayınadək Ermənistan SSR-in digər rayonlarından türklərin deportasiyası, demək olar ki, başa çatdırılmışdı. Odur ki, Göyçə və Ağbabadan türklərin deportasiyasına rəhbərlik Ermənistan SSR-in ali rəhbərliyinə həvalə edilirdi.

1988-ci ilin noyabr-dekabr aylarında Ermənistan SSR-dən azərbaycanlıların çıxarılması üçün son hazırlıq işlərinə başlandı. İllərdən bəri həyata keçirilən "Türksüz Ermənistan" planının son mərhələsinə start verildi.

Bu daşnak-kommunistlərin rəhbərliyi sayəsində Göyçə əhalisi öz dədə-baba yurdlarından tamamilə qovularaq Azərbaycan SSR-ə "yola salındılar". Onlarla azərbaycanlı döyülərək yaralandı və qarlı-boranlı dağ yollarında həlak oldu.

Ümumiyyətlə, 1988-ci il noyabrın 27-dən dekabrın 5-dək ermənilərin həyata keçirdikləri qətliamlar nəticəsində Basarkeçər rayonunda 45 nəfər qətlə yetirilmiş, Göyçənin son 80 min nəfər əzəli sakini doğma yurdlarından deportasiya olunmuşdur [14, 115].

Düşünürük ki, məhz bu hadisələr mahiyyətcə hərtərəfli deportasiya və soyqırımıdır. Təəssüflər olsun ki, özünü demokratiyanın banisi və beşiyi kimi qələmə verməyə çalışan Qərb aləmi bunu görüb obyektiv şəkildə qiymət verməyib, bir çox hallarda təcavüzü və təca-vüzkarı hər vasitə ilə əslində dəstəkləmək mövqeyində dayanır.

**Açar sözlər:** *Göyçə mahalı, Basarkeçər, Ermənistan, deportasiya, Keyti, Zarzebil.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya, Soyqırımı, Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.*

*2. Azərbaycanlıların 1948-1953-cü illərdə Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Oktyabr, 1997 - dekabr, 1997. 13-cü Kitab:- Bakı: Azərnəşr. 2004.- 520 s. (s.397-398).*

*3. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası (1948-1953-cü illər). Müqəddimənin müəllifi və məsul redaktor A.Ə.Paşayev. Bakı: Zərdabi LTD, 2013, 784 s.*

*4. Deportasiya: azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiyası. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1998. 440 s.*

*5. Ermənistan azərbaycanlılarının tarixi coğrafi-*

*yası. Tərtib edən S.Əsədov. Bakı: Gənclik, 1995, 464 s.*

*6. Əhmədov B.Ş. XX əsrdə Göyçə mahalı azərbaycanlılarına qarşı deportasiyalar və soyqırımlar. – Bakı: Elm və təhsil, 2022. – 200 s.*

*7. İrəvan əyalətinin icmal dəftəri (araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Z.Bünyadov və H.Məmmədov (Qaramanlı). Bakı: Elm, 1996, 186 s.*

*8. Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: Nurlar NPM, 2009, 344 s.*

*9. Musayev T.Q. Ermənilər və faciələrimiz. XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr. Bakı: Nurlar, 2008, 320 s.*

*10. Mustafa N. Vandalizm: tarixi adlara qarşı soyqırımı. – Bakı: Turxan NRB, 2013, s. 23. 128 s.*

*11. Paşayev A.Ə. Köçürülmə. Bakı: Azərnəşr, 1995, 40 s.*

*12. Rəhimoğlu H. Silinməz adlar, sağalmaz yaralar. Bakı: Azərnəşr, 1997, 260 s.*

*13. Sovet Ermənistanı” qəzeti, 1988, 12 iyul, №85; 23 iyun, №76; 17 noyabr, №138.*

*14. Vilayətoğlu S. Oğuz elinin müqəddəs ocağı: Göyçə. Bakı: [s.n.], 2006, 512 s.*

*15. Армянская ССР. Административно-территориальное деление на 1-ое августа 1988 года / Президиум Верх. Совета Арм. ССР. - 6-е изд. -Ереван: Айастан, 1988. – 206.*

*16. Территориальное и административное деление союза ССР на 1-е января 1926 г. Народный комиссариат внутренних дел. Статистический отдел. Издательство Главного Управлений Комунального Хозяйства НКВД. Москва: 1926. 284 с.*

**Бахтияр Ахмедов,**
***доктор философии по истории***
***Институт истории имени А.А.Бакиханова Национальной Академии Наук Азербайджана***

## ДЕПОРТАЦИЯ АЗЕРБАЙДЖАНЦЕВ БАСАРКЕЧАРСКОГО РАЙОНА ГЁЙЧИНСКОГО МАГАЛА (1930-1988)

**Резюме**

В статье повествуется о том, что в разные годы XX века в Западном Азербайджане не без намека и указания советской власти происходила депортация местного азербайджанского населения, захват их места жительства и конфискация имущества, искусственная арменизация названий мест проживания, периодический геноцид азербайджанского населения, расселение в их домах пришлых из-за рубежа армян. Особенно крупная депортация азербайджанского населения была организована в середине XX века, в том, числе и в Басаркечарском районе Гёйчинского магала. В последующие годы депортации местного населения совершались бесшумно. Однако в конце 80-х годов все азербайджанцы насильственно были изгнаны из своих родных мест жительства в Азербайджанскую Республику. Параллельно некоторые территории Азербайджанской Республики с помощью советской армии также были оккупированы Арменией.

**Ключевые слова:** *Гейчинский район, Басаркечер, Армения, депортация, Кейти, Зарзебиль.*

**Bakhtiyar Ahmadov,**
***PhD in History***
***Institute of History named after A.A.Bakikhanov of the National Academy of Sciences of Azerbaijan***
***emlak2017@mail.ru***

## DEPORTATION OF AZERBAIJANIANS OF BASARKECHAR DISTRICT OF GOYCHA MAHAL (1930-1988)

**SUMMARY**

The article tells that in different years of the twentieth century in Western Azerbaijan, not without a hint and instructions from the Soviet government, the deportation of the local Azerbaijani population took place, the seizure of their place of residence and confiscation of property, artificial Armenianization of the names of places of residence, periodic genocide of the Azerbaijani population, resettlement in their houses of Armenians arriving from abroad. A particularly large deportation of the Azerbaijani population was organized in the middle of the 20th century, including in the Basarkechar district of the Goycha Mahal. In subsequent years, deportations of the local population were carried out quietly. However, in the late 80s, all Azerbaijanis were forcibly expelled from their native places of residence to the Republic of Azerbaijan and subjected to mass genocide. At the same time, some territories of the Republic of Azerbaijan were also occupied by Armenia with the help of the Soviet army.

**Key words:** *Goycha district, Basarkecher, Armenia, deportation, Keyti, Zarzebil.*

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.755

# DÖVLƏTÇİLİK İRSİMİZ: AĞQOYUNLU DÖVLƏTİNİN BAYRAĞI

**KÖNÜL İMAMVERDİYEVA**
*Dövlət Bayrağı Muzeyinin direktoru,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: k.imamverdiyeva@gmail.com*

Dövlətin suverenliyini və kimliyini təcəssüm etdirən başlıca simvollardan biri olan bayraqlar müasir görkəmlərini alana kimi uzun inkişaf yolu keçmişlər. Yaranma tarixi çox uzaq keçmişə gedib çıxan dövlət bayraqları və rəmzləri onlara oxşar funksiyası ilə hələ Şumer, Babil, Qədim Misir, Qədim Çin, Qədim Hindistan kimi ilk dövlətlərin yarandığı dövrdən məlumdur. Müasir elmi ədəbiyyatda “veksilloidlər” adlandırılan bayraqların ilkin forması uzun dirəklər üzərində müxtəlif bəzək ünsürlərindən və sakral elementlərdən tərtib olunan xüsusi tanınma, fərqləndirmə nişanlarından ibarət olmuşdur. İnsanların hansısa tayfaya, ordu birliyinə mənsubluğunu bildirən ilk bayraqlar həm də tayfa, qəbilə birlikləri başçılarının hakimiyyət rəmzi hesab olunurdu [3, s.8].

Bayrağın sahibinin və himayədarının yüksək sosial statusunu nümayiş etdirən ən mühüm rəmz kimi böyük rolu, əsasən, onunla izah edilirdi ki, bir çox türk xalqlarında bayraq təkcə tayfa və ya tayfa birliyinin zahiri ifadəsi, ictimai hakimiyyətin əsas əlaməti deyildi, həm də liderin bu birliyin bütün digər üzvləri üzərində hökmranlığını göstərən əvəzsiz vasitə idi.

Türk xalqlarının yaşadıqları ərazilərlə müqayisədə Avropada bayraqların rəmzi anlam kəsb etməsi və yayılması orta əsrlərə, səlib yürüşlərindən sonrakı dövrlərə təsadüf edir. Orta əsrlərdə üzərində sülalələrin fərqləndirici xüsusiyyətləri əks olunan bayraqlar kral və zadəgan ailələrinin kimliyini göstərən vacib atributa çevrilmişdi. Bayrağa müqəddəs bir obyekt kimi münasibət də məhz orta əsrlərdə inkişaf etmiş, bu münasibət yeni və müasir dövrdə bayrağın dövlət rəmzi kimi qavranılmasında xüsusi rol oynamışdır. İlk olaraq hərbi məqsədlər və təntənəli mərasimlərdə istifadə olunan bayraqların funksiyaları vaxt keçdikcə genişlənməyə başlayır.

Qeyd etmək lazımdır ki, orta əsrlərdə hərbi işin inkişafı ilə bağlı olaraq bayraqlar həm də hərbi əhəmiyyət kəsb etməyə başlamışlar. Onlar ordunun mərkəzini və yaxud hərbi rəhbərin yerini təyin edirdi. Bayraqlar eyni zamanda hərbi rəhbərə döyüşün gedişatına nəzarət etməyə kömək edirdi, çünki bayraqların mövqeyi ona özünün və düşmən qoşun hissələrinin yerləşdiyi yerləri uzaqdan müəyyən etməyə və onların hər bir dəyişikliyinə operativ reaksiya verməyə imkan verirdi. Bayrağın itirilməsi məğlubiyyət demək idi. Ağqoyunlu dövlətinin salnaməçisi Əbu Bəkr Tehrani müharibədə bayraqların hərəkəti ilə xüsusi siqnallar verməyin mümkün olduğunu bildirirdi. O, bayrağı döyüş vasitəsi və qələbənin ilk əlaməti kimi təsvir etmişdir [7, s.44]. Zaman keçdikcə bayraqların konkret sülalələrlə deyil, müəyyən ərazilərlə - dövlətlərin hüdudları, tayfa və tayfa birliklərinin məskunlaşdıqları torpaqlarla əlaqələndirilməsinə başlanıldı. Beləliklə, başqa siyasi və ideoloji mənalar daşıyan bayraqlar dövləti təcəssüm etdirmək üçün istifadə olundu...

Azərbaycan ərazisində mövcud olmuş müxtəlif dövlətlərin müstəqillik rəmzləri olan bayraqların, sancaqların, damğaların və digər atributların yaranma tarixi dərin köklərə malikdir. Arxeoloji qazıntılar nəticəsində Şəmkir və Şəki rayonlarında tapılmış buynuzlu maral, üzərində səkkizguşəli ulduz, günəş və müxtəlif həndəsi fiqurlar olan dairəvi lövhə və başqa formalı tunc sancaq (ştandart) başlıqlarının tarixi eradan əvvəl IV-II minilliklərə gedib çıxır [1, s.4].

Tarixi yaddaşın daşıyıcısı kimi damğaların hər bir xalqın, dövlətin tarixində xüsusi yeri vardır. Elmə məlum olan ən qədim damğaların təqribən 5000 il yaşı vardır [4, s.4]. Türkşünaslıq üzrə geniş akademik təcrübəyə malik, ABŞ-ın Berkli Universitetinin keçmiş professoru A.Sanducci yazır ki, hər bir türk tayfasının və ya xalqının müstəsna olaraq ona məxsus olan və onu ayrıca bir varlıq kimi fərqləndirən damğası var idi [5, s.715]. Türk xalqlarında damğa işarələrinin təyinatı və funksiyaları kifayət qədər geniş olmuşdur. Damğa nişanları türk xalqlarında, ilk növbədə, etnik və nəsil-tayfa mənsubiyyətini, dini və sosial mənşəyi, ayrı-ayrı fərdlərin, nəsil və ya tayfanın statusunu və s. bildirirdi. Tarixi mənbələrdə Ağqoyunlu dövlətinin Bayandur tayfasının aşağıdakı damğalarının olduğu məlumdur:




***şəkil 1 şəkil 2 [4,s.34]***

Ağqoyunluların tayfa başçısı Həmzə Bəyin (1437-1444) zamanından etibarən dövlətin emblemi olaraq qəbul edilmiş birinci şəkildəki damğa [13, s.8] Yazıçıoğlu Əlinin “Təvarixi əl-Səlcuq”, Seyid Loğmanın “Hünərnamə” salnamələrində verilmişdir. Bu damğa Həmzə bəyin zamanında kəsdirilən sikkələrə də vurulurdu. Orxan Fuad Köprülü də Ağqoyunluların sikkələrində Bayandur damğasından istifadə edildiyini yazır [11]. İkinci şəkildə verilmiş damğa isə İranın cənub-qərbində yaşayan Qaşqay türklərinin milli simvolu kimi qəbul olunmuşdur ki, [4, s.38] ayrı-ayrı türk xalqlarının bayraqlarında qədim türk dövlətlərinin damğalarının işarəsinin verilməsi bizim ortaq mədəniyyətimizin daha bir təzahürüdür.

Qeyd etmək lazımdır ki, Səfəvilərə qədər tarixi Azərbaycan torpaqlarında və Şərqi Anadoluda hökmranlıq etmiş Bayandur tayfasının başçılıq etdiyi türkmən tayfalarının tayfa konfederasiyası olan ağqoyunlularda “Ağqoyunlu” adı şərti xarakter daşımaqla, Bayandur tayfasının ata-baba damğası “Ağ qoyun” (ağ qoç) əsasında meydana gəlmişdir. Tarixi mənbələrdə Ağqoyunluların bayraqlarının ağ rəngdə olması açıq şəkildə göstərilir. Bunun səbəbi isə bu dövlətin qurucuları olan oğuzların Bayandur boyundan gəldikləri üçün Ağqoyunluların Alem-i Sefid-i Bayanduri (Bayandurluların Ağ Bayrağı) adlandırılmaları ilə bağlıdır [8, s.77]. Orxan Fuad Köprülü də Ağqoyunluların bayrağının ağ rəngdə olması haqqında məlumat verərək onların üzərində ağ qoyun təsviri olan bayraqlardan istifadə etdiklərini qeyd edir. O, eyni zamanda Ağqoyunluların Bayandur damğası olan müxtəlif rəngli bayraqlarının da olduğunu bildirir [11]. Tədqiqatçı C. Vuds da, Ağqoyunluların Bayandur damğası ilə olan ağ bayrağı haqqında məlumat verir [14, s.104].

Ağqoyunlu dövlətində Bayandur damğasından rəsmi sənədləşmələrdə, kitabələrdə və sancaqlarda da istifadə olunurdu. Onların bəzilərində Bayandur damğası “əlhökm-lillah” ifadəsindəki “Lillah” sözünün yerində işlənmişdi [14, s.121].

Ağqoyunluların ayrı-ayrı sərkərdələrinin, ordu başçılarının bayraqları və sancaqları (sancaq – alay, əsgəri birlik bayrağı) [6] olmuşdur. Osmanlılara qarşı döyüş zamanı Uzun Həsənin oğlu Zeynal Mirzə və Uğurlu Məhəmmədin bayraqlarının olması barədə mənbələrdə məlumatlar vardır.[10, s. 93]

Qeyd etmək lazımdır ki, dövlətlərin bayraqları ilə yanaşı ayrı-ayrı hökmdarların da bayraqları olmuşdur. Onlardan biri, Ağqoyunlu hökmdarı Uzun Həsənə məxsus, ağ parçadan hazırlanmış üçbucaq formasında bayraq idi. Bu forma qədim türk ənənəsi olmaqla sonrakı dövrlərdə də davam etdirilmiş və təsadüfi deyildi ki, XVIII əsrdə Azərbaycan hökmdarlarının bayraqları da üçkünc olmuşdu.

Hal-hazırda Uzun Həsənin bayrağı İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında saxlanılır. Bu bayrağın Milli Saraylar - Topqapı Sarayında qorunması barədə Türkiyə və Azərbaycan tədqiqatçılarının əsərlərində məlumatın verilməsinə baxmayaraq, məhz ilk dəfə Dövlət Bayrağı Muzeyi tərəfindən onun inventar nömrəsi və saxlandığı fond müəyyən edilmiş və növbəti elmi tədqiqat mövzusu olmuşdu. Belə ki, Türkiyə Milli Saraylar İdarəsi Başqanlığına göndərilmiş 12.10.2023-cü il tarixli rəsmi müraciətimizə cavab olaraq Topqapı Sarayı tərəfindən Uzun Həsənin bayrağının surəti bizə göndərilmişdir. Ağqoyunlu hökmdarı Uzun Həsənin bu bayrağı Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq təqdim olunan məqalədə ayrıca problem kimi elmi tədqiqata cəlb olunmuşdur.



***Ağqoyunlu hökmdarı Uzun Həsənin bayrağı (XV əsr)***
***Milli Saraylar -Topqapı Sarayı, Silahlar kolleksiyası, inventar №1/3***

Ağqoyunluların bayrağının ağ rəngdə olması barədə türk tarixçisi İsmayıl Hakkı Uzunçarşılı ilk nəşri 1937-ci ildə olmuş əsərində qeyd edir ki, "biz bu dövlətin bayrağının ağ olmasını Dəvvaninin "Ərznamə" adlı əsərindən anlayırıq" [9,s.198]. Tehraniyə istinad edən türk tədqiqatçısı Kazım Paydaş da yazır ki, mənbədə ələm kimi qeyd olunan Ağqoyunlu dövlətinin bayrağının rəngi ağ idi. [10, s.92]. Orxan Fuat Köprülü də qeyd edir ki, tarixi mənbələrdə Ağqoyunlu sülaləsinin bayrağının ağ rəngdə olması açıq şəkildə ifadə edilir [11]. Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında saxlanılan bayrağı İ.H.Uzunçarşılının kitabının üz qabığında və şəkillər hissəsində verilir [14, s.378].

Qeyd etmək lazımdır ki, qədim türklərin hərbi cəhətdən formalaşması dövründə rənglər sülh və müharibə şəraitində ünsiyyəti tənzimləyən vasitə rolunu oynamış, rəng palitrası isə əsas istiqamətləri müəyyən etməyə başlamışdı: qara şimal, qırmızı cənub, ağ qərb, mavi şərq istiqamətini göstərirdi. "Ağ" kəlməsi türk mədəniyyətində "batı" (Qərb), ya da "soylu" anlamını verirdi. Mənbələrdən bəlli olur ki, Bayandur xan ziyafətləri "ağ otaq"da verirdi. Şərqi Anadoluda dövlət quran Ağqoyunlular da ağ rəngdən bayraqlarında istifadə etmişlər. [13, s.10]

Qədim dövrlərdən bəri ağ rəng dünyanın bir çox sülalələrinin bayraqlarının rəngi olmuşdur. Bir çox mənbələrdə Çingiz xanın ağ bayrağının olmasından bəhs edilir. Asiya xalqlarının semantikasında ağ rəng dövlətdə sabitlik və əmin-amanlıq anlamını ifadə edirdi. Ağ rəng eyni zamanda güc əlaməti hesab olunurdu. Avropanın bir çox hakim sülalələrinin gerbləri və bayraqları da ağ rəngdə olmuşdur [15].

Ağ rəng İslamda ən təmiz və peyğəmbərin bayrağının rəngi hesab olunur. Təsadüfi deyildi ki, Əməvilərin (661-750) və Fatimilərin (909-1171) bayraqları ağ rəngdə olmuşdur. Şərqdəki monqol və türk sülalələri, o cümlədən Elxanilər, Oğuz türkləri və Səlcuqlular sülaləsinin də bayraqları ağ rəngdə idi.

İslamın qəbul edilməsindən sonra türk xalqlarının bayraqlarının müqəddəs mənası İslam simvolizmi kontekstində yenidən düşünüldü. Belə ki, İslam dini yayıldıqca, bayraqlardakı təsvirlər də dəyişmiş, getdikcə, xüsusən də dövlət rəmzlərində müsəlmançılığı bildirən təsvirlər yer almağa başlamışdır. Yəhya ibn Mahmud əl-Vasitinin (XIII əsr) miniatürlərində göstərilirdi ki, orta əsrlərdə yazıları olan dini bayraqlardan istifadə edilmişdir. Bu, Ağqoyunlu dövlətinin bayrağına da xas idi. Belə ki, bəhs etdiyimiz Topqapı Sarayında saxlanılan, Ağqoyunlu bayrağının mərkəzində damcı formasında olan elementdə Qurani-Kərimin əs-Saff surəsinin 13-cü ayəsi və "Məhəmməd Əli" sözləri yazılmışdır. Bu elementdən aşağıda təsvir edilən Uzun Həsənin tuğrasına Bayandur boyunun damğası da əlavə edilmiş, içərisində isə "Sultan Həsən Bahadur" sözləri yazılmışdır. Bayrağın kənarlarında müqəddəs Qurani-Kərimin ayələri – əl-Bəqərə surəsinin 255-ci, Ali-İmran surəsinin 181-ci, əl-Fəth surəsinin ilk iki ayəsi verilmişdir.

Bayrağın alt hissəsinin başlanğıcından etibarən sol tərəfinin ortasına kimi Qurani-Kərimin ən böyük "Bəqərə" surəsinin 255-ci ayəsi verilmişdir. Həmin ayənin tərcüməsində göstərilir: "Allahdan başqa heç bir tanrı yoxdur. (Zatı və kamal sifətləri ilə hər şeyə qadir olub bütün kainatı yaradan və idarə edən, bəndələrini dolandıran və onların işlərini yoluna qoyan) əbədi, əzəli varlıq Odur. O nə mürgü, nə də yuxu bilər. Göylərdə və yerdə nə varsa (hamısı) Onundur. Allahın izni olmadan (qiyamətdə) Onun yanında (hüzurunda) kim şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanmasını xahiş) edə bilər? O, bütün yaranmışların keçmişini və gələcəyini (bütün olmuş və olacaq şeyləri) bilir. Onlar (yaranmışlar) Allahın elmindən Onun Özünün istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun kürsüsü (elmi, qüdrət və səltənəti) göyləri və yeri əhatə etmişdir. Bunları mühafizə etmək Onun üçün heç də çətin deyildir. Ən uca, ən böyük varlıq da Odur!" [2, s.37].

Bayrağın sol hissəsinin ortasından etibarən Ali-İmran surəsinin 181-ci ayəsi verilir: "Allah kasıbdır, biz isə dövlətliyik" deyənlərin sözlərini Allah, əlbəttə, eşitdi. (Ya Rəsulum!) Biz onların dediklərini və peyğəmbərləri haqsız yerə öldürdüklərini (mələklər vasitəsilə əməl dəftərlərinə) yazacaq və (qiyamət günü) onlara: "Dadın atəşin əzabını!" – deyəcəyik" [2, s.60].

Bayrağın sağ tərəfindəki hissədə Qurani-Kərimin əl-Fəth (Fəth) surəsinin birinci və ikinci ayələri yazılmışdır: "(Ya Peyğəmbər) Həqiqətən, Biz sənə (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir çox başqa məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş etdik!

Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam - ka-

mal edəcək və səni düz yola müvəffəq edəcəkdir” [2, s.494].

Bayrağın ortasındakı dördbucaqlıda Ağqoyunlu hökmdarının adı – “Sultan Həsən Bahadır”, damcı formalı elementin içərisində isə Qurani Kərimin əs-Saff (səf) surəsinin 13-cü ayəsi – “(Sizi hələ) sevdiyiniz başqa bir şey (bir nemət) də - Allah dərgahından kömək və yaxın qələbə (Məkkənin fəthi) gözləyir. (Ya Peyğəmbər!) Mö’minlərə (dünyada zəfərlə, axirətdə Cənnətlə) müjdə ver!” və “Ya Məhəmməd, Ya Əli” sözləri yazılmışdır [2, s.553].

Aparılmış tədqiqata yekun vuraraq qeyd etmək lazımdır ki, müəyyən bir ictimai-siyasi sistemdə insanların birliyini simvolizə edən predmet kimi meydana gəlmiş bayraqlar uzun bir təkamül yolu keçərək tədricən müasir görkəm almağa başlamışdır. Bu gün dövlət hakimiyyətinin rəmzi kimi istənilən müstəqil dövlətin vazkeçilməz atributu olan bayrağın hər bir detalı, hər bir rəngi müəyyən məna bildirməklə, xalqın tarixində baş vermiş vacib hadisələri simvolizə edir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan bayraqları. Kataloq. Bakı, Elm, 2005.*

*2. Bünyadov Z., Məmmədəliyev V. “Qurani Kərim” Azərbaycan dilində mənaca tərcüməsi. S. 37. https://www.academia.edu/11898780/Qurani_Kərim_Vasif_Məmmədəliyev_və_Ziya_Bünyadov*

*3. İmamverdiyeva K. Azərbaycan bayrağı. Bakı, 2017*

*4. Qurbanov A. Damğalar, rəmzlər... mənimsəmələr. Bakı, Strateji Araşdırmalar Mərkəzi, 2013.*

*5. Sanducci A. Qədim alimlər türk xalqları haqqında. Cild 2. Los Anceles, 2023. https://books.google.az/books?id=X_HNEAAAQBAJ&pg=PA715&lpg=PA715&dq=Seyid+Loğman+”-Hünərnamə”*

*6. Talıblı A. Türklərdə bayraqlar, sancaqlar və tuğlar. https://kafkassam.com/turkl%C9%99rd%C9%99-bayraqlarsancaqlar-ve-tuglar.html*

*7. Ahmedov Sebuhi. Türk halklarında devlet ve hâkimiyet sembolleri – “bayrak”, “sancak”, “tuğ”. https://irs-az.com/new/pdf/201510/1444046998824373115.pdf*

*8. Elvin Yıldırım. Türk Kültüründe Renkler ve İfade Ettikleri Anlamlar, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Yayınlanmamış Yüksek Lisans Tezi. İstanbul, 2012*

*9. İsmail Hakkı Uzunçarşılı. Anadolu beylikleri ve Akkoyunlu, Karakoyunlu devletlerı. II baskı. Türk Tarih Kurumu basım evi, Ankara, 1969.*

*10. Kazım Paydaş. Ak-koyunlu devlet teşkilatı. Doktora tezi. Ankara, 2003. https://silo.tips/download/tc-ak-koyunlu-devlet-teklati-doktora-tez-ankara-2003-tc-ankara-nverstes-sosyal-b*

*11. Orhan Fuad Köprülü, “Bayrak”, İslam ansiklopedisi. https://islamansiklopedisi.org.tr/bayrak*

*12. Sümer Faruk. Karakoyunlular (Başlangıçtan Cihanşah’a Kadar), c. I, TTK Yayınları, Ankara 1967*

*13. Yaşar Ertaş. XV. Yüzyıl egitim ve bilim çalışmaları bağlanında Akkoyunlu medreseleri. Doktora tezi. İzmir, 2016.*

*14. John E.Vuds. 300 yıllık Türk İmparatorluğu Akkoyunlular*

*15. Аскар Кумыран. Исторические знамена казахов и их предков. https://www.academia.edu/44918978/Исторические_знамена_казахов_и_их_предков_обновленная_и_расширенная_версия_*

*16. Ксения Соснина. Бывают ли флаги нестандартной формы? https://aif.by/dontknows/byvayut_li_flagi_nestandartnoy_formy*

## XÜLASƏ

Bayraq dövlətlərin, orduların, icmaların, ictimai-siyasi təşkilatların fərqləndirici rəmzi olmaqla yanaşı, zaman keçdikcə xalqın şərəf və qürurunun daşıyıcısı, milli-mədəni irsinin, dövlətçilik tarixinin nümunəsidir. Bu baxımdan bayraqların tarixinin öyrənilməsi xüsusi aktuallıq kəsb edən problemlərdəndir. Təqdim olunan məqalədə tarixşünaslıqda ilk dəfə olaraq Ağqoyunlu hökmdarı Həsən xan Bayandurun (Uzun Həsənin) İstanbuldakı Milli Saraylar - Topqapı Sarayında mühafizə olunan bayrağı araşdırılmışdır.

**Açar sözlər:** *Ağqoyunlu dövləti, Həsən xan Bayandur (Uzun Həsən), bayraq, Milli Saraylar - Topqapı Sarayı.*

**Кенуль Имамвердиева**
***Директор Музея Государственного Флага***
***Доктор философии по истории***

**РЕЗЮМЕ**

Флаг не только является отличительным символом государств, армий, сообществ, общественно-политических организаций, но со временем становится символом чести и гордости народов, частью национально-культурного наследия, истории государственности. В связи с этим изучение истории флагов является одной из актуальных проблем. В представленной статье впервые в историографии предметом обстоятельного исследования становится флаг правителя Аггоюнлу Гасан-хана Баяндура (Узун Гасана), хранящегося в Национальном дворце - дворце Топкапы в Стамбуле.

**Ключевые слова:** *Государство Агоюнлу, Гасан Хан Баяндур (Узун Гасан), флаг, Национальный дворцы - Дворец Топкапы.*

**Konul Imamverdiyeva**
***Ph.D. in History***
***Director of the State Flag Museum***

**SUMMARY**

The flag is not only a distinctive symbol of states, armies, communities, socio-political organizations, but over time it becomes a symbol of honor and pride of peoples, part of the national cultural heritage, and the history of statehood. In this regard, the study of the history of flags is one of the pressing problems. In the presented article, for the first time in historiography, the flag of the ruler Aggoyunlu Hasan Khan Bayandur (Uzun Hasan), kept in the National Palace - Topkapi Palace in Istanbul, becomes the subject of a detailed study.

**Key words:** *Aggoyunlu State, Hasan Khan Bayandur (Uzun Hasan), flag, National Palaces - Topkapi Palace.*

UOT 94 "19/..."
DOI:10.30546/3006-0346.2024.2.80.803

# MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAF STRATEGİYASININ İSTİQAMƏTLƏRİ

**NÜŞABƏ QULİYEVA**
*Azərbaycan Universiteti Siyasi və ictimai elmlər kafedrasının dosenti, t.ü.f.d.*
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: nushaba.guliyeva@au.edu.az*
*ORCID: https://orcid.org/0000-0001-7117-6394*

## Giriş

Ölkəmizdə elmin və təhsilin inkişafı daim diqqət mərkəzindədir. Ölkənin yeni iqtisadi şəraitə keçidindən sonra Azərbaycanın qarşısında duran ən əsas vəzifələrdən biri təhsil sisteminin köhnəlmiş şablonlardan azad edilməsi və yeni sosial-iqtisadi şəraitin tələblərinə uyğun modernləşdirilməsi olmuşdur. Modernləşmə ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsinin prioritet istiqaməti, o cümlədən ölkədə insan kapitalının inkişafı, insanın qabaqcıl texnologiyalara dair müasir biliklərə yiyələnməsini və elmi nailiyyətlər əsasında bacarıqların təkmilləşdirilməsini təmin etməklə bağlıdır. Azərbaycan elminin problemləri, onların həlli yolları və qarşıda duran vəzifələr mühüm dövlət proqramları ilə öz həllini tapır.

Elmin inkişafı tarixi boyu təhsil kateqoriyasına müxtəlif mövqelərdən baxılmışdır: təhsil proses, nəticə, sistem və dəyər kimi. Bu gün təhsil bir qədər fərqli aspektdən öyrənilməlidir: təhsil insan mədəniyyətinin tərkib hissəsi kimi, yığılmış insan kapitalı kimi, sosial nemət kimi. İlk üç mövqe elmi ədəbiyyatda tam şəkildə açıqlanır. Yalnız bəzi aydınlaşdırıcı məqamlar üzərində dayanmaq yaxşı olardı.

Birinci mövqe bir insanın təhsil müəssisəsində və ya özünütəhsil yolu ilə bilik, bacarıq, idrak və praktik fəaliyyətdə təcrübə, dəyər istiqamətləri və müəllimlər və tələbələr, pedaqoqlar və şagirdlər arasında münasibətlər, onların təsirləri və qarşılıqlı əlaqələri sisteminin bir-biri ilə inkişafını nəzərdə tutur.

İkincisi, şagirdlərin bilik, bacarıq, təcrübə və münasibətlərin mənimsənilməsində nailiyyətlərinin səviyyəsinin xarakterik xüsusiyyətidir. Nəticədə təhsilin mahiyyəti də elə budur.

Baxılan mövqelər bəşəriyyətin tarixi təcrübədə toplanmış mənəvi sərvətinin müvafiq nəticələri kimi biliyə diqqət yetirildiyini göstərir. Bu yanaşma insanın sosiallaşmasına və cəmiyyətə daxil olmasına kömək edən biliklərin yığılmasını, bacarıqların (bilik yönümlü yanaşma) formalaşmasını nəzərdə tutur. Bu nöqteyi-nəzərdən onları insan həyatını təmin edən sistem kimi təsnif etmək olar. Burada tədris prosesi akademikliyə, bilik isə mütləq dəyərə çevrilir.

## Təhsil cəmiyyətin iqtisadi və sosial tərəqqisinin amili kimi

Hazırda təhsil sahəsi prioritet istiqamətə çevrilir və təhsilin məzmunu cəmiyyətin iqtisadi və sosial tərəqqisinin amillərindən biridir. Təhsil fərdin öz müqəddəratını təyin etməsinin təmin edilməsinə, onun özünü həyata keçirməsinə şərait yaradılmasına yönəldilməlidir. Müasir dövrdə təhsil hər bir fərdi şəxs üçün adekvat ümumi və peşə mədəniyyətinin, şəxsiyyətin zehni inkişafının, onun peşəkar keyfiyyətlərinin və dünya birliyinə adekvat peşə səriştəsinin təmin edilməsinə yönəldilmişdir.

Təhsilin mərkəzi ideyası insanın fəaliyyət subyekti kimi davamlı inkişafı ideyasıdır. İnkişafın davamlı bir proses kimi başa düşülməsi inkişaf təhsili prinsipi ilə birləşdirilməlidir, təhsil fəaliyyətinin təkcə dünyanı bilməyə deyil, həm də çevrilməsinə yönəldilməlidir. Bu, açıq təhsil sisteminə keçidi şərtləndirir. Rusiyada müasir peşə təhsili sisteminin fəaliyyətinin yeni şərti kimi açıqlıq onun cəmiyyətlə geniş qarşılıqlı əlaqəsini, müştərilərin (işəgötürənlərin) təlim üçün prioritetinin tanınması ilə bazar münasibətlərinə üzvi cəlb olunmasını nəzərdə tutur.

Davamlı inkişafda olan cəmiyyət təhsil vasitəsilə insan qarşısında yeni XXI əsrin meyilləri və ziddiyyətləri ilə bağlı yeni tələblər irəli sürür və onun vasitəsilə həyata keçirir. Əsas olanlara aşağıdakılar daxildir:

- öyrənmə qabiliyyəti, yəni. insanın bilik səviyyəsini daim təkmilləşdirmək, yeni fəaliyyət növlərini, o cümlədən peşəkar fəaliyyətləri mənimsəmək bacarığı;
- intellektual və fiziki inkişaf, yeni texnologiyaların mənimsənilməsində uğurun təmin edilməsi və sağlamlığın qorunması;
- yaradıcılıq, yəni təkcə təhsil prosesində deyil, həm də gələcək peşə fəaliyyətində yaradıcı düşünmək və hərəkət etmək bacarığı;

- mənəviyyat, vətənpərvərlik, insanpərvərlik və tolerantlıq.

Təhsilin inkişafı əhalinin rifahının yüksəldilməsi, eləcə də fərdin həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəldilməsi üçün ilkin şərait yaradır. Təhsil innovasiyalara yiyələnməyə, ömürboyu təhsil prosesinə qoşulmağa, sağlam həyat tərzinə və ətraf mühitə düzgün münasibət seçməyə şərait yaradır. Təlim prosesi zamanı əldə edilən bilik və bacarıqlar, o cümlədən mənəvi davranış standartları hər bir şagirdə cəmiyyətin tamhüquqlu üzvü olmaq imkanı verir. İnsan kapitalının inkişafı dövlətin təhsil sisteminin əsas məqsədidir. Sənaye cəmiyyətindən postindustrial cəmiyyətinə keçid nəticəsində biliyin statusu da dəyişdi. İndiki mərhələdə bilik ilk növbədə şagirdin şəxsiyyətinin formalaşmasına yönəlib. Cəmiyyətin inkişaf tendensiyalarına uyğun olaraq təhsilin rəqabətqabiliyyətliliyi mütərəqqi dinamizm tələb edir. Belə olan halda yeni cəmiyyətin qurulması təcili olaraq təhsil sistemində əsaslı islahatların aparılmasını tələb edir. Azərbaycanın yeni təhsil sistemi üstqurum hadisəsi kimi müasir cəmiyyətin tələblərinə cavab verən şəxsiyyətin formalaşmasına öz töhfəsini verir.

“Ümumi təhsilin Konsepsiyası” (Milli Kurikulum) sənədinin qəbulu ilə bu sahədə uğurlu addım atıldı. Ulu Öndər Heydər Əliyevin “Təhsil millətin gələcəyidir” mövqeyinə əsaslanan milli təhsil siyasəti onun üç mühüm tövsiyəsi ilə dəyişdi: 1) qazanılmış təcrübənin öyrənilməsi və mütərəqqi ənənələrə söykənilməsi; 2) inkişaf etmiş ölkələrin qabaqcıl təcrübəsinin mənimsənilməsi və praktikada tətbiqi; 3) yenidənqurma məsələsində təkamül yolu seçmək, tələskənliyə yol verməmək.

Təhsil eksperti Ken Robinson deyir ki, “dünyada heç bir sistem və ölkədə heç bir məktəb müəllimlərindən yaxşı deyil. Müəllimlər məktəb uğurlarının mənbəyidir” [3, 6]. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda qeyd olunur: “Müəllimin şagirdin formalaşmasına təsiri daha çox onun akademik bacarığından, pedaqoji təcrübəsindən və peşəkarlıq səviyyəsindən asılıdır” [1].

**Müstəqil Azərbaycanın təhsil strategiyası**

XX əsrin sonu dünya məkanında qlobal dəyişikliklərlə yadda qaldı. Yaranan yeni dövlət qurumları öz dövlətçiliyini dünya qanunu və nizam-intizamı, ərazi bütövlüyü, xalqların demokratik azadlıqlar hüquq prinsipləri əsasında qurmağa başladılar. Təhsil hüququ insanın həm fərdi, həm də bütün cəmiyyətin inkişafı üçün ilkin şərt yaradan ən vacib konstitusiya sosial hüquqlarından biridir. 1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan müstəqil daxili və xarici siyasət yeritməyə başladı. Yeni Konstitusiyanın hazırlanmasına ehtiyac var idi. Müstəqil Azərbaycanın ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edildi.

Respublikanın daxili siyasətində prioritet istiqamətlərdən biri də təhsildir. Azərbaycanda təhsilin inkişafı qanunvericiliklə stimullaşdırılır. Təhsil hüququ vətəndaşların əsas konstitusiya hüquqlarından biridir. Təhsil sisteminin qarşısında duran vəzifələr Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktına, Azərbaycan Respublikasının Konstitusiyasına, “Təhsil haqqında” Qanuna və müvafiq beynəlxalq hüquq normalarına uyğun olaraq həyata keçirilir. “Təhsil haqqında” Qanun respublikanın təhsil sisteminin ümumi əsaslarını müəyyən edir. 1992-ci ildə qəbul edilmiş “Təhsil haqqında” Qanun Azərbaycan vətəndaşlarının “irqindən, milli və dini mənsubiyyətindən, dilindən, cinsindən, yaşından, sağlamlıq vəziyyətindən, sosial və maddi vəziyyətindən, fəaliyyət sahəsindən, sosial mənşəyindən, yaşayış yeri, dinə münasibəti, siyasi əqidəsi, habelə cinayət tərkibinin olması”ndan asılı olmayaraq təhsil hüququ verir [4].

Respublikamızda 90-cı illərdə və 2000-ci ilin əvvəllərində ümumtəhsil sahəsində əsaslı islahatların aparılmasına, cəmiyyətin tələbatını ödəmək məqsədilə yeni tipli təhsil müəssisələrinin yaradılmasına baxmayaraq, ali pedaqoji təhsilin əsas məqsədi heç bir təhsil müəssisəsi deyildi. Eyni zamanda, əlavə təhsil də daxil olmaqla, təhsil sisteminin müxtəlif strukturları arasında məzmun və təşkilatçılıq baxımından kifayət qədər qarşılıqlı əlaqənin olmaması müəllimin və pedaqoqun davamlı inkişafına imkan vermirdi. Məhz buna görə də tədqiqatlar daha çox müəllimin ilkin hazırlığına yeni yanaşmalar irəli sürürdü. Ona görə də müəllim təhsilinin davamlı proses kimi qəbul edilməsi ideyası irəli sürülmüşdü. Bu, bir tərəfdən, ümumi pedaqoji biliklərin daim yenilənməsi və inkişafı ilə, digər tərəfdən isə pedaqoji sistemdə tez-tez baş verən dəyişikliklər, yeniliklər və pedaqoji fəaliyyətin yaradıcılıq mahiyyətinin artması ilə əlaqələndirilirdi. Nəhayət, 2020-ci ildə Azərbaycanın ali pedaqoji təhsil müəssisələrində müəllim hazırlığına dair tələblər təkmilləşdirilərək, yeni təhsil proqramları qəbul edilmişdir.

Bu gün Azərbaycan hər sahədə yüksələn inkişafla irəliləyir. Dövlət siyasətinin mühüm spektrlərindən biri də heç sübhəsiz təhsildir. 2003-cü ildən indiyədək Azərbaycanda təhsilin inkişafında Ümummilli Liderin müəyyən etdiyi kurs iki istiqamətdə həyata keçirilir: milli təhsil və təhsilin müxtəlif sahələrinin ahəngdar inkişafı. Əgər 1993-1994-cü tədris ilində respublikanın 4364 ümumtəhsil məktəbində 1 milyon 549 min şagird təhsil alırdısa, 2002-2003-cü tədris ilində 4561 ümumtəhsil məktəbində 1 milyon 600 mindən çox yeniyetmə təhsilini davam etdirmişdir. Bundan əlavə, təhsil sisteminin maddi-texniki bazası yaxşılaşdırılmış, 200 yeni məktəb binası tikilib istifadəyə verilmiş, məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı rayon və şəhərlərdə 700-dən çox ümumtəhsil məktəbi istifadəyə verilmişdir. İstedadlı uşaqların bacarıqlarını inkişaf etdirmək məqsədilə 30-a yaxın lisey və gimnaziya təsis edilmiş, burada 12 minə yaxın şagird təhsil almışdır.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi istiqamətində aparılan işlər təhsil islahatlarında da öz əksini tapmışdır. 1998-ci il martın 30-da Prezidentin Sərəncamı ilə Təhsil İslahatı üzrə Dövlət Komissiyası yaradılmış, 1999-cu il iyunun 15-də isə “Azərbaycan Respublikasının təhsil islahatları Proqramı” hazırlanaraq təsdiq edilmişdir. Təhsilin gələcək inkişafı strategiyasını müəyyən edən proqramda təhsil sisteminin strukturunda, idarə edilməsində, məzmununda, maddi-texniki bazasında, iqtisadiyyatında, kadr hazırlığında və təminatında köklü dəyişikliklər nəzərdə tutulmuşdur. “Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında” 2000-ci il 13 iyun tarixli, “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 18 iyun 2001-ci il tarixli, “Azərbaycan əlifbasının yaradılması” və təhsilimizin dünya standartları səviyyəsinə yüksəldilməsində 9 avqust 2001-ci ildə Azərbaycan Dili Günü, 2003-cü il yanvarın 2-də “Dövlət dili haqqında” Qanunun tətbiqi haqqında” qərarların böyük rolu olmuşdur. “Azərbaycan Respublikasının ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında” 4 oktyabr 2002-ci il tarixli, “Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təchiz edilməsi proqramının (2003-2007-ci illər) təsdiq edilməsi haqqında” 2003-cü il 17 fevral tarixli qərarları ümumtəhsil məktəblərinin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün etibarlı zəmin yaratmış və mövcud problemlərin aradan qaldırılması istiqamətində mühüm addımlar olmuşdur. [2, 143]

Azərbaycan təhsilinin bugünkü uğurlarının əsasında Ümummilli Lider Heydər Əliyevin gərgin əməyi dayanır. Təhsilin inkişafı ilə bağlı bütün proqramların icrası hazırda Heydər Əliyevin gördüyü işlərin tərkib hissəsidir. Ümummilli lider Heydər Əliyev hər zaman vurğulayırdı ki, təhsil milli tərəqqidə, müstəqil dövlət quruculuğunda əvəzsiz rol oynayır. Ümumiyyətlə, Azərbaycanda təhsilin dünya və beynəlxalq standartların inkişaf tendensiyalarına uyğun müasir səviyyəsinə çatmasında Ümummilli Lider Heydər Əliyevin xidmətləri az deyil. Dahi Liderin siyasəti Prezident İlham Əliyev tərəfindən əzmlə davam etdirilir. Azərbaycanda gənc nəslin elmə, təhsilə cəlb olunması istiqamətində dövlət tərəfindən mühüm addımlar atılır. Bu baxımdan elmlə təhsilin əlaqələndirilməsi, onların müasir texnologiya və innovasiyalardan istifadə etməklə hərtərəfli inkişafı ən aktual və prioritet məsələdir və bu istiqamətdə iqtisadi potensialın intellektual potensiala çevrilməsi sahəsində mühüm işlər görülür.

“2022-2026-cı illərdə Azərbaycan gənclərinin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsili üzrə Dövlət Proqramı” çərçivəsində hər il 400 nəfər xaricə təhsil almağa göndərilir, təhsil yerlərinin azı 80 faizi magistratura səviyyəsinə ayrılır. Orada müxtəlif bilik və bacarıqlara yiyələnən, elmi nailiyyətlər qazanan Azərbaycan gəncləri öz ölkələrinə qayıdır və əldə etdikləri təcrübəni tətbiq edərək yeni nəslə ötürürlər. [5, 161]

Azərbaycanın strateji məqsədi dayanıqlı, sabit və rəqabətədavamlı inkişafı təmin edən, insan kapitalının inkişafına önəm verən, insan resurslarının inkişafı və idarə olunmasını həyata keçirən müasir elm və təhsil sisteminin yaradılmasıdır. Ümumiyyətlə, hazırda aparılan islahatların əsas məqsədi ölkədə şəffaf, səmərəli elmi-təhsil mühitinin yaradılması, təhsilin keyfiyyətinin yüksəldilməsi və onun müasir tələblər səviyyəsində təşkilindən ibarətdir. Aparılan uğurlu islahatlar nəticəsində ölkəmiz elm və təhsil sahəsində dünyanın iqtisadi cəhətdən sabit və qabaqcıl ölkələrindən birinə çevrilə bilər. Hazırda ölkələrin inkişafı təkcə iqtisadi göstəricilər, təbii ehtiyatlar, əhalinin həyat səviyyəsi ilə deyil, həm də elmin inkişaf səviyyəsi və elmi potensialın mövcudluğu ilə müəyyən edilir. Bu amil həm də elmin inkişafına yönəlmiş dövlət strategiyasının təşkili

səviyyəsindən birbaşa asılıdır. Danılmaz faktdır ki, ölkəmizdə müşahidə olunan sosial-iqtisadi inkişafın mənbəyi elmdir.

Hər bir ölkənin inkişaf uğurları bir sıra amillərlə qiymətləndirilir. Bu əmsallar arasında elmin və təhsilin səviyyəsinin göstəricisi çox mühüm yer tutur. Elm və təhsil hər bir insana öz davamlı gələcəyini formalaşdırmağa, lazımi bilik, bacarıq, münasibət və dəyərlərə yiyələnməyə imkan verən əsas amillərdir. Elm təhsili proqramları sosial, iqtisadi, siyasi, psixoloji və mədəni aspektləri əhatə edən hərtərəfli sahədə bütün fənləri əhatə etməlidir. Davamlı inkişaf və təhsil sisteminə ayrı-ayrı inkişaf sahələri kimi deyil, vahid sistem kimi baxmaq lazımdır, çünki davamlı inkişafı təmin edən əsas vasitələrdən ən mühümü ölkənin inkişaf etmiş təhsil sistemidir.

Hər bir ölkənin inkişaf uğurları bir sıra amillərlə qiymətləndirilir. Bu əmsallar arasında elmin və təhsilin səviyyəsinin göstəricisi çox mühüm yer tutur. Elm və təhsil hər bir insana öz davamlı gələcəyini formalaşdırmağa, lazımi bilik, bacarıq, münasibət və dəyərlərə yiyələnməyə imkan verən əsas amillərdir. Elm təhsili proqramları sosial, iqtisadi, siyasi, psixoloji və mədəni aspektləri əhatə edən hərtərəfli sahədə bütün fənləri əhatə etməlidir. Davamlı inkişaf və təhsil sisteminə ayrı-ayrı inkişaf sahələri kimi deyil, vahid sistem kimi baxmaq lazımdır, çünki davamlı inkişafı təmin edən əsas vasitələrdən ən mühümü ölkənin inkişaf etmiş təhsil sistemidir.

Azərbaycan Respublikasında aparılan təhsil islahatı təhsil sisteminin bütün pillələrini əhatə edir. İslahatın məqsədi ölkədə davamlı insan kapitalının inkişafı, eləcə də hər bir vətəndaşın müasir bilik və bacarıqlarla təmin olunması ilə bağlıdır. Bu ali məqsədin həyata keçirilməsi təhsil sisteminin institusional əsaslarının, infrastrukturunun və kadr potensialının inkişafını tələb edir. Təhsil sisteminin insan kapitalının inkişafı çağırışlarına cavab verməsi ümumi təhsilin keyfiyyət göstəricilərinin Avropa standartlarına uyğunluğunun mühüm şərtidir ki, bu da insan resurslarının inkişafı ilə bağlıdır. Odur ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın ikinci strateji istiqaməti "təhsil sahəsində kadr potensialının müasirləşdirilməsi"-ni əhatə edir. Birinci istiqamət bütün səviyyələrdə, o cümlədən məktəbəqədər, ümumi, ilk peşə-ixtisas, orta ixtisas və ali təhsil pillələrində səriştəəsaslı, şəxsiyyətyönümlü təhsil məzmununun yaradılmasını nəzərdə tutursa, ikinci mühüm istiqamət kadr potensialının yenilənməsidir.

Azərbaycanda ali təhsilin Avropa təhsil məkanına uğurlu inteqrasiyası yeni paradiqmaların, konsepsiyaların, innovasiyaların, dövlət standartlarının və alternativ kurikulumların meydana çıxmasına, pedaqoji sistemin yenilənməsinə, pedaqoji prosesin optimallaşdırılmasına, təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaratmışdır. "Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar proqramı" (1999), "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığı Konsepsiyası və strategiyası" (2007), "Azərbaycan Respublikasında ümumi təhsil Konsepsiyası" (Milli kurikulum) (2006), "Azərbaycan Respublikasında ali təhsilin bakalavriat səviyyəsində ibtidai sinif müəllimlərinin hazırlanması üzrə çərçivə kurikulumu" (2008), "Təhsil sahəsində Azərbaycan Respublikasının Qanunu" (2009), "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (2013) və digər normativ sənədlər zəruri peşə kompetensiyalarına malik müəllimlərin hazırlanması üçün nəzəri metodoloji əsas olmaqla, eyni zamanda, bu prosesi sürətləndirmişdir.

**Nəticə**

Ümummilli lider Heydər Əliyev tərəfindən hazırlanmış təhsil strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən ölkənin davamlı sosial-iqtisadi inkişafı strategiyasının tərkib hissəsi kimi uğurla davam və inkişaf etdirilir. Son illər Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində böyük irəliləyişlər əldə edilmiş, milli təhsil sisteminin aydın gələcəyini təmin etmək üçün bir sıra inkişaf proqramları təsdiq edilmiş, təhsilin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Bu tədbirlərə təhsilin məzmununun yeniləşdirilməsi, yeni proqramların, dərsliklərin və dərs vəsaitlərinin hazırlanması, təhsilin idarə edilməsinin təkmilləşdirilməsi, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daxildir ki, bu da kadr hazırlığında, təhsildə beynəlxalq əlaqələrin genişləndirilməsi, təhsil sistemində məqsədyönlü proqramların həyata keçirilməsi yolu ilə təhsilin keyfiyyətinin yüksəldilməsini təmin edir.

Ölkəmizdə müxtəlif maliyyə mənbələri sayəsində, xüsusən də yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində təhsilə ayrılan vəsaitlər ildən-ilə artır. Bu gün dövlət büdcəsinin maddələri arasında

təhsilə ayrılan vəsaitin həcminə görə ikinci yeri tutur. Prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində təhsilin müxtəlif sahələri üzrə elmi təhlilə əsaslanan inkişaf proqramları təsdiq edilərək həyata keçirilib, genişmiqyaslı islahatlar prosesi dönməz xarakter alıb.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // Xalq qəzeti, 2013, 24 oktyabr.*

2. *Qurbanov S. Zamana sığmayan lider: Heydər Əliyevin idarəçilik və varislik fəlsəfəsi. Nəşriyyat: İzə. Bakı, 2022, s.436*

3. *Robinson K. Məktəblər hazırkı formada həyata davamlı deyillər (ekspert Ken Robinson dünyanı sənaye inqilabının təhsil sistemindən imtina etməyə səsləyir. //Azərbaycan müəllimi, -2017. - 26 may.- s. 6.*

4. *Закон Азербайджанской Республики Об образовании (7 октября 1992). Документы об основах государственного строя (законы, указы, распоряжения). 457 с.*

5. *Хан-Хойская И.В., Багирова А.М. Развитие образования Азербайджана – реализация научной расстановки акцентов образовательной стратегии. Economy and Business: Theory and Practice, vol. 5-3 (99), 2023. 161*


## АННОТАЦИЯ


В статье анализируется современное состояние системы образования Азербайджана. Характеризуются проблемы образования, требующие своего решения в перспективе. Предлагаются меры организационно-экономического характера по совершенствованию регулирования системы образования. В статье также анализируются реформы, проводимые в сфере образования в Азербайджане, принятые государственные программы. Это, в свою очередь, помогает определить стратегию развития образования в нашей стране.



**Ключевые слова:** *образование, стратегия развития, Азербайджан, законодательство, государственные программы.*


## SUMMARY


The article evaluates the current state of an education system of Azerbaijan. The author specifies education system problems, which are to be solved in future consideration, and comes up with organizational and economic measures aiming to develop education system regulation. The article also analyzes the reforms carried out in the field of education in Azerbaijan and the adopted state programs. This, in turn, helps determine the strategy for the development of education in our country.



**Key words:** *education, development strategy, Azerbaijan, legislation, government programs.*

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.854

# HEYDƏR ƏLİYEV VƏ MİLLİ SİYASƏT KONSEPSİYASI

**RƏŞİD MEHDİYEV**
*Bakı Dövlət Universiteti Azərbaycan tarixi (humanitar fakültələr)kafedrasının doktorantı*
*E-mail: mresid.1998@gmail.com*

Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illərdə Azərbaycanın milli maraqlarını hər zaman uca tutmuşdur. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti, həyata keçirdiyi düşünülmüş, məqsədyönlü tədbirlər hesabına 1969-1982-ci illər Azərbaycanın intibah dövrü kimi tarixə düşmüşdür. XX əsrin 70-80-ci illəri Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni inkişafında özünəməxsusluğu ilə səciyyələnən mühüm bir dövrdür. Bu dövrdə həyata keçirilən tədbirlər məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Həmin dövrdə Heydər Əliyev bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və müdrik siyasi xadim kimi bir sıra mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gələrək Azərbaycanda bütün sahələrdə ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş bir sıra mühüm addımlar atmışdır. İntibah dövründə əldə olunan bütün nailiyyətlər Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi və prinsipiallığı nəticəsində mümkün olmuşdur.

Milli siyasət dövlət siyasətini ehtiva etməklə daha geniş miqyaslı anlayışdır. Heydər Əliyevin fəaliyyətə başladığı 60-cı illərdə Azərbaycan formal olaraq müstəqil olsa da, faktiki müstəmləkə əsarətində idi. Buna görə də müstəqil dövlətə gərəkli milli siyasətdən danışmaq mümkün deyildi. Heydər Əliyevin milli siyasəti gerçəkləşdirmək üçün yetəri qədər təcrübəsi var idi. Ümummilli Lider Heydər Əliyevin milli siyasət konsepsiyası məkan yox zaman xarakteri daşıyırdı. Buna misal olaraq Dövlət təhlükəsizlik sisteminin milliləşdirilməsi tədricən ölkənin bütün idarəetmə strukturlarının, fəaliyyət göstərən rəsmi və ya qeyri-rəsmi bütün qurumlarının milliləşdirilməsinin zəruriliyinə işarə idi. 20-60-cı illərin dövri mətbuatını 70-80-ci illərin dövri mətbuatı ilə müqayisə etsək görərik ki, sıravi vəzifələrdən tutmuş rəhbər vəzifələrə qədər bir çox kadrların imzalarının dəyişməsi Ümummilli Lider Heydər Əliyevin milli siyasətinin nəticəsi idi. Qonşu respublikalardan fərqli olaraq, Azərbaycanda kadr siyasətinin ciddi nəzarətdə saxlanıldığını və məqsədyönlü şəkildə bizim xeyrimizə olmayan qərarların verildiyi bir dövrdə Heydər Əliyevin perspektivli, müdrik, milli siyasət konsepsiyasının əhəmiyyəti bir daha sübut olunur.

Ümummilli Lider  Heydər Əliyevin milli siyasət konsepsiyasının əsası təfəkkürdəki, mənəviyyatdakı və mentalitetdəki deformasiyaların qarşısının alınması və sağlamlaşdırılması idi. XIX əsrdə dini etiqadla milli mənsubiyyətin qarışdırılması, XX əsrdə maarifin, mədəniyyətin şimaldan gəlməsi ideyasının kəskin şəkildə təlqin edilməsi xalqın özünüdərkinin özünə qaytarılmasını vacib etmişdi. Heydər Əliyevin milli siyasət konsepsiyasının əsas məqsədi gələcək nəsilləri bu ideoloji təxribatların yaratdığı stereotiplərdən xilas edərək formalaşdırmaq idi. Bu milli siyasət konsepsiyası dəqiq siyasi oriyentasiyası ilə yanaşı ictimai-siyasi, sosial- iqtisadi və elmi-mədəni həyatı bütövlükdə əhatə edən kompleks xarakter daşıyırdı və ən əsas iki səciyyəvi cəhətini qeyd etmək lazımdır. Heydər Əliyevin milli siyasət doktrinasında strateji mərama - müstəqillik və azadlığa nail olmaq üçün dövrün imkanlarından maksimum istifadə edərək milli dövlət quruculuğunun ən vacib atributlarını gerçəkləşdirmək və xalqın təfəkküründə, mənəviyyatında milli özünüdərkə qayıtmaqla əsaslı dönüş yaratmaq birinci sırada idi. Dövlət quruculuğu və milli insan - milli siyasət konsepsiyasının prioritet istiqaməti bunlar idi və yerdə qalan bütün digər istiqamətlər məhz bu iki istiqamətin reallaşmasına yönəlmişdi [10, s.21]. Milli siyasət konsepsiyasının bu iki prioritet istiqaməti respublikamızda azadlıq uğrunda mübarizənin tarixi qələbə qazanmasında əhəmiyyətli rolu olmuşdur.

Ümummilli Lider  Heydər Əliyevin milli siyasət konsepsiyası dövlət quruculuğu, ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni, ideoloji, mənəvi-əxlaqi və hərbi sahələri əhatə edirdi. İqtisadi-sosial sahədə bir çox işlər görülmüşdür. “Neft - qara qızıl” diyarı kimi tanınan Azərbaycanın aqrar ölkəyə çevrilməsi bolşevik ideoloqlarının əsas məqsədi idi və bu istiqamətdə ardıcıl iş aparılırdı. Ölkəmizdə kənd təsərrüfatı sahələrinin inkişafı müsbət hal olsa da sənayenin payının məhz aqrar sektora qurban verilməsi ölkəni xammal mənbəyi kimi istismar etmək, elmi-mədəni tərəqqinin qarşısını almaq üçün

düşünülmüş siyasət idi. Heydər Əliyev belə inkişafın ölkənin gələcəyi üçün fəlakət gətirəcəyini yaxşı bilirdi. Birinci növbədə tədricən sənaye sektorunun çəkisini artırmaq üçün əməli işlər görüldü. Sumqayıt iri kimya mərkəzinə çevrildi. Gəncədə, Naxçıvanda, Mingəçevirdə, Əli Bayramlıda və respublikanın digər rayon mərkəzlərində böyük çətinliklər hesabına da olsa da sənaye obyektlərinin tikintisinə icazə alındı. Bakıda kondisioner zavodu tikildi, yeni yollar salındı, strateji baxımdan çox əhəmiyyətli olan Bakı-Balakən, Bakı- Xankəndi dəmiryolu açıldı. Azərbaycan iqtisadiyyatında infrastrukturanın sənayenin çəkisinin artırılması nəticəsində əhalinin sosial vəziyyəti yaxşılaşdı, əhalinin sosial tərkibi dəyişdi, sənaye sektorunun gücləndirilməsi mədəniyyətin, elmin, təhsilin, SSRİ respublikaları və bir çox dünya dövlətləri ilə qarşılıqlı əlaqələrin inkişafına ciddi təsir göstərdi. Azərbaycanın respublika (hətta formal müstəqil olsa da) kimi dünyada tanınmasında böyük rol oynadı. Aqrar ölkə olaraq qalan Azərbaycanın (neft sənayesini çıxmaq şərti ilə) sənayeləşdirilməsi gələcək müstəqil və azad Azərbaycanın iqtisadi cəhətdən qeyri-asılı mövcudluğunun əvəzolunmaz bazasına çevrildi.

Ümummilli Lider Heydər Əliyevin milli siyasət konsepsiyası çərçivəsində hərbi sahədə də əhəmiyyətli işlər görülmüşdür. Heydər Əliyevin milli siyasət doktrinasında iki cəhət nəzərə alınmaqla ordu quruculuğu mühüm yer tuturdu: birincisi, ilk növbədə xalqın mentalitetinə istinad olunurdu. Tarix boyu xalqımız "haqlı güclüdür" prinsipi ilə yaşayıbdır. Amma bu, o demək deyil ki, döyüşkənlik, mübarizlik, ərənlik xalqımızın xarakterik özünəməxsusluğundan biri olmamışdır. Döyüşmək bacarığı və cəsurluğu ilə seçilən xalqımız başqa dövlətlərin əsarətində olduğu vaxtlarda onların hərb sənətindən kənarda qalmaları istiqamətində məqsədyönlü siyasət yürüdülmüşdür. XIX və XX əsrlərdə qeyri-xristianların eləcə də azərbaycanlıların nəinki elitar zabit korpusuna, hətta sıravi əsgər heyətinə də qatılmağa icazə verilmirdi. Çar Rusiyasının bu siyasəti bolşeviklər tərəfindən də davam etdirilirdi. Puşkinin igidliklərini tərənnüm etdiyi azərbaycanlıların, Ə.Şıxlinski, S.Mehmandarov va b. generalların ardıcılları XX əsrdə də hərb sənətindən kənarda saxlanılırdı [10, s.23]. Azərbaycanlı gənclərin professional hərbçi-zabit kimi yetişmələrinin qarşısını almaq üçün bütün imkanlardan istifadə olunurdu. Səbəb olaraq göstərilirdi ki, guya azərbaycanlılar rus dilini bilmirlər. Ordu sıralarında xidmət edən azərbaycanlılara nadir hallarda aviasiyada, raket hissələrində rast gəlinirdi, əslində, onlardan ucuz işçi qüvvəsi kimi istifadə edirdilər. Azərbaycanlılara qarşı belə ayrı-seçkilik düşünülmüş və məqsədyönlü siyasətin məntiqi nəticəsi idi. Buna görə də keçmiş SSRİ silahlı qüvvələrində peşəkar azərbaycanlı zabitlərin sayı gürcü və erməni zabitlərinin sayı ilə müqayisədə hiss olunacaq dərəcədə az idi [10, s.24]. Ordu sıralarına çağırılan azərbaycanlı gənclər müxtəlif coğrafi mövqelərdə yerləşdirilirdi. Coğrafi amil nəzərə alınmadığından gənclərimiz adaptasiya olunmadıqları məkanda yerləşdirilirdilər. Cənubun isti havasına öyrənənlər şimalın soyuq, şaxtalı mühitində çox vaxt xəstələnir, bəzən isə evə şikəst qayıdırdılar. Bunlar gənclərimizdə hərb sənətinə qarşı soyuqluq, özlərinin hərb qabiliyyətlərinə inamsızlıq oyadırdı. Ən önəmlisi isə Azərbaycanın həm həmin dövrdə, həm də müstəqillik qazanacağı istənilən vaxtda hərbi cəhətdən asılı vəziyyətdə qalır, təhlükəsizliyinə özü təminat yarada bilmirdi. Ümummilli Lider Heydər Əliyev kimi şəxsiyyət bütün bunları çox gözəl bildiyi üçün milli siyasət - milli təhlükəsizlik məsələlərinə, ordu quruculuğu məsələlərini xüsusi diqqət mərkəzində saxlayırdı. Qeyd etmək lazımdır ki, xalqımızın böyük və qəhrəman oğlu Heydər Əliyev ilk azərbaycanlılardandır ki, general-mayor hərbi rütbəsinədək yüksəlmişdir [9, s.21]. Dövlət təhlükəsizlik orqanlarında çalışan zamanlardan Heydər Əliyevin əsas məqsədi milli təhlükəsizliyə əsaslı təminat yaratmaq idi. O, respublika rəhbərliyinə keçəndən sonra birinci növbədə hüquq-mühafizə sisteminin milliləşdirilməsini davam etdirdi. Orduda xidmət edən zabitlərə, əsgərlərə diqqətini açıq büruzə verməklə, onlara əlavə imtiyazlar yaradırdı. Bunun nəticəsində gənclərdə hərb sənətinə maraq oyandı.

Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1971-ci ildə Bakıda Naxçıvanski adına Hərbi Məktəbin açılması Respublikamız üçün mühüm əhəmiyyətli bir addım idi. Bu addım artıq başqa formada müstəqillik ideyalarını yaşayan Azərbaycanda milli ordu quruculuğunun başlanğıcı, gələcək müstəqil Azərbaycanın milli təhlükəsizliyinə fundamental baza yaratmaq demək idi. Bu addımın atılması ilə hərb sənətinin tədrisinə təcrübə toplandı. Milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramında bu sistemin peşəkarlarının ümumi fikrinin ifadəsi kimi deyilmişdir: "Bu gün Milli Təhlükəsizlik Nazirliyində vətənə və xalqa sədaqətin, tapşırılmış sahə üçün məsuliy-

yət hissinin tərbiyəsində Heydər Əliyev təcrübəsi bərqərar olmuşdur. Nazirliyin şəxsi heyəti təhlükəsizlik orqanlarının bütün gözəl ənənələrini davam etdirib yaşatmağı qarşılarına məqsəd qoymuşdur. Biz fəxr edirik ki, həmin ənənələr möhtərəm Prezidentimizin təhlükəsizlik orqanlarına rəhbərlik etdiyi dövrlərdə təşəkkül tapmış və formalaşmışdır. Məhz həmin dövrdə bu orqanlarda işləyən bütöv bir nəsil Heydər Əliyev məktəbi keçmiş və çətin sınaqlarda mətinləşmişdir" [10, s.25]. 1997-ci ilin noyabrın 24-də Ümummilli Lider Heydər Əliyevin sərəncamı ilə məktəbin adı dəyişdirilərək Cəmşid Naxçıvanski adına Hərbi lisey adlandırılmışdır. Hərbi Liseyin məzunları respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan Ordusunun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə hazır olmuş və bu gün də vətənə ləyaqətlə xidmət edirlər. C.Naxçıvanski adına Hərbi Liseyin məzunlarından 1000 nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunmuş, 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülmüşdür [15]. Ümummilli Lider bütün vəziyyətlərdə hər hansı qurumun, strukturun milli maraqlara cavab verməsinə çalışmışdır. Buna görə də milli ordu quruculuğunda ən böyük nailiyyətlər məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olmuşdur.

Dahi lider Heydər Əliyevin milli siyasət konsepsiyası çərçivəsində ictimai-siyasi sahədə mühüm işlər görülmüşdür. 1920-1980-ci illərdə bolşevik - kommunist imperiyasının bütün ideoloji təbliğat maşını və gücü SSRİ-dəki başqa millət və xalqların assimilyasiyasına yönəldilmişdi. "Sovet adamı" anlayışı şüurlara yeridilirdi. "Sovet adamı" (gələcəkdə - "sovet xalqı") olmaq üçün milli dəyərlərin, adət-ənənələrinin, həyat və düşüncə tərzinin, mentalitetin sovet ideyologiyasına uyğunlaşdırma siyasəti aparılırdı. Qəlibləşdirilmiş standart modellərlə yaşayan azərbaycanlılar siyasi həyatdan tam təcrid olunmuş və siyasi fəallıqlarını itirmişdilər. Görkəmli qırğız yazıçısı Çingiz Aytmatov "manqurt" anlayışını ədəbiyyata gələcəyin bəlası kimi deyil, reallığa çevrilmiş həyatımızın faciəsi kimi gətirmişdi. Milli yaddaşını və siyasi fəallığını itirənlərin sayı günü - gündən artırdı. Məqsədyönlü şəkildə milli mənliyimiz təhqir olunurdu. 1994-cü ildə Heydər Əlirza oğlu çıxışlarının birində bildirmişdi ki, xalqımızda olan "milli hisslər boğulmuş, əzilmiş və tapdanmışdı", halbuki müasir Türkiyə Cümhuriyyətinin yaradıcısı böyük Atatürk demişdir: "Milli mənliyi olmayan millətlər başqa millətlərin ovudur" [10, s.27]. Başqa millətlərin buxovunda qalmamaq üçün üçün, ilk növbədə xalqın inamını özünə qaytarmaq, tapdanmış milli hissləri dirçəltmək, canlandırmaq lazım idi.

Ulu Öndərin əməli fəaliyyəti nəticəsində 70-80-ci illərdə respublika əhalisinin sosial-siyasi, milli strukturunda, məişətində, rifahında mühüm dəyişikliklərin baş verməsi xalqımızın mədəni-intellektual potensialını artırmışdı. 1970-80-ci illər Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni və mənəvi həyatında mühüm irəliləmələr dövrü olmuşdur. 70-80-ci illərdə Azərbaycanda ali təhsil daha da inkişaf etdi və yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 1971-ci ildə Pedaqoji Dillər İnstitutu bazasında Rus dili və Ədəbiyyatı (Bakı Slavyan Universiteti) və Pedaqoji Xarici Dillər İnstitutları (Azərbaycan Xarici Dillər Universiteti) yaradıldı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları əsasında 1972-ci ildə Naxçıvan, 1973-cü ildə Xankəndi (o vaxt Stepanakert) Pedaqoji İnstitutları, 1976-cı ildə İnşaat Mühəndisləri İnstitutu, 1981-ci ildə Gəncə Texnologiya İnstitutu təşkil edildi. 80-ci illərin sonlarında respublikada 17 ali məktəb vardı [12, s.172].

1970-80-ci illərdə insanların biliyinin, mədəni səviyyəsinin yüksəlməsində təhsil müəssisələri ilə bərabər, mədəni-maarif müəssisələri, kütləvi informasiya vasitələri də mühüm rol oynayırdı. Respublikada 87 yeni muzey və şəkil qalereyaları təşkil edilmişdi [1, s.174]. Bu muzeylərdə əsas ekspozisiyalar ilə yanaşı, hər il mühüm hadisələrə və əlamətdar günlərə həsr edilmiş tematik və səyyar sərgilər təşkil olunurdu. 1970- 80-ci illərdə ölkədə demokratik hərəkatın, plüralizmin genişlənməsi ilə hadisələri qeyri-ənənəvi tərzdə, müxtəlif qrupların, cərəyanların mövqeyindən şərh edən, qiymətləndirən yeni formal və qeyri-formal nəşrlər meydana gəldi. Azərbaycan kütləvi informasiya vasitələri bəşəri və milli dəyərlər fonunda sovet həyat tərzini, rəsmi ideologiyanı geniş təbliğ edirdi. Onun milli oyanışa təsiri güclənməkdə idi. 1976-1988-ci illərdə Azərbaycan xalqının tarixində ilk oncildlik "Azərbaycan Sovet Ensiklopediyası"-nın çap olunması respublikanın ictimai-siyasi və mədəni həyatında əlamətdar bir hadisə idi. 70-80-ci illərdə klassik Azərbaycan şair və yazıçılarının əsərləri külliyyatları, 20 cildlik "Azərbaycan Ədəbiyyatı Kitabxanası", 50 cildlik "Dünya Uşaq Ədəbiyyatı Kitabxanası", 100 cildlik "Dünya Ədəbiyyatı Kita-

bxanası", "Molla Nəsrəddin" 12 cildlik toplusunun birinci cildinin çap olunması xalqın milli oyanışına çox böyük təsir göstərmişdi [1, s.176]. Milli ədəbiyyatın və mədəniyyətin nüfuzunu artırmaq üçün ədəbiyyat və mədəniyyət respublika daxilində, keçmiş SSRİ və dünya miqyasında düşünülmüş, məqsədyönlü şəkildə təbliğ olunurdu. Əvvəlki dövrlərdə milli ideologiyaya zəmin hazırlayan, xalq enerjisini tükənməyə qoymayan sənət və sənətkarların 1970-80-ci illərdə də missiyalarını yerinə yetirmələri üçün hər cür şərait yaradılırdı. Bu illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın mədəniyyət xadimləri SSRİ fəxri adlarını, orden və medallarını, titullarını almışdılar. Azərbaycan tarixində ilk dəfə Azərbaycanın bəstəkarları, şairləri, yazıçılarına Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi [6, s.51]. Ümummilli Lider Heydər Əliyev Azərbaycan Yazıçılar İttifaqının 1969-1982-ci illərdə keçirilən qurultaylarında iştirak etmiş və Azərbaycan ədəbiyyatının inkişafı üçün əhəmiyyətli işlər görmüşdür. Bu dövrdə klassik Azərbaycan ədəbiyyatının təbliğinə diqqət yetirilir, klassik ədəbiyyatın dəyərli nümunələri- görkəmli elm xadimlərinin əsərləri müxtəlif xarici dillərə tərcümə olunurdu. Bu dövrdə Nizami, Füzuli, Nəsimi, M.P.Vaqif, H.Cavid, M.S.Ordubadi, S.Rəhimov, Aşıq Ələsgər, S.Rüstəm, Ü.Hacıbəyli, M.Maqomayev, S.Vurğun və s. kimi Azərbaycan klassiklərinin yaradıcılıq gecələri və yubileyləri təntənəli şəkildə qeyd olunurdu. Musiqi sənətimizin inkişafında Ü.Hacıbəyli, Q.Qarayev, F.Əmirov, A.Məlikov, S.Hacıbəyov, C.Cahangirov kimi Azərbaycan incəsənətinin inkişafında mühüm xidmətləri olan sənətkarlara xüsusi diqqət göstərilir, onların xidmətləri hər zaman yüksək qiymətləndirilirdi [11, s.37]. XX əsrin 70-80-ci illərində Sovet və Azərbaycan musiqi-ifaçılıq sənətinin inkişafında Xan Şuşinski, Bülbül, R.Behbudov, S.Qədimova, Ş.Ələkbərova, R.Muradova, Z.Xanlarova kimi dəyərli sənətkarların böyük xidmətləri olmuşdur. Bu illərdə dövrün ən mühüm, aktual problemlərini özündə əks etdirən, milli-mənəvi dəyərlərimizi və milli mədəniyyətimizi özündə ehtiva edən çoxlu filmlər çəkilmiş və istedadlı kinosənətçilər yetişdirilmişdi [6, s.60]. 1970-80-ci illərdə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Bakı və bütün respublikada epoxal abidələrin tikilməsi Azərbaycanın milli memarlığının inkişafına mühüm təsir göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin genişmiqyaslı siyasi-ideoloji fəaliyyətində dil siyasəti çox mühüm yer tuturdu. Heydər Əliyevin dil quruculuğu siyasəti onun milli dövlət quruculuğu siyasətinin tərkib hissəsi olaraq bütöv bir sistem təşkil etmişdir. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə milli-mənəvi dəyərlərimizin kökündə dayanan milli dilin qorunmasına, onun inkişafına böyük diqqət yetirilmişdir. Respublikanın təhsil müəssisələrində oxuyan şagird və tələbələrin 70%-dən çoxu Azərbaycan dilində təhsil alırdı [13, s.612]. Ulu Öndər Heydər Əliyevin cəsarəti və inadkarlığı nəticəsində 1978-ci ildə qəbul edilən Konstitusiyada Azərbaycan dili dövlət dili olaraq təsdiq edildi. Konstitusiyanın 73-cü maddəsində qeyd edilirdi: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”. Milli-mənəvi dəyərlərimizə yiyələnməkdə olan gənc nəslin milli, vətənpərvərlik ruhunda tərbiyə olunmasında milli dilimizin müstəsna rolu olmuşdur.

XX əsrin 70-80-ci illərində Ümummilli Lider Heydər Əliyevin milli siyasət konsepsiyası çərçivəsində iqtisadi, sosial sahələrdə aparılan dərin struktur islahatları, xalqın maddi rifahının yüksəlməsi nəticəsində milli-mənəvi həyatda böyük inkişafa səbəb olmuşdur. Həmin illər Azərbaycanın iqtisadi və ictimai-siyasi həyatında dönüş mərhələsi idi. 1969-cu ildə Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu [5, s.32]. Respublikamızın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında Azərbaycan Kommunist Partiyası MK-nın birinci katibi Heydər Əliyevin misilsiz fəaliyyəti, təşəbbüskarlığı və təşkilatçılığı bütün 1970-80-ci illərdə müvəffəqiyyətlərin əsası olmuşdur.

Ulu Öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində həyata keçirdiyi təhsil, elm və mədəniyyət sahəsindəki uğurlu siyasəti müasir dövrdə müstəqil Azərbaycanın milli sərvəti olan zəngin potensialının yüksəkliyində özünü göstərir və öz bəhrələrini verir. Bu gün müstəqil Azərbaycanda təhsilin, elmin, bütövlükdə mədəniyyətin əsasları məhz o illərdə yaradılmış təməl üzərində inkişaf etmişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı. "Elm". 2008. 608 səh. + 80 səh. illüstrasiya.*

*2. Əliyev Heydər. Müstəqilliymiz əbədidir. Birinci kitab. Bakı: Azərnəşr, 1997, 612 s.*

*3. Əliyev Heydər. Müstəqillik yolu. Seçilmiş fikir-*

*lər. Bakı,1997, 136 s.*

*4. Əliyev İlham. İnkişaf – məqsədimizdir. Bakı: Azərnəşr, 2009, 416 s.*

*5. Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.*

*6. Heydər Əliyev. Bakı, "Şərq-Qərb", 2023, 304 səh.*

*7. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı, 1997, səh. 55*

*8. Heydər Əliyev və müstəqil Azərbaycan gəncliyi (Tərt. edənlər: Adıgözəlov Z., Mustafayev İ.). Bakı: QAPP-POLİQRAF, 2003, 368 s.*

*9. Abdulla Qurbani. Mənim Hərbi liseyim. Bakı 2002, 352 s.*

*10. Orucov.H. Heydər Əliyev və Azərbaycanda milli siyasət. Tbilisi-2003, 182 səh.*

*11. Pişnamazzadə S.P. Heydər Əliyev və Azərbaycan Respublikasında milli-mənəvi dəyərlərin qorunması. Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. 07.00.02. AMEA, Gəncə Dövlət Universiteti, Gəncə, 2008, səh.36-85*

*12. Zeynalov, İ.X. Azərbaycanın sosial-iqtisadi inkişafı XX əsrin II yarısında, Azərnəşr, Bakı 2004.*

*13. Zeynalov, İ. Azərbaycanın Milli-Mənəvi Dəyərləri İntibah Dövründə (1969-1982-ci illər), Akademik Tarih ve Düşünce Dergisi , C.9, S.3, 2022, s.606-625.*

*14. Народное образование и культура в Азербайджанской Республике, стр.86.*

*15. https://mod.gov.az/az/cemsid-naxcivanski-ve-heyder-eliyev-adina-herbi-lisey-200/*

## XÜLASƏ

Ümummilli Lider Heydər Əliyevin milli siyasət konsepsiyası dəqiq, tarazlı siyasi oriyentasiyası ilə yanaşı ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatı bütövlükdə əhatə edən kompleks xarakter daşıyırdı. Qeyd etdiyimiz dövrdə Azərbaycanda baş verən dinamik inkişaf, iqtisadi, sosial, siyasi, mədəni sahələrdə aparılan dərin, hərtərəfli islahatlar Ümummilli lider Heydər Əliyevin milli siyasət konsepsiyası əsasında həyata keçirilmişdir. Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycan xalqının dövlətçilik tarixində yüksəliş dövrü kimi xarakterizə olunur. Bu dövrdə milli-mənəvi dəyərləri, zəngin tarixi ənənələri, nadir mədəniyyət inciləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, milli xüsusiyyətləri ilə dünya sivilizasiyasında özünəməxsus yer tutmuşdur. Bu dövrdə müstəqillik və azadlıq məramına nail olmaq üçün dövrün imkanlarından maksimum istifadə hesabına milli dövlət quruculuğunun ən vacib atributlarını gerçəkləşdirmək və xalqın təfəkküründə, mənəviyyatında tarixi ilkinliyi bərpa etməklə əsaslı dönüş yaratmaq ön sıraya çəkilmişdi. Ümummilli Lider Heydər Əliyev milli ideologiyanın bir hissəsi olan milli mənəvi dəyərlərimizin - ana dilimizin, ədəbiyyatımızın, dinimizin, adət-ənənələrimizin təbliği, qorunub-saxlanılması, inkişaf etdirilməsi fəaliyyətinin vacib istiqamətlərindən biri kimi qiymətləndirirdi. Məqalədə Ümummilli Lider Heydər Əliyevin milli siyasət konsepsiyasının prioritet istiqamətləri, mahiyyəti təhlil olunur və bu konsepsiya çərçivəsində ictimai-siyasi, iqtisadi-sosial, elmi-mədəni, ideoloji, mənəvi-əxlaqi sahələrdə fəaliyyət araşdırılır.

**Açar sözlər:** *Heydər Əliyev, milli siyasət konsepsiyası, milli-mənəvi dəyərlər, 1970-80-ci illər, intibah dövrü, milli ideologiya*

## РЕЗЮМЕ

Концепция национальной политики Общенационального лидера Гейдара Алиева носила комплексный характер, охватывая общественно-политическую, социально-экономическую, научно-культурную жизнь в целом, наряду с четкой и взвешенной политической ориентацией. Динамичное развитие, экономические, социальные, политические и культурные реформы, произошедшие в Азербайджане в указанный период, были реализованы на основе концепции национальной политики общенационального лидера Гейдара Алиева. 1969-1982 годы, когда общенациональный лидер Гейдар Алиев возглавил Азербайджан, характеризуются как период подъёма в истории государственности азербайджанского народа. В этот период азербайджанский народ, известный своими национально-духовными ценностями, богатыми историческими традициями, редкими культурными жемчужинами, с человеческими идеями и национальными особенностями, которыми он жил и пропагандировал, занял уникальное место в мировой цивилизации. В этот период для достижения цели независимости и свободы важнейшие атрибуты строительства национального государства были реализованы за счет максимального использования возмож-

ностей времени и создания фундаментального поворота путем восстановления исторической самобытности. в мышлении и духовности народа. Одним из важных направлений деятельности общенациональный лидер Гейдар Алиев считал пропаганду, сохранение и развитие наших национальных моральных ценностей, которые являются частью национальной идеологии - нашего родного языка, литературы, религии и традиций. В статье анализируются приоритетные направления и сущность концепции национальной политики общенационального лидера Гейдара Алиева, в рамках этой концепции исследуется деятельность в общественно-политической, экономико-социальной, научно-культурной, идеологической, духовно-нравственной сферах.

**Ключевые слова:** *Гейдар Алиев, концепция национальной политики, национально-нравственные ценности, 1970-80-е годы, период Возрождения, национальная идеология*

**SUMMARY**

National leader Heydar Aliyev's concept of national policy had a complex character, covering social-political, socio-economic, scientific-cultural life as a whole, along with a precise and balanced political orientation. The dynamic development, economic, social, political, and cultural reforms that took place in Azerbaijan during the mentioned period were implemented on the basis of national policy concept of national leader Heydar Aliyev. The years 1969-1982, when national leader Heydar Aliyev led Azerbaijan, are characterized as a period of growth in the history of the statehood of the Azerbaijani people. During this period, the people of Azerbaijan, known for their national-spiritual values, rich historical traditions, and rare cultural pearls, occupied a unique place in the world civilization with the human ideas and national characteristics that they lived and propagated. In this period, in order to achieve the goal of independence and freedom, the most important attributes of nation-state building were realized at the expense of the maximum use of the opportunities of the time, and creating a fundamental turnaround by restoring the historical originality in the thinking and spirituality of the people. The national leader Heydar Aliyev considered the promotion, preservation, and development of our national moral values, which are part of the national ideology - our mother tongue, literature, religion, and traditions - as one of the important directions of activity. The article analyzes the priority directions and essence of national policy concept of national leader Heydar Aliyev, and within the framework of this concept, activity in social-political, economic-social, scientific-cultural, ideological, spiritual-moral fields is investigated.

**Keywords:** *Heydar Aliyev, concept of national policy, national-moral values, 1970-80s, renaissance period, national ideology*

UOT:93(94)
DOI:10.30546/3006-0346.2024.2.80.913

# NAXÇIVAN DİYARINDA XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ SƏNƏTKARLIĞIN TARİXİ COĞRAFİYAYA TƏSİRİ

**NURLANA ƏLİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*E-mail: aliyevanurlana71@gmail.com*

**Giriş**

XIX-XX əsrin əvvəllərində bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq olmuşdur. Bu dövrdə bir çox sənət sahələri inkişaf etmiş və burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzləri yaradılmışdır. Naxçıvan ustalarının hazırladıqları sənətkarlıq məmulatları demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutmuş və şöhrət tapmışdır. Naxçıvan diyarında sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Başqa şəkildə desək, sənətkarlıq və onun ayrı-ayrı sahələri bir tərəfdən cəmiyyətin iqtisadi inkişaf səviyyəsinin, digər tərəfdən ölkənin xarici iqtisadi əlaqələrinin göstəricisi kimi çıxış edirdi.

S.Budaqova yazır ki, Naxçıvan xanlığında elə bir kənd yox idi ki, orada sənətkarlıqla məşğul olunmasın. Kəndlərdə sənətkarlıq müəyyən qədər inkişaf etsə də, sənətkarlıq şəhərlərdə, xüsusilə Naxçıvan xanlığının siyasi və iqtisadi mərkəzi olan Naxçıvan şəhərində mərkəzləşmişdi. Ancaq S.Budaqova XVIII-XIX əsrin əvvəllərinə aid tədqiqatlarında Naxçıvan diyarının əsas şəhərləri olan Naxçıvan və Ordubadda sənətkarlığın o qədər də yüksək səviyyədə olmadığını bildirir [2, s. 25]. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq monoqrafiyasının müəllifi C.Mustafayev isə belə bir fikir söyləyir: "Mövcud materialların təhlili belə bir qənaətə gəlməyə əsas verir ki, Naxçıvanın iqtisadi həyatında sənətkarlıq istehsalı həlledici rola malik idi" [6, s. 51]. Göründüyü kimi, eyni problemə dair bir-birinə zidd olan mülahizələr bildirilir. Z.Şahverdiyev isə qeyd edir ki, hər iki halda ifrata varılmışdır. Naxçıvan xanlığında kənd təsərrüfatı ilə sənətkarlığın inkişafı bir vəhdət təşkil edirdi. İstər xanlıq dövründə, istərsə də Rusiya tərkibində Naxçıvan bölgəsində əsas sənətkarlıq mərkəzləri Naxçıvan və Ordubad şəhərləri idi [14, s. 50].

1831-ci il kameral təsvirində Naxçıvan şəhərində olan sənətkarların sənət sahələri üzrə siyahısı da verilir. Buradan aydın olur ki, Naxçıvanda 50-dək sənət sahəsi var idi. Onların içərisində toxucular (126 nəfər), başmaqçılar (56 nəfər), xarratlar (38 nəfər), papaqçılar (35 nəfər) və b. üstünlük təşkil edirdi [14, s. 82]. Ordubad şəhərində də eyni sənətkarlıq sahələri üstünlük təşkil edirdi. Burada toxucular (177 nəfər), həllaclar (29 nəfər), boyaqçılar (19 nəfər) və b. sayca daha çox idi [15, s. 563].

Sənətkarlığın bir növü olan metalişləmə sənəti hələ qədim dövrdən Naxçıvan diyarında intişar tapmışdır. Ərazinin təbii sərvətlərlə və faydalı qazıntılarla zəngin olması bu sahənin inkişafına müsbət təsir göstərmişdir. Yazılı mənbələrin məlumatı və arxeoloji qazıntıların nəticələri göstərir ki, Kiçik Qafqaz dağ silsiləsində yerləşən 400-dən çox mis mədəninin xeyli hissəsi Naxçıvan diyarında yerləşir. Naxçıvan diyarında yerləşən Kültəpədə aparılan arxeoloji qazıntılar burada yerli xammalla işləyən metalişləmə sənətinin hələ Eneolit dövründə formalaşdığını sübut edir [4, s. 86].

Naxçıvan diyarında metalişləmə sənəti ilə bağlı yayılmış sənət sahələrindən biri də zərgərlik sənəti idi. Zərgərlik metal emalının qədim tarixə malik olan sahələrindən biridir. Azərbaycan xalqının məişətində mühüm yer tutan zərgərlik məmulatlarının yayılma arealı da kifayət qədər geniş olmuşdur. Azərbaycanın ayrılmaz bölgəsi olan qədim Naxçıvan diyarında arxeoloji qazıntılar zamanı zərgərlik sənətinə aid çoxlu nümunələr əldə edilmişdir. I Kültəpə qədim yaşayış yerində tapılmış qızıl məftildən hazırlanmış sırğa, bilərziklər və s. kimi arxeoloji materiallar bunu təsdiq edir. X əsr müəllifi İbn Hövqəl Azərbaycanda zərgərlik sənətinin mühüm mərkəzləri sırasında Naxçıvanın adını çəkmişdir. Tədqiqata cəlb etdiyimiz dövrün ilk illərinə aid kameral təsvirdə isə Naxçıvanda 18, Ordubad şəhərlərində isə 5 gümüşbəndin çalışdığına rast gəlirik [9]. Bir sözlə, bu sahə ilə məşğul olan sənətkarlar adətən şəhərlərdə məskunlaşırdı.

Xalçaçılıq Naxçıvan xanlığının ərazisinə daxil olan Dərələyəz mahalının şərq hissəsində daha geniş yayılmışdır. Bölgədə xalça həm şəxsi istifadə, həm də satış üçün hazırlanırdı. Xalçaçılıqla əlaqədar olaraq xanlıqda boyaqçılıq sənəti də xeyli inkişaf etmişdi [11, s. 65]. XIX əsrdə Naxçıvanda xalça istehsalı artıq kütləvi şəkil almış, yun məmulatı ilə yanaşı, pambıq və ipək saplarla da xalça toxunmuşdur. Aparılan araşdırmalar nəticəsində məlum olmuşdur ki, Naxçıvan şəhərindən

6 verst aralıda yerləşən Təzəkənddə xalça toxuculuğunu öyrədən xüsusi kurslar fəaliyyət göstərmişdir. Tədqiqatlardan aydın olur ki, burada xalça toxuculuğunu öyrənənlər arasında kəndli ailələri arasından çıxmış qızlar üstünlük təşkil etmişdir. Məlumatlardan aydın olur ki, Təzəkənd toxuculuğun inkişaf etdiyi Naxçıvan şəhər ətrafında yerləşən əsas kənd olsa da, bu sahə Nehrəm, Yamxana, Dizə, Qaraçuq, Tumbul kəndlərində də inkişaf etmişdir [13, s. 72-73].

Arxiv sənədlərindən aydın olur ki, xalça toxuculuğu üzrə İrəvan quberniyasının tərkibinə daxil olan qəzalar içərisində Naxçıvan qəzası ikinci, Şərur-Dərələyəz qəzası isə üçüncü yeri tuturdu. XIX əsrin sonu XX əsrin əvvəllərinə aid rəqəmlər göstərir ki, İrəvan quberniyasının Naxçıvan və Şərur Dərələyəz qəzalarında1700 ailə bu işlə məşğul olurdu [12, v. 31]. H.Səfərli və S. Hacıyeva öz tədqiqatlarında yazırlar ki, bölgədə istehsal olunan xalçaçılıq məmulatları təkcə bölgə əhalisinin tələbatını ödəmir, bəzi hallarda sıx iqtisadi mədəni əlaqələrin olduğu Cənubi Azərbaycan, Xəsərsahili vilayətlərə və Dağıstana da göndərilirdi [13, s. 73].

Xalçaçılıq sənətindən bəhs edərkən bölgədə mövcud olan digər toxuculuq sənəti haqqında da məlumat vermək lazımdır. XIX əsrdə Naxçıvan diyarının kəndlərində pambıq parça toxuculuğunun geniş yayıldığı və yüksəliş dövrü keçirdiyi haqqında məlumatlar vardır. Azərbaycanda tarixən pambıq parça, o cümlədən bez istehsalının klassik vətəni Naxçıvan olmuşdur. Bölgə öz üstünlüyünü uzun müddət qoruyub saxlaya bilmişdir. XIX əsrin birinci yarısında bez parçaları həm şəhərlərdə fəaliyyət göstərən karxanalarda, həm də kənd yerlərində ev şəraitində toxunurdu. Təkcə Naxçıvan şəhərində fəaliyyət göstərən 40 bəzzaz karxanasında çalışan toxucuların sayı 145 nəfərə çatırdı. Aparılan tədqiqatlar göstərir ki, diyarın Naxçıvan, Əlincəçay, Əylis mahallarında çalışan pambıq parça toxucularının sayı 300 nəfərdən çox idi [9, s. 102]. XIX əsrin ikinci yarısında Azərbaycanın digər bölgələrində pambıq parça istehsalı tənəzzülə uğrayıb aradan çıxdığı halda, Naxçıvanda bez toxuculuğu həm kustar sənət, həm də ev peşəsi formasında hələ də davam etməkdə idi. Maraqlı haldır ki, burada bez toxuculuğu təkcə şəhər və şəhər tipli qəsəbələrdə deyil, həm də kəndlərdə əmtəə istehsalı səciyyəsi daşımaqla satış məqsədi güdmüşdür. Bundan əlavə, Naxçıvan və Ordubad şəhərlərində də xeyli culfa, başqa sözlə, bez toxuyan (bəzzaz) cəmləşmişdi. Bir qədər əvvəllərə aid başqa bir mənbənin yazdığına görə, Çar Rusiyası Cənubi Qafqazı ələ keçirib bu yerlərə sahib olan zaman Naxçıvan şəhərində 40 nəfər bəzzaz işləyirdi [2, s. 23]. XIX əsrin 30-cu illərinə aid arxiv sənədində isə həmin dövrdə Naxçıvan şəhərində, ümumiyyətlə, toxucuların sayının 126 nəfər olduğu və Ordubadda çalışan 145 nəfər bəzzazla birlikdə isə hər iki şəhərdə 271 nəfər culfa işlədiyi xəbər verilirdi. XIX əsrin sonlarından bəhs edən başqa bir mənbənin yazdığına görə, o zaman Ordubad əhalisinin yarısı toxuculardan ibarət olub İrəvan və digər quberniyaların əhalisini pambıq parça ilə təmin edirdi [5, s. 59].

XIX əsrin 30-cu illərində diyarın Naxçıvan, Əlincəçay və Əylis mahallarında pambıq parça toxuyanların sayı, təxminən 300 nəfər təşkil edirdisə, həmin əsrin 80-ci illərində bir qədər başqa adla Naxçıvan qəzasının tərkibində olmuş bu üç mahalda bez toxuyan qadın toxucuların sayı 910 nəfərə çatmışdır [8, s. 104].

Ordubadda Naxçıvandan fərqli olaraq qadınlar ev şəraitində ipək parça toxuyur və ipək saplar hazırlayırdılar. Toxuculuq sənətində Ordubadın xalçaçıları və bez parça hazırlayanları ustalıq baxımından heç də Naxçıvan sənətkarlarından geridə qalmırdılar. Ordubad və ümumiyyətlə, Naxçıvan diyarında toxunan parçalara xarici bazarda da böyük ehtiyac duyulurdu. Naxçıvan diyarında şəhərlərdən savayı, Dərələyəz mahalında başqa kənd yerlərindən fərqli olaraq əhali sənətkarlığın müxtəlif sahələri ilə məşğul olurdu. Bu mahalda toxuculuq daha çox inkişaf etmişdi. Burada da, əsasən, xalça, ipək və bez parçalar toxunardı. Naxçıvan diyarında toxunan və xarici bazarda ən çox satılan parçalardan qeyd edildiyi kimi, qırmızı rəngli bez parça olmuşdur. Bez parça çox zaman daha artıq ehtiyac duyulan Qarabağ və İrəvan xanlıqlarına satmağa aparılırdı [1, s. 73]. Ordubad şəhərinin 1873-cü il kameral təsvirinə əsasən K.Simirnov yazır ki, şəhər əhalisindən başqa qəzanın Nüsnüs, Əndəmiç, Kotam, Gənzə, Anabad, Kilit, Əylis Varagird kəndlərinin əhalisinin demək olar ki, hamısı ipəkçiliklə məşğul olurdu [8, s. 101].

XX əsrdə Naxçıvan iqtisadiyyatına dair tədqiqatda bölgədə ipək emalı sənayesi bəzi digər rakurslarda da nəzərdən keçirilir. Orada yazılır: "Ümumiyyətlə, 1910-1912-ci illərdə Naxçıvan qəzası kəndlərinin 32 faizi barama istehsalı ilə məşğul olurdu. Baramaçılıq Ordubad rayonu ərazisində xüsusilə geniş yayılmışdı. Rayon ərazisində olan 46 kənddən 43-də baramaçılıq az-çox inkişaf etmişdi. Həmin dövrdə Naxçıvan qəzasında baramaçılıq başqa yerlərə nisbətən yüksək məhsul verirdi. 1911-1913-cü illərdə Naxçıvan şəraitində bir qutudan 4 pud barama alınması normal hadisə hesab olunurdu…". İpəkçilik müəssisələri ən çox Ordu-

bad (12 müəssisə), Naxçıvan şəhərlərində, Əbrəqunus və Cənnəb kəndlərində mərkəzləşmişdi [14, s. 55].

Barama istehsalının daima yüksələn xətlə inkişaf etdiyini Naxçıvan diyarının ipəkçiliyin əsas mərkəzi olan Ordubad qəzasının timsalında daha aydın müşahidə etmək olar. Rusiya-İran müharibəsinin sonlarında burada cəmi 6 pud xam ipək istehsal edilmişdisə, XIX əsrin 30-cu illərində bu göstərici 240 puda, 50-ci illərində 915 puda, XX əsrin əvvəllərində isə 5 min puda çatmışdır [8, s. 111]. Bölgə ərazisində Ordubadla yanaşı Culfa və Əylis də ipək ixracatında əsas mərkəzlərdən sayılırdı. Ümumiyyətlə, Naxçıvan bölgəsi xam ipəyin istehsalına görə Azərbaycanın bir sıra qabaqcıl bölgələri ilə eyni sırada dururdu [13, s. 59].

Qoyunçuluq və maldarlığın inkişafı Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı üçün əlverişli şərait yaradırdı. Bu dabbaqçılıq sənətinin inkişafına müsbət təsir edirdi. Bu sənətkarlıq sahəsi çox qədim tarixə malik olub öz başlanğıcını ibtidai icma quruluşu dövründən götürür. Zaman keçdikcə gön-dərilərin bəsit xalq üsulları ilə aşılanması tədricən peşəkar dabbağlar tərəfindən tətbiq edilən daha mürəkkəb kimyəvi-mexaniki üsullarla əvəz edilirdi. Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvanda da əhalinin gön-dəri məmulatlarından hazırlanan məhsullara olan tələbatı çəkməçilər, sərraclar, papaqçılar, kürkçülər tərəfindən ödənilirdi. C.Mustafayev qeyd edir ki, bu sənətkarlar arasında çəkməçilər xüsusilə çoxluq təşkil edirdilər [7, s. 134]. Əldə olunan məlumatların təhlili göstərir ki, Naxçıvan diyarında gön-dəri məmulatı istehsalı ilə bağlı olan bu sənət sahələrinin hər biri geniş yayılmaqla yanaşı həm də yüksək inkişaf səviyyəsinə çatmışdır. Təkcə bir faktı göstərmək kifayətdir ki, XIX əsrin 30-cu illərində Azərbaycanın 5 şəhərində-Şamaxı, Ordubad, Naxçıvan, Nuxa və Şuşa şəhərlərində fəaliyyət göstərən 136 nəfər dabbağın 50 nəfəri, başqa sözlə desək 1/3 hissəsindən çoxu Naxçıvan və Ordubad şəhərlərinin payına düşürdü [8, s. 129].

| İllər | 1832 | 1858 | 1867 | 1869 | 1894 | 1897 | 1899 | 1903 | 1910 | 1914 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Emalatxanaların sayı | 6 | 10 | 10 | 13 | 2 | 15 | 2 | 2 | 2 | 1 |
| İşçilərin sayı | - | - | 24 | 30 | 11 | - | 16 | 20 | 10 | 4 |
| İllik məhsul istehsalı (rublla) | - | 4460 | 5000 | 7000 | 900 | 1000 | 1200 | 2600 | 800 | 2113 |

**Bax:** *Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrlərin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.*

Bir məsələni də vurğulamaq istərdik ki, Azərbaycanın digər şəhərlərindən fərqli olaraq Ordubad şəhərində dabbaqxanalar şəhərin mərkəzində yerləşmişdir. Belə ki, Ordubad şəhərində yerləşən 12 dabbaqxana düz şəhərin mərkəzində mövcud olmuşdur. Bu da bağlara axan suyun keyfiyyətinə mənfi təsir edirdi [3, s. 112].

Naxçıvan diyarında aparıcı sənətkarlıq sahələrindən biri də dulusçuluqdur. Xanlıqda dulusçuluq da xeyli inkişaf etmişdi. Dulusçuluq xanlıqlar dövründə sənətkarlığın aparıcı sahəsinə çevrilmişdi. Naxçıvan xanlığının Rusiya tərəfindən işğalı dövründə Naxçıvan və Ordubad şəhərlərinin hər birində 12 nəfər dulusçu çalışırdı. Xanlığın Təzəkənd adlı yaşayış məntəqəsində Naxçıvanın hakimi Ehsan xana məxsus saxsı səhəng istehsal edən emalatxana fəaliyyət göstərirdi. Naxçıvan xanlığının ayrı-ayrı kəndlərində 33 nəfər saxsı qab istehsalı ilə məşğul olurdu [15, s. 843].

“Qafqaz təqvimi” məcmuəsinin 1868-ci ilə aid nömrələrindən birində göstərilir ki, Ordubad şəhərindəki dulusçuluq emalatxanası yaşayış evində yerləşir və ancaq ilin isti vaxtlarında fəaliyyət göstərir. Burada istehsal edilən şirsiz qablar ancaq yerli əhalinin tələbatını ödəyir. İki dulus emalatxanasının fəaliyyət göstərdiyi 1869-cu il istisna olmaqla sonrakı illərdə Ordubadda cəmi bir dulus emalatxanası işləyirdi [10, s. 143].

**Nəticə**

Son olaraq tədqiq etdiyim dövrlə bağlı Naxçıvan diyarının sənətkarlığın tarixi coğrafiyası ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, sənətkarlıq bölgənin daha çox iki şəhərində - Ordubad və Naxçıvanda üstünlük təşkil etmişdir. Sənətkarlığın hər hansı bir sahəsinə görə bu şəhərlərdən biri digərini üstələmişdir. Bütün bunlara baxmayaraq diyarın kəndlərində də ev peşəsi sənətkarlığın bir çox sahəsi geniş şəkildə yayılmışdır. Bunlardan əsasən xalçaçılıq sənətini xüsusilə qeyd edə bilərik.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Abdullayev A. Naxçıvanda sənətkarlığın tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci yarısı) // Naxçıvan Dövlət Universiteti. Elmi əsərlər, 2015, № 2 (67) s. 72-74*

*2. Budaqova S. Naxçıvan diyarının tarixi coğrafiyası (XVIII əsrin ikinci yarısı-XIX əsrin birinci qərinəsi). Bakı: Elm, 1995, 96 s.*

*3. Hacıyeva S. Naxçıvanda sənətkarlıq (XII-XIX əsrlər). Naxçıvan: Əcəmi, 2017, 184 s.*

*4. Həbubullayev O. Kültəpədə arxeoloji qazıntılar. Bakı: Azərb. SSR. EA. nəşriyyatı, 1959, 180 s.*

*5. Mustafayev A. Azərbaycanın maddi mədəniyyət tarixi (etnoqrafik materiallar əsasında tipoloji tədqiqat). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2009, 420 s.*

*6. Mustafayev C. Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq. Bakı: Elm, 2002, 272 s.*

*7. Mustafayev C. Xanlıqlar dövründə Şamaxıda sənətkarlıq // AMEA Tarix İnstitutu, Elmi əsərlər, 2009, cild 28, s.130-137.*

*8. Muradov V. Naxçıvan diyarında sənətkarlıq və ticarət (XVIII-XX əsrin əvvəlləri). Bakı: Elm, 2017, 264 s.*

*9. Muradov V. Naxçıvan diyarında misgərlik və zərgərlik sənətinin inkişaf tarixindən // http://www.anl.az/down/meqale/az_xalcalari/2016/18/517831. pdf*

*10. Muradov V. Naxçıvan diyarında dulusçuluq sənətinin inkişafi tarixindən (XVIII-XIX əsrin əvvəllərində) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, ictimai və humanitar elmlər seriyasi, 2017, № 1. 140-147*

*11. Naxçıvan tarixi, III clddə, II cild. Naxçıvan: Əcəmi, 2014, 528 s.*

*12. Naxçıvan MR Dövlət Arxivi, fond 34, siyahı 5, iş 7, v. 31.*

*13. Səfərli H., Hacıyeva S. Naxçıvanda xalçaçılıq: tarixdə və günümüzdə. Naxçıvan: Əcəmi, 2019, 104 s.*

*14. Şahverdiyev Z. Naxçıvan bölgəsi XIX-XX əsrin əvvəllərində. Bakı: Elm, 2008, 264 s. pdf.*

*15. Шопен И. Исторической памятник состояния Армянской области в эпоху ея присоединения к Российской империи. Санкт-Петербург: Типография Императорской Академии Наук, 1852, 1231с.*

**Нурлана Алиева**

**Историческая география ремесел Нахчыванского региона в начале XIX-XX bb.**

**РЕЗЮМЕ**

В начале XIX-XX веков, как и во всем Азербайджане, в Нахчыванском регионе одним из основных направлений занятости населения стало ремесленничество. В этот период было развито множество сфер искусства, и здесь были созданы ремесленные центры, куда собирались различные мастера. Изготовленные нахчыванскими мастерами ремесленные изделия, можно сказать, нашли свое место и славу на Ближнем Востоке. Развитие ремесленничества в Нахчыване обусловлено как спросом на производимые товары отдельных его отраслей, так и уровнем торговых связей. Наконец, можно сделать вывод об исторической географии.

**Ключевые слова:** *Нахчыванский регион, XIX-XX вв., Ордубад, ремесленные центры, ремесленные изделия.*

**Nurlana Aliyeva**

**Historical geography of Nakhchivan crafts in the 19th and early 20th centuries**

**SUMMARY**

In the 19th and early 20th centuries, as in all Azerbaijan, one of the main occupations of the population in the Nakhchivan was crafts. During this period, different areas of crafts were developed, and craft centers were created where various craftsmen came together. The handicrafts made by Nakhchivan masters have earned a special place in the Middle East. The development of crafts in Nakhchivan is conditioned by the demand for its products and the level of trade relations. Finally, in connection with the historical geography of crafts in Nakhchivan, we can conclude that crafts prevailed in more than two cities of the region - Ordubad and Nakhchivan.

**Key words:** *Nakhchivan region, 19th and 20th centuries, Ordubad, craft centers, handicrafts.*

**XÜLASƏ**

XIX-XX əsrlərin əvvəllərində bütün Azərbaycanda olduğu kimi, Naxçıvan bölgəsində də əhalinin əsas məşğuliyyət sahələrindən biri sənətkarlıq olmuşdur. Bu dövrdə bir çox sənət sahələri inkişaf etmiş və burada müxtəlif sənətkarların cəm olduğu sənətkarlıq mərkəzləri yaradılmışdır. Naxçıvan ustalarının hazırladıqları sənətkarlıq məmulatları demək olar ki, Yaxın Şərqdə özünəməxsus yer tutmuş və şöhrət tapmışdır. Naxçıvan diyarında sənətkarlığın inkişafı onun ayrı-ayrı sahələrinin həm istehsal etdiyi mallara olan tələbatı, həm də ticarət əlaqələrinin səviyyəsi ilə şərtlənmişdir. Son olaraq Naxçıvan diyarının sənətkarlığın tarixi coğrafiyası ilə bağlı belə bir nəticəyə gəlmək olar ki, sənətkarlıq bölgənin daha çox iki şəhərində - Ordubad və Naxçıvanda üstünlük təşkil etmişdir.

**Açar sözlər:** *Naxçıvan bölgəsi, XIX-XX əsrlər, Ordubad, sənətkarlıq mərkəzləri, sənətkarlıq məmulatları.*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.958

# SOVET HAKİMİYYƏTİ QURULAN DÖVRDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNDƏ ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ

**NƏSRİN ABDULLAYEVA**
*Bakı Dövlət Universiteti*
*Qafqaz xalqları tarixi kafedrasının doktorantı*
*E-mail: nesrin.abdullayeva99@mail.ru*

1918-1920-ci illərdə Cənubi Qafqaz regionunda dövlətlərin sərhədlərini müəyyənləşdirmək məsələləri ərazi münaqişələrinə səbəb oldu. Bu məsələdə Ermənistan tərəfi aqressivlik göstərirdi. Sovet imperiyası qurulan dövrdə Azərbaycan və Ermənistan arasında münasibətlər gərgin olaraq qalırdı. Sovet hakimiyyətinin qurulması bu qarşıdurmanı zəiflətmədi, əksinə Ermənistanın Azərbaycana münasibətdə ərazi iddialarını daha da gücləndirdi. 1920-ci ilin aprelində Azərbaycanın Qırmızı ordu qoşunları tərəfindən yenidən işğalı Ermənistanın Azərbaycana qarşı ərazi iddialarını daha da qüvvətləndirdi. Qərbi Azərbaycanda qurulmuş erməni dövlətində hakimiyyəti daşnaklardan qəbul etmiş "erməni kommunistləri"nin sovet Rusiyasının dəstəyi ilə Qarabağ, Zəngəzur, Naxçıvana yiyələnmək siyasəti gücləndi. Sovet Rusiyasına arxalanan və rəhbərliyinin dəstəyindən güc alan Ermənistan bu istiqamətdə fəaliyyətini gücləndirdi. Bütün bunlar 1920-ci illərin əvvəllərində iki sovet respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi məsələsini daha da kəskinləşdirdi. Azərbaycan Xalq Cümhuriyyəti XİN-in əməkdaşı A.Şepotyevin məruzəsində Ermənistanın iddia etdiyi ərazilər belə idi: 1. Göyçə (Göyçə gölünün ətrafı) rayonu (İrəvan quberniyasının Yeni Bəyazit qəzasının şərq hissəsi); 2. İrəvan quberniyasının cənub hissəsini təşkil edən Naxçıvan rayonu (Naxçıvan, Şərur-Dərələyəz və İrəvan qəzasının bir hissəsi); 3. İrəvan quberniyasının Sürməli qəzası. Bundan əlavə, Ermənistan Azərbaycanın aşağıdakı mübahisəsiz ərazilərinə iddia edirdi: Qazax qəzasının dağlıq hissəsi, Qarabağ və Zəngəzur [14, s.151]. Əhalisinin əksəriyyəti azərbaycanlılar olan Sürməli və Borçalı əraziləri Azərbaycanı Cənub-Qərbi Qafqazla birləşdirərək Batum liman şəhəri vasitəsilə dənizə çıxışını təmin edirdi [15, s.47-58].

Azərbaycanda Sovet hakimiyyətinin qurulduğu ilk günlərdən Sovet Azərbaycanı ilə Ararat Respublikası arasında Qarabağ və Zəngəzurla bağlı diplomatik yazışmalar başlamışdı. 1920-ci il mayın 9-da Azərbaycan tərəfi mayın 15-dən gec olmayaraq mübahisəli ərazilər üzrə danışıqlara başlamaq təklifi ilə Ermənistana müraciət ünvanladı. Ermənistan tərəfi cavab qeydlərində Qarabağ, Zəngəzur və Naxçıvanı erməni əraziləri adlandırmışdı. Ermənistan sərhəd məsələsində böyük dövlətlərdən kömək ümid etdiyi üçün bu təklifi rədd etdi. 1920-ci il mayın 15-də RSFSR Xalq Xarici İşlər Komissarının müavini L.M.Karaxan (Karaxanyan) Azərbaycan SSR Xalq Xarici İşlər Komissarı M.Hüseynova teleqram vuraraq bildirdi ki, Ermənistan hökuməti Azərbaycan və Ermənistan arasında vasitəçilik xahişi ilə Rusiya hökumətinə müraciət edib və bununla razılaşan Sovet hökuməti Azərbaycanla Ermənistan arasında mübahisəli ərazilərdə Qızıl Ordu hissələrinin yerləşdirilməsinə qərar verib [14, s.152]. Bu, Sovet Rusiyası və Ararat Respublikası arasında razılaşdırılmış qərar idi. Moskva Ermənistanın təklifi ilə razılaşaraq bu iki respublika arasında vasitəçi rolunu öz üzərinə götürdü. Bir sıra əraziləri (Naxçıvan, Zəngəzur və Qarabağ) mübahisəli elan edən Sovet hökuməti onların Qızıl Ordu qoşunları tərəfindən tutulacağını bildirdi. Əslində, Sovet Rusiyası bu məsələdən sui-istifadə edərək Ermənistanı sovetləşdirməyə çalışırdı. Rusiya Ermənistanı tutmaq və digər planlarını asanlıqla həyata keçirmək üçün Azərbaycan torpaqlarını ona "bağışlamağa" başladı. Bolşeviklər bir sıra ərazilərin bu və ya digər respublikaya məxsus olması məsələsində əksər hallarda ermənilərə dəstək verirdilər. Azərbaycanın sovetləşməsindən sonrakı ilk günlərdə RKP (b) Qafqaz Bürosunun üzvü Q.Orconikidze Sovet Rusiyası Xalq Xarici İşlər Komissarı Q.Çiçerinə ünvanladığı teleqramda Zəngəzur və Qarabağın Azərbaycana birləşdirilməsinin lazım olduğunu bildirmişdi. Çünki "hər iki rayon iqtisadi cəhətdən Bakıya daha yaxındı və İrəvandan uzaqdır", o cümlədən bu ərazilərin erməni əhalisinin ayağını buradan kəsə biləcək Türk qoşunlarının əlinə keçməməsi üçün bu addım atılmalı idi". O bildirdi ki, "Mənim fikrimcə, Qarabağ və Zəngəzur dərhal Azərbaycana birləşdirilməlidir və Azərbaycanı bu rayonların muxtariyyətini elan etməyə məcbur etmək lazımdır" [14, s.153]. Q.Orconikidze V.Leninə, İ.Stalinə və Q.Çiçerinə yazdığı başqa bir notada qeyd edir ki, Azərbaycan Şərur-Dərələyəz və Naxçıvandan imtina etdiyi halda Ermənistan tərəfi Qarabağın və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verəcək və bu

ərazilərə iddia etməyəcəklərini, bu məsələni Bakıda N.Nərimanovla danışıqlarda qaldıracaqlarını bildiriblər. Həmçinin, Orconikidze Azərbaycanda Sovet hakimiyyətini möhkəmləndirmək və Bakını Rusiyaya saxlamaq üçün Dağlıq Qarabağı və Zəngəzuru Azərbaycana birləşdirmək lazım olduğunu bildirdi.

1920-ci ilin mayında L.M.Qaraxandan Bakıya Q.Orconikidze adına gələn teleqramda yazılırdı: "İlyiç sizə çatdırmağı tapşırdı ki, bizim daha da genişlənməyimizə tələsməyə ehtiyac yoxdur, birincisi, Qərb Cəbhəsinin qarşısında duran ciddi vəzifələr və beynəlxalq mövqelərimizi nəzərə alaraq diqqətli olmaq, zərurəti nəzərə almaqla, təcili zərurətdən irəli gəlməyən işləri təxirə salmaq daha yaxşıdır. Əslində, Ermənistan bizim üçün birbaşa maraq kəsb etmir, lakin böyük narahatlıq yarada bilər. Azərbaycanın Ermənistanla müəyyən etdiyi sərhədləri aşmamaq, mübahisəli əraziləri ultimatum yolu ilə işğal etməmək, mübahisəli məsələləri sülh yolu ilə, məsələn, bizim nümayəndəliyimiz altında hər iki dövlətin qarışıq komissiyası ilə həll etmək lazımdır" [14, s.152]. V.İ.Lenin beynəlxalq vəziyyətdən danışarkən, təbii ki, davam edən vətəndaş müharibəsi və Antanta ölkələrinin beynəlxalq müdaxiləsi, həmçinin Sovet-Polşa müharibəsini nəzərdə tuturdu. RSFSR ilə Ermənistan arasında 1920-ci ilin may-iyun aylarında Moskvada aparılan danışıqlar nəticəsində Sovet Rusiyası tərəfindən Ermənistanın müharibədən əvvəlki sərhədləri daxilində tanınması və onunla sülh müqaviləsi imzalanması haqqında razılıq əldə edildi [4, s.244]. Eyni zamanda RKP(b) MK Qafqaz Bürosunun üzvü S.Kirov Ermənistan-Azərbaycan münaqişəsinin həlli üçün Sovet hökumətinin ilk addımını atdı. 1920-ci ilin iyunun 2-də iki respublika arasında bütün mübahisəli məsələlərin həlli məqsədilə Qazax rayonunda Ermənistan-Azərbaycan konfransının keçirilməsi barədə razılıq əldə olundu. Lakin erməni birləşmələrinin Naxçıvan vilayətinə və Qazax qəzasına hücumu münaqişənin sülh yolu ilə həlli cəhdlərinin qarşısını aldı. Bu baxımdan Vladiqafqazdan Q.Orconikidzenin 1920-ci il iyunun 19-da Q.Çiçerinə göndərdiyi teleqram maraq doğurur: "Azərbaycan Qarabağa, Zəngəzura, Naxçıvana və Şərur-Dərələyəz qəzasına haqqını iddia edir. Qarabağda və Zəngəzurda sovet hakimiyyəti elan edildi və yuxarıda adları çəkilən ərazilər özlərini Azərbaycan Sovet Respublikasının parçası hesab edirlər. Artıq bir neçə aydır ki, Naxçıvan müsəlman azərbaycanlı qiyamçıların əlindədir. Şərur-Dərələyəz mahalı ilə bağlı heç bir məlumatım yoxdur" [10, s.49-50]. Q.Orconikidze Azərbaycanın nümayəndəsini Moskvaya çağırmağa və onunla birlikdə Azərbaycan və Ermənistana aid bütün mübahisəli məsələləri həll etməyə çağırıb, bunun Ermənistanla müqavilə imzalanmazdan əvvəl edilməli olduğunu vurğuladı. Orconikidzenin bu təklifi təsadüfi deyildi. Bu zaman Moskvada Rusiya ilə Ermənistan arasında sülh münasibətlərinin qurulması ilə bağlı danışıqlar davam edirdi. Burada Sovet Azərbaycanı nümayəndələrinin iştirakı olmadan Azərbaycan ərazilərinin - Qarabağ, Zəngəzur və Naxçıvan məsələsi müzakirə olunurdu. Moskvadakı erməni nümayəndə heyəti Qarabağ və Zəngəzuru mübahisəli ərazilər kimi tanımağa hazır idilər, lakin onlar Naxçıvan qəzasının, yəni Ordubad, Culfa və Şərur-Dərələyəz qəzalarının Ermənistanın əraziləri kimi tanınmasında təkid edirdilər [12, s.212]. Orconikidze Qarabağın "mübahisəli ərazi" statusunu qoruyub saxlamasını Ermənistana əsassız güzəşt hesab edirdi: "Bakılılar həddən artıq qəzəblidirlər"- o, Q. Çiçerinə yazdığı digər teleqramda qeyd edir, "və mən onlarla razılaşa bilmərəm ki, biz belə güzəştlərə gedirik. Ermənilər mənimlə söhbətində Qarabağdan əl çəkməyə tam hazır idilər. Qarabağ bizim Xalq İşləri Nazirliyimizin ikinci Zaqatalasıdır. Burada böyük təxribat gedir və bütün bunları Moskvadakı ermənilər edir" [12, s.214]. Burada Orconikidze Zaqatala rayonu ilə bağlı Azərbaycan-Gürcüstan münaqişəsi zamanı SSR Xalq Xarici İşlər Komissarlığının gürcüpərəst mövqeyini xatırladır. 1920-ci il iyunun 19-da yerli partiya işçiləri - Azərbaycan İnqilab Komitəsinin sədri N. Nərimanov, RKP (b) Qafqaz Vilayət Komitəsinin üzvü B.Mdivani, Ermənistan KP MK-nın üzvü A.Mikoyan və RKP (b) üzvü A.Nuricanyan mərkəzi xəbərdar etmək üçün Moskvaya aşağıdakı məzmunda teleqram göndərir: "... mübahisəli olduğu iddia edilən Zəngəzur və artıq Sovet Azərbaycanının tərkibinə daxil olmuş Qarabağla bağlı, biz qəti şəkildə bildiririk ki, bu ərazilər mübahisəsizdir və Azərbaycanın daxilində olmalıdır. Culfa və Naxçıvan bölgələri tamamilə müsəlmanlardan ibarətdir və yerli əhali bir ildən çox daşnak hökumətinə qarşı müqavimət göstəriblər. Türkiyə ilə birbaşa əlaqə yaratmaq üçün bu ərazilər qoşunlarımız tərəfindən tutulmalıdır" [14, s.154]. 1920-ci ilin yayında Azərbaycan ərazilərində ticarətin aparılması faktı Q.Çiçerinin RKP (b) MK Siyasi Bürosuna 1920-ci il 22 iyun tarixli mə-

ruzəsindən aydın görünür:"Partiyanın Mərkəzi Komitəsi Gürcüstan və Ermənistan burjua hökumətləri ilə kompromis xətti tutmaq qərarına gəldiyi halda, bakılı yoldaşlar öz hərəkətləri ilə kompromisləri pozur, işğal olunması qərara alınmış mübahisəli ərazilərin Azərbaycana birləşdirilməsində israr edirlər". Bu ərazilərin Azərbaycana birləşdirilməsi Ermənistanla razılaşmanı tamamilə qeyri-mümkün edəcək" [13, s.22]. Çiçerin Leninə 1920-ci il 29 iyun tarixli məktubunda da faktları bilərəkdən təhrif edir: "Azərbaycan hökuməti Naxçıvan, Ordubad Culfa, Qarabağa, Zəngəzura və Şərur-Dərələyəz qəzasına iddia qaldırıb. Bu ərazilərin çoxu faktiki olaraq Ermənistanın əlindədir" [11, s.163]. Rayon Xalq Təsərrüfatı Sovetləri haqqında 28 iyun 1920-ci il tarixli dekretə uyğun olaraq Azərbaycanın rayonlarının sərhədləri müəyyən olunmuş, Qarabağ rayonunun tərkibinə Zəngəzur, Cavanşir və Şuşa qəzaları daxil edildiyindən o zaman Ermənistanın əlində ola bilməzdi [14, s.156]. Beləliklə, bu sənədə əsasən, 1920-ci ilin iyununda Qarabağ və Zəngəzur Azərbaycanın tərkibində idi. Qeyd edək ki, Sovet Rusiyası Qafqazın sovetləşməsindən sonra ilkin olaraq mövcud ərazi münaqişələrini xüsusi komissiyalar vasitəsilə həll etmək niyyətində idi. Bu məsələ RKP (b) MK Qafqaz Bürosunun 1920-ci il iyulun 7-də Qafqaz Cəbhəsi Hərbi İnqilab Şurasına verdiyi göstərişdə qaldırılmışdı. Burada "Qafqaz Cəbhəsinin Nümayəndəsinin sədrliyi ilə qarışıq komissiyanın yaradılmasının zəruriliyindən bəhs edilirdi. Rusiya və Qarışıq Komissiya əhalinin etnik tərkibini və onun iradəsini rəhbər tutacaqdı" [16, s.165-166]. Lakin Azərbaycan və Ermənistanın ərazi məsələsi həll olunarkən bu prinsip nəzərə alınmadı. 1920-ci il iyulun 19-da S.Kirov Gürcüstan, Azərbaycan və Ermənistanın vəziyyəti haqqında Q.Çiçerinə göndərdiyi məktubda yazır: "Mən onunla (Azərbaycan SSR Xalq Xarici İşlər Komissarı M.Hüseynov) və erməni nümayəndəsi ilə dəfələrlə görüşlər keçirdim.... Bütün bunların nəticəsində mən azərbaycanlılardan Şərur-Dərələyəz mahalını Ermənistana güzəştə getmələri haqqında razılıq əldə etdim. Amma Azərbaycanlılar Naxçıvan qəzasını, Ordubadı, Culfanı, Zəngəzuru, Qarabağı, şübhəsiz ki, özlərininki hesab edirlər. Öz növbəsində Ermənistan nümayəndələri bu ərazilərə qəti şəkildə iddia edirdi. Ermənistan və Azərbaycan nümayəndələri bütün mübahisəli məsələləri həll etmək üçün yaxın vaxtlarda sülh konfransı çağırmağı planlaşdırırdılar, lakin heç bir tərəf bu konfransda razılaşma əldə edə biləcəklərinə inanmırlar. Mən sizə xəbər vermişəm ki, bu vəziyyətdən yeganə çıxış yolu Moskvada bu məsələni qətiyyətlə həll etməkdir [14, s.157]. Sovet hakimiyyətinə qarşı çıxan azərbaycanlı əhalini sakitləşdirmək, Qarabağ, Zəngəzur və digər Azərbaycan əraziləri məsələsində mərkəzin şübhələrinə son qoymaq üçün N.Nərimanovun imzası ilə Moskvaya kollektiv məktub göndərildi. 1920-ci il iyulun 10-da göndərilən məktubda B.Mdivani, A.Mikoyan, RKP (b) Mərkəzi Komitəsinin üzvü V.Naneişvili, 11-ci ordunun silahlı qüvvələrinin üzvləri Y.Vesnik, M. Levandovski və B.Mixaylov qeyd edirdi: "Müsəlmanlar düşünür ki, Sovet hökumətinin Azərbaycanı öz köhnə sərhədləri daxilində saxlamağı bacarmaması Sovet hökumətinin zəifliyi, ermənipərəst mövqeyindən qaynaqlanır. Bu, Sovet hakimiyyətinə qarşı gərgin üsyanın səbəbi ola bilər. Daşnakların Zəngəzurda və Qarabağda yerləşdirilməsi Türkiyədə inqilabın inkişafına xələl gətirəcək, onları bizim köməyimizdən məhrum edəcək və arxa planda onlar üçün təhlükə yaradacaqdır". Sonda bu sənədin müəllifləri yazırdılar: "Biz Azərbaycanı dağılmış bir yerə çevirməmək, Qızıl Ordunun himayəsində ermənilərə və gürcülərə paylamamaq üçün mərkəzi Qarabağ və Zəngəzur məsələsində tərəddüd etməməsi üçün xəbərdar edirik. 1920-ci il iyulun 14-də Q.Çiçerinə ünvanlanmış teleqramda Q. Orconikidze və Rusiyanın Ermənistandakı nümayəndəsi B.Leqran yazırdılar: "Biz məsələnin Azərbaycanı qismən qane edə biləcək şəkildə həllini zəruri hesab edirik: Qarabağ bütövlükdə və qeyd-şərtsiz Azərbaycana birləşəcək. Zəngəzur mübahisəli elan edilir, qalan rayonlar (Naxçıvan, Şərur-Dərələyəz, Ordubad) Ermənistanın tərkibində qalır" [14, s.158]. Eyni siyasət AKP(b) MK Bürosunun 1920-ci il iyulun 15-də keçirilmiş Ermənistanla sülh məsələsinin müzakirə edildiyi iclasının qərarında da öz əksini tapmışdır: "1. Qarabağ və Zəngəzur Azərbaycana birləşdirilməlidir. 2. Naxçıvandan və başqalarından imtina edib, onları rus qoşunları ilə tutmaq. 3. Müvəqqəti olaraq, Ermənistandakı vəziyyət haqqında tam məlumat alınana qədər Leqrana sülhə imza atmamağı təklif etmək". Beləliklə, Ermənistanın (hansı olmasından asılı olmayaraq: daşnak və ya sovet) bölgədə Türkiyəyə qarşı olan qüvvə kimi mövqeyini gücləndirmək, eləcə də gələcəkdə Türkiyə ilə Azərbaycan arasında yaxınlaşmanın qarşısını almaq zərurəti Moskvanı ərazi müba-

hisələrinin həllində erməni tərəfini dəstəkləməyə məcbur etdi. Sovet Rusiyasının Azərbaycanın bir sıra ərazilərinin mübahisəli elan edilməsi məsələsində Sovet hökumətinin ziddiyyətli mövqeyi həm də 11-ci Qırmızı Ordunun işğalı ilə barışmaq istəməyən Azərbaycan xalqına təzyiqi artırmaq istəyi ilə də izah oluna bilər [9, s.70].

1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının birgə keçirilən iclasında qəbul edilən qərar Zəngəzurun bir hissəsinin Ermənistana verilməsində böyük rol oynadı. Qərarda bütövlükdə bölgənin Ermənistana birləşdirilməsi nəzərdə tutulmuşdu, ancaq 1921-ci ilin yayında qəzanın ermənilərin üstünlük təşkil etdiyi qərb hissəsi burada yuva salmış Q.Njdenin quldur dəstələri Qırmızı Ordu tərəfindən məğlub edildikdən sonra Ermənistana birləşdirildi. Sovet Rusiyasının təzyiqi, Azərbaycan rəhbərliyində qeyri-milli qüvvələrin anti-Azərbaycan fəaliyyətləri nəticəsində Zəngəzurun bir hissəsi Ermənistana keçdi. Nəriman Nərimanov bu addımın acı nəticələri barədə V.Leninə 1921-ci ildə göndərdiyi məktubunda yazırdı: “Əgər Azərbaycanın müsəlman kommunistlərinin əksəriyyəti…millətçilik əhvali-ruhiyyəsində olsaydı, Ermənistan Zəngəzuru ala bilməzdi”. Nərimanovun Leninə digər məktubunda qeyd olunurdu: “Azərbaycan hətta siyasi mülahizələrə görə bunun mümkün olmadığı bir vaxtda belə Ermənistanın xeyrinə öz torpaqlarından imtina etmişdi” [6]. Qarabağda qondarma erməni dövlətinin yaradılması ideyası rus işğalından əvvəlki dövrdən gündəmdə idi. Bu ərazini sovet Ermənistanına birləşdirmək ideyası baş tutmadıqda ermənilər orada müxtariyyət yaradılması ideyasını gerçəkləşdirmək üçün hərəkətə keçmişdilər. 1920-ci il noyabrın 29-da Ermənistanın sovetləşməsindən sonra Azərbaycanla dövlətlərarası ərazi münaqişəsi daxili məsələyə çevrildi. Bu məsələ üzrə danışıqlar isə RK (b) P MK Qafqaz bürosunun göstərişi və nəzarəti ilə aparılmışdı. 1920-ci il noyabrın 30-da Ermənistanda Sovet hakimiyyətinin qurulması münasibətilə AK (b) P MK Siyasi və Təşkilat Bürosunun çağrılmış birgə iclasında, Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququnun verilməsi haqqında qərar qəbul olundu. N.Nərimanov 1920-ci il dekabrın 1-də Bakı Sovetinin iclasında söylədiyi nitqində bu qərarı təsdiqləyərək, Dağlıq Qarabağın əməkçi kəndlilərinə öz müqəddəratını təyin etmək hüququnun verildiyini bildirmişdi. Əslində N.Nərimanovun bəyanatında bu ərazinin Azərbaycandan ayırıb Ermənistana verilməsi nəzərdə tutulmurdu. Həm 1920-ci il 30 noyabr qərarı, həm də Nərimanovun 1 dekabr tarixli bəyanatı Moskva emissarlarının təzyiqləri altında Azərbaycan hökumətinin İrəvanda hakimiyyətə yeni gəlmiş erməni kommunistlərini dəstəkləməyə, onların öz opponentlərinə “proletar həmrəyliyi” şəraitində mübahisəli ərazi məsələlərinin necə həll olunduğunu göstərmək məqsədilə atılan məcburi addım idi. 1921-ci il iyulun 5-də RK(b)P MK Qafqaz bürosu RK(b)P MK tam tərkibdə toplaşaraq “Müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla əlaqəsini əsas tutaraq, Dağlıq Qarabağın Azərbaycan SSR-in hüdudlarında saxlanmasını, Şuşa şəhərinin inzibati mərkəz olmaqla geniş vilayət muxtariyyəti verilməsi” qərara almışdı. Cənubi Qafqazın sovetləşməsi və respublikaların Zaqafqaziya Federasiyasının tərkibində birləşməsi nəticəsində onların inzibati sərhədlərinin ilk növbədə bölgənin iqtisadi problemlərinin həllinə uyğunlaşdırılması nəticəsində Azərbaycan yeni ərazi itkiləri ilə üzləşdi.

1922-ci il avqust ayının 22-də Ermənistan SSR, Gürcüstan SSR və Azərbaycan SSR fövqəladə komissiyaları Zaqafqaziya fövqəladə komissiyasının sədrinin əmrinə əsasən 24 saat ərzində sərhəd zastavalarını, mühafizə və nəzarət məntəqələrini ləğv etməli idilər. Bu əmrdə qeyd olunurdu ki, bundan sonra ancaq Türkiyə və İran ilə olan sərhədlər dövlət sərhədləri hesab olunurdu. Üç Cənubi Qafqaz respublikaları arasında sərhədlər isə inzibati sərhədlərə çevrildi. Bundan sonra sərhəd maneələrinin aradan qaldırılması ilə Cənubi Qafqazın üç respublikasının qəzaları arasında yaranan sərhəd mübahisələri əsasən otlaq sahələrindən, su mənbələrindən istifadə hüququ ətrafında getmişdi.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan tarixi. Yeddi cilddə. VI cild (aprel 1920 - iyun 1941). Bakı. "Elm". 2008. 568 səh. + 48 səh. illüstrasiya.*

*2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası /Baş redaktor Y.M.Mahmudov: 2 cilddə, I c., Bakı: Lider, 2004, 440 s.; II c., Bakı: Lider, 2005, 475 s.*

*3. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı, Çaşıoğlu, 2008, 672 s.*

*4. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: Bakı Universiteti nəşriyyatı, 1996, 328 s.*

5. *Nəsibzadə N. Sərhədlər. "Elm" qəzeti, Bakı, 1989, 17 iyun*

6. *Niftəliyev İ. Sovet dövründə Azərbaycan torpaqlarının Ermənistana bağışlanması tarixçəsi. "Xalq" qəzeti 23 fevral 2023-cü il. https://www.xalqqazeti.az/az/siyaset/121689-sovet-dovrunde-azerbaycan-torpaqlarinínermenistana-bagislanmasi*

7. *Rəhmanzadə Ş. Zaqatala dairəsi 1917-1918-ci illərdə: ictimai seçim situasiyasında etnosiyasi identiklik axtarışları // Tarix və onun problemləri, 2010, №3, s. 72-79*

8. *И.М.Гусейнова История народов Кавказа. Баку, 2018. 1248 с.*

9. *Исмаил Муса Дипломатическое противостояние между Азербайджаном и Арменией (апрель - июнь 1920 г. ) // Карабах вчера, сегодня и завтра (материалы научно-практических конференций) 2 часть. Баку: Организация освобождения Карабаха, 2009, с. 63-73*

10. *К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918-1925: Документы и материалы. Баку: Азернешр, 1989, 334 с.*

11. *Мамедова Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане. 1920-1930. Баку: Адилоглы, 2004, 320 с.*

12. *Мустафазаде Р. Две Республики: азербайджано-российские отношения 1918-1922 гг. М.: МИК, 2006, 356 с.*

13. *Нифталиев И.В. Азербайджанская ССР в экспансионистских планах армян (20-е годы XX века). Баку: Тахсил, 2009, 174 с.*

14. *С.О.Мустафаева.Изменения границ и территорий на Южном Кавказе (1917-1922 гг.) Баку, 2017, «Европа» , 304 с.*

15. *Щепотьев А. Доклад о спорных Кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки// Известия АН Азерб. ССР (серия история, философия и право), 1990, N2, с.42-61*

16. *Шукюров К.К. К вопросу об автономизации Нагорного Карабаха: уроки истории //Кавказ и Глобализация (журнал социально -политических и экономических исследований), Швеция, 2008, Т.II , Выпуск 2, с. 160-172*


## XÜLASƏ


1920-ci ildə Azərbaycanın Rusiya tərəfindən işğalı Ermənistanın torpaqlarımıza qarşı ərazi iddialarını daha da gücləndirdi. Qərbi Azərbaycanda qurulmuş erməni dövlətində hakimiyyəti daşnaklardan qəbul etmiş "erməni kommunistləri"nin sovet Rusiyasının hərtərəfli yardımı Qarabağ, Zəngəzur, Naxçıvan və s. bölgələrə yiyələnmək siyasəti xeyli fəallaşdı. Rusiya hökuməti isə Ermənistanı da tutmaq və öz planlarını asanlıqla həyata keçirmək məqsədilə Azərbaycan torpaqlarını ona verməyə başladı. Cənubi Qafqazın sovetləşməsi və respublikaların Zaqafqaziya Federasiyası çərçivəsində birləşməsi nəticəsində onların inzibati sərhədlərinin, ilk növbədə, bölgənin iqtisadi problemlərinin həllinə uyğunlaşdırılması Azərbaycanın yeni ərazilərinin itirilməsi ilə nəticələnmişdi. Zəngəzurun bir hissəsinin Ermənistana verilməsində Sovet Rusiyasının təzyiqi, Azərbaycan rəhbərliyində qeyri-milli qüvvələrin anti-Azərbaycan fəaliyyətləri başlıca rol oynadı. Məqalədə ifrat beynəlmiləlçilik ideyalara xidmət edən azərbaycanlı bolşevik rəhbərlərinin yanlış siyasəti nəticəsində Zəngəzurun bir hissəsinin və Azərbaycanın əzəli torpaqlarının itirilməsi, sərhədyanı ərazilər ətrafında gedən mübahisəli məsələlər araşdırılmışdır.



**Açar sözlər:** *SSR, Cənubi Qafqaz, ərazi iddiaları, sərhədlər, mübahisəli ərazilər*



**Абдуллаева Насрин Фамиль**
***Бакинский Государственный Университет***
***Докторант кафедры истории народов Кавказа***
***Эл. почта: nesrin.abdullayeva99@mail.ru***


## РЕЗЮМЕ


Оккупация Азербайджана Россией в 1920 году усилила территориальные претензии Армении к нашим землям. В армянском государстве, созданном в Западном Азербайджане, «армянские коммунисты», захватившие власть у дашнаков, получили всестороннюю помощь Советской России в Карабахе, Зангезуре, Нахчыване и т. д. политика приобретения регионов стала гораздо активнее. И российское правительство начало отдавать азербайджанские земли Армении, чтобы захватить Армению и легко осуществить свои планы. В результате советизации Южного Кавказа и объединения республик в рамках Закавказской Федерации, приспособление их административных границ к решению экономических проблем региона привело к потере новых территорий Азербайджана. Большую роль в передаче части

Зангезура Армении сыграло давление Советской России и антиазербайджанская деятельность ненациональных сил под руководством Азербайджана. В статье исследованы утрата части Зангезура и древних земель Азербайджана в результате неправильной политики азербайджанских большевистских лидеров, служивших идеям крайнего интернационализма, а также спорные вопросы вокруг приграничных территорий.

**Ключевые слова:** *ССР, Южный Кавказ, территориальные претензии, границы, спорные территории.*

**Abdullayeva Nasrin Famil**
**Baku State University Phd student of the Department of History of Caucasian Peoples**
**Email: nesrin.abdullayeva99@mail.ru**

**SUMMARY**

The occupation of Azerbaijan by Russia in 1920 strengthened the territorial claims of Armenia against our lands. In the Armenian state established in Western Azerbaijan, the "Armenian communists" who took power from the Dashnaks received comprehensive assistance from Soviet Russia in Karabakh, Zangezur, Nakhchivan, etc. the policy of acquiring regions became much more active. And the Russian government began to give Azerbaijan lands to Armenia in order to capture Armenia and easily implement its plans. As a result of the sovietization of the South Caucasus and the unification of the republics within the framework of the Transcaucasian Federation, the adaptation of their administrative borders to the solution of the region's economic problems resulted in the loss of new territories of Azerbaijan. The pressure of Soviet Russia and the anti-Azerbaijani activities of the non-national forces under the leadership of Azerbaijan played a major role in giving a part of Zangezur to Armenia. In the article, the loss of a part of Zangezur and the ancient lands of Azerbaijan as a result of the wrong policy of the Azerbaijani Bolshevik leaders, who served the ideas of extreme internationalism, and the controversial issues surrounding the border areas were investigated.

**Keywords:** *SSR, South Caucasus, territorial claims, borders, disputed territories*

UOT 94(479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.10092

# CRISIS SITUATION. NAKHCHIVAN (1991-1993 years)

**RENA GURBANOVA**
*"Nakhchivan" University, Faculty of Education, Department of General History and International Relations, History teacher*
*E-mail: renaqurbanova962@gmail.com*
*ORCİD: https://orcid.org/0000-0003-4210-7239*

The Nakhchivan Autonomous Republic was experiencing its most painful period at the beginning of the 20th century. The blockade, intensive attacks by Armenians, battles, hunger, and cold caused material, moral and psychological damage to the population of the republic.

During his leadership of the autonomous republic, Heydar Aliyev resorted to different ways to overcome the crisis situation that arose as a result of the military aggression of Armenia, and also tried to use the power and capabilities of the neighboring states. Despite the fact that on June 12, 1991, the Republic of Azerbaijan and the Islamic Republic of Iran signed a memorandum on cooperation in the economic field and, according to the memorandum, provision of gas and electricity from Iran to Nakhchivan, which was under a blockade, the issue was resolved precisely as a result of Heydar Aliyev's negotiations in Nakhchivan.

On January 7, 1992, the oil minister of the Islamic Republic of Iran, Gulamrza Aghazade, was received by Heydar Aliyev, the chairman of the Supreme Assembly of the Autonomous Republic in Nakhchivan [8, p.256]. During that meeting, reaching an agreement on the construction of the Marand-Nakhchivan gas pipeline was of vital importance for the autonomous republic. This served to eliminate the crisis situation in the energy supply of Nakhchivan, which was in a blockade and the power lines passing through the territory of Armenia were cut.

In order to save the Autonomous Republic from the economic crisis, Heydar Aliyev also held talks with the then president of the Islamic Republic of Iran, Hashemi Rafsanjani. On August 22, 1992, at the invitation of the Iranian Ministry of Foreign Affairs, Heydar Aliyev visited Tehran on President Rafsanjani's private Boeing-727 plane. had done The negotiations conducted during the visit led to the facilitation of the issues of mutual movement of the population and the opening of a common market. On August 24, after talks and negotiations with senior officials of Iran, a protocol was signed "On cooperation between the Nakhchivan Autonomous Republic of the Republic of Azerbaijan and the Islamic Republic of Iran in various fields". One of the issues stipulated in Article 13 of the Protocol was related to Iran's participation in the gas supply of the Nakhchivan Autonomous Republic. Gas transmission, distribution and delivery to users was planned to be carried out through the Iranian company to be established in Nakhchivan. In addition, considering Nakhchivan's demand for liquefied gas, the Islamic Republic of Iran had to supply Nakhchivan with one hundred tons of liquefied gas per month [4, v. 132].

In addition to improving the Julfa checkpoint, an agreement was reached between the two countries on the construction of the Shahtakht-Poldasht bridge in the Tehran protocol. The bridge, the construction of which was started quickly, was put into use on December 3, 1992. Heydar Aliyev and Minister of Cooperation of Iran G. Shafeyi participated in the opening ceremony. On the same day, a solemn rally was held at the Arazkanari station on the occasion of the supply of 40 megawatts of electricity from Iran to Nakhchivan. Heydar Aliyev spoke at the rally. Of course, such assistance played an important role in the survival of the autonomous republic at that time.

The social problems caused by the military aggression and the blockade were also quite severe. It is known that regardless of where it takes place in the world, military aggression and blockade is a phenomenon that has a profound impact on the social situation of countries and societies. These effects are wide and multifaceted. The first of these are deaths and injuries of the population. Wars take lives and injure many people. It is a historic tragedy for families, and the loss of loved ones can weaken their psychological state. Only in May-June 1992, as a result of heavy fighting in the border areas of Armenia and Nakhchivan Autonomous Republic, 43 people from the Azerbaijani side were killed, 160 people were seriously injured, and 14 thousand people were displaced from their homes [12, p.3].

The conditions of military aggression and blockade have a fundamental effect on population migration. Although the emigration of the population

to other countries and other regions of the country did not occur due to the military aggression of Armenia to the Nakhchivan Autonomous Republic, certain migration processes took place within the autonomous republic. For example, the displacement of the population of the village of Karki and the displacement of the population during the active attacks on Sadara had quite serious social consequences. During the fighting in May 1992, a part of the population of Sadarak settled in tents in a plain area relatively far from the firing range. Such settlement caused diseases to spread more quickly among the population. There were problems in providing food and clean water. At that time, the UN representatives who came to Nakhchivan directly witnessed the deplorable situation in Sadarak [3].

At the same time, the occupation of regions located in the territory of Karabakh and Eastern Zangezur by Armenia caused a part of the Azerbaijani population who lived in these regions to come to Nakhchivan. For example, after the occupation of Kalbajar in 1993, a group of residents of this region came to the Nakhchivan Autonomous Republic. On the instructions of Heydar Aliyev, the Kalbajar refugees who came to Nakhchivan from the social development and defense fund of the autonomous republic were helped in the amount of 10 thousand rubles each [11, p.640].

Military aggression also caused problems in the education system. At that time, schools were one of the main targets of the Armenian armed forces that attacked settlements along the border. First of all, school buildings were exposed to rocket attacks because they were taller and more visible than other houses and buildings, and on the other hand, in many cases, military headquarters were placed in the basement of schools during heavy battles due to certain security features. This caused the enemy to target the place, which in turn resulted in the halting of the educational process. Thus, the process disadvantaged children's development and limited their future opportunities. During the fighting in May 1992, the building of the regional public education department in Saderak was made unrecognizable. Classrooms were blown up and destroyed, in one classroom alone more than 14 computers were destroyed by a missile [3].

On December 8, 1991, the supply of domestic gas to the territory of Armenia and Nakhchivan was stopped. Armenians believed that in Nakhchivan, which has quite harsh climatic conditions, stopping or interrupting the supply of domestic gas could cause quite serious social upheavals. In this situation, on February 24, 1992, under the leadership of Heydar Aliyev, the Supreme Assembly of the Nakhchivan Autonomous Republic adopted a decision on the establishment of the State Communication Committee of the Nakhchivan Autonomous Republic. In the decision, it was written that the institution was established in order to fulfill the necessary requirements in the field of fully and stably providing the demand for electricity and gas of the autonomous republic, to organize the creation of transport lines connecting the autonomous republic with Baku, the capital of Azerbaijan and other regions, as well as with neighboring countries [5].

On July 13, 1992, the supply of electricity to the autonomous republic through the territory of Armenia was stopped [1, p.347]. On July 15 of the same year, the Milli Majlis of the Republic of Azerbaijan discussed the issue related to the energy supply of the autonomous republic and "the decision of the Milli Majlis of the Republic of Azerbaijan on the situation in the Nakhchivan Autonomous Republic of the Republic of Azerbaijan" was adopted. It was noted in the decision that under the current conditions, it is possible to cover only 30% of the electricity needs in the Nakhchivan Autonomous Republic, which is under blockade by Armenia. Although tasks were given to the state and government structures to correct the situation [7, p.85], it was not effective. At the end of 1992-early 1993, an electric line was laid from the Igdir region of the Republic of Turkey to the Nakhchivan Autonomous Republic.

There were also problems with transportation. In May 1992, during the period of heavy fighting in the direction of Sadarak and Sharur, the Armenians started shooting at civilian planes moving in the direction of Nakhchivan-Baku. In May, Armenia warned the leadership of the Nakhchivan Autonomous Republic that it no longer guarantees the safe flight of civil aircraft from the country's airspace [12, p.307]. In order to get out of this situation, negotiations were held with the Islamic Republic of Iran, and Baku-Nakhchivan-Baku flights were started to be carried out through the airspace of Iran [12, p.292].

The financial and technical condition of the hospitals was quite deplorable. The Saderak district hospital, where the heaviest battles were fought, had only 25 beds, although it was supposed to serve a population of 12,000 people. The building where the hospital was located had neither sewage nor heating. Only 4 doctors worked in Sadarak hospital [10].

In order to get the autonomous republic out of a dif-

ficult situation, work was carried out in different regions of the country, and attempts were made to receive aid from foreign countries. At that time, the Charity Society for Helping Nakhchivan was established in Ganja. Urfullah Gurbanov, head of the counter-intelligence service of the State Defense Committee of the Nakhchivan Autonomous Republic, who was sent several times to perform special state-important tasks on the instructions of Heydar Aliyev, played an important role in this process.

One of the problems caused by the occupation and blockade was related to information security. One of the issues attracting attention in historiography is related to the Armenians cutting the lines from the Uchtepe radio and teletransmission station located in the territory of Gorus region and the problems with the transmission of Azerbaijani television and radio to the territory of Nakhchivan. Different researchers indicate different dates for this. Analysis of the events of the period allows us to dwell on several versions. It is understood that the transmission of radio waves from the station was interrupted several times, this usually happened on the eve of or during the intensification of clashes in the border zone between the parties. After the tension subsided, it was possible to restore the activity of the radio transmitter to a certain extent, and on September 19-20, 1991, the transmission from Uchtepe was completely stopped, and the Bichenak intermediate station of the Shusha-Nakhchivan radio relay line located in Batabat was completely destroyed. With that, the process of transmitting waves through the territory of Armenia was completely stopped [6, p.2].

As it is clear from the above notes, the Armenians tried to capture strategic points located not only on the territory of Armenia, but also on the territory of the autonomous republic, in order to block Nakhchivan completely. On September 20, 1991, about 60 Armenian armed men attacked from the direction of Karakilsa (Sisyan) from the direction of Batabat pass of Shahbuz district. The defenders of the station from Nakhchivan had only machine guns, while the Armenian armed groups had grenade launchers and grenades. Armenians first threw grenades at the building to blow up the building of the TV transmitter. The few defenders in this direction spread around and exchanged fire with the Armenians, shortly after the arrival of police forces of Shahbuz region forced the enemy to retreat [2, p.22].

After Heydar Aliyev began to lead the autonomous republic, various steps were taken in this direction to ensure that there was no information gap at the country level, and special tasks were given to relevant state bodies. As a result of the Armenian aggression, the blockade of the Nakhchivan Autonomous Republic, as well as the elimination of the problems and difficulties in various spheres of life affected by this aggression, were successfully implemented in all areas. As a result of this, the crisis situation caused by military aggression in the autonomous republic was eliminated, cooperation with neighboring states was achieved, Nakhchivan was protected from Armenian occupation with the strength of the created regular army, the trust and efforts of the people.

## REFERENCE LIST:

*1. Akhundova, E. Personality and time [6 parts] / E. Akhundova. -Baku: CBS, Part V. -2013. -736 p.*

*2. Aliyeva, H. How Nakhchivan fought and defended / H. Aliyeva. -Baku: Shirvanneshr, -2009. -168 p.*

*3. Amrahgizi, E. Nakhchivan: there are "third forces" // Azadlig newspaper, -1992, June 10. -p. 3.*

*4. Decision of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic on measures to implement Article 13 of the protocol of cooperation in various fields signed between the Autonomous Republic of Azerbaijan and the Islamic Republic of Iran on August 24, 1992 in Tehran // Nakhchivan MR State Archives, Fund No. 2, List No. 6, Case No. 1039.*

*5. Decision of the Supreme Assembly of the Nakhchivan Autonomous Republic on the establishment of the State Communication Committee of the Nakhchivan Autonomous Republic // Nakhchivan MR State Archive, Fund No. 2, List No. 6, Case No. 1039, sheet - 98.*

*6. From the history of broadcasting of television and radio programs in the territory of Nakhchivan MR // Information booklet about television and radio transmitters in the territory of Nakhchivan MR / Vol. ed. N.B. Abuzarov, A.A. Mikayilov, I.R. Sadigov. - Nakhchivan: RITN, -2004. -p. 1-4.*

*7. Gasimli M., Muradova B. History of parliamentarianism of Azerbaijan: [in 2 volumes] / M.C. Gasimli, B. Muradova. - Baku: Translator, c. 2, -2018. - 680 p.*

*8. Gasimli, M.C., Kalbizadeh, E.H. and b. Heydar Aliyev and Caucasian problems / M.C.Gasimli, E.H. Kalbizade, G.M.Musayeva, S.I.Habibbeyli. -Baku: Aspoligraf, -2023. -320 p.*

*9. Jabbarli, A. Heydar Aliyev and historical issues of Nakhchivan / A. Jabbarli. - Nakhchivan: Ajami, -2015. -232 p.*

*10. Khalilgizi, A. Some cosmonaut said that the land of Nakhchivan is not like anywhere else in the world // Aydınlıg newspaper, -1993, September 17. -p. 3.*

*11. Return (1990-1993). / –Baku: Azerbaijan, -2008. -840 p.*

*12. Yagubov, Sh. Celebration of determination / Sh. Yagubov. -Baku: Publication of Sahar newspaper, -1995. -846 pp.*

## BÖHRANLI VƏZİYYƏT. NAXÇIVAN (1991-1993-cü illər)

**Rəna Qurbanova**
***"Naxçıvan" Universiteti, Pedaqoji fakültə, "Ümumi tarix və Beynəlxalq münasibətlər" kafedrası***
***renaqurbanova962@gmail.com***
***https://orcid.org/0000-0003-4210-7239***

### XÜLASƏ

XX əsrin əvvəllərində Naxçıvanda blokada və böhranlı vəziyyətlə əlaqədar təhsil, mədəni infrastruktur, kommunikasiya vasitələri ciddi zərərə uğramış, informasiya blokadasının yaratdığı çətinliklər vəziyyəti daha gərginləşdirmişdir. Qonşu dövlətlərlə aparılan danışıqlar və əməkdaşlıq Naxçıvanın elektrik enerjisi ilə təmin olunmasında, həyatın müxtəlif sahələrinə vurulan zərərlərin aradan qaldırılmasında ciddi mənada mühüm rol oynamışdır. Muxtar respublikada erməni hücumları nəticəsində başlanan miqrasiya prosesi əhalinin sosial həyatına təsir edirdi. Hərbi təcavüz və blokadanın müxtəlif sahələrdə yaratdığı çətinliklərə baxmayaraq görülən işlər, Naxçıvana edilən yardımlar öz nəticəsini verirdi. Məqalədə geniş şəkildə öz əksini tapmış bu məsələlərin həlli Heydər Əliyevin uzaqgörən bir lider kimi verdiyi qərarların nə qədər doğru olduğunu göstərir.

**Açar sözlər:** *Naxçıvan, Azərbaycan, blokada, böhran, sosial həyat.*

## КРИЗИСНАЯ СИТУАЦИЯ. НАХЧИВАН (1991-1993 годы)

**Рана Курбанова**
***Университет «Нахчыван», педагогический факультет, кафедра «Всеобщей истории и международных отношений»***
***renaqurbanova962@gmail.com***
***https://orcid.org/0000-0003-4210-7239***

### РЕЗЮМЕ

Из-за блокады и кризисной ситуации в Нахчыване в начале 20 века серьезно пострадали образование, культурная инфраструктура и средства связи, а трудности, вызванные информационной блокадой, еще больше обострили ситуацию. Переговоры и сотрудничество с соседними государствами сыграли важную роль в обеспечении Нахчывана электроэнергией и устранении ущерба в различных сферах жизни. Процесс миграции, начавшийся в результате нападения армян в автономной республике, отразился на социальной жизни населения. Несмотря на трудности, вызванные военной агрессией и блокадой в различных районах, проделанная работа и оказанная Нахчывану помощь дали результаты. Решение этих вопросов, широко отраженное в статье, показывает, насколько правильными являются решения, принятые Гейдаром Алиевым как дальновидным лидером.

**Ключевые слова:** *Нахчыван, Азербайджан, блокада, кризис, общественная жизнь.*

### SUMMARY

Due to the blockade and crisis situation in Nakhchivan at the beginning of the 20th century, education, cultural infrastructure, and means of communication suffered serious damage, and the difficulties caused by the information blockade made the situation even more tense. Negotiations and cooperation with neighboring states played an important role in providing Nakhchivan with electricity and eliminating damages to various areas of life. The process of migration started as a result of Armenian attacks in the autonomous republic affected the social life of the population. Despite the difficulties caused by the military aggression and the blockade in various areas, the work done and the assistance given to Nakhchivan gave results. The resolution of these issues, widely reflected in the article, shows how correct the decisions made by Heydar Aliyev as a visionary leader are.

**Keywords:** *Nakhchivan, Azerbaijan, blockade, crisis, social life*

UOT 94 "19/..."
DOI:10.30546/3006-0346.2024.2.80.130457

# İTALİYA ÜMUMDÜNYA İQTİSADİ BÖHRAN İLLƏRİNDƏ (1900-1903-cü illər)

**İLKİN MUSTAFAYEV**
*Gəncə Dövlət Universitetinin Ümumi tarix kafedrasının doktorantı*
*E-mail: 1mustafayevilkin@gmail.com*

1900-1903-cü illər əksər inkişaf etmiş ölkələrə təsir edən və bir sıra müəssisələrin maliyyə iflası və istehsalın səviyyəsinin kəskin aşağı düşməsi ilə müşayiət olunan iqtisadi sahənin tənəzülü idi. İqtisadi bohranın səbəbləri indiyə qədər tam məlum deyil. Ən populyar nəzəriyyəyə görə, sənayenin hiper inkişafı bütün digər sənaye sahələrinin tənəzzülünə səbəb oldu [10.102]. Digər nəzəriyyəyə görə, bütün bazarı inhisara alan və istehsalın azalmasına səbəb olan bir sıra iri şirkətlər və birliklər yaranmışdır. XIX əsrin son illərində inkişaf etmiş ölkələrin əksəriyyəti iqtisadi yüksəliş yaşayırdı. Həmin dövürdə Dünyada kömür istehsalı 65%, dəmir əritmə - 70%, polad istehsalı isə təxminən 3 dəfə artmışdır. Böhran gözlənilmədən baş verdi. 1900-cü ilə qədər Avropa ölkələrinin əksəriyyətini, növbəti il isə ABŞ-ı əhatə etdi. Xarici ticarət kəskin şəkildə azaldı, bir çox bank və səhmdar təşkilatlar müflis olduqlarını elan etdilər. Fransanın Prussiya ilə müharibədə məğlub olması İtaliyanın tam birləşməsi qarşısındakı son maneəni aradan qaldırmağa imkan verdi. 3 oktyabr 1871-ci ildə Roma şəhəri də ölkəyə birləşdirildi. Papanın səlahiyyətləri Vatikan sarayı ilə məhdudlaşırdı. Bu vaxta qədər Papa IX Piy Romanın İtaliyaya birləşdirilməsinə qarşı çıxırdı və onun maraqları Fransa ordusu tərəfindən qorunurdu. Birləşmiş İtaliya siyasi quruluş olaraq konstitusion monarxiyaya çevrildi. Konstitusiyaya əsasən, ikipalatalı parlament Senat və Nümayəndələr Palatasından ibarət idi. Kral II Viktor Emmanuel qanunvericilik səlahiyyətlərini parlamentlə bölüşdü. Senatorlar kral tərəfindən ömürlük xidmət etmək üçün təyin edilirdi. İcra hakimiyyəti baş nazirin əlində cəmləşmişdi. Seçkilərdə iştirak etmək üçün əmlak kvalifikasiyası təyin edilmişdi. Nəticədə ölkənin 27 milyon əhalisindən yalnız 600 mini səsvermə hüququna malik idi. Qəbul olunmuş yeni Konstitusiyaya əsasən dövlət bütün vətəndaşların qanun qarşısında bərabərliyini, mənzil toxunulmazlığını, ifadə və mətbuat azadlığını, sərbəst toplaşmaq hüququnu tanıdı. Xristian dininin katolik aspekti dövlət dini kimi qəbul edildi. 1871-ci ildə kilsə ilə dövlət arasında münasibətləri tənzimləyən qanun qəbul edildi. Təsdiqlənmiş bu Qanun Papanı müqəddəs və toxunulmaz elan edir və Vatikana digər dövlətlərlə diplomatik əlaqələr qurmaq hüququ verirdi. İtaliyanın birləşməsi ölkədə kapitalist quruluşunun qurulması prosesini sürətləndirmək üçün əlverişli şərait yaratdı [7.65]. Lakin İtaliya hələ də aqrar ölkə olaraq qalırdı. Torpaq əsasən iri mülkədarların mülkiyyətində idi. Həmçinin qədim torpaqdan istifadə qaydası üstünlük təşkil edirdi. Mülkiyyətçilərin torpaqlarının çoxu xırda torpaqlara bölünür və məhsulun 3/4 hissəsinin ödənilməsi şərti ilə kəndlilərə icarəyə verilirdi. Eyni zamanda, ölkə böyük maliyyə çətinlikləri yaşayırdı. Bu, İtaliyanın daxili və xarici borclarının artmasının nəticəsi idi. Artan xərcləri ödəmək üçün hökumət dövlət krediti verməyə, ölkə daxilində və xaricində kapital sahiblərindən (investorlardan) kömək istəməyə məcbur olurdu. Bununla paralel olaraq İtaliyanın dövlət borcu kəskin şəkildə artdı. Bu proseslər fonunda ölkədə kapitalist münasibətləri möhkəmlənirdi. Hökumət, ilk növbədə, əsasən dəmir yollarının tikintisini genişləndirirdi. Ticarət donanmasının tikintisi geniş vüsət aldı. Bu dövrdə İtaliya ticarət donanmasının ümumi tonajına görə dünyada üçüncü yeri tutaraq dəniz yüklərinin daşınması sahəsində dünya liderliyi uğrunda rəqabətə qoşuldu. Hökumət İtaliyanın şimalında Alp dağlarının ətəyində ölkəni Fransa və İsveçrə ilə birləşdirən iki tunel inşa etdi [4.134]. Ölkədə səhmdar cəmiyyətlər şəklində yeni sənaye sahələri yarandı. XX əsrin əvvəllərinə kimi orta və kiçik sənaye müəssisələrinin əksəriyyətinin saxlanması ilə yanaşı istehsalın və kapitalın təmərküzləşməsi prosesi gücləndi. Ölkədə dəmir və polad əritmə, həmçinin şəkər istehsalı üçün kartellər var idi. 90-cı illərdə yaranan Montecatini, Pirelli, Ansaldo, Edison səhmdar cəmiyyətləri və 1906-cı ildə yaradılmış Fiat səhmdar cəmiyyəti tezliklə kimya, rezin sənayesi, maşınqayırma, avtomobil, elektrik enerjisi və istehsalatda dominant mövqe tutmağa başladı. Ölkədə kapitalist münasibətləri nə qədər inkişaf etsə də Birinci Dünya müharibəsinə qədər İtaliya aqrar dövlət olaraq qalırdı [10.135]. Ölkənin əmək qabiliyyətli əhalisinin əksəriyyəti kənd təsərrüfatı sahəsində çalışırdılar. Ancaq sonrakı dövrlərdə kənd təsərrüfatında

çalışanların sayı getdikcə azalırdı. Bu dövrdə İtaliyada işçilərin vəziyyəti olduqca ağır idi. Ölkə adambaşına düşən milli gəlir bölgüsünə görə Qərbi Avropada sonuncu yeri tuturdu. İş vaxtı 12-13 saat davam edirdi. Ölkənin cənubunda işçilərin vəziyyət xüsusilə ağır idi. Bu dövürdən ölkə əhalisinin əksəriyyəti xarici ölkələrə mühacirət etməyə başladı . 1914-cü ilə qədər xaricə mühacirət edənlərin sayı 8 milyon nəfərə çatmışdı. İtaliyada işçilər öz mövqelərini və hüquqlarını yaxşılaşdırmaq üçün mübarizə aparırdılar. Bunun nəticəsi olaraq 1892-ci ildə İtaliyanın Sosialist Partiyası yaradıldı. Kəndlilərin vəziyyəti də son dərəcə ağır olaraq qalırdı. İşçilərin ağır vəziyyəti Siciliyada üsyana səbəb oldu. 1898-ci ildə Milanda baş verən ümumi tətil 5 günlük barrikada döyüşlərinə çevrildi. Hökumət ordu qüvvələri ilə işçilərin hərəkatını yatırmağa müvəffəq oldu. 1903-1914-cü illərdə (müəyyən fasilələrlə) İtaliya hökumətinə dövrünün məşhur siyasətçisi J. Giolitti başçılıq edirdi. Q. Giolitti yaxşı başa düşürdü ki, əhalinin alıcılıq qabiliyyətini artırmadan sənaye istehsalının inkişafı mümkün deyil. Bunun üçün isə işçilərin əməkhaqqını qaldırmaq lazımdır. Onun əsas şüarı bu idi: "Sənaye tərəqqisinə əməkhaqqının yüksək olduğu ölkələr başçılıq edir". Onun hakimiyyəti dövründə həmkarlar ittifaqlarının yaradılmasına, fəhlələrin tətil etməsinə icazə verilməsi haqqında qanun qəbul olundu. Həmçinin gecə növbəsində uşaq və qadın əməyindən istifadə qadağan edilirdi. Seçicilərin əmlak senzi ləğv olundu, seçilmişlərin savadlılığı haqqında qanunlar qəbul edildi. Eyni zamanda o, ölkə iqtisadiyyatında dövlətin rolunun artırılmasının tərəfdarı idi. Onun fikrincə, dövlət əmək və kapital arasında hakim kimi çıxış etməli idi. Bu dövrdə İtaliyada irredentizm tərəfdarlarının hərəkatı başladı. Bu vəziyyət İtaliyanın qonşu dövlətlərlə münasibətlərini pisləşdirdi. İtaliyanın iddia etdiyi Şimali Afrika əyalətlərinin əraziləri tədricən Fransa tərəfindən işğal olunmağa başladı. Bu vəziyyət İtaliyanı Almaniyaya yaxınlaşdırdı. 1882-ci ildə İtaliya Almaniya və Avstriya-Macarıstan ittifaqına qoşuldu. Yeni müttəfiqlərinə arxalanan İtaliya Somali və Erteriyanı işğal etdi [17.241]. Afrikadakı bu uğularını davam etdirmək istəyən İtaliya 1895-ci ildə Efiopiyanı da işğal etmək niyyəti ilə bu ölkənin ərazisinə soxuldu. Ancaq 1896 -cı il avqustun 1-də Adua yaxınlığında ağır məğlubiyyətə uğradı. Həmin döyüşdə İtaliya ordusu beş mindən çox əsgər itirdi. Bu cür ağır məğlubiyyət İtaliyada milli rüsvayçılıq kimi qiymətləndirildi. Yeni koloniyaların işğalı üçün məqbul diplomatik şərait yaratmaq lazım idi. G. Giolitti hökuməti məhz belə şərait yarada bildi. Məsələn, Giolitti İtaliya ilə Fransa arasında gərgin münasibətlərin aradan qaldırılmasına nail oldu. 1902-ci ildə bu iki dövlət arasında müqavilə bağlandı və bu müqaviləyə əsasən tərəflər üçüncü tərəfin hücumu zamanı qarşılıqlı neytrallığa ciddi riayət edəcəklərini öhdələrinə götürdülər [10. 173]. 1908-ci ildə İtaliya hökuməti Bosniya və Herseqovinanın Avstriya-Macarıstan tərəfindən işğalına və ilhaqına etiraz etdi. Nəticədə çox təhlükəli vəziyyət yarandı. 1909-cu ildə İtaliya Rusiya ilə Balkanlarda öz maraqlarının qarşılıqlı müdafiəsi haqqında müqavilə bağladı. Məqbul diplomatik şərait yaratdıqdan sonra İtaliya 1911-ci ildə Liviyaya müharibə elan etdi. Liviya o zaman Osmanlı dövlətinin tərkibində idi. Bu vəziyyət İtaliyanın qələbəsi ilə başa çatan İtaliya-Türkiyə müharibəsinə səbəb oldu. 1912-ci ildən Liviya İtaliyanın müstəmləkəsinə çevrildi. Millətçi qrupların fikrincə, Giolitti hökuməti "nizam və əmin-amanlıq" bərqərar edə bilmədi. Onların təzyiqi ilə Q. Giolitti istefa verdi. Beləliklə, İtaliyada liberalizm dövrü başa çatdı.

**Yekun**

1871-ci ildə Papa vilayətinin İtaliyaya birləşdirilməsi ilə ölkənin birləşdirilməsi başa çatdı. Ancaq dövlətin birləşdirilməsi olduqca baha başa gəldi. Yeni hərbi münaqişələrin başvermə təhlükəsi hökuməti sülh dövründə belə böyük ordu və donanma saxlamağa məcbur edirdi. İtaliya hələ də aqrar ölkə olaraq qalırdı İtaliya digər Qərbi Avropa ölkələrinə nisbətən sənaye sahəsinin inkişafına görə çox geridə idi. Bütün bu səbəblərdən dolayı baş verən böhranlar İtaliya iqtisadiyyatına daha dağıdıcı təsir etmişdir.

**Açar sözlər:** *ümumdünya iqtisadi böhranı, İtaliya, xarici borc, aqrar ölkə, vahid iqtisadi məkan.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Чиано Галеаццо. Дневник фашиста. 1939—1943. — М.: Плацъ, 2010. — (Первоисточники новейшей истории) — 676 с. — ISBN 978-5-903514-02-1*

*2. Ashley, Susan A. Making Liberalism Work: The Italian Experience, 1860—1914 (2003) excerpt and text search*

*3. Baran'ski, Zygmunt G. & Rebecca J. West*

*(2001). The Cambridge companion to modern Italian culture, Cambridge: Cambridge University Press, ISBN 0-521-55034-3.*

*4. Barclay, Glen St. J. 1973. The Rise and Fall of the New Roman Empire. London: Sidgwick & Jackson.*

*5. Bosworth, Richard J. B. 1983. Italy and the Approach of the First World War. London: The Macmillan*

*6. Bosworth, Richard J. B. 2007. Mussolini's Italy: Life Under the Fascist Dictatorship, 1915—1945 excerpt and text search*

*7. Clark, Martin. 1996. Modern Italy: 1871—1995. (2nd ed. Longman)*

*8. Coppa, Frank J. (1970). «Economic and Ethical Liberalism in Conflict: The extraordinary liberalism of Giovanni Giolitti», Journal of Modern History (1970) 42#2 pp 191—215 JSTOR 1905941*

*9. Coppa, Frank J. (1971) Planning, Protectionism, and Politics in Liberal Italy: Economics and Politics in the Giolittian Age online edition*

*10. Davis, John A., ed. 2000, Italy in the Nineteenth Century: 1796—1900 Oxford University Press. online edition*

*11. de Grazia, Victoria. 1981. The Culture of Consent: Mass Organizations of Leisure in Fascist Italy.*

*12. de Grazia, Victoria. 1993. How Fascism Ruled Women: Italy, 1922—1945 excerpt and text search*

*13. De Grand, Alexander J. (2001). The hunchback's tailor: Giovanni Giolitti and liberal Italy from the challenge of mass politics to the rise of fascism, 1882—1922, Greenwood. online edition; excerpt and text search*

*14. Duggan, Christopher (2008). The Force of Destiny: A History of Italy Since 1796, Houghton Mifflin Harcourt, text search*

*15. Gentile, Emilio. 2003. The Struggle For Modernity: Nationalism, Futurism and Fascism. Westport, CT: Praeger.*

*16. Gilmour, David. 2011. The Pursuit of Italy: A History of a Land, Its Regions, and Their Peoples excerpt and text search*

*17. Hughes, Robert. 2011. Rome: A Cultural, Visual, and Personal History*

*18. Kertzer, David I. (англ.)рус.. The Pope and Mussolini: The Secret History of Pius XI and the Rise of Fascism in Europe (англ.). — Oxford University Press, 2014. — ISBN 9780198716167.*

*19. Killinger, Charles L. (2002). The history of Italy, Westport (CT): Greenwood Press, text search*

*20. Pauley, Bruce F. 2003. Hitler, Stalin, and Mussolini: Totalitarianism in the Twentieth Century. Wheeling: Harlan Davidson*

*21. Pollard, John F. 1985. The Vatican and Italian Fascism, 1929-32. Cambridge, USA: Cambridge University Press.*

*22. Salomone, A. William. 1945. Italy in the Giolittian Era: Italian Democracy in the Making, 1900—1914*

*23. Sarti, Roland (2004). Italy: A Reference Guide from the Renaissance to the Present, New York: Facts on File text search*

*24. Sarti, Roland. 1974. The Ax Within: Italian Fascism in Action. New York: New Viewpoints.*

*25. Seton-Watson, Christopher (1967). Italy from Liberalism to Fascism, 1870—1925, New York: Taylor & Francis, text search*

*26. Smith, Dennis Mack. 1997. Modern Italy; A Political History. Ann Arbor: The University of Michigan Press.*

*27. Thayer, John A. 1964. Italy and the Great War. Madison and Milwaukee: University of Wisconsin Press.*

*28. Albanese, Giulia. "Reconsidering the March on Rome, « European History Quarterly (2012) 42#3 pp 403—421.*

*29. Ferrari, Paolo. „The Memory And Historiography Of The First World War In Italy" Comillas Journal of International Relations (2015) #2 pp 117—126 [ISSN 2386-5776] DOI: cir.i02.y2015.009 online*

*30. Keserich, Charles. „The Fiftieth Year of the" March on Rome»: Recent Interpretations of Fascism." History Teacher (1972) 6#1 pp: 135—142 JSTOR 492632.*

*31. Pergher, Roberta. «An Italian War? War and Nation in the Italian Historiography of the First World War» Journal of Modern History (Dec 2018) 90#4*

*32. Renzi, William A. In the Shadow of the Sword: Italy's Neutrality and Entrance Into the Great War, 1914—1915 (1987).*

*33. Mussolini, Benito. 1935. Fascism: Doctrine and Institutions. Rome: Ardita Publishers*

**Мустафаев Илькин Зульфигар оглы**
***Докторант кафедры всеобщей истории Гянджинского Государственного Университета***

**Италия в годы мирового экономического кризиса 1900-1903 годов**

**РЕЗЮМЕ**

В 1871 году объединение страны завершилось присоединением Папской области к Италии. . Угроза новых военных конфликтов заставляла правительство даже в мирное время содержать большую армию и флот. Италия оставалась аграрной страной. Италия сильно отставала в плане промышленного развития по сравнению с другими западноевропейскими странами. Экономические кризисы, произошедшие в начале 20 века, оказали более разрушительное воздействие на итальянскую экономику.

**Ключевые слова:** *Мировой экономический кризис. Италия. Внешний долг. Аграрная страна. Единое экономическое пространство.*

**Mustafayev Ilkin Zulfigar Oglu**
***PhD student of the Department of General History of Ganja State University***

**Italy in the years of the world economic crisis of 1900-1903**

**SUMMARY**

In 1871, the unification of the country ended with the accession of the Papal States to Italy. . The threat of new military conflicts forced the government to maintain a large army and navy even in peacetime. Italy remained an agricultural country. Italy lagged far behind in terms of industrial development compared to other Western European countries. The economic crises that occurred in the early 20th century had a more devastating effect on the Italian economy.

Key words: World economic crisis. Italy. external debt. agricultural country. Common economic space.

UOT 94 (479.24)
DOI:10.30546/3006-0346.2024.2.80.100875

# ƏBU SƏİD DÖVRÜNDƏ ELXANİ-MƏMLÜK MÜNASİBƏTLƏRİ

**GÜNAY BAXŞƏLİYEVA**
*Bakı Dövlət Universitetinin*
*"Qədim dünya və orta əsrlər tarixi"*
*üzrə II kurs magistrantı*

*E-mail: gunay002001@gmail.com*

## Giriş

XIV əsrin əvvəllərində Hülakular dövlətinin Misir Məmlük türk dövləti ilə qarşılıqlı əlaqələrində yeni xətlə inkişaf müşahidə olunurdu. Elxanilər dövlətinin daxili tənəzzülü başladığı şəraitdə uğurlu xarici siyasətə ehtiyacı var idi. Elxani-Məmlük münasibətlərinin daha çox hərbi deyil, diplomatik çərçivədə inkişafı Sultan Əbu Səid və Nəsir Məhəmməd dövründə başladı. Bəhs etdiyimiz dövrdə xristian qüvvələrin və Qızıl Orda ulusunun müdaxilələrinə baxmayaraq, dövlətlərarası münasibətlərdə daha çox dostluq əlaqələri üstün mövqe tutdu. Burada qiymətli hədiyyələr və xoşniyyətli məktubların mühüm rol oynadığı elçilik fəaliyyətləri ön plana çıxdı. Məqsəd hər iki islam dövləti arasında sülhə nail olmaq idi. Bu istiqamətdə əhəmiyyətli addımlar atılmağa başlandı. Bu məqalədə məqsədimiz məhz Sultan Əbu Səid dövründə iki dövlət arasında qarşılıqlı əlaqələrdə baş verən dəyişikliklərə aydınlıq gətirməkdir.

## 1. Əbu Səidin Elxani dövlətində hakimiyyətə gəlməsi və Məmlük dövləti ilə münasibətlərdə gərginliyin aradan qalxması

Elxanilər dövlətində Olcaytu xandan sonra hakimiyyətə 1316-cı ildə oğlu Əbu Səid gəldi. Azyaşlı hökmdarın taxta oturması Əmir Çoban və oğullarının dövlət idarəçiliyində önə çıxmasına şərait yaratdı.[1] Bertold Şpuler Çobanın Elxanilərdə hökmdar olmayıb, elçi qəbulu və elçi göndərilməsi səlahiyyətinə sahib olan tək əmir olduğundan bəhs edir [8, s.132]. Əbu Səid (1316-1335) hələ Məhəmməd Xudabəndənin dövründə sünni məzhəbini seçərək İslam dininin yayılması üçün çalışmışdı [12, s.63]. Baxmayaraq ki, özü müsəlman idi, amma onun dövründə dini azlıqlar təhlükəsiz şəraitdə yaşayırdılar. Hülakular dövlətində müxtəlif dinlərə ibadət edən insanlar yaşamış, Sultan Əbu Səidin dövründə onlara daha çox tolerant münasibət bəslənilmişdir. Hakimiyyətdə olduğu dövrdə yalnız bir dəfə qərəzli ruhanilərin təsirinə məruz qalaraq ölkədə bir neçə kilsənin bağlanması haqqında fərman vermişdir [15, s.44].

Gənc hökmdarın hakimiyyətinin ilk illəri Məmlüklər, Çağataylar və Qızıl Orda dövlətləri ilə aparılan mübarizələrlə keçmişdir. Xarici hücumlarla yanaşı, ölkə daxilində iğtişaşların da baş verməsi sultanı çətin vəziyyətə salmışdı. Xorasanda şahzadə Yasavurun üsyanını yatıran Elxani hökmdarı, həm Qızıl Orda xanı Özbəyin, həm də Misir və Şam qoşunlarının hücumlarına məruz qalmışdı [7, s.133]. Qızıl Orda və Çağatayların hücumlarının qarşısının alınmasında Əmir Çobanın müstəsna xidmətləri olmuşdur. Lakin onun döyüşdən qaçan monqol bəylərini sərt şəkildə cəzalandırması bəylərlə Əmir Çoban arasında qarşıdurmaya səbəb olmuşdur. Narazı əmirlərlə vuruşan Əbu Səid cəsurluğuna görə "Bahadır" ləqəbi almışdır [3, s.21].

Qızıl Orda xanları ilə mübarizə Elxanilər dövlətinin Misir Məmlükləri ilə münasibətlərinə, eləcə də Əbu Səidin səltənətinə ciddi təsir göstərirdi. Baş vermiş iğtişaşları yatıran Elxani hökmdarının dövründə Hülakular dövlətinin hərbi, həmçinin siyasi vəziyyəti pozulmuşdur [4, s.109]. Beşinci monqol ulusunda siyasi və iqtisadi tənəzzül, Çobani ağalığından narazı olan qüvvələrin hakimiyyətə qarşı çıxışları Elxanilər dövlətinin tənəzzülünün başlandığını göstərirdi. Əbu Səid 1328-ci ildə Əmir Çobanı öldürdükdən sonra onun tərəfdarlarını ölkənin idarəsindən uzaqlaşdırsa da, yenidən yerli feodalların təsirinə düşdü [6, s.25-27]. Baxmayaraq ki, dövlətin daxili vəziyyəti gərgin idi, ancaq xarici siyasət xətti bir qədər fərqli istiqamətdə aparılmışdır.

Sultan Əbu Səid hakimiyyəti dövründə Elxani-Məmlük münasibətlərində yeni bir dövr başlamışdır. Belə ki, o, hər iki dövlət arasında atasının gərginləşdirdiyi münasibətləri yaxşılaşdırmaq istiqamətində addımlar atdı. Sultan Əbu Səid Bahadır dövründə Məmlük dövləti ilə ilk diplomatik münasibətlər Sultan Əbu Səid, vəzir Əli şah, Əmir Çoban və digər əmirlər adına yazılan məktubla başladı. 1317-ci ildə dəyərli hədiyyələrlə birgə göndə-

1. *Çobanilər sulduzilərin nəslindən olublar. Orta Asiyanın köçəri qəbilələrindən olan sulduzilər Azərbaycana Hülaku xanın hərbi yürüşləri zamanı gəlmişlər.*

rilən məktubda Elxanilər dövlətinin sülh tərəfdarı olduğu qeyd edilmişdir. Görünür, bu addımın atılmasında məmlüklərin Malatya və Diyarbəkrə etdikləri yürüşlərin, həmçinin Hülakular dövlətinin daxili siyasətindən irəli gələn məsələlərin də əhəmiyyətli təsiri olmuşdur [10, s.250]. Sultan elçiləri qiymətli hədiyyələrlə göndərmişdir. Onu da qeyd etmək lazımdır ki, həmin elçi Məmlük Sultanı Nəsir Məhəmmədin şəxsi taciri olmuşdur [8, s.132]. Digər tərəfdən, Məkkədə Humeyranın və Həcc yolunda ərəblərin fəaliyyəti, sui-qəsdçi fədailərin Qara Sunquru öldürmək üçün göndərilməsi hər iki dövlət arasındakı münasibətləri gərginləşdirməsə də, Əmir Çobanın qəzəblənməsinə səbəb olmuşdur. Hətta Şam İsmaili fədailərinin göndərilməsi ölkədə narazılıqla qarşılanmış, bu səbəbdən ordu da iki dövlət arasında sülh sazişinin hazırlanması üçün Misirdən gələn elçinin qətlə yetirilməsini istəmiş, ancaq Əli Şah buna mane olmuşdur [14, s.346-348].

1320-ci ildə Məmlük sultanı ilə Qızıl Orda xanı Özbəyin qızı Toluniye xatunun evliliyi Misir-Qızıl Orda münasibətlərini möhkəmləndirmişdir [8, s.134]. Özbək xanın İslam dinini qəbul etməsi, qarşılıqlı elçilik fəaliyyətləri, nigah diplomatiyası kimi amillər Misirin Qızıl Orda dövləti ilə əlaqələrinin inkişaf etdiyini göstərirdi. Hülakular dövləti ilə hərbi-siyasi əlaqələrə malik olan hər iki ölkənin müttəfiqliyi uğurlu olmuşdur. Bunun ən bariz nümunəsi Sultan Əbu Səidin ölümündən sonra Elxanilər dövlətinin süqutu idi [8, s.327-331]. Eyni zamanda, məmlüklərin Qızıl Orda xanlığı ilə qurduğu ittifaqlar elxanilərə qarşı qazanılan böyük zəfərlərdə əhəmiyyətli yer tutmuşdur. Burada nigah diplomatiyasının da rolu var idi [13, s.116]. Hələ Sultan Baybars (1260-1277) dövründən başlayan diplomatik əlaqələr Məmlük hökmdarı Nəsir Məhəmmədin (1293-1294, 1299-1309, 1310-1341) dövründə də davam etdirilmiş, öz məqsədlərinə çatmaq üçün din amili ön planda saxlanılmışdır. Məlum məsələdir ki, hər iki dövlət əzəldən bəri bir-biri ilə mübarizə aparmış və bu qarşıdurmadan Məmlük dövləti məharətlə istifadə etmişdir [2, s.10]. Ümumiyyətlə, Sultan Əbu Səid dövründə hər iki dövlət arasında möhkəm sülh mövcud olmamışdır. Qeyd etmək lazımdır ki, Məmlük sultanı Nəsir Məhəmməd 1322-ci ildə Qızıl Orda xanı Özbəyin Elxanilər dövlətinə qarşı birgə hücum etmək təklifini rədd etmişdir [16, s.127]. Sultan Məhəmmədin dövründə aparılan Məmlük diplomatiyasından aydın olur ki, məmlüklər həm Elxanilərlə, həm də Qızıl Orda ilə balanslaşdırılmış siyasət apararaq öz mənafelərinə uyğun hərəkət etmişdirlər. Qızıl Orda dövləti ilə qurulan dostluq münasibətləri nəticəsində Dəsti-Qıpçaqdan kölələr gətirmək və Qara dənizdəki ticarəti inkişaf etdirmək daha əlverişli idi. Elxanilərlə münasibətlərin normallaşdırılması isə Suriyanın şimalındakı bölgələrin təhlükəsizliyinin təmin olunması, həmçinin Şərqi Anadoludan Qara dəniz sahillərinə və Azərbaycan ərazilərinə uzanan quru yolların açıq olması baxımından faydalı idi [11, s.26]. Məlum məsələdir ki, Elxani-Məmlük münasibətləri Ayn-Calut döyüşündən sonra kəskinləşərək ciddi qarşıdurmalara gətirib çıxarmışdı. Ancaq Nəsir Məhəmməd sülh tərəfdarı olduğuna görə Sultan Əbu Səidin dostluq xarakterli diplomatik siyasətinə müsbət yanaşmışdır. Regionda əhalinin sülh şəraitində yaşaması ticarət əlaqələrinin inkişafına da təsir göstərmişdir. Biz bunu Məmlük-Qızıl Orda münasibətlərində də görə bilərik [9, s.330].

## 2. Elxani hökmdarı Əbu Səidin Məmlük sultanı ilə sülhə nail olması

Əl-Məcdüs-Səlami 1322-ci ilin yanvar ayının 20-də Əbu Səidin müqavilə mətnini hədiyyələrlə birlikdə Məmlük sultanına təqdim etmişdir. Həmin ilin aprel ayının 9-da Elxani elçiləri Qahirəyə gəlmişdirlər. Hər iki dövlətin qarşılıqlı elçilik fəaliyyətləri qiymətli hədiyyələrin göndərilməsi, eləcə də and nüsxələri, nigah diplomatiyası kimi mühüm məsələləri də əhatə etmişdir. 1323-cü il 20 iyun tarixində on minlik qoşun başçılarından olan üç əmirin Misirdə qarşılanması isə sülh istiqamətində atılan əhəmiyyətli addım olmuşdur. Digər tərəfdən, əmir Seyfəddin Aytmış əl-Məhəmməd hədiyyələrlə birlikdə Hülakular dövlətinin paytaxtına gələrək hökmdarla görüşmüşdür. Təbrizdə cümə günü təşkil olunmuş məclisdə əmir Seyfəddin Aytmış da iştirak etmişdir. Burada müqavilə mətni ilə birgə Əbu Səid, əmir Çoban və vəzirin adına olan and nüsxələri oxunmuşdur. Xüsusi ehtiram göstərilən Məmlük elçisi Qahirəyə yola salınmışdır. 1324-cü ildə Nazırul-Has Kərimüddin əl-Kəbir tərəfindən qarşılanan əl-Məcdüs-Səlami Elxanilər dövlətinin sülh təklifini sultana çatdırmışdır. Elxanilər dövləti adına Qahirə şəhərinə gələn İsmayılın ardınca Elxani elçiləri də gəldilər. Onların təklif etdiyi şərtlər aşağıdakılardır:

1. “Qarşılıqlı göndərilən fədailərə tolerantlıq göstərilməyib tutulduqları təqdirdə göndərilməmələri, fədailər Misirdən gələrsə, istənilməməli,

Elxani torpaqlarından Misirə gələn olarsa, göndərilməməli idi.

2. Köçəri ərəblər və türkmənlər Elxani torpaqlarına hücum etməyə təşviq olunmamalı idi.

3. Siyasi sığınacaq alanlarla bağlı qarşılıqlı tələblər olmamalı idi.

4. Sultan Nəsir Məhəmməd Qara Sunquru heç vaxt istəməməli idi.

5. Ticarət və Həcc ziyarəti üçün yolların təhlükəsizliyinə və qarşılıqlı ticarət əlaqələrinin kəsilməməsinə diqqət edilməli idi.

6. Hər il Həcc ziyarəti dövründə İraqdan Hicaza göndərilən mahmil alayında Əbu Səidin bayrağı ilə Nəsir Məhəmmədin bayrağının birlikdə olması bildirilmişdi" [8, s.135].

Şərtləri müzakirə etdikdən sonra Misir sultanı qiymətli hədiyyələrlə Elxani elçilərini İsmayılın başçılığı ilə Hülakular dövlətinə göndərimişdir. Elçilər əl-Məcdüs-Səlaminin bir məmlükü ilə Qahirəyə qayıtmış və hədiyyələrin sahiblərinə çatdığını bildirmişdirlər [8, s.135]. Sülhün şərtlərindən də aydın olur ki, Sultan Əbu Səid dövründə də ticarət və Həcc yollarının təhlükəsizliyi, köçəri ərəblərin və türkmənlərin yürüşləri kimi amillər diqqət mərkəzində olmuşdur.

Hər iki müsəlman dövlətində hökmdarların əmri ilə insanları günaha sövq edən məkanların bağladılması, həmçinin Təbriz yaxınlığındakı kilsələrin dağıdılması və məscidlərin bərpa olunması kimi hadisələr baş vermişdir. Eyni zamanda, qarşılıqlı elçilikdən sonra Həcc yolunda köçəri ərəblərin basqınlarına son qoyulması Nəsir Məhəmmədin nüfuzundan xəbər verirdi. Buna bariz nümunə, 1323-cü ildə Məkkə ziyarətinə gedən Abaqanın qızı Qutlu üçün sultanın Həcc yolunun təhlükəsizliyi məqsədilə əmr verməsi idi [8, s.136-137].

Bütün bunlar Misir Məmlük dövləti ilə qarşılıqlı əlaqələrin inkişafı üçün Sultan Əbu Səidin diplomatik siyasətinin uğurlu istiqamətdə aparıldığının göstəricisi idi. Baxmayaraq ki, ənənəvi Elxani diplomatiyası üçün mütləq itaət tələbinin olduğu sülh təklifləri xarakterikdir. Elxanilər dövləti adından göndərilən məktublarda bəzən birbaşa, bəzən də dolayı yolla tabe olmaq, hədə-qorxu gəlmək kimi məsələlər var idi.

Əmir Çobanın oğlu Anadolu valisi Teymurtaşın Sisə yürüşündən sonra Məmlük hökmdarı Nəsir Məhəmməd elçi vasitəsilə sultandan ermənilərə qarşı mübarizə aparmaq üçün kömək istəmişdi. Nəticədə, Sis mühasirəyə alınmışdı. 1323-cü ildə Elxani hökmdarı ilə Məmlük sultanı arasında bağlanan sülh tərəflər arasında qarşılıqlı münasibətləri qaydaya salmışdı. Üsyankar Əmir Çobanın Sultan Əbu Səid tərəfindən öldürülməsi onun oğlu Teymurtaşı qorxuya saldığına görə o, Misirə sığınmaq məcburiyyətində qalmışdı. Məmlük sultanı Nəsir Məhəmməd onu ehtiramla qarşılasa da, Elxani elçilərinin "Onun haqqında Allahın hökmünü icra edin" mesajını gətirmələri vəziyyəti dəyişmişdi. Məmlük sultanı vəziyyətdən istifadə edərək qarşılığında Şam əmiri Qara Sunqurun da cəzalandırılmasını tələb etmişdi. Beləliklə, onlar haqqında hökmün verilməsindən sonra dövlətlərarası münasibətlər dostluq məcrasında davam etdirildi [1, s.34-35].

Qeyd etmək lazımdır ki, Qızıl Orda dövləti kimi Elxanilər dövlətində də Misirə göndərilən elçiliklərdə nigah diplomatiyasına da rast gəlmək mümkündür. Əmir Çoban oğlunu Əl-Məlikun Nəsirin qızı ilə evləndirmək istəmiş, ancaq bu təklif qızının azyaşlı olmasını bəhanə edən sultan Nəsir tərəfindən rədd edilmişdir [8, s.137-139]. Məlum məsələdir ki, Hülaku xanın dövründə başlayan münasibətlərin kəskinləşməsinin əsas səbəblərindən biri də hər iki dövlətin Suriya ərazisində maraqlarının toqquşması olmuşdur. Ancaq əvvəlki Elxani hökmdarlarından fərqli olaraq Əbu Səid xanın dövründə Suriya problemi arxa planda qalmış, qarşılıqlı münasibətlərin sülh yolu ilə inkişafı əsas götürülmüşdür. Həmçinin Məmlük sultanının siyasi fəaliyyətdə Nube və Yəmənə diqqət yetirdiyini qeyd etmək lazımdır. Məhz bu proseslər Elxanilərlə münasibətləri nizama saldıqdan sonra daha geniş vüsət almışdır.

Qızıl Orda qoşunlarının Özbək xanın başçılığı ilə Azərbaycan ərazilərinə hücum edəcəyi ərəfədə Elxani hökmdarı böyük qoşunla Arana getdi. Şirvan ərazisində hava şəraiti ilə əlaqədar əsgərlərin böyük bir hissəsinin xəstələnməsi, eyni zamanda, Sultan Əbu Səidin də səhhətində problemlərin yaranması vəziyyətin Elxanilərin əleyhinə dəyişməsinə səbəb oldu. 1335-ci ildə Sultan Əbu Səidin zəhərlənməsi onun Qarabağda ölümü ilə nəticələndi [5, s.274]. Sultan Əbu Səidin varisi olmadığından ölkədə daxili çəkişmələr, əmirlərin mübarizəsi başladı. Hülakular dövlətində daxili çəkişmələrin uzun müddət davam etməsi, Elxani şahzadələrinin əmirlərin əlində oyuncağa çevrilməsi, Çobani və Cəlairi əmirlərinin öz hakimliklərini dövlət səviyyəsində rəsmiləşdirmək istiqamətində yeritdikləri siyasət, işğalçı yürüşlər

1357-ci ildə Elxanilər dövlətinin tamamilə tarix səhnəsindən silinməsinə səbəb oldu.

## Nəticə

Sultan Əbu Səid dövründə Elxanilər dövləti ilə Misir Məmlük türk dövləti arasında dostluq münasibətləri qurulmuşdur. Yeni hökmdarın az yaşlı olmasından istifadə edərək dövlətin əsas orqanlarında hökmranlıq edən Əmir Çoban və oğullarının fəaliyyəti uzun sürməmişdi. Onların hökmranlığına Əbu Səid son qoymuşdur. Ölkədə mövcud olan özbaşınalıqlar və iğtişaşlarla mübarizə aparan Əbu Səidin xarici siyasətində Suriya məsələsi arxa plana keçmişdir. Buna görə Misirlə diplomatik əlaqələr genişləndirilmiş, qiymətli hədiyyələr və xoşniyyətli məktublarla xarakterizə olunan qarşılıqlı elçilik fəaliyyətləri nəticəsində tərəflər arasında sülh müqaviləsi imzalanmış, ziddiyyətli məsələlərin həlli istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Bəhs olunan dövrdə sultanların məqsədyönlü xarici siyasətlərinin nəticəsi olaraq müsəlmanların Həcc ziyarətini yerinə yetirilməsinə mane olan amillər aradan qaldırılmışdır. Əbu Səid dövründə Qızıl Orda dövləti və Çağataylarla olan gərginlik Elxani-Məmlük münasibətlərini ciddi hərbi qarşıdurmaya sürükləyə bilməmişdir. Hər iki müsəlman dövləti arasında qurulan dostluq əlaqələri Yaxın Şərqdə illərlə davam edən hərbi-siyasi gərginliyi azaldaraq, diplomatik əlaqələrin inkişafına yol açmışdır. Dövlətlərarası münasibətlərin hərbi qarşıdurmadan uzaqlaşması müsəlmanlar üçün faydalı olmuşdur.

**Açar sözlər:** *Əbu Səid, Məmlüklər, elçilik, Çobanilər, Qızıl Orda.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Bostancı F. "Farsça ve Arapça Kaynaklarda Türk ve Moğol Devleti Tarihi I (İlhanlılar, Timurlular, Ak-Koyunlular ve Kara-Koyunlular)", Efeakademi Yayınları, İstanbul, 2023, s. 1-38.*

*2. Erdoğan C, Sürücü M. "Altın Orda-İlhanlı-Memlük devletleri ilişkilerinde dini-siyasi münasebetler", IV. İnternational Piri Reis language, History, Geography Congress. Ankara, 2021, s. 1-14.*

*3. Magemizoğlu G. "Reşidüddin Fazlullahın Eseri "Camiut-tevarih ve Diğer Kay-naklar Kapsamında İlhanlılar", Ankara, 2016, s. 1-26.*

*4. Məmmədov İ, Məmmədova L. "Azərbaycan dövlətləri və hökmdarları", Ləman Nəşriyyat Poliqrafiya, Bakı, 2020.*

*5. Özen F. "İlhanlı Devletinin Son Hükümdarı Ebu Said Bahadır Hanın Emir Ço-banın Ölümünden Sonraki Faaliyetleri ve Ölümü (728-736/1327-1335)", Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, 2022, s. 268-281.*

*6. Piriyev V.Z. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə.(1316-1360-cı illər), Bakı, Elm, 1978.*

*7. Piriyev V.Z. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı, Nurlan, 2003.*

*8. Sağlam A. "Memlük-İlhanlı diplomatik ilişkileri", TTK Belleten, cilt: LXXXII, Ankara, 2018, s. 83-157.*

*9. Sağlam A. "Nasır Muhammed Dönemi Memlük-Altın Orda Münasebetleri: Stratejik İttifaklar", Uluslararası Sosyal Araştırmalar Dergisi, cilt: 11, sayı: 61, 2018, s. 324-331.*

*10. Sağlam A. "En-Nasır Muhammed Devri Memlük Türk Devleti", Türk Tarih Kurumu Yayınları, Ankara, 2021.*

*11. Uzun K. "Sultan en-Nâsır Muhammed'in Üçüncü Cülûsundan Sonra Memlûk-Altın Orda Siyasi ve Diplomatik İlişkileri", Tarih Dergisi - Turkish Journal of History, 2022, s. 15-52.*

*12. Yıldırım M, Akyıldız A. "Konya Müzesi Envanterinde Kayıtlı İlhanlı Hükümdarı Ebu Said Bahadır Han Dönemine Ait Sikkelerden Örnekler", İSTEM, sayı: 29, Konya, 2017, s. 61-78.*

*13. Yiğit A.F. "İktidar ve İzdivac: Memlük-Altın Orda-İlhanlı Üçgeninde Siyasi Evlilikler", Karadeniz Araştırmaları, sayı: 49, 2016, s. 103-120.*

*14.* تاریخ مغول از حملهٔ چنگیز تا تشکیل دولت تیموری- عباس اقبال- تهران : انتشارات امیرکبیر، 1364. ص 676.

*15.* ایلخانان مغول با دربار واتیکان - دکتر علاء الدّین آذری- بررسیهای تاریخی - شماره 2، سال 5. ص 58-102

*16.* تاریخ مغول در ایران، سیاست، حکومت و فرهنگ دورهٔ ایلخانان، تألیف: برتولد اشپولر. ترجمه: دکتر محمود میر آفتاب. تهران. بنگاه ترجمه و نشر کتاب. سال 1351. ص 563

**Bakhshaliyeva Gunay**

**During the reign of Abu Said Ilkhanid-Mamluk relations**

**SUMMARY**

At the beginning of the 14th century, a new line of development was observed in the mutual relations between the Hulaku state and the Egyptian Mamluk Turkish state. The state of the Ilkhanids needed a

successful foreign policy in the early stages of internal decline. During the reigns of Abu Said and Nasir Muhammad, Ilkhanid-Mamluk relations began to flourish diplomatically rather than militarily. Despite the interventions of the Christian forces and the Golden Horde state, cordial relations predominated in interstate relations during the aforementioned time. The focus shifted to embassy activities where priceless presents and goodwill letters played an important role. Peace between the two Islamic states was the aim. Considerable progress has been made in this regard.

**Key words:** *Abu Said, The Mamluks, embassy, The Chobanids, The Golden Horde.*

**Бахшалиева Гюнай**

**Ильханидо-Мамлюкские отношения в период Абу Саида**

**РЕЗЮМЕ**

В начале XIV века наблюдалось развитие во взаимоотношениях Хулагидов с Египетским Мамлюкским государством с новой строки. Внутри государства Эльханидов начался распад, государство нуждалось в удачной внешней политике. В период правления Абу Саида и Насир Мухаммеда эльханидо-мамлюкские взаимоотношения развивались в дипломатических рамках, а - не в военных. В этот период несмотря на вмешательства христианских сил и Золотой Орды, в межгосударственных отношениях господствовали дружеские отношения. На передний план вышла деятельность посольств, в которых играли важную роль подарки и письма, написанные с благими намерениями. Целью было достигнуть мира между двумя исламскими государствами. Начали делать шаги в этом направлении.

**Ключевые слова:** *Абу Саид, Мамлюки, посольство, Чобаниды, Золотая Орда.*

UOT 94 “04/15”
DOI:10.30546/3006-0346.2024.2.80.1205

# ALINMAZ ŞƏHƏRİN FƏTHİ

**BAHAR XASIYEVA**
*Bakı Dövlət Universitetinin*
*“Azərbaycanın qədim və orta əsrlər tarixi”*
*üzrə II kurs magistrantı*

*E-mail: xasispring@gmail.com*

Sultan Toğrulun ölümündən sonra xalqın və əsgərlərin sevgisini qazanan sultan Alp Arslan öz rəqiblərini məğlub edərək Səlcuqlu taxt-tacına sahib oldu. Ölkədaxili məsələləri həll etdikdən və Qutalmışı məğlubiyyətə uğratdıqdan bir neçə ay sonra 1064-cü ilin fevral ayında “ Rum qəzası” məqsədi ilə Reydən Azərbaycana doğru hərəkətə keçdi. [17, s. 154]. Fevral ayının ilk günlərində sultan xeyli sayda ordu ilə birlikdə səfərə çıxaraq gürcülərin ərazisinə doğru irəlilədi və daha sonra Mərənd şəhərinə gələrək bir neçə gün burada qaldı. Bu ərazidə seçilmiş türkmən bəylərindən olan Əmir Tuğtəkin var idi və onun tabeliyində xeyli sayda əsgərlər var idi. Əmir Tuğtəkinin ordusu ilə Bizans arasında tez-tez münaqişələr baş verirdi. Əmir Tuğtəkin sultanın hüzuruna gələrək, sultana yollar haqqında məlumat vermiş və onunla birlikdə səfərə çıxmışdır. O, sultana daha öncə Gürcüstanın alınmasını və daha sonra Bizans üzərinə yürüşün təşkil edilməsinin daha məqsədəuyğun olduğunu bildirmişdir. Daha sonra Sultan Alp Arslan oğlu Məlikşahı Gürcüstanın tutulması üçün səfərə göndərmişdir [1, s. 59- 60].

Sultan Alp Arslan Ani şəhərinə şimal-şərqdən irəliləyərkən, oğlu Məlikşah və Nizamülmülkün idarəsində olan ikinci ordu Dvin və Sürməli Çuxuru bölgəsindəki qala və şəhərləri zəbt edərək, Aninin cənub-şərq istiqamətində çevrəsi ilə əlaqəni kəsmişdilər. Alp Arslan, Məlikşah və Nizamülmülkün tabeliyindəki ordunun öz ordusu ilə birləşməsi üçün xəbər göndərmiş və daha sonra Səlcuqlu ordusu Qarsın şimal-şərqindəki möhkəmləndirilmiş Lal qalasını tutmuş və buradan Qars-Ani bölgəsinə doğru hərəkət etmişdi. Çıldır gölünün cənubunda və Aninin yaxınlığında yerləşən Seylvürde və Nevre qalalarını ələ keçirdikdən sonra yerli xalq Səlcuqlu ordusunu qarşılayaraq islam dinini qəbul etdiklərini bildirmişdilər. Alp Arslan bu iki xalqın müsəlman olmasına çox sevinərək monastr və kilsələri məscidlərə çevirmişdi. Daha sonra sultan buradan keçərək Ani şəhərinə doğru hərəkət etmişdi [6, s. 67]. Bu şəhər, IX əsrin sonlarında Bagratuni sülaləsi tərəfindən əsası qoyulan çarlığın, 1045-ci ildə həmin çarlığın Bizans imperiyası tərəfindən zəbt və ilhaq olunmasından sonra isə “İveriya” femasının (hərbi-inzibati dairə) mərkəzinə çevrilmişdi [20, s. 87]. Akademik Ziya Bünyadov mənbələrə istinadən qeyd edir ki, Abbasi xəlifəsi əl-Mötəmid vassal statusunun simvolu olaraq Ani çarı I Sumbata Azərbaycanda olan Sacilər sülaləsindən Məhəmməd ibn Əbu Sac vasitəsi ilə tac və fəxri xələt göndərmişdi [ 5, s 180]

1045-ci ilin sentyabrından 1064-cü ilin avqustuna qədər 19 il Bizans tabeliyində yaşamış Ani xalqı ortodoks Bizansın zülmləri ilə üzləşdiyindən yerli xalqın bir qismi İrana, Gürcüstana və bir qismi də Podolya və Moldoviyaya köç etmişdi. Ani və onun ətraf ərazisindəki xalqın köçünün qarşısının alınması üçün daha sonralar Bizans imperatorları idarəçiləri erməni və gürcü məzhəbindən olan kişiləri təyin etməyə başlasalar da bir müddət sonra Ani Səlcuqlar tərəfindən fəth edildi[ 3, s. 99- 100].

Ani Bizans imperatorluğunun ən möhkəm sərhəd şəhərlərindən biri idi. Bütün xəzinələr bu qalalarda saxlanılırdı və buna görə də bu zamana qədər bir çox hökmdarlar buranın fəthinə girişməmişdi. Hər dağın təpəsində bir qala mövcud idi. Şəhərin üç tərəfini çay əhatə etmiş və şəhərin divarları yüksək dağlardan meydana gəlmişdi. Mənbələrə əsasən şəhərdə minlərlə ev, kilsə və monastrın mövcud olması ilə bağlı məlumatlar vardır [ 13, s.18].

Səlcuqluların bölgəyə təşkil etdikləri hərbi axınlar nəticəsində Bizansın mövqeyinin Anadoluda zəifləməsindən istifadə edən ermənilər zaman-zaman Bizansa qarşı üsyanlar təşkil edərək, Bizansın türklər qarşısında zəifləməsinə şərait yaratmışdır. Onlar Səlcuqluları özləri üçün xilaskar rolunda görmüşlər [ 7, s. 65].

Səlcuqların Aniyə yürüşü ilə bağlı İbn əl Əsrin “Əl Kamil fit tarix” adlı əsərində müəyyən məlumatlar əldə etmək mümkündür. Əsərdə qeyd edilir ki, müsəlmanlar Aniyə yürüş edərkən şəhərinin möhkəmləndirilmiş yapıya sahib olduğunu görərək şəhərin alınmasından ümidlərini kəsmişdi. Buna görə də şəhərdəki rumları görə bilmək üçün sultan tərəfindən ağac bürc düzəltdirərək döyüşçülərlə

doldurulmuş və üzərinə mancınıklar və oxçular yerləşdirilmişdir. Bununla da müsəlmanlar divarların üzərindən rumları görə bilmişlər. Səlcuqlu ordusu divarları deşmək məqsədi ilə irəliləyərkən gözlənilməz hadisə baş vermişdir. Belə ki, divardan bir hissə yerə düşmüş və bundan sonra Səlcuqlar şəhərə daxil olub xeyli sayda insan öldürmüşlər.[ 11, s. 52]

Alp Arslanın Ani şəhərini fəth etməsini Əbu'l Fərəc belə təsvir edir: “Eyni il sultan Alp Arslan Ani şəhərinə doğru hərəkət etdi. Alp Arslan buranı zəbt etdi və qanlar tökdü. Ani şəhərinin əhəmiyyətini izah etmək üçün böyük Araz çayının dörddə üçünü əhatə etdiyini, dördə birinin dərin çuxurla əhatələnmiş olduğunu və Arazın bu çuxuru doldurub qüvvətli cərayanla bu çuxurdan keçdiyini demək kifayətdir. Şəhər xalqı buraya girib-çıxmaq üçün bir körpüdən istifadə edirdi. Türklər şəhəri tutan zaman məyus olub geri dönmək istəyəndə birdən-birə səmavi bir işarətlə qalalardan biri düşdü və türklər körpü quraraq şəhərə daxil oldular. Bu andan başlayaraq sultan ”Əbu'l Fəth” deyə tanınmağa başladı” [ 9, s. 316 -317].

Əhalisi ilə bağlı verilmiş məlumatlara əsasən demək olar ki, əhali türklərin qorxusu ilə şəhərə sığınmış və şəhər mühasirəyə alınan zaman döyüşçülərin yanında qadınlar, kişilər, uşaqlar, yaşlılar da olmuşdur. Fəth zamanı Sultan Alp Arslan öz çadırını şəhərə aid əkin sahələrində qurmuş və buna görə də yerli xalq onların tacir olduğunu düşünmüşdü. Çünki indiyə kimi kimsə bu ərazini tutmağa cəsarət etməmişdi. Bu ərazinin su kananlları və əkilmiş sahələrin qorunması üçün görəvləndirilmiş süvarilər şəhərdən çıxaraq sultanın əsgərlərini tarlalardan çıxarmağa çalışsalar da, bu zaman Səlcuqlu ordusunun bir hissəsi onların üzərinə doğru hərəkət etmiş və bunu görən düşmən əsgərləri qaçmağa başlamışdırlar. Beləliklə də Aninin tutulması ilə bağlı döyüşlər başlamış oldu [ 8, s. 28].

Arpaçay üzərində yerləşən, yüksək və möhkəm divarlarla əhatə olunmuş, içi su ilə dolu dərin xəndəklərlə qorunan məşhur qala Bizans sərkərdələri Bagrat və Grigor tərəfindən müdafiə olunurdu [ 16, s. 41]. Mühasirə zamanı içəri girə bilməyən Səlcuqlu ordusu hücumları yavaşlatmağa məcbur oldu. Hətta sultan mühasirəni dayandıraraq geri qayıtmağa hazırlaşırdı. Bu sırada şəhərin müdafiəsi ilə məşğul olan Grigor və Bagrat müdafiəni yarımçıq qoyaraq qalaya sığındılar. Xalqın müdafiəsini yarımçıq qoyub öz canlarını qurtarmağa çalışan gürcü valilərinin geri çəkilməsi şəhər xalqının mənəvi qüdrətini sarsıtmış və hərə bir tərəfə səpələnmişdi. Şəhər qaçan insanlara görə toz içində qalmışdı və bunu görən Səlcuqlu əsgərləri sultanın yanına gələrək şəhərin vəziyyəti haqqında sultana xəbər verdilər. Sultan Alp Arslan öncə bu xəbərə inanmamışdı və daha sonra qala divarlarının qarnizonlar tərəfindən tərk edildiyini görən Səlcuqlu ordusu hücuma keçərək şəhərə daxil olmağı bacarmışdı. Onlar şəhərə daxil olarkən əsir götürdükləri uşağı sultanın yanına göndərmiş və heyrətlər çində qalan sultan “ Onların Allahı tutulabilinməz şəhərlərini bu gün mənə təslim etdi” deyə qışqırmağa başladı. Daha sonra isə öz ordusu ilə birlikdə Ani şəhərinə daxil oldu. Qalanın daxilinə çəkilən Grigor və Bagrat yolları odunlar ilə bağlamağa çalışsa da sultan ordusu tərəfindən onlar yandırılmış və uzun müdafiədən sonra şəhər təslim olaraq vergi verməyi qəbul etmişdir [ 13, s. 18 -19].

Eyni zamanda sultan Alp Arslanın Anini mühasirəyə aldığı sırada adəti üzrə vəziri Nizamülmülk tərəfindən xəlifəyə onun indiyənədək etdiyi fəthlər haqqında məlumat verilirdi. O, öz məktubunda sultan ordusunun Ani ərazisində olduğunu və yaxında bu ərazinin tutulacağını bildirmişdi. Məktubda sultanın böyük ərazi olan və bu günə qədər əlçatmaz olan Xəzər ölkələrinə gəldiyini, burada çox önəmli fəthlər etdiyini və bu fəthlər nəticəsində 30 min insanın öldüyünü, 50 min insanın əsir götürülməsi ilə bağlı məlumat vermişdir. Hal-hazırda Aninin mühasirədə olduğunu və Allahın yardımı ilə qısa zaman içində şəhərin fəth olunacağını qeyd etmişdi.[ 12, s. 47].

Qalanın fəthindən sonra sultan Məhəmməd ibn Mansuru və Şəmsülxadimi qala mühafizliyinə və şəhərin idarəçiliyinə təyin etdi. Hücum nəticəsində dağılan divarların və şəhərin yenidən bərpası üçün əmrlər verdi. Eyni zamanda şəhərdə yeni məscid inşa etdirdi. Xristian əhali cizyə vergisi ödəməyə mükəlləf olmaqla canlarını qurtara bildi [ 12, s. 48]. Lakin bu razılaşmadan bir müddət sonra onlar peşman olub Səlcuqlara qarşı yenidən mübarizəyə başladılar. Mübarizənin gedişində çətin vəziyyətə düşdüklərini görən Səlcuqlu sultanı torbalara saman və torpaqların doldurulmasını və onların bir-birinin üzərinə yığılmasını əmr etdi. Bu şəkildə təşkil olunan təpənin üzərinə sapancılar və neftçilər yerləşdirildi. Rumlar məmləkətin ən gözəl oğlan və qızlarını sultan ordusunun qərargahının qarşısına düzməklə Səlcuqlu ordusunu onları əsir götürməsi ilə yayındırmağa çalışırdı. Lakin sultan onların hər birini tutduraraq həbs etdirdi və beləliklə də rumlar gözlədiyi nəticəni əldə edə bil-

mədi. Sultan və onun ordusu gecə-gündüz yeyib-içməyi və nəhayət, 25 gün davam edən mühasirədən sonra 16 avqust 1064-cü ildə Ani sultan Alp Arslan tərəfindən fəth edildi. Daha sonra sultan Alp Arslan oğlu Məlikşah və Səlcuqlu bəyləri ilə birlikdə cümə namazı qıldı [ 8, s.30; 4 s 72].

Bundan sonra sultan Alp Arslan öz elçisini fəthnamə ilə birlikdə Anidən Abbasi xəlifəsi Əl Qaim Bi-Əmrullahın yanına göndərərək, Aninin rumlardan alınması və digər fəthləri haqqında məlumat göndərdi. Buna görə daha sonra xəlifə elçi ilə bərarbər sultana təbriknamə göndərərək, ilk Anadolu fatehi sultan Arpaslana fəthlər atası "Əbu'l fəth" ünvani verdi [18, s. 53]. Bu qələbə Səlcuqlar üçün yeni prespektivlər açdı. İndi Qafqaz və Kiçik Asiya uğrunda mübarizədə özlərinin əsas rəqibi olan Bizans imperiyası ilə həlledici döyüşə daha məqsədyönlü və sistemli şəkildə hazırlaşa bilərdilər. Bu məqsədə nail olmaq üçün Ani qətiyyətli hərbi əməliyyatların hazırlaması üçün əsas bazaya çevrildi [19, s. 74].

Alp Arslan ordusunun şəhərin alınmasında istifadə etdiyi silahlar haqqında da bəzi mənbələrdə məlumatlar vardır. Səlcuqlu ordusunun istifadə etdiyi böyük və təsirli silahlardan biri mancanaklar olmuşdur. Islam qaynaqlarında mancanaqlar haqqında məlumat olmasa da Malazgirt müharibəsi sırasında istifadə olunmuş mancanaklar haqqında verilmiş məlumatlara əsasən eyni silahlardan istifadə olunduğu hesab olunur. Səlcuqlu ordusunun Aninin fəth edilməsində istifadə etdiyi başqa bir silah növü neft olmuşdur. Səlcuqların Ani və Məryəmnişin uğrunda döyüşlər zamanı neftdən istifadə etdikləri bilinməkdədir. Səlcuqlu ordusunda xidmət edən neft atan və neftçilərin əsas vəzifəsi ətrafda yanğınlar törətmək idi. Gürcülərin bu üsuldan xəbərlərinin olmadığı və yanğınlara vərdiş olmadıqlarından bu taktika gürcü qalalarının alınmasında təsirli olmuşdur [ 15, s. 597].

Anini fəth etdikdən sonra sultan Alp Arslan öz elçisini Qars hakimi Qagikin yanına göndərərək vassallıq tələbi ilə yanına çağırtdırmışdı. Həm ehtiyyatlı, həm də Alp Arslandan qorxduğu üçün tədbirli davranan Qagik Alp Arslanın hüzuruna qara geyimdə gələrək sultan Toğrulun yasını tutduğunu demişdir. Əslində onun sultan Toğrula qarşı həqiqətən də hörmət bəslədiyini demək olar, çünki vaxtı ilə sultan Toğrul tərəfindən xilas edilmişdi. Belə ki 1054-1055-ci illərdə İbrahıl Yınal Qarsa hücum edən zaman Qagik onunla mübarizə şəraitində idi və sultan Toğrulun gəlməsi ilə Yınal geri çəkilməyə məcbur olmuşdu. Buna görə də qara geyinərək sultanın hüzuruna gələn Qagik duygusal olaraq sultana təsir edə bilmişdir. Alp Arslan məmnun qalaraq Qarsa getmiş və Kağızman dərərsini, Qars yaylasını və Arpaçayın mərkəzi hissəsini əhatə edən bölgəyi onun idarəsinə vermişdi. Ani və Qars kimi mühüm əhəmiyyətli şəhərləri tutan sultan Alp Arslan Anadoluda fəthlərin genişlədilməsinə ara verib geri qayıtdı. O tutduğu əraziləri vassalları olan yerli hakimlərə buraxdı. Ani şəhəri ilə Çıldır gölü ətrafı, Arpaçay, Məryəmnişn, Səpid-şəhr, Tuzluca, Iğdır əraziləri Şəddadi hökmdarı Əbuləsvar Şavura və oğlu Məniçöhrə iqta olaraq verildi. Sultan bu səfərin sonunda 100 minlik ordunun başında əlli min əsir və sonsuz sayda qənimətlərlə geri qayıtdı. [2, s. 21-22] Daha sonra Aninin idarə olunması Əbulsuvar tərəfindən oğlu Mənuçöhrə verilmişdir. Aninin idarəçiliyinin Mənuçöhrə verilməsinin əsas səbəblərindən biri onun Ani Bagratılarının varisi hesab edilməsi idi. Belə ki Mənuçöhrün anası Kata Xanım IV Aşotun qızı və sonuncu Ani kralı II Gagikin bacısı olmuşdur [ 7, s. 72-73 ].

Bəzi qaynaqlarda isə Aninin müəyyən pul qarşılığında Şəddadilərə verilməsi haqqında məlumatlar vardır. Erməni tarixçisi Vardan Aninin xeyli sayda qızıl qarşılığında Şəddadilərə verilməsini qeyd edir. Bu hadisə onun əsərində belə təsvir olunur: " Fadlu Alp Arslana qızılla bəzədilmiş çiçəklərlə şəkillər verərək Anini ondan aldı və hələ çox gənc olan nəvəsi Mənuçöhrü bu xaraba şəhərə hökmdar təyin etdi. Mənuçöhr böyüdükdən sonra Aninin qalalarını çoxaltdı. Şəhər yenidən bərpa edildi və köhnə halından heç bir fərqi qalmadı [ 14, s. 179]. Erməni tarixçisinin bu yanlış fikrini daha sonra başqa müəlliflər də araşdırmadan öz əsərlərinə daxil etmişlər. Ermənilər iqta sistemini bilmədikləri üçün alınan vergini satınalma kimi başa düşmüşdülər. Məlikşahın 1086-cı ildə Qafqaza səfəri zamanı digər əmirlər kimi Məniçöhründə illik vergi qarşılığında hakimiyyətdə qaldığı nəzərə alınsa, erməni müəlliflərinin verdiyi məlumatın yanlış olduğu aydınlaşır [ 7, s.29].

Sultan Reyə qayıtdıqdan sonra Qars hakimi Qagik Səlcuqların tabeliyindən çıxaraq, Qars şəhərini və Vanand ölkəsini 1064-cü ilin payızında Bizans imperatoru Dukasa təslim etdi. Daha sonra verdiyi torpaqlar qarşılığında Zamantı, Pınarbaşı ərazisindəki yeni malikanəsinə getdi. Qars şəhərində rum işğalı cəmi 4 il çəkdi və sultan Alp Arslanın 1066-1067-ci illərdə ikinci Gürcüstan səfəri zamanı yenidən ələ keçrildi və yenidən Şəddadilərə verildi.[ 10, s. 180]

**Nəticə**

Düzgün taktika, silahlardan istifadə etmə bacarığı və vaxtın düzgün qiymətləndirilməsi kimi mühüm məsələləri məharətlə koordinasiya edə bilən sultan Alp Arslan Anadolunun Səlcuqların hakimiyyəti altına keçməsini təmin edə bilmişdi. Anadolunun fəthi istiqamətində ən mühüm strateji mərkəz və yaşayış məntəqələrindən biri olan Ani bölgəsinin tutulması üçün Alp Arslan oğlu Məlikşah, vəziri Nüzammül-mülk və digər sərkərdələri aypara şəklində hərəkət etməklə, ilk növbədə Ani ətrafındakı mühüm qala və şəhərləri daha sonra isə Ani şəhərinin özünü ələ keçirdi. Aninin fəthi türklərin qabaqcıl olduqları İslam dünyası ilə Bizansın liderlik etdiyi Xristian dünyası arasında münasibətlərin inkişaf istiqamətində dönüş nöqtəsi oldu. Aninin fəthi ilə Şərqi Anadolu bölgəsində Səlcuqlu türklərinin mövqeyi daha da möhkəmləndi və gələcək fəthlər sayəsində İslam coğrafiyasının genişlənməsinə etibarlı zəmin yaratdı.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Ahmed bin Mahmud. Selçukname. I cild. çev: Erdoğan Merçil, İstanbul 1977, 182 s.*

*2. Ayan E. Sultan Alp Arslan'ın ermeni-gürcü siyaseti. Karadeniz Uluslararası Bilimsel Dergi, 2009, 20 s.*

*3. Bedirhan Y. Kafkasya ve Büyük Selçuklu Devleti'nin Kafkasya Politikası. Konya, 1999, 293 s.*

*4. Baynes, TS, ed. (1878), "Anni" , Encyclopædia Britannica, 2 (9th ed.), New York: Charles Scribner's Sons.*

*5. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2007, 422 s*

*6. Cengiz E. Sultan Alp Arslan'ın Ani'yi fethi. Ortaçağ ve Yeniçağ Tarih Araştırmaları, 22 s*

*7. Cengiz E. Şeddadiler döneminde Ani(1064-1200). Kars,2008, 93 s*

*8. Eğilmez S. Selçuklu Gürcü İlişkileri (1060-1157). Erzurum,2001 , 106 s*

*9. Gregory Abu'l Farac. Abu'l Farac Tarihi. I cilt. çev:Doğrul O.R. Ankara, 1945, 337 s.*

*10. GÖK B. Büyük Selçuklu devletin'de ermeniler: Başlangıcından Melikşah'ın ölümüne kadar (1018-1092). Avrasya Uluslararası Araştırmalar Dergisi, 2005 , 172-185.*

*11. İbnü'l- Esir. El Kamil Fi't -Tarih. X cild: Çev Özaydın A. İstanbul, 1991, 541 s.*

*12. İbrahim Gök.İ. Mir atü'z zamana göre büyük Selçuklu imparatorluğu sultan Alp Arslan devri. Ankara, 1995, 157 s*

*13. Köymen M.A. Büyük Selçuklu İmparatorluğu. III cilt: Alp Arslan Ve Zamanı. Ankara, 2011, 532 s*

*14. Müverrih Vardan. Türk fütuhatı tarihi(889-1269), çev:Hrant D.Andreasyan, İstanbul,1937, 244s*

*15. Özmenli M. Anı Kentinin Alınması ve Sultan Alp Arslan. Karadeniz Sosyal Bilimler Dergisi,2021, 590-601 s.*

*16. Sevim A. Anadolunun Fethi: Selçuklar Dönemi. Ankara, 1988, 133 s.*

*17. Turan O. Selçuklar Tarihi ve Türk-İslam medeniyyeti. İstanbul: Ötüken Neşriyyat, 2009, 540 s*

*18. Yıldırım A. Selçuklu devrinde Ani şehri( 1064-1200). Ekim,2010, 198 s.*

*19. Гусейн-заде Р.А., Кавказ и Сельджуки, Баку «Кавказ», 2010.*

*20. Юзбашян К.Н. «Скилица о захвате Анийского царства в 1045 г.» // Византийский временник, том 40, Моска – Издательство «Наука», 1979, сс.76-91)*


**XÜLASƏ**


Səlcuqlu hökmdarı sultan Toğrulun (1040-1063) xələfi olan sultan Alp Arslanın (1063-1072) sultan elan edilməsindən etibarən o, Qafqazların fəthi siyasətini davam etdirmişdir. Ələ keçirilməsi lazım olan ilk və ən önəmli şəhərlərdən biri də Ani şəhəri olmuşdur. Qafqazların tutulması Səlcuqlar üçün mühüm önəm daşıyırdı. Belə ki, Səlcuqlar Qafqazı tutmaqla Anadoluya təşkil edəcəkləri yürüşlər üçün özlərinə yol açmış olacaqlardı. Hələ Çağrı Bəy dönəmindən başlayaraq edilən kəşfiyyat xarakterli yürüşlər Sultan Toğrul dövründə genişləndirilmiş və artıq sultan Alp Arslanın hakimiyyət illərindən etibarən planlı məqsəd daşıyırdı. Alp Arslanın hakimiyyət illərindəki ən böyük fəthlərindən biri Ani şəhərinin tutulması olmuşdur. Aninin tutulması ilə Səlcuqlar Anadolu ərazisində möhkəmlənəcək və bu bölgənin türklər üçün qalıcı olaraq yurd halına gətirilməsində mühüm rol oynayacaqdı.



**Açar sözlər:** *Səlcuqlu, Alp Arslan, Ani, Bizans, Qafqaz.*

**KHASIYEVA BAHAR**
***Second year master's degree of Baku State University majoring in "Ancient and Medieval History of Azerbaijan"***

**The conquest of the impregnable city**

**SUMMARY**

Since the accession of Sultan Alp Arslan (1063-1072), who succeeded Seljuk ruler Sultan Togrul (1040-1063), the pursuit of Caucasus conquest continued. Ani, a city of paramount significanse, stood among the initial conquests. Thus, by capturing the Caucasus, the Seljuks would have paved the way for their marches to Anatolia. The exploratory expeditions, which had roots in Cagri Bey's era, gained momentum under Sultan Togrul and it was already systematically planned during sultan Alp Arslan's reign. One of the biggest conquests of Alp Arslan during his reign was the capture of the city of Ani. With the capture of Ani, the Seljuks would be strengthened in the territory of Anatolia and would play an important role in making this region a permanent home for the Turks.

**Key words:** *Seljuk, Alp Arslan, Ani, Byzantium, Caucasus.*

**ХАСИЕВА БАХАР**
***Бакинский Государственный Университет Магистрант второго курса Бакинского Государственного Университета по специальности "Древняя и средневековая история Азербайджана"***

**Завоевание неприятного города**

**РЕЗЮМЕ**

С момента провозглашения султана Алп-Арслана (1063-1072), преемника сельджукского правителя султана Тогрула (1040-1063), он продолжил политику завоевания Кавказа. Первым и важнейшим городом для захвата был город Ани. Захват Кавказа был важен для Сельджуков. Таким образом, захватив Кавказ, сельджуки проложили бы путь для своих походов в Анатолию. Исследовательские походы, проводившиеся со времен Чагри-бея, были расширены во время правления султана Тогрула и имели плановую цель со времен правления султана Алп-Арслана. Одним из крупнейших завоеваний Алп Арслана во время его правления стал захват города Ани. С захватом Ани сельджуки укрепятся на территории Анатолии и сыграют важную роль в превращении этого региона в постоянный дом для турок.

**Ключевые слова:** *Сельджук, Алп Арслан, Ани, Византия, Кавказ*

# İqtisadiyyat

UOT 339.977
DOI:10.30546/3006-0346.2024.2.80.1167

## QLOBAL BAZARDA QİDA İSTEHSALÇILARININ RƏQABƏT QABİLİYYƏTİNİ ARTIRMAQ ÜÇÜN İNNOVATİV STRATEQİYALAR

**ÜLVİ BİLAL**
*AKU-nun doktorantı*
*bilalulvi@gmail.com*

### Giriş

Qlobal iqtisadi mənzərədə rəqabətqabiliyyətlilik anlayışı hamı tərəfindən qəbul edilsə də, standartlaşdırılmış tərifə malik deyil. İstər Azərbaycanda, istərsə də başqa yerlərdə rəqabətqabiliyyətlilik, adətən, bazar mövqelərinin gücləndirilməsi və ya rəqibləri üstələmək kimi əvvəlcədən müəyyən edilmiş iqtisadi məqsədlərə nail olmaq kimi xüsusi sektorlar və ya iqtisadi bölmələr kontekstində başa düşülür. İqtisadi amillərin bu mürəkkəb qarşılıqlı təsiri milli sərhədləri aşaraq ölkənin siyasi, sosial və iqtisadi mövqeyinə, xüsusən də istehsalçıların öz məhsullarını daxildə və xaricdə satmaq qabiliyyətinə təsir göstərir.

Müasir rəqabət meydanının mürəkkəbliyi içərisində texnologiya şirkətləri, xüsusən də rəqəmsal platformalarda naviqasiya edən şirkətlər icmalar daxilində ənənəvi güc strukturlarına meydan oxuyaraq görünməmiş təsirə malikdirlər. Rəqəmsallaşmış dünya bu qurumlar üçün mübarizə meydanına çevrilib, rəqabət mühitini yenidən formalaşdırır və müəyyən edilmiş normalara problemlər yaradır. Buna əlavə olaraq, rəqabət (antiinhisar) qanunvericiliyinin tətbiqi zəifləmiş görünür, bu şirkətlərin bir neçəsi milli sərhədləri aşaraq tənzimləyici tədbirlərdən yayınır.

"Qlobal iqlimdəki son dəyişikliklər, regional münaqişələr və sürətlənən inflyasiya ilə birləşərək transformasiya dövrünə start verdi. Qlobal təchizat zəncirlərindəki pozulmalar istehsal xərclərinin artmasına səbəb olub, müxtəlif sektorlara, o cümlədən qida məhsulları sənayesinə təsir edib. Əksər ölkələrdə müşahidə olunan inflyasiya artımı problemlə mübarizə üçün çoxşaxəli yanaşma tələb edir. Bura təkcə fiskal və monetar tədbirlər deyil, həm də antiinhisar strategiyalarının mühüm rolunu vurğulayaraq rəqabət siyasətinin strateji gücləndirilməsi daxildir [1, s. 567-584].

Bu dinamik mənzərədə strateji məqsədlərə nail olmaq üçün yalnız daxili strategiyalara diqqət yetirməyin yetərli olmadığı aydındır. Yeni, qloballaşan perspektiv dövlətlərin, müəssisələrin, xüsusən də qida istehsalı sektorunda olanların rəqabətə hazır olmasını tələb edir. Həm milli, həm də müəssisə səviyyəsində antiinhisar siyasətinin gücləndirilməsi rəqabət qabiliyyətinin artırılmasında mühüm komponent kimi ortaya çıxır.

Azərbaycan kontekstində rəqabətqabiliyyətliliyin ölçülməsi, rəqabətli mənzərənin başa düşülməsi, müəssisənin üstünlüklərinin müəyyən edilməsi və irəliləyiş üçün strateji istiqamətlərin seçilməsi aktual məsələlərdir. Bu çətinlikləri həll etdikcə, innovativ strategiyaların qlobal bazarda qida istehsalçılarının rəqabət qabiliyyətini artırmaq üçün nəinki arzuolunan, həm də vacib olduğu getdikcə daha aydın olur. Bu məqalə qida sənayesinin qlobal bazarın inkişaf edən dinamikası arasında özünü necə uyğunlaşdıra, inkişaf etdirə və strateji mövqedə tuta biləcəyinə dair anlayışlar təqdim edərək bu strategiyaları araşdırır.

### Qida sənayesinin mövcud vəziyyəti

Qida sənayesi qloballaşmanın və sürətlə dəyişən istehlakçı seçimlərinin qovşağında dayanır. Sektorun qloballaşan təbiəti bütün dünya bazarlarını formalaşdıran müxtəlif kulinariya təsirləri ilə əhəmiyyətli transsərhəd ticarət vasitəsilə aydın görünür. Sağlamlıq şüuru və davamlılıq narahatlıqları ilə getdikcə daha çox idarə olunan istehlakçı üstünlükləri bitki əsaslı pəhrizlərə və şəffaf və etik mənbəli məhsullara tələbata keçidə təkan verdi. Xüsusilə, onlayn platformaların və e-ticarətin rahatlığı istehlakçıların ənənəvi pərakəndə satış modellərini yenidən formalaşdırmaqla qida əldə etmə və satın alma yollarının ayrılmaz hissəsinə çevrildi.

Qlobal qida sənayesi 2026-cı ilə qədər 3,6% artım tempi ilə 7,210,13 milyard dollara çatacaq. Asiya Sakit Okean 2021-ci ildə 34,6% ilə qida sənayesində ən böyük bazar payına sahibdir, ondan sonra Avropa və Şimali Amerika gəlir. Qlobal ət bazarı 2020-ci ildə 945,7 milyard dollar dəyərində olub. Qlobal üzvi qida bazarının həcminin 2025-ci ilə qədər 320,5 milyard dollara çatacağı gözlənilir. Dəniz məhsulları bazarı 2019-cu ildə 159,31 milyard dollar dəyərində idi və 2027-ci ilə qədər 193,18 milyard dollara çata-

cağı gözlənilir. Qlobal qablaşdırılmış ərzaq bazarının həcminin 2025-ci ilə qədər 3,03 trilyon dollara çatacağı gözlənilir. Qlobal süd bazarı 2019-cu ildə 673.8 milyard dollar dəyərində qiymətləndirilib və 2020-ci ildən 2027-ci ilə qədər 5.2% artım tempi səviyyəsində böyüməsi gözlənilir. Qlobal çörək məhsulları bazarının həcminin 2027-ci ilə qədər 595,7 milyard dollara çatacağı gözlənilir. Qlobal düyü bazarının həcmi 2019-cu ildə 365,16 milyard ABŞ dolları dəyərində qiymətləndirilib və 2027-ci ilə qədər 274,45 milyard dollara çatacağı proqnozlaşdırılır. Qlobal qəlyanaltı ərzaq bazarının həcmi 2018-ci ildə 461,1 milyard dollar dəyərində qiymətləndirilib. Qlobal üzvi meyvə və tərəvəz bazarı 2018-ci ildə 18,2 milyard dollar dəyərində qiymətləndirilib və 2026-cı ilə qədər 55,8 milyard dollara çatacağı gözlənilir. Qlobal yeməyə hazır ərzaq bazarının 2026-cı ilə qədər 192,3 milyard dollara çatacağı proqnozlaşdırılır[5, 6].

"Texnoloji tərəqqi sənayenin təkamülündə mühüm rol oynayır. Dəqiq kənd təsərrüfatı, avtomatlaşdırma və məlumat analitikası istehsal və təchizat zənciri proseslərini optimallaşdırır. Blokçeyn texnologiyasının tədqiqi daha təhlükəsiz və izlənilə bilən təchizat zəncirinin təmin edilməsi ilə qida təhlükəsizliyi və şəffaflıqla bağlı narahatlıqları həll edir. Bu yeniliklər nəinki səmərəliliyi artırır, həm də onların qidalarının mənşəyi və keyfiyyəti haqqında artan istehlakçı tələbatına cavab verir.

Davamlılıq qida sənayesinin etikasının təməl daşına çevrilmişdir. Ərzaq tullantılarını azaltmaq, ekoloji cəhətdən təmiz qablaşdırmanı qəbul etmək və davamlı kənd təsərrüfatı təcrübələrini mənimsəmək səyləri təsərrüfatdan çəngələ qədər sürət qazanır. Hökumətlər və istehlakçılar sənayenin ətraf mühitə təsirini minimuma endirmək üçün təşəbbüslər irəli sürürlər. Eyni zamanda, həm istehlakçıların sağlamlığını qorumaq, həm də beynəlxalq ticarəti asanlaşdırmaq üçün qida təhlükəsizliyi, etiketləmə və qidalanma üçün ciddi standartlara diqqət yetirməklə tənzimləmə mənzərəsi inkişaf edir [2, s. 889-905].

COVID-19 pandemiyası davamlı təchizat zəncirlərinin əhəmiyyətini vurğuladı. Şirkətlər riskləri azaltmaq və gözlənilməz fasilələrə uyğunlaşmaq üçün təchizat şəbəkələrini yenidən qiymətləndirir və yenidən strukturlaşdırırlar. Məhsulların hazırlanmasında innovasiyalar mövcud mənzərənin başqa bir əlamətidir, şirkətlər daha sağlam və daha müxtəlif qida seçimlərinə olan tələbatı ödəmək üçün tədqiqat və inkişafa sərmayə qoyurlar. Şirkətlər dinamik və daim dəyişən bazarda portfellərini genişləndirməyə və mövqelərini möhkəmləndirməyə çalışdıqları üçün sənayenin rəqabətli təbiəti birləşmələr və satınalmalar vasitəsilə aydın görünür. Bu çoxşaxəli mənzərə qida sənayesinin davamlı transformasiyasını əks etdirir, çünki o, bir-biri ilə əlaqəli qlobal iqtisadiyyatda çətinlikləri həll edir və imkanları əhatə edir.

Beləliklə, ƏD iqtisadi müqavimətə davamlı qoşulmuş, ƏDA müqaviməti ilə ƏDA III qrupunda qərarlaşmanı şərtləndirmişdir. Belə ki, NAD müqavimətində bərpa olunan enerji təminatını idarə etmək və onun maksimal qiymət artımını təşkil etmək iqtisadi səmərəliliyi formalaşdırır. Bu kontekstdə iqtisadi tarazlıq balanslaşır və ƏDA qiymət artımına uyğun olaraq NDA müqavimətində formalaşan enerji təminatı siyasi-iqtisadi gərginliyi tənzimləyir. Belə ixtiyari yanaşmanın ƏDA müəyyənliyi əsasında iqtisadi səmərəliliyin qiymət tarazlığı, davamlı sosial-iqtisadi rifah təminatını şərtləndirir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Əliyev İ.H, "İnkişaf məqsədimizdir", 2019, 378.*

*2. Məmmədov N.İ. "Geosiyasətə giriş", Bakı 2022, 697.*

*3. Ə. Əlirzayev, "İqtisadi rifah və siyasi idarəetmənin əsas prinsipləri". Bakı, 2020*

*4. Abbasov. V.H, "Sənaye iqtisadiyyatında istehsal əlaqələrinin tənzimlənməsi", Baku, 2019.*

*5. İsmayilov M, "Azərbaycanın iqtisadi əməkdaşlığı yeni müstəvidə", Bakı, 2020*

*6. N.D. Allahverdiyeva, Mathematical description of international policy and scientific and educational progress in Azerbaijan 2022.*

*7. D.I.Allahverdıyev, Azerbaıjans economıc polıcy ıs a sustaınable person from capıtal to human progress. PROCEEDINGS of the 7th International Conference on CONTROL AND optımızatıon wıth ındustrıal applıcatıons Volume II 26-28 August, 2020 Baku, Azerbaijan.*


## MATHEMATICAL FORMULATION OF ECONOMIC WAVE GROWTH PARAMETERS


***PhD in economics, associate professor,***

**Dagbeyi Allahverdiyev**

***Leading researcher of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,***

***E-mail: dagbeycahani@gmail.com***


**SUMMARY**


This study delved into the intricate mathematical framework of the global economy, particularly under prevailing conditions. It scrutinized the mathema-

tical delineation of the growth rate associated with the continuous economic wave, alongside the most efficacious method for deriving optimal solutions, all within the ambit of socio-political well-being. Presently, the focus was on assessing income parity and macroeconomic benchmarks that are indicative of a nation's political acumen and economic advancement. Furthermore, the research probed into the mathematical portrayal of economic stasis, as reflected in the growth trajectory of the Gross Domestic Product.

**Keywords:** *Economic expansion, cyclical economic surge, economic advancement, societal welfare, quantitative economic analysis.*

## МАТЕМАТИЧЕСКАЯ ФОРМУЛИРОВКА ПАРАМЕТРОВ ЭКОНОМИЧЕСКОГО ВОЛННОГО РОСТА

***Доктор экономических наук, доцент***
**Дагбай Аллахвердиев**
***Ведущий научный сотрудник Института экономики Министерства науки и образования Азербайджана***
***Эл. почта: dagbeycahani@gmail.com***

**РЕЗЮМЕ**

В исследовании проанализирована математическая структура мировой экономики в современных условиях. Математическое описание темпа роста непрерывной экономической волны и метод оптимального решения изучались в контексте социально-политического благосостояния. В нынешних условиях оценены равенство доходов и макроэкономические показатели, обуславливающие политико-экономическую ответственность и прогресс страны. Математическое представление экономического равновесия исследовалось в темпах роста валового внутреннего продукта.

**Ключевые слова:** *экономический рост, волна экономического роста, экономический прогресс, благосостояние человека, математическое экономическое описание.*

UOT 339.9
DOI:10.30546/3006-0346.2024.2.80.16009

# AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏN KEÇƏN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFI

**GÜLARƏ İSMAYILOVA**
*Azərbaycan Dövlət İqtisad Universtetinin dissertantı*
*E-mail: gulare.ismayilova1@gmail.com*

Tarixi Böyük İpək yolu Avropadan Asiyaya ən qısa marşrut olaraq, Cənubi Qafqaz ölkələrinin ərazisindən keçmişdir. TRASEKA (TRACECA – TRANSPORT CORRIDOR EUROPE CAUCASUS ASIA) Müstəqil Dövlətlər Birliyinə (MDB) göstərilən texniki yardım (TASİS) çərçivəsində xüsusi bir layihədir. O, Avropa İttifaqının dəstəyi ilə həyata keçirilir. Layihə 1993-cü ilin may ayında Brüsseldə keçirilən konfransda 8 ölkənin (Azərbaycan, Gürcüstan, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan) iştirakı ilə hazırlanmış və nəticədə Brüssel Bəyannaməsi qəbul edilmişdir [3]. Bu layihə:

- Avropada, Qara dəniz regionunda, Qafqazda, Xəzər hövzəsi və Mərkəzi Asiya ölkələrində iqtisadi, ticarət və nəqliyyat əlaqələrinin inkişaf etdirilməsinə;
- avtomobil, dəmiryol və dəniz nəqliyyatı sahələrinin dünya bazarına çıxışının təmin edilməsinə,
- dəhliz boyu yollarda nəqliyyat vasitələrinin hərəkətinin və yüklərin saxlanması təhlükəsizliyinin təmin edilməsinə, ətraf mühitin mühafizəsinə;
- üzv dövlətlərin nəqliyyat siyasətlərinin və bu sahədə normativ-hüquqi bazanın uyğunlaşdırılmasına;
- nəqliyyat sahəsində fəaliyyət göstərən subyektlərə bərabər rəqabət mühitinin yaradılmasına xidmət edir.

Avropa-Qafqaz-Asiya "TRASEKA" beynəlxalq nəqliyyat dəhlizi Şərqlə Qərb arasında digər iki marşruta, Transokean daşımaları və Transsibir magistralına alternativ olan bir layihədir. "TRASEKA" dəhlizi vasitəsilə yalnız Mərkəzi Asiyadan deyil, Çindən də yüklərin daşınacağını, sonradan buraya Cənub-Şərqi Asiyanın digər ölkələrinin də (xüsusilə konteynerlərin) qoşulacağı gözlənilir. Bu dəhlizin strateji bəndi olan Transxəzər beynəlxalq nəqliyyat marşrutu ildə 15 milyon tondan artıq yük daşımaları potensialına malikdir. O, Çin, Qazaxıstan, Türkmənistan, İran, Fars körfəzi ölkələri, Cənubi Qafqaz, Türkiyə və Avropa ölkələrinin yük göndərənləri ilə qəbul edənlərini əlaqələndirmək iqtidarındadır. Dəhlizin digər alternativ dəhlizlərə nisbətən cəlbediciliyinin artırılmasında, Azərbaycan respublikası, Gürcüstan və Türkiyə respublikalarının birgə layihəsi olan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin istifadəyə verilməsi də mühüm rol oynayır. Mərkəzi Asiya ölkələrinin də bu marşruta marağı böyükdür. Belə ki, Bakı-Tbilisi-Qars dəmir yolu və 2013-cü ildə istifadəyə verilmiş Bosfor boğazının altından keçən "Marmaray" sürətli dəmir yolu tuneli vasitəsilə Avroya birbaşa çıxış imkanı yaradır. Bu da Mərkəzi Asiya ölkələrinin məhsullarının Avropaya və əks istiqamətdə böyük həcmdə sənaye məhsullarının, istehlak mallarının daşınması baxımından son dərəcə cəlbedici olacaqdır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin Azərbaycan və Gürcüstandan keçən hissəsi artıq istismara hazırdır. Azərbaycanın müəllifi olduğu daha bir layihə başa çatıb. Bir çox ekspertlərin qənaətincə, Bakı-Tbilisi-Qars dəmir yolu strateji əhəmiyyət kəsb edir. Bu, nəinki üç ölkə arasında iqtisadi əlaqələri möhkəmləndirir, həmçinin onları Asiya ilə Avropa arasında körpüyə çevirir. Bu layihə ilə Londondan Pekinə 12 gün ərzində yüklərin və sərnişinlərin fasiləsiz daşınmasını təmin etmək mümkün olacaq. Cənub nəqliyyat dəhlizinin bir qolu olan bu xəttin yükburaxma qabilliyyəti pik həddə - il ərzində 17 mln. ton nəzərdə tutulub[3] .

Qeyd etmək gərəkdir ki, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti layihəsinin reallaşmasına Azərbaycan böyük önəm verib. Ölkəmizdəki yerli ekspertlər Rusiya nəşrlərinə bildiriblər ki, BTQ dəmir yolu xətti bu gün özündə bütöv bir brendi formalaşdırır. Məsələn, dəmir yolu xətti ilə yüklərin daşınması üçün Bakı ətrafında, daha dəqiq desək, Ələt qəsəbəsi yaxınlığında yeni beynəlxalq yük limanı inşa edilir. Bu liman il ərzində 11,6 mln. yükün daşınmasını həyata keçirməyə imkan verəcək. BTQ Azərbaycan neftini dünya bazarına daşıyan Bakı-Tbilisi-Ceyhan kəmərindən sonra regionun ən böyük layihəsidir və Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan önəmlidir. Bu xəttin işə düşməsi ilə dəmiryolu vasitəsi ilə Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş əldə etmiş oldu. 838 km-lik tarixi İpək yolunu canlandıran BTQ-nin 503 km-i Azərbaycan, 259 km-i

Gürcüstan, 76 km-i isə Türkiyə ərazisindən keçir [1].

”Kəmər və Yol” təşəbbüsü Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın məqsədi “Trans-Xəzər Tranzit Dəhlizi”ni “Kəmər və Yol” layihəsinə inteqrasiya etdirmək və bu layihədən ölkəmiz üçün böyük səmərə əldə etməkdir. “Trans-Xəzər Tranzit Dəhlizi”nin başlıca üstünlüyü siyasi-iqtisadi sabitlik və təhlükəsizlik, coğrafi-iqtisadi, məsafə və vaxt baxımından əlverişlilik, layihənin regional əməkdaşlıqda önəmi, dəhliz boyunca infrastrukturun mövcudluğu, tranzit potensialının reallaşdırılması məqsədilə institusional islahatların aparılması və s.-dən ibarətdir. Azərbaycan İpək Yolunun ölkəmizə aid olan hissəsinin yenidən qurulmasında həmişə fəallıq göstərmiş, Şərq-Qərb istiqamətində reallaşdırdığı Bakı-Tbilisi-Ceyhan və Bakı-Supsa neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Cənub Qaz Dəhlizi layihəsi çərçivəsində TANAP və TAP qaz kəmərləri vasitəsilə bu dəhlizin enerji komponentini təmin edib. Azərbaycanda 6 beynəlxalq hava limanı və 11 min km avtomobil yolları tikilib. 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmiryolu istismara verilib. Azərbaycanın böyük yük təyyarəsi parkı və Xəzər dənizində ən iri dəniz donanması var. Nəqliyyat infrastrukturunun önəmli hissəsi Xəzər dənizində ən böyük liman olan Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanıdır. Gələcəkdə liman 15 milyon ton yük buraxılış qabiliyyətinə malik olacaqdır. Növbəti illərdə limanın imkanları 25 milyon ton yükə və 500 min konteynerə çatdırılacaq, daha sonra isə onun gücü 1 milyon konteynerədək artacaq.Yaradılmış bu infrastruktur regiona və xüsusilə Ələtdə yaradılacaq Xüsusi İqtisadi Zonaya böyük iqtisadi səmərə verəcək. Bu ölkəmizin dünya təsərrüfatına səmərəli inteqrasiyasını təmin edəcək [1].

Eyni zamanda, mövcud Şərq-Qərb marşrutlarına alternativ yeni bir xətt formalaşacaq. Maraqlısı odur ki, bu layihəyə Mərkəzi Asiya və Uzaq Şərq ölkələri də maraq göstərməyə başlayıblar: Türkmənistan, Qazaxıstan, Özbəkistan, Əfqanıstan və Tacikistan. Ən son məlumatlara görə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə ABŞ-nin hərbi xarakterli yükləri də daşına bilər. Bu barədə Rusiya qaynaqları məlumat yayıb. Həmin qaynaqlar hesab edir ki, amerikalı hərbçilər tərəfindən öz hərbi əmlaklarını (döyüş texnikası, silahlar, ləvazimat və təchizat vasitələri) Əfqanıstandan çıxarmaq üçün hazırladıqları "Qafqaz dəhlizi" buna yardımçı olur. Yüklər üçün "Qafqaz dəhlizi" Əfqanıstanın Herat məntəqəsindən başlayır, Kuşka və Marıdan (Türkmənistan) keçir, dəmiryolu ilə Türkmənbaşına çatır, Xəzərdən bərə vasitəsilə Bakıya, daha sonra da dəmiryolu ilə Batumiyə və ya Türkiyəyə çatır. Eyni zamanda göstərmək lazımdır ki, 2005-ci ildə Azərbaycan “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Saziş”ə qoşulub. “Şimal-Cənub” beynəlxalq nəqliyyat dəhlizi Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının Fars körfəzi və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradacaq. Şimal-Cənub dəhlizi vasitəsilə Cənubi-Şərqi Asiyadan Avropaya yüklərin daşınması 10-15 faiz ucuz başa gələcək. Yüklərin Süveyş kanalı vasitəsilə daşınmasından 800 km daha az məsafə qət ediləcək. Eyni zamanda daşıma müddəti 20 gün azalacaq və yüklər daha etibarlı yolla mənzilbaşına çatdırılacaqdır. Təkcə İran və Rusiya arasındakı ticarət dövriyyəsinə baxsaq (1.7 mlrd dollar) Şimal-Cənub dəhlizinin istifadəyə verilməsi 2 ölkə arasındakı yük mübadiləsinin mövcud marşrutunu 1000 km-ə qədər qısa, 50%-ə qədər isə ucuz edir. "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi həm də çox mühüm geosiyasi layihədir və Cənubi Qafqaz regionunda, Xəzər bölgəsində Azərbaycanın mövqelərinin möhkəmləndirilməsi üçün yeni imkanlar açır, Ermənistanın beynəlxalq nəqliyyat dəhlizləri ilə bağlı planlarının üzərindən xətt çəkir [1].

Azərbaycan Rusiyanın Cənuba, İranın isə Şimala önünü açmaqla region üçün geosiyasi sabitliyin təmin edilməsi və risklərin önlənməsində mühüm rola malik olur. “Qitələrarası körpü” statusu Azərbaycanın perspektivi və qlobal müstəvidə mövqeyi baxımından çox vacibdir. Geosiyasi risklərin getdikcə artdığı və qlobal miqyasda rəqabət və qarşıdurma meyillərinin güclənməsi fonunda Azərbaycanın bu rolu ölkənin sabit məcrada inkişafına yeni təminatlar yarada biləcək potensiala malikdir. İqtisadi fayda ilə yanaşı, bu məqamların da xüsusi olaraq diqqətə alınması və düzgün qiymətləndirilməsi orta və uzaq perspektivdəki planlamalarda mütləq nəzərə alınmalıdır. Beynəlxalq nəqliyyat dəhlizləri, xüsusən “Şimal-Cənub” nəqliyyat dəhlizi layihəsinin gerçəkləşməsinin çox mürəkkəb geosiyasi məkanda yer alan Azərbaycanı dünya güclərinin getdikcə kəskinləşən qlobal rəqabətindən qorumağa, yaxud bu proseslərin neqativ təsirini azaltmağa zəminlər yaratdığı da hesaba alınmalıdır. Bu baxımdan əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan ölkə ərazisindən keçən nəq-

liyyat dəhlizlərinin işə salınmasını strateji hədəflər kimi nəzərdən keçirməli və mühüm rolunun gündəlikdə qalması üçün maksimum səylər göstərməlidir. Bəs Azərbaycanın qazancı....? İlkin hesablamalara görə, bu dəhliz vasitəsilə yalnız Rusiya və İran arasında yüklərin daşınması Azərbaycan büdcəsinə 60 milyon dollara qədər vəsait cəlb edə, yeni iş yerlərinin açılmasını təmin edərək, dolayı yolla Azərbaycan iqtisadiyyatına yeni stimul verə bilər. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizləri nəqliyyat sisteminin inkişafının əsas prioritetlərindən olmaqla yanaşı, ölkənin iqtisadi qüdrətinin artırılmasına yönəldilmiş müstəqil sahəyə çevrilməlidir [6].

Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin formalaşmasında və inkişafında əsas vəzifələr aşağıdakılardan ibarətdir:

- yüklərin və sərnişinlərin ölkə ərazisində maneəsiz hərəkətinin təmin edilməsi üçün Avropa-Asiya nəqliyyat sistemlərinin inteqrasiyası məqsədilə nəqliyyat infrastrukturunun razılaşdırılmış şəkildə inkişaf etdirilməsi;
- nəqliyyat proseslərinin optimallaşdırılması;
- daxili daşımalarda milli nəqliyyat şəbəkəsinin yüklənmə dərəcəsinin artırılması və mövcud ehtiyatlardan daha səmərəli istifadə edilməsi hesabına yük və sərnişin daşımaları tariflərinin aşağı salınması üçün şəraitin yaradılması;
- intermodal nəqliyyat xəttində ayrı-ayrı nəqliyyat növləri arasında qarşılıqlı əlaqənin səmərələşdirilməsi;
- beynəlxalq nəqliyyat dəhlizləri üzrə investisiya layihələrinə investorların cəlb edilməsi üçün münbit şəraitin yaradılması;
- beynəlxalq turizmin inkişafına yardım edilməsi;
- ölkə üçün strateji əhəmiyyət daşıyan nəqliyyat dəhlizləri infrastrukturunun inkişafı layihələrinə tətbiq edilən vergi yükünün azaldılması;
- azad iqtisadi zonaların yaradılması və inkişafı;
- nəqliyyat-logistik idarəetmə mərkəzinin yaradılması;
- tranzit daşımaları sahəsində, ərazisində nəqliyyat dəhlizləri yerləşən ölkələrlə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi;
- respublikanın ərazisindən keçən nəqliyyat dəhlizlərinə birləşən yerli əhəmiyyətli yolların və yol infrastrukturlarının yenidənqurulması və inkişaf etdirilməsi [4].

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Azərbaycan Respublikasının nəqliyyat sektorunun inkişafı-CARES www.carecprogram.org.*

*2. Azərbaycan Respublikasında kiçik və orta müəssisələr üzrə araşdırma. Bakı, 2009.*

*3. ”Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.*

*4. “Azərbaycan- 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012.*

*5. ”İdxal olunmuş malların kabotaj daşınması Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı, 2012-ci il 6 dekabr.*

*6. Milli informasiya portalı. https://www.milli.az/.*

## XÜLASƏ

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan - 2020: gələcəyə baxış“ İnkişaf Konsepsiyasında Azərbaycan Respublikasının nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi məsələsinə də baxılmışdır. Konsepsiyanın işlənib-hazırlanmasında əsas məqsəd Azərbaycan Respublikasını regionun ticarət mərkəzinə çevirməkdir. Bunun üçün ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə etmək, tranzit və nəqliyyat xidmətlərinin inkişafı, bölgələrdə logistika mərkəzlərinin yaradılması nəzərdə tutulur. Nəticədə isə, ölkənin istehsal və investisiya mərkəzi kimi cəlbediciliyi artacaq, yeni biznes və məşğulluq imkanlarının yaranmasına yol açılacaqdır. Yerli və beynəlxalq daşımaların idarə olunması mexanizmi təkmilləşdiriləcək, ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyası genişləndiriləcəkdir.

**Açar sözlər:** *tranzit, loqistika, nəqliyyat-ekspedisiya xidmətləri, Şərq-Qərb nəqliyyat dəhlizi, Şimal-Cənub nəqliyyat dəhlizi, beynəlxalq yük daşımaları, intermodal daşımalar, TRASEKA.*

## РЕЗЮМЕ

**Исмаилова Г.К.**

**Развитие международных транспортных коридоров, проходящих по территории Азербайджанской Республики**

В концепции развития «Азербайджан - 2020, взгляд в будущее», утвержденной Указом Прези-

дента Азербайджанской Республики от 29 декабря 2012 года, рассматривается вопрос улучшения транспортной, транзитной и логистической инфраструктуры Азербайджанской Республики. Основной целью разработки концепции является превращение Азербайджанской Республики в торговый центр региона, предусматривающее эффективное использование стратегического географического положения страны, развитие транзитных и транспортных услуг, создание логистических центров в регионах. В результате страна станет более привлекательной как производственный и инвестиционный центр и появятся новые возможности для бизнеса и занятости. Будет усовершенствован механизм управления внутренними и международными перевозками, а интеграция транспортной системы страны в международную транспортную систему будет расширена.

**Ключевые слова:** *транзит, логистика, транспортно-экспедиторские услуги, транспортный коридор Восток-Запад, транспортный коридор Север-Юг, международные грузоперевозки, интермодальные перевозки, ТРАСЕКА.*

## SUMMARY

**Ismayilova G.K.**
**Development of International Transport Corridors Passing Through the Territory of the Republic of Azerbaijan**

The concept of development of "Azerbaijan 2020, vision of the future", approved by the Decree of the President of the Republic of Azerbaijan dated December 29, 2012, also considers the issue of improving the transport, transit and logistics infrastructure of the Republic of Azerbaijan.

The main purpose of the development concept is the transformation of the Republic of Azerbaijan into a shopping center of the region, providing effective use of the strategic geographical position of the country, the development of transit and transportation facilities. As a result, the country will become more attractive as a production and investment center, and new opportunities for business and employment will appear. There will be an improved management mechanism for internal and international transportation, and the integration of the transport system of the country into the international transport system will be expanded.

**Key words:** *transit, logistics, transport and forwarding services, East-West transport corridor, North-South transport corridor, international cargo transportation, intermodal transportation, TRACECA.*

UOT 338:61
DOI:10.30546/3006-0346.2024.2.80.19087

# THE EFFECT OF PROCESSED PRODUCTS ON HEALTH

**NIGAR MAMMADOVA**
*Phd student, UNEC*
*E-mail: n.mammadova.2110@gmail.com*

## 1. Introduction

Human capital is defined as "individuals who make up the labour force". Labor force's health has a positive effect on productivity. Population's productive work is the basis of the overall development of the country. So that, human health is the basis for the development of a productive society. In order to use human capital more efficiently, it is necessary for them to be physically healthy. If we look at the economic indicators of countries, we will see that people live longer in economically developed countries (WHO). The life expectancy of the population can be taken as a sign of ecological, social and economic development. In terms of productivity, health is considered important as much as education. Therefore, in order to measure the human capital stock, education and health must be combined. According to the human capital theory, the productivity of the person who develops his/her knowledge and skills increasing. However, a person needs to be educated in order to increase his knowledge and skills. No doubt, raising the level of health and education is indispensable. In the studies of researchers, it can be shown that the productivity of the workforce who is healthy and at the same time educated and trained is higher.

In order to ensure healthy living of people, the causes of diseases should be investigated first and these causes should be eliminated. It is clear that diseases have different causes. We can mention wrong nutrition as one of the most important of them. Malnutrition begins mainly with the consumption of processed products. Processed products constitute almost the basis of people's daily diet nowadays. Many people either don't know or care whether the food they eat is processed. But a large number of processed foods have been linked to health problems such as heart disease, diabetes and certain forms of cancer.

According to Michael Garcia, MD, a nutrition specialist at UCLA Health, if people understand what processed foods are, they can make better decisions for their health.

"The broadest definition of processed food is that any raw commodity that is altered from its natural state," according to Dr. Garcia. "The important thing to remember is there is quite a spectrum of processed foods, ranging from low to high. It could be anything from packaged spinach in a bag or a container all the way to a pastry or frozen pizza." The concept of "Genetically Modified Organisms (GMO)" has emerged to meet the growing need for food in the world and to find a solution to the problem of hunger. Healthy individuals also indirectly impact economic growth by having a healthy family which may subsequently create healthier future generations. Human health is an essential part of any society and economic activity. It also assumes a prominent position on the Maslow hierarchical ladder of human needs. As we can see in the current pandemic, the COVID-19 disease has disrupted many economic activities around the world because of its infectious nature, while its contagious effect has harmed global health.without good health conditions, an economy loses its ability to develop competitive productivity, which might subsequently hinder economic growth.

It can be concluded that in order to develop the economy, it is necessary to pay attention to the health of the members of the society. For this, first of all, it is necessary to investigate what affects health the most. According to research, processed foods are one of the aspects that have a negative impact on health. This article examines how several processed foods affect health. Based on real data, the econometric model has been established and the results have been analyzed.

## 2. LITERATURE REVIEW

The first things that come to mind when talking about processed food: they are packaged foodstuffs made up of many ingredients, containing artificial colors, flavors, and even various chemical additives. Processed foods, usually pre-prepared, called "ready-to-eat foods". It is claimed that it causes an epidemic of obesity and chronic diseases such as heart disease and diabetes, which are increasingly common. Nearly all food sold in supermarkets will be classified as "processed" to some degree, according to research. As soon as food is harvested, they

begin to deteriorate and lose their nutritional value; even apples in the fruit aisle go through four or more processing stages before being sold to the consumer. It is speculated that these foods are specifically designed to increase appetite so that people overeat and buy more. Some, but not all, of these foods are poor in fiber and nutrients. For example; sugary drinks, cookies, some crackers, chips and breakfast cereals, some frozen lunches and dinners, and meats. A study using data from the US National Health and Nutrition Examination Survey found that ultra-processed foods make up about 60% of the total calories in the US diet [4]. It has also been suggested that there is a relationship between increased sales of ultra-processed foods and an increase in obesity[3]. Additives commonly used in the production of highly/ultra-processed foods such as saturated fats, added sugar and sodium; Due to its effects on heart disease, obesity and high blood pressure, it has become a determinant of poor nutrition.[6],[7]. Ultra-processed foods are estimated to contribute about 90% of total calories from added sugars [4].

In 2015, the World Health Organization classified processed meats as cancer-causing nutrients in humans. The organization defined "processed meat" as being processed using salting, curing, fermentation, smoking, or other methods to enhance flavor or improve storage conditions. The statement was made after 22 scientists from the International Agency for Research on Cancer Working Group evaluated more than 800 studies on the subject. Considering the evidence about the harms of processed meats; colon cancer was first, followed by stomach cancer [8].

An analysis of the Nurses' Health Study and the Health Professionals Follow-up Study found that high consumption of highly processed foods such as processed meat and potato chips was associated with weight gain over 4 years[9]. Other research shows that the more highly processed foods are eaten, the higher the risk of a diet lacking in important nutrients. An evaluation of the diets of 9,317 US participants in an NHANES study (National Health and Nutrition Examination Survey) revealed that a high intake of ultra-processed foods was associated with a greater consumption of refined carbohydrates, added sugars, and saturated fats. At the same time, intake of fiber, zinc, potassium, phosphorus, magnesium, calcium and vitamins A, C, D and E decreased.Other research studies in France (NutriNet Santé) and the USA (NHANES) have also found that consumption of highly processed foods is directly associated with higher all-cause mortality.

**3. Data collection**

Food processing ranges from basic technologies such as freezing or grinding to the inclusion of additives that increase shelf life or palatability. As a general rule, in daily nutrition; it is optimal to consume unprocessed or minimally processed foods. However, the use of processed foods is the choice of the consumer, and there are pros and cons that come with every choice. The food label and ingredient list showing the nutritional values can be instrumental in deciding when to include processed foods or not. There is evidence to suggest an association between certain types of food processing and adverse health outcomes (especially highly or overly processed foods). This relationship also applies mainly to highly processed foods that contain added sugars, excess sodium and unhealthy fats. In order to investigate the effects of processed foods on health, first of all, 3 types of processed foods and also the statistics of people who are sick were selected: fruit vegetable reserves, sweetened mineral and carbonated water, Margarine. The following table shows the data taken from the website of the The State Statistical Committee of the Republic of Azerbaijan.

**TABLE 1**

**CONSUMPTION OF PROCESSED PRODUCTS IN AZERBAIJAN IN 2007-2021 AND THE NUMBER OF ALL PATIENTS**

| years | Consumption of Margarine | Consumption of fruit vegetable preserves | Consumption of sweetened mineral and carbonated water | The number of all patients |
|---|---|---|---|---|
| 2007 | 16649 | 10584.6 | 21248 | 1557804 |
| 2008 | 15310 | 111486 | 21479 | 1596789 |
| 2009 | 15522 | 109208 | 18269 | 1620986 |
| 2010 | 18763 | 120503 | 21375 | 1604610 |
| 2011 | 20774 | 121902 | 23368 | 1618072 |
| 2012 | 22729 | 132337 | 27432 | 1686887 |
| 2013 | 24119 | 130913 | 28884 | 1739584 |
| 2014 | 28432 | 148153 | 31302 | 1852918 |
| 2015 | 13018 | 150709 | 29020 | 1824086 |
| 2016 | 27720 | 131918 | 22149 | 1867071 |
| 2017 | 30125 | 156678 | 23622 | 1875652 |
| 2018 | 32322 | 168235 | 30310 | 1895897 |
| 2019 | 36040 | 168546 | 29780 | 1936715 |
| 2020 | 42184 | 170508 | 28961 | 1800853 |
| 2021 | 41087 | 179981 | 41453 | |

***The following econometric model was created based on the given data.***

## 4. FORMULAS FOR NUMERICAL SOLUTION TO THE PROBLEM

The specification of the regression equation of the dependence number of all patients in the Republic of Azerbaijan on processed product is considered as follows:

LOG(BXS) = C(1) + C(2)*LOG(MRGRN(-5)) + C(3)*LOG(SVMAC (-8)) + C(4)*LOG(FVP(-8)) (1)

Here, MRGRN shows the weight of margarine used during the years 2007-2021, SVMAC shows the weight of

Sweetened mineral and carbonated water used during the years 2007-2021,FVP shows the weight of fruit vegetable preserves during the years 2007-2021,BXS shows number of all patients during the years 2007-2021 .

The econometric evaluation of the regression equation in EViews Application Package (1) leads to the following conclusion:

LOG(BXS) = 13.995 + 0.101*LOG(MRGRN(-5)) + 0.037*LOG(SVMAC(-8)) + 0.006*LOG(FVP(-8)) (2)

**TABLE 2.**
**BASIC STATISTICAL CHARACTERISTICS OF THE MODEL (2)**

| | | | | |
|---|---|---|---|---|
| Dependent Variable: LOG(BXS) | | | | |
| Method: Least Squares | | | | |
| Date: 05/30/23 Time: 09:00 | | | | |
| Sample (adjusted): 2015 2020 | | | | |
| Included observations: 6 after adjustments | | | | |
| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
| C | 13.99 | 0.02 | 752.18 | 0.0000 |
| LOG(MAGARINE (-5)) | 0.10 | 0.002 | 44.09 | 0.0005 |
| LOG(SWEETENED_MINERAL_AND_CARBONATED_WATER(-8)) | 0.04 | 0.005 | 7.923 | 0.0155 |
| LOG(FRUIT_VEGETABLE_PRESERVES (-8)) | 0.01 | 0.001 | 11.02 | 0.0081 |
| R-squared | 0.999 | Mean dependent var | | 14.49 |
| Adjusted R-squared | 0.998 | S.D. dependent var | | 0.03 |
| S.E. of regression | 0.001 | Akaike info criterion | | -10.61 |
| Sum squared resid | 2.28 | Schwarz criterion | | -10.75 |
| Log likelihood | 35.84 | Hannan-Quinn criter. | | -11.17 |
| F-statistic | 1007.2 | Durbin-Watson stat | | 3.302 |
| Prob(F-statistic) | 0.001 | | | |

**The statistical characteristics of model (2) show that the model is adequately derived [1].**




**Fig. 1. Actual numbers of all patients according to model (2), fitted value found in the model and dynamics of residual difference between them**

## 5. CONCLUSION

In the article, the impact of processed food consumption on disease cases was econometrically estimated. Results indicated that, all considered processed food have negative impact on human health, however the degree of this effect varies for different kind of food. Constructed econometric models showed that 1% increase in margarine consumption increases the all number of patients after 5 years by 0.1% , likewise, 1% increase in the use of sweetened mineral and carbonated water increases the number of all patients after 8 years by 0.04% and 1% increase in the use of fruit vegetable preserves increases the number of all patients by 0.006% after 8 years. The parameters and statistical characteristics of the regression equations of the above models were found in the Eviews10 (Econometric Views) Application Software Package using the Minimum Squares Method based on the relevant data in the tables and the adequacy of the model was checked. The main statistical characteristics of the model are given in the tables accordingly..

## REFERENCES

[1]. Həsənli. Y.H. Ekonometrikaya giriş (e-publishing). Bakı. (2008). Retrieved, 5, 2019

[2]. World Health Organization: https://www.who.int/ news-room/fact-sheets/detail/cholera

[3]. Steele E. M. Ultra-Processed Foods And Added Sugars In The Us Diet: Evidence From A Nationally Representative Cross-Sectional Study 2016

[4] U.S. Food and Drug Administration. Food La-

beling Guide: Guidance For Industry. (1 Ocak 2013). Alındığı Tarih: 3 Aralık 2021. Alındığı Yer: U.S. Food and Drug Administration

[5] L. C. Tapsell, et al. (2016). Foods, Nutrients, And Dietary Patterns: Interconnections And Implications For Dietary Guidelines. Advances in Nutrition, sf: 445-454. doi: 10.3945/an.115.011718.

[6] J. M. Poti, et al. (2017). Ultra-Processed Food Intake And Obesity: What Really Matters For Health—Processing Or Nutrient Content?. Current Obesity Reports, sf: 420-431. doi: 10.1007/s13679-017-0285-4.

[7] V. Bouvard, et al. (2015). Carcinogenicity Of Consumption Of Red And Processed Meat. The Lancet Oncology, sf: 1599-1600. doi: 10.1016/S1470-2045(15)00444-1.

[8] D. Mozaffarian, et al. (2011). Changes In Diet And Lifestyle And Long-Term Weight Gain In Women And Men. Massachusetts Medical Society, sf: 2392-2404. doi: 10.1056/NEJMoa1014296. |

[9] E. M. Steele, et al. (2017). The Share Of Ultra-Processed Foods And The Overall Nutritional Quality Of Diets In The Us: Evidence From A Nationally Representative Cross-Sectional Study. Population Health Metrics, sf: 1-11. doi:

## XÜLASƏ

Məqalədə qeyri-sağlam qidaların insan həyatına təsiri araşdırılır. Sağlam olmayan qida deyildikdə ilk ağla işlənmiş məhsullar gəlir. Bu məqalədə Azərbaycanda istehlak edilən emal olunmuş qidanın miqdarı ilə bütün xəstələrin sayı arasında asılılıq təhlil edilmişdir. Azərbaycan Respublikasının Statistika Komitəsindən verilən məlumata görə, 2007-2021-ci illərdə emal olunmuş məhsulların istehlakına və bütün xəstələrin sayına görə ekonometrik model müəyyən edilib. Alınan nəticələrə əsasən müxtəlif emal olunmuş məhsulların xəstəliklərə təsiri ayrıca göstərilmişdir.

**Açar sözlər:** *emal olunmuş məhsul, ekonometrik model, sağlamlıq.*

## ВЛИЯНИЕ ПЕРЕРАБОТАННЫХ ПРОДУКТОВ НА ЗДОРОВЬЕ

**Мамедова Нигяр Байрам**
***докторант, UNEC***
***n.mammadova.2110@gmail.com***

## РЕЗЮМЕ

В статье рассматривается влияние нездорового питания на жизнь человека. Когда говорят о нездоровой пище, первое, что приходит на ум, — это обработанные продукты. В данной статье была проанализирована зависимость между количеством потребляемой в Азербайджане обработанной пищи и количеством всех больных. На основе информации, предоставленной Статистическим комитетом Азербайджанской Республики, создана эконометрическая модель потребления продуктов переработки в 2007-2021 годах и количества всех больных. По полученным результатам отдельно показано влияние различных продуктов переработки на заболевания.

**Ключевые слова:** *обработанные пищевые продукты, эконометрическая модель, здоровье.*

## THE EFFECT OF PROCESSED PRODUCTS ON HEALTH

**Mammadova Nigar Bayram**
***Phd student, UNEC***
***n.mammadova.2110@gmail.com***

## SUMMARY

The article examines the impact of unhealthy food on human life. When unhealthy food is said, the first thing that comes to mind is processed products. In this article, the dependence between the amount of processed food consumed in Azerbaijan and the number of all patients were analyzed. On the basis of the information given by The Statistical Committee of the Republic of Azerbaijan, an econometric model has been established according to the consumption of the processed products in 2007-2021 and the number of all patients. According to the obtained results, the effect of different processed products on diseases was shown separately.

**Keywords:** *processed foods, econometric model, health.*

UOT: 339.74
DOI:10.30546/3006-0346.2024.2.80.17765

# AZƏRBAYCANDA GÖMRÜK REJİMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**NURAY ORUCOVA**
*Bakı Dövlət Universiteti, magistr*
*E-mail: nurayorujova691@gmail.com*

## Giriş

Azərbaycan Respublikasının xarici ticarət əlaqələrində gömrük rejimlərinin təkmilləşdirilməsi üçün dünyanın qabaqcıl ölkələrinin gömrük təşkilatları ilə təcrübə mübadiləsinin aparılması, ikitərəfli əlaqələrin qurulması, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində işləmək nəzərdə tutulub. Gömrük rejimi dövlətin xarici iqtisadi və ticarət əlaqələrinin inkişafında dövlət təsirinin reallaşdırıldığı gömrük tənzimlənməsi vasitələrinə istənilən formada yardım edən spesifik tədbirlər sistemi və üsullarının məcmusudur. Belə demək olar ki, gömrük rejimi gömrük fəaliyyətinin məqsədlərinə görə gömrük sərhədindən keçirilən məhsul və nəqliyyat vasitələrinin statusunu müəyyən edən qaydalar toplusudur. Bütün növ əmtəələr və avtonəqliyyat vasitələrinin Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilməsi prosesi bəyan edilən gömrük rejiminin tələblərinə uyğun formada həyata keçirilməlidir.

Azərbaycan Respublikasının mövcud qanunvericiliyi qanunla müəyyən edilmiş bütün şəxslərə Azərbaycan Respublikasının ərazisinə eyni əsaslarla gətirmək və buradan müvafiq qaydada aparmaq hüququnu təqdim edir. Azərbaycan Respublikasının dövlət təhlükəsizliyinin, milli mənəvi dəyərlərin, vətəndaşların tibbi baxımdan sağlamlığının və həyat keyfiyyətinin qorunmasının, ictimai asayiş qaydalarına riayət edilməsinin, flora və faunanın, o cümlədən ətraf mühitin mühafizəsi baxımından müəyyən qabaqlayıcı tədbirlər görülə bilər. Qadağanedici tədbirlərə eləcə də Azərbaycan xalqının tarixi abidə və bədii sənət sərvətlərinin, vətəndaşların mülkiyyətlə və intellektual əməklə bağlı hüquqlarının, yerli istehlakçıların maraqlarının müdafiəsi ilə əlaqədar milli və beynəlxalq qanunvericiliyin müəyyən etdiyi çərçivə əsasında müxtəlif əmtəələrin və nəqliyyat vasitələrinin Azərbaycan Respublikasına daxil edilməsinə məhdudiyyətlər tətbiq edilə bilər. Gömrük orqanlarının fəaliyyəti ölkə iqtisadiyyatının ümumi iqtisadi artımına birbaşa təsir edən amillərdəndir. Bu baxımdan, gömrük orqanları tərəfindən həyata keçirilən əməliyyatların aparılması qaydalarına qanunvericilik çərçivəsində ciddi şəkildə əməl edilməlidir. Gömrük rejimlərinin təkmilləşdirilməsi iqtisadi münasibətlərin tənzimlənməsi və ticarət – iqtisadi əməliyyatların səmərəli təşkili baxımından çox vacibdir. Gömrük rejimləri Azərbaycanda mövcud olan gömrük qanunvericiliyinin əsas kateqoriyalarından biri kimi qəbul edilir.

## Əsas hissə

Azərbaycanda gömrük xidmətinin və gömrük rüsumlarının təkmilləşməsi, yenilənməsi prosesi uzun tarixi bir prosesdən keçmişdir. Siyasi vəziyyətin dəyişməsi birbaşa olaraq gömrük sahəsində də öz əksini tapmışdır. Gömrük sferası ölkənin malik olduğu iqtisadi və digər sahələrdəki siyasətin təzahürüdür. Gömrük siyasətinin əhəmiyyətə malik tərkib hissələrindən ən vacibi isə gömrük rejimləridir. Gömrük orqanlarının vəzifə və funksiyalarının öyrənilməsi, həmçinin gömrük rejimlərinin təkmilləşdirilməsi aspektindən mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan gömrük sahəsində siyasəti həyata keçirən dövlət qurumunun spesifik xüsusiyyətlərinin öyrənilməsi zəruri əhəmiyyətə malikdir. Hazırkı mərhələdə Azərbaycan Respublikasının gömrük orqanları ölkə regionlarının xarici iqtisadi fəaliyyətinin intensivliyinin artırılması, sərnişinlərin və nəqliyyat vasitələrinin həcminin dəyişməsi fonunda həyata keçirilən aktiv institusional inkişaf mərhələsindədirlər. [3,s.11] Gömrük orqanları xarici ticarət fəaliyyətində yüksək səviyyəli peşəkarlıq göstərərək cinayətkarlığın qarşısının alınması ilə bağlı xarakterizə edilən çətin şəraitdə intensiv fəaliyyət həyata keçirirlər. Azərbaycan Respublikasında gömrük işinin təkmilləşdirilməsi ölkənin ümumi iqtisadi siyasətinə uyğun gəlməlidir. Hal – hazırda Azərbaycanda qeyri-neft iqtisadiyyatının davamlı və dayanıqlı, eləcə də rəqabətqabiliyyətli inkişaf etməsi dövlətin iqtisadi siyasətində prioritet istiqamətdir.

Azərbaycan Respublikasının gömrük sərhədindən mal və nəqliyyat vasitələri hərəkət etdikdə fiziki və hüquqi şəxslər haqqında qanunvericiliyin tətbiq edilməsi üsulları və qaydalarının, qanunvericiliyin tələblərinə uyğunluğunun və üsullarının birləşməsi olan gömrük fəaliyyətinin idarə edilməsi potensialında tam və effektiv istifadə edilmir. Lakin gömrük qanunvericiliyinə tamamilə riayət etmək və əlve-

rişli rəqabət mühiti yaratmaqla fəaliyyətin səmərəliliyini artırmaq mümkündür. [5,s.63] Bildiyimiz kimi, Azərbaycan Respublikasında gömrük sahəsi ilə bağlı bütün fəaliyyəti Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi həyata keçirir. Komitə gömrük prosedurlarına və gömrük rejimlərinin tələblərinə uyğun olaraq idxal – ixrac əməliyyatlarının həyata keçirilməsinə nəzarəti həyata keçirir. O, fəaliyyəti təşkil edərkən Azərbaycan Respublikasının Gömrük Məcəlləsini əsas tutur. Gömrük rejimləri, gömrük prosedurları, tariflər, rüsumlar və digər vəzifə və hüquqlar barədə hər şey öz əksini həmin məcəllədə tapmışdır. Azərbaycanda gömrük işinin səmərəliliyinin artırılması və effektivliyin yüksəldilməsi məqsədilə mütəmadi olaraq tədbirlər həyata keçirilir, islahatlar həm maddi, həm qanunvericilik, həm də kadrlarla bağlı olaraq daimi aparılır. İslahatlardan irəli gələn vəzifə və funksiyaları qeyd etdiyimiz kimi Dövlət Gömrük Komitəsi həyata keçirir [1,s.25]. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin qanunvericiliklə öz əksini tapan əsas, fundamental funksiyalar:

1. Azərbaycan Respublikasında gömrük işi ilə bağlı fəaliyyəti səmərəli təşkil etmək və onu mütəmadi olaraq təkmilləşdirmək, bununla bağlı müvafiq təkliflər vermək;

2. Azərbaycan Respublikasının müvafiq sahədə qanunvericiliyinə uyğun olaraq gömrük siyasətini həyata keçirmək;

3. Qanunvericiliklə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının iqtisadi mövqeyini, onun mənafeyini və təhlükəsizliyini müdafiə etmək;

4. Özünə məxsus səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının gömrük ərazisinin vahidliyini təmin etmək vəzifəsini yerinə yetirir;

5. Azərbaycan Respublikasında müasir, innovativ gömrük tənzimlənməsi vasitə və üsullarının tətbiqini təşkil etmək;

6. Ona tapşırılmış gömrük işinə dair və digər qanunvericiliyə əməl edilməsini təmin etmək.

Dövlət Gömrük Komitəsi tam və hərtərəfli yerinə yetirməklə iqtisadi fəaliyyəti stimullaşdırmaq funksiyasını da yerinə yetirmiş olur. Burada inzibati qurumların özəl biznesə münasibəti həlledici rol oynayır. Maliyyə siyasətinin tərkib hissəsi kimi gömrük siyasəti gömrük rejimlərindən istifadə edən iqtisadi subyektlərə əhəmiyyətli dərəcədə təsir edir [6,s.145]. Ümumiyyətlə, gömrük siyasətinin uğurlu reallaşdırılması Azərbaycan Respublikasının gömrük işinə dair qanunvericiliyin təkmilləşdirilməsindən, gömrük işi ilə əlaqədar beynəlxalq standartların mənimsənilməsindən və onların tətbiqi işinin davam etdirilməsindən, həmçinin "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Kioto Konvensiyasının müddəalarının milli gömrük qanunvericiliyində əks olunmasından asılıdır. Bu məqsədlə Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı vasitəsilə həyata keçirilən "Azərbaycan Respublikasının gömrük xidmətinin təkmilləşdirilməsi" layihəsi çərçivəsində fəaliyyət davam etdirilir. Fəaliyyətin effektivliyi gömrük prosedurlarının təkmilləşdirilməsində də özünü göstərir. Gömrük sahəsində beynəlxalq əməkdaşlığın, o cümlədən beynəlxalq təcrübənin öyrənilməsi yerli və xarici vətəndaşlara, hüquqi və fiziki şəxslərə daha mütərəqqi xidmətlər göstərilməsinə səbəb ola bilər [4,s.112].

İnformasiya texnologiyalarından istifadə müasir gömrük siyasətinin tənzimlənməsinin həyata keçirilməsinin tərkib hissəsidir. İnformasiya texnologiyaları sisteminin gömrük sistemində istifadəsinin məqsədi əsasən informasiyanın effektiv idarə edilməsi, gömrük əməliyyatlarının həyata keçirilməsinin səmərəliliyinin artırılması və xarici ticarət iştirakçıları üçün əlverişli şəraitin yaradılmasıdır. İnformasiya texnologiyaları müasir gömrük sisteminin çox lazımlı hissəsidir. Müasir dövrdə gömrük orqanlarının fəaliyyət istiqaməti biznes əməliyyatlarının effektivliyinin artırılmasına və yüksək təhlükəsizlik standartlarına uyğunlaşan gömrük prosedurlarına və vasitələrinə əsaslanır. İnformasiya texnologiyalarından hərtərəfli istifadə nəticəsində biznes subyektləri arasında rəqabətin artması, qaçaqmalçılığa qarşı mübarizənin səmərəliliyinin yüksəlməsi və beynəlxalq ticarətə dəstəyin effektiv nəticələr əldə etməsi halları daha intensiv xarakter alır. İnformasiya texnologiyalarının daha effektiv formada həyata keçirilən gömrük nəzarətində, gömrük əməliyyatlarının artan şəffaflığında və büdcənin gəlirlər hissəsinin təmin edilməsində faydası çoxdur. Ümumiyyətlə, gömrük rejimlərinin, yəni gömrük prosedurlarının effektivliyini artırmaq, gömrük qurumlarının fəaliyyətinin səmərəliliyini yüksəltmək məqsədilə bir sıra addımlar atıla bilər. Bu addımlar elmi əsaslandırılmalıdır [2,s.89].

## Nəticə

Son olaraq qeyd etmək lazımdır ki, son dövrlərdə gömrük işi sahəsində ölkədə həyata keçirilən islahatlar gələcək fəaliyyətin səmərəli təşkil ediləcəyinə dair ümidləri artırır. Aparılan kadr islahatları daha mütərəqqi qiymətləndirilə bilər. Belə ki, idxal və ixrac əməliyyatlarına birbaşa təsir etdiyindən gömrük rejimləri üzrə tələblərin tam olaraq qanunvericilik çərçivəsində olması ölkənin iqtisadi artımına öz əhəmiyyətli təsirini göstərə bilər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Gömrük Məcəlləsi Qanun Nəşriyyatı. Bakı 2023, 263 s.*

*2. Xanhüseyn Kazımlı, İbrahım Quliyev, İqtisadi risklərin qiymətləndirilməsi və idarə edilməsi, Dərs vəsaiti, Bakı – 2011, 187 s.*

*3. Gömrük Ərazisində malların emalı gömrük rejimi haqqında Əsasnamə, 2001*

*4. Əliyev A. Ə. Gömrük işi və dünya iqtisadiyyatının inkişafı. Bakı, Çaşıoglu, 2003, 238 s.*

*5. A.Ş. Şəkərəliyev Z.A.Şəkərəliyeva "Gömrük işinin təşkili və idarə edilməsi", dərs vəsaiti, Bakı – 2014, 160 s.*

*6. Алексей Мордашов призвал продолжить модернизацию таможенной системы Российской Федерации Москва 2016 489 с.*



**Нурай Нуру кызы Оруджева,**
***магистрант Бакинский Государственный Университет***


### Направления совершенствования таможенных режимов в Азербайджане

### РЕЗЮМЕ


В статье рассматриваются таможенные режимы как основной вопрос внешней торговли и направления совершенствования таможенных режимов. Оптимизация таможенных режимов, повышение прозрачности, развитие таможенной инфраструктуры, повышение качества оказания таможенных услуг юридическим и физическим лицам влияет на темпы экономического развития. В статье исследованы таможенные режимы, направления его регулирования, совершенствования, использование информационных технологий как оптимального метода.



**Ключевые слова:** *таможня, режим, информационные технологии, тарифное регулирование, законодательство.*



**Undergraduate Orujova Nuray Nuru qizi**
***Baku State University***


### Directions for improvement of customs regimes in Azerbaijan

### SUMMARY


The article examines the customs regimes as the main issue in foreign trade and the directions for improving customs regimes. Optimizing customs regimes, increasing transparency, developing customs infrastructure, improving the quality of providing customs services to legal and natural persons affects the growth rate of economic development. Customs regimes, directions for its regulation, improvement, use of information technologies as an optimal method are studied in the article.



**Key words:** *customs, regime, information technologies, tariff regulation, legislation.*


### XÜLASƏ


Məqalədə xarici ticarətdə əsas məsələ kimi gömrük rejimləri və gömrük rejimlərinin təkmilləşdirilməsi istiqamətləri araşdırılmışdır. Gömrük rejimlərinin optimallaşdırılması, şəffaflığın artırılması, gömrük infrastrukturunun inkişafı, hüquqi və fiziki şəxslərə gömrük xidmətlərinin göstərilməsinin keyfiyyətinin yaxşılaşdırılması iqtisadi inkişafın artım tempinə təsir göstərir. Məqalədə gömrük rejimləri, onun tənzimlənməsi, təkmilləşdirilməsi istiqamətləri, optimal üsul kimi informasiya texnologiyalarından istifadə araşdırılmışdır.



**Açar sözləri:** *gömrük, rejim, informasiya texnologiyaları, tarif tənzimlənməsi, qanunvericilik.*

UOT 33:007
DOI:10.30546/3006-0346.2024.2.80.17908

# İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ DATA ANALİTİKASININ ROLU

**VASİF QAFAROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*

*E-mail: vasif545@gmail.com*

## Giriş

"People analytics" və ya "işçi qüvvəsi analitika" kimi də adlandırılan İR analitika İR məlumatların toplanmasını, analizini və hesabatının aparılmasını nəzərdə tutur. Təşkilatın işçi heyətini daha yaxşı anlamasını, bir sıra İR metrikalarının ümumi iş performansına təsirini ölçməsini və verilənlər əsasında qərar qəbul etməyi təmin edir. Bir sözlə, İR analitika insan resurslarının idarə edilməsi üzrə məlumat yönümlü yanaşmadır.

"İR analitikası" termini geniş istifadə olunsa da, "xalq analitika"sına da istinad etmək tendensiyası artmaqdadır. İkisi bir-birini əvəz edə bilər, lakin texniki cəhətdən gizli fərq var. İR analitika insan resursları daxilində saxlanılan məlumatlardan əmələ gəlir və İR funksiyalarını optimallaşdırma məqsədi daşıyır. İnsanlar analitika İR-dan kənar genişlənir ki, biznes məsələlərinin daha geniş miqyas alınmaq üçün təşkilat daxilindəki digər mənbələrdən, məsələn, marketinq, maliyyə, müştəri statistikası kimi məlumatları daxil etsin.

Texnologiya vasitəsilə məqsədlərini reallaşdırmağa müvəffəq olan cəmiyyət ətrafı və insanı dəyişdirməyə imkan tapmışdır. Texnogen sivilizasiya şəraitində gerçəklik artıq "virtual gerçəkliklə" əvəz edilmişdir. Bu da rasional yaradıcılıq imkanlarını genişləndirmişdir. İnsanlar üçün yeni modernist dəyərlərdən biri artıq fərdlər üzərində deyil, texnologiya üzərində hakimlik etmək iddiasıdır. Bunun üçün isə cəmiyyətin iqtisadi gəlirləri və maddi bazası zəngin olmalıdır. Texnologiyaya sahib olmaq insan gəlirlərini artırmaqla yanaşı, texnoloji yenilikləri və məqsədlərə əlçatanlığı təmin edir. Bu cür sivilizasiya şəraitində insanlar üçün ünsiyyətin vacibliyi deyil, iqtisadi gəlirlərin vacibliyi ön plana çıxır. Qeyd etdiyimiz kimi, cəmiyyətdə "eyib" və "günah" anlayışlarının fayda mərkəzli anlayışlarla əvəz edilməsi texnogen inkişafla düz mütənasibdir. İnsan davranışlarının ənənəvi dəyərlər əvəzinə sekulyar-modernist dəyərlərlə qiymətləndirilməsi dinin də mahiyyətini dəyişmişdir. Belə olan təqdirdə ənənəvi və modern dəyərlərin ziddiyyətləri cəmiyyət tərəfindən daha çox hiss edilir. Çünki din də özündə müxtəlif biliklər sistemini ehtiva etməklə uzun tarixi dövr ərzində müxtəlif təbəqədən olan insanların davranışını tənzimləmiş dəyərlərdən biridir. Texnogen sivilizasiyanın rəqəmsal mühiti insanlar arasında bilik və informasiya bolluğunu artırmışdır. Süni intellekt sistemlərinin cəmiyyəti yeni biliklərlə tanış etməsi nəticəsində cəmiyyətdə doğru və yanlış biliyin müəyyən edilməsində çaşqınlıq yaranmışdır. Ənənəvi dəyərlərin də bilik əsasında formalaşdığını nəzərə aldıqda, doğru və yalanın müəyyən edilməsində yaranan boşluq dini və əxlaqi dəyərlərin sıradan çıxmasına yol açmışdır. Məsələn, texnologiyanın "tanrılaşdırılması" cəmiyyətdə bu boşluğun yaranması ilə baş vermişdir. Çoxlu informasiya biliyin dəyərini aşağı salmaqla texnogen sivilizasiya şəraitində ənənəvi biliklərin deqradasiyasına, ənənəvi dəyərlərin əsl gerçək imkanlarının və xüsusiyyətlərinin sıradan çıxmasına rəvac vermişdir. "Din" və "Tanrı" ideyası haqqında gerçək məlumatlara çıxışını itirən cəmiyyət bu bilik boşluğunda modern texnoloji dəyərlər formalaşdırmışdır. Çünki əxlaqın və dini dəyərin qaynağı məhz doğru bilikdir [4 s 67]. Həyatın bütün sahələrində texnologiyanın sivilizasiya üzərində rəhbərliyi insanların özünü gücsüz hiss etməsinə yol açmışdır. İnsanların məqsədsizləşməsi, həyatın mənasının texnologiyadan asılı vəziyyətdə olması insanların inamını dəyişmişdir. İnamsız insan böhranı texnogen sivilizasiyada texnologiyanın üstünlüyünü daha da artırmışdır. Sosioloq N. Postmanın texnopoliyada "Tanrı", "ilahiləşdirmə" kimi önəmli simvolların dəyərsizləşməsi nəticəsində "texnoloji tanrı" yarandığını qeyd etməsi buna nümunədir [ 6 s.188].

**Texnogen sivilizasiyada modernist sosial dəyərlər**

Sosial dəyərlər texnogen sivilizasiya şəraitində ən çox dəyişilən dəyər sistemləridir. Cəmiyyətdə mühüm rola malik olduğu üçün ənənəvi sosial dəyərlər və modern sosial dəyərlər arasında ziddiyyətlər dinamik xüsusiyyətlərə malikdir. Həqiqət, gerçəklik kimi dəyərlər texnogen cəmiyyətin əsas sosial dəyərlərindəndir. Sosial dəyərlər insana məxsusdur və digər varlıqlarda mövcud deyildir. Bu dəyərləri insanlar sonradan qazanmamışdır. İnsanlar bütün fəaliyyətləri boyu doğru, yanlış, həqiqət, gerçəklik, xeyir və şər, gözəllik və çirkinlik, ədalət və zülm, azadlıq kimi sosial dəyərləri fərdi baxımdan qiymətləndirmişlər. Bu gün süni intellekt və ortaya çıxan bütün texnoloji irəliləyişlər sosial əxlaqi dəyərləri yenidən formalaşdırıb. İnsanlar reallıqdan qopublar. Daim güc axtarışında olan və həqiqətdən, imandan məhrum bir həyata uyğunlaşa bilməyənlər indi yeni reallıq və həqiqilik axtarışındadırlar. Bu axtarış yeni sivilizasiya tipinin formalaşmasında və bütün cəmiyyətlərə yayılmasında mühüm rol oynayır. Məsələn, 1981-ci ildə yazdığı "Simularka və Simulyasiya" əsərində filosof Jean Baudrillard həqiqətin yalandan yarandığını iddia etməklə yanaşı, müasir dövrdə həqiqətin və reallığın transformasiya edildiyini qeyd edirdi. Texnologiya insanları yeni dünya nizamının ayrılmaz hissəsinə çevirərək, fərdləri tədricən xaosa doğru aparır. Reallıq dəyişmiş süni, sözdə obyektlərlə əvəz olunmuşdur. İndi kod elementlərindən ibarət olan və həyatın hər tərəfində baş verən yeni reallıq "hiperreallıq" adlandırılmışdır [1].

Nəticə etibarı ilə insanlar öz mənliklərini və şəxsiyyətlərini itirməyə başlamışlar. Ənənəvi sosial dəyərlərin yerini modernist dəyərlər almışdır ki, bu da cəmiyyətin və dünyanın texnoloji şəkilləndirilməsi ilə bağlıdır. Artıq cəmiyyət ənənəvi dəyərləri təqlid etməklə yeni texnogen modernist dəyərlər formalaşdırmağa meyillidir. Filosofl J. Baudrillard "simulyasiya" dedikdə artıq gerçək bir dünyanın olmadığını və bunun əvəzinə hər şeyin simulyasiyalar tərəfindən yaradıldığını iddia edirdi. "Simularklar" isə gerçəyi təqlid edən simvollardır, ancaq bu təqlid zaman keçdikcə gerçəkliyin heç bir xüsusiyyətini təmsil etmir.

Belə qənaətə gəlirik ki, dəyərlər artıq getdikcə texnogen sivilizasiya şəraitində yenidən təqlid edilərək transformasiya edilir. Bu sosial dəyərlərin yenidən mənalandırılmasını vacib edir. Texnogen sivilizasiya mühiti milli-mənəvi dəyərlərin mahiyyətini dəyişməsinə baxmayaraq əxlaqi normaları gücləndirir. Texnologiya həm sosial, həm də hüquqi baxımdan azadlığı inkişaf etdirir. Filosof Lanqdon Vinner belə qeyd edirdi: “Elm və sənayenin inkişaf etdirdiyi ən güclü əxlaqi norma məhz azadlıqdır” [7 s 20]. Buradan belə qənaətə gəlirik ki, texnogen sivilizasiyanın insanlara bəxş etdiyi azadlıq modernist ənənələrin, dəyərlərin yaranmasını sürətləndirir.

Sosial dəyərlər cəmiyyətdən kənarda mövcud deyildir. Fərdlər cəmiyyətin bir parçası olaraq dəyərləri mənimsəyir və sonrakı nəslə ötürür. Ənənəvi dəyərlər də uzun tarixi dövrün məhsuludur. Qərb sivilizasiyası bütöv cəmiyyətin, Şərq sivilizasiyası isə fərdin, insanın imkanlarını, rifahını diqqətə alır. Texnogen sivilizasiyanı “yenilikçi” sivilizasiyası kimi şərh etdikdə aydın olur ki, modernist sosial dəyərlər cəmiyyətdən kənar inkişaf edə bilməz. Ancaq texnogen sivilizasiya şəraitində cəmiyyətin formalaşması uçun labüd olan ünsiyyət və digər vacib vasitələrin sıradan çıxması ənənəvi sosial dəyərlərin transformasiyasına yol açmışdır.Yeni mühitdə şəxslərin öz davranışlarını müəyyən edən fərdi modernist dəyərlər formalaşır. Məsələn, insanların məqsəd və imkanlarını reallaşdırmaq üçün texnologiyaya sahibliyi əsas modernist dəyərlərdən biridir. Texnogen sivilizasiya şəraitində texnologiya əsas modernist “dəyərdir”. Filosoflar qeyd edir ki, cəmiyyətin texnologiyanı əsas dəyər kimi qəbul etməsi nəticəsində fərdlər cəmiyyətdən uzaqlaşmağa başlayır [8 s 112]. Beləliklə, texnogen sivilizasiyada dəyərlər artıq toplumsal xarakterini itirir. Modernist dəyərlərin əsas xüsusiyyəti fərdlərin özləri üçün müəyyən etdiyi və texnoloji dəyərlərdir ki, bu da ənənəvi dəyərlərlə ziddiyyət yaradır.

**Nəticə**

Texnoloji sivilizasiya kontekstində ehtiyaclardan irəli gələn fəaliyyətlərin həyata keçirilməsini asanlaşdıran dəyərlər həm də sivilizasiyanın qiymətləndirilməsi üçün əsas meyar rolunu oynayır. Dəyərlər sistemi şəxsiyyətlərin formalaşmasında, mənəvi dəyərlərə üstünlük verən mühitlərdə yaxşı tənzimlənmiş şəxsiyyətlərarası münasibətlərin təşviqində mühüm rol oynayır. Çox vaxt nəsillərə ötürülən ənənəvi dəyərlər nəinki tarixi dövrlərin normaları kimi xidmət edir, həm də daha qeyri-rasional və dini xarakter daşıyır. Ailə dəyərləri, böyüklərə hörmət və iman ənənəvi qeyri-rasional tarixi dəyərlərə nümunədir. Texnoloji sivilizasiyada hər vasitə üzərində hökmranlıq axtarışı müasir dəyərlərin formalaşmasına təkan verir. Nəticə etibarı ilə fərdlər ənənəvi dəyərləri də transformasiya edirlər, çünki biliklər dövründə biliyin bolluğu yeni dəyərlərin təbiətini fərdlər üçün əlçatmaz edir, cəmiyyəti ənənəvi dəyərlərin transformasiyası yolu ilə bu boşluğu doldurmağa sövq edir. Bilik əldə etmək texnoloji sivilizasiyada müasir dəyərə çevrilir və rasionallığın modernist ənənələrin təməlində dayanan fundamental dəyər olduğunu göstərir.

Eyni zamanda texnologiya həm fərdləri gücləndirməkdə, həm də onları cəmiyyətdən uzaqlaşdırmaqda ikili rol oynayır. Bu, fərdi azadlıqları və potensialları inkişaf etdirməklə yanaşı, həm də ənənəvi dəyərlərdən və ictimai normalardan qopmağa gətirib çıxarır. Fərdi muxtariyyət və cəmiyyətin birliyi arasındakı bu gərginlik müasir dünyada texnologiya və dəyərlər arasında mürəkkəb qarşılıqlı əlaqəni vurğulayır. İnsan cəmiyyəti yalnız texnologiya və dəyərlər arasında inkişaf edən əlaqəni incə şəkildə dərk etməklə bəşəriyyət üçün harmonik və davamlı gələcəyi təmin edə bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Baudrillard, J. “Simülaklar ve simülasyon”, (O. Adanır Çev.). Ankara: Doğu Batı Yayınları. 2016*

*2. Bayır, M. “Nietzsche felsefesinde insan ve ahlak sorunu”// Nosyon: Uluslararası Toplum ve Kültür Çalışmaları Dergisi , 2019 (3) , 21-36 .*

*3. Bekaroğlu Mehmet, “Antik Akıl ve Aydınlanma, İnsana Akıl Bahşedildi”, // Bilgi ve Hikmet, Bahar 1993/2.*

*4. Çakmak, Fikrullah. Teknoloji ve Değer İlişkisi.// Gelişen Teknolojiler ve Değerler, Atatürk Üniversitesi Yayınları. 2022, pp.62-75*

*5. Kırılmaz H. Ayparçası F. Modernizm ve Postmodernizm Süreçlerinin Tüketim Kültürüne Yansımaları.// İnsan ve İnsan Dergisi. Kasım 2016;3(8).*

*6. Neil Postman “Teknopoli : yeni dünya düzeni” Paradigma yayıncılık. İstanbul 2006. 229 s*

*7. Winner, Langdon. “Do Artifacts Have Politics?”// Daedalus, vol. 109, no. 1, JSTOR . 1980, pp. 121–36.*

*8. Yazıcı M. Değerler ve toplumsal yapıda sosyal değerlerin yeri.// Fırat Üniversitesi Sosyal Bilimler Dergisi, 2016, 24(1), 209-223.*

*9. Байдаров Еркин Духовный кризис техногенной цивилизации в контексте дегуманизации культуры // Мысль. 2014. №9;*

*URL: https://mysl.kazgazeta.kz/news/3474*

*10. Стёпин, В. С. Цивилизация в эпоху перемен: поиск новых стратегий развития// Журнал Белорусского государственного университета. Социо - логия. – 2017. – № 3. – С. 6–11., s. 8.*

**RƏVAN ƏLİYEV**
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı***
***E-mail: ravanaliyev.97@gmail.com***
***Orcid İD: 0009-0000-2862-9802***

## TEXNOGEN SİVİLİZASİYA ŞƏRAİTİNDƏ ƏNƏNƏVİ VƏ MODERNİST PRİNSİPLƏRİN MÜQAYİSƏLİ VƏ SOSİAL-FƏLSƏFİ TƏHLİLİ

**XÜLASƏ**

Məqalə ənənəvi və müasir dəyərlər arasındakı münasibətlər və transformasiyaları araşdırmağa yönəlib. Yeni tip sivilizasiya mühitində texnologiya insanların həyat tərzinə, davranışlarına və cəmiyyətin birliyinə təsir edən əsas qüvvə kimi qəbul edilmişdir. Məqalədə bu kontekstə ənənəvi və modernist dəyərlərin müxtəlif prinsiplərinin müqayisəli və sosial fəlsəfi təhlili qeyd edilmişdir. Sosial dəyərlərin və normaların texnologiya-insan münasibətləri əsasında dəyişməsi məqalənin əsas nəticələridir. Ümumilikdə, məqalədə, texnologiyanın cəmiyyətə və mədəniyyətə kompleks təsirləri araşdırılır, ənənəvi və modernist dəyər prinsipləri arasındakı əlaqəni başa düşmək üçün hərtərəfli fikir təqdim edilir.

**Açar sözlər:** *sivilizasiya, texnologiya, texnogen sivilizasiya, ənənəvi dəyərlər, modernist dəyərlər.*

**RAVAN ALIYEV**
***Azerbaijan National Academy of Sciences***
***Doctoral student of the Institute of Philosophy and Sociology***
***E-mail: ravanaliyev.97@gmail.com***
***Orchid ID: 0009-0000-2862-9802***

## COMPARATIVE AND SOCIAL-PHILOSOPHICAL ANALYSIS OF TRADITIONAL AND MODERNİST PRINCIPLES IN THE CONDITIONS OF TECHNOGENIC CIVILIZATION

**SUMMARY**

The article aims to explore the relationship and transformations between traditional and modern values. In the new type of civilization environment, technology has been recognized as the main force influencing people's lifestyle, behavior and community cohesion. In this context, a comparative and socio-philosophical analysis of various principles of traditional and modernist values is mentioned in the article. The change of social values and norms based on technology-human relations are the main results of the article. In general, the article explores the complex effects of technology on society and culture, providing multifaceted perspectives to understand the relationship between traditional and modernist value principles.

**Keywords:** *civilization, technology, technological civilization, traditional values, modernist values.*

**РАВАН АЛИЕВ**
***Национальная Академия Наук Азербайджана***
***Докторант Института Философии и Социологии***
***Электронная почта: ravanaliyev.97@gmail.com***
***Orchid ID: 0009-0000-2862-9802***

## СРАВНИТЕЛЬНЫЙ И СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ ТРАДИЦИОННЫХ И МОДЕРНИСТСКИХ ПРИНЦИПОВ В УСЛОВИЯХ ТЕХНОГЕННОЙ ЦИВИЛИЗАЦИИ

**РЕЗЮМЕ**

Целью статьи является исследование взаимосвязи и трансформаций между традиционными и современными ценностями. В цивилизационной среде нового типа технологии признаны основной силой, влияющей на образ жизни, поведение и сплоченность общества людей. В этом контексте в статье упоминается сравнительный и социально-философский анализ различных принципов традиционных и модернистских ценностей. Изменение социальных ценностей и норм на основе технико-человеческих отношений являются основными результатами статьи. В целом статья исследует комплексное влияние технологий на общество и культуру, предлагая многогранные перспективы для понимания взаимосвязи между традиционными и модернистскими ценностными принципами.

**Ключевые слова:** *цивилизация, технология, технологическая цивилизация, традиционные ценности, модернистские ценности.*

UOT 18
DOI:10.30546/3006-0346.2024.2.80.209089

# ESTETİK İDEALIN BƏDİİ YARADICILIQDA OBRAZLI TƏCƏSSÜMÜ

**RAHİLƏ QURBANOVA**
*ADPU-nun fəlsəfə və sosial elmlər kafedrasının müəllimi*
*E-mail: rahila.60@mail.ru*

Estetik idealın meydana gəlib, formalaşması ictimai idealın hər bir formasında olduğu kimi, bədii niyyətdən və ya ilkin ideyadan başlayır. Bu ilkin ideya incəsənət əsərinin yaradılmasının hazırlıq mərhələsində meydana gəlir. Daha dəqiq desək, həmin hazırlıq mərhələsinin çıxış nöqtəsini təşkil edir.

Dünya incəsənətinin uzun inkişaf tarixi son nəticədə bitkin estetik ideala gətirib çıxaran ilkin ideyanın zərurət və ya təsadüf, obyektiv və ya subyektiv, daxili və ya xarici təsir nəticəsində necə "ağla düşməsi", meydana gəlməsi barədə rəvayət və ya məlumatlarla doludur. Ə.Firdovsinin "Şahnamə", N.Gəncəvinin "Xəmsə"yə daxil olan poema-epopeyalarının yazılma ideyasının hökmdarların tapşırığı, ölkəmizdə sovet dövründə qoyulan heykəllərin əksəriyyətinin yubileylər münasibətilə dövlət sifarişi ilə bağlı olduğu məlumdur. Bu, estetik ideyanın xarici mənbəyidir. Lakin incəsənət əsərlərinin böyük əksəriyyəti daxili-subyektiv mənbədən-sənətkarın öz estetik yaşantıları və ya müşahidələrinin nəticəsi olaraq yaranır, ətə-qana gəlib estetik ideala çevrilir, obrazlı ifadəsini tələb edir. Estetik ideyanın obrazlarda təcəssümü bədii mədəniyyətin ikinci mərhələsində—incəsənət əsərinin bilavasitə yaradılması prosesində baş verir. Bu isə mahiyyətcə yeninin yaradılması prosesidir və ictimai əməyin bir formasıdır.

Bədii yaradıcılıq aktına "genetik" baxımdan yanaşsaq, onu hər şeydən əvvəl ictimai əməyin fiziki forması ilə müqayisədə xüsusi bir növü—mənəvi əmək kimi təsnif etməli olarıq. Onların ümumi cəhəti ictimai insanın fəaliyyət sahəsi olmasıdır. Fərqlər isə ilk növbədə əməyin formasında—fiziki və ya mənəvi xarakterindədir, istifadə olunan əmək vasitələrindədir, onun son məhsulundadır. Fiziki əmək insanın təbiətlə, yəni maddi olanla qarşılıqlı münasibəti olub son məqsədi onun müvafiq maddi tələbatını ödəyən nemətlər hasil etməkdirsə, mənəvi fəaliyyət növləri hətta maddi olanla işlədikdə belə əməyin son nəticəsini mənəvi dəyərlər yaradılmasında görür. Rəssamlıqda boya, heykəltəraşlıqda müxtəlif maddi materiallar, musiqidə səs, xoreoqrafiya və pantomimada bədən hərəkətləri və s. maddi təbiətli olsa da, vəzifəsi bədii ideyanın gerçəkləşməsidir. Ədəbi əsərin "tikinti materialı" isə ümumiyyətlə mənəvi olandır—sözdür.

Cəmiyyət və mədəniyyətin tarixi inkişafı insan əməyinin strukturunda şüurluluq elementinin—ideallığın xüsusi çəkisini getdikcə artırır. Tarixi təkamülün müəyyən mərhələsində insan fəaliyyəti şüur aktına çevrilir. Başqa sözlə, ictimai əmək insanların yüksək ruhi fəaliyyəti üçün tarixi zəmin, başlanğıc rolunu oynayır. İlk əvvəllər əmək təbii həyat fəaliyyətinin bilavasitə davamı, cəmiyyət və ictimai münasibətlər isə insanların təbiətlə və bir-biri ilə əlaqələrinin nəticəsi kimi meydana gəlir. Bu dialektik prosesdə təbii həyat fəaliyyəti məqsədyönlü əməyə çevrilir, təbii həyatın əmək komponentləri şüurlu, insani məzmun kəsb edir. Həmin şüurluluq əmək, ünsiyyət və nitqin sayəsində öz ideal məzmununu getdikcə dərinləşdirir, insanın özü ideal aləm yaratmağa, ictimai varlığını təxəyyülündə yaratdığı ideal münasibətlər nümunəsində qurmağa səy göstərir. Bu sırada bədii-orazlı yaradıcılıq ən qədim ideal fəaliyyət növlərindəndir.

İdeal başlanğıcın bədii əsərin daxili məzmununa çevrilmə mexanizmini dərk edib aşkara çıxarmaqdır. Bu isə ilkin ideya adlandırdığımız sənətkarın bədii niyyətinin mücərrəd təsəvvür və ya anlayış səviyyəsi ilə kifayətlənməyib müvafiq forma axtarışına çıxmasıdır.

Dünya fəlsəfi fikrinin görkəmli nümayəndəsi G. V. F. Hegel "Estetika"sında mütləq ideyanın inkişafı prosesində onun təzahür pillələrindən biri olan estetik ideyanın incəsənətdə təcəssümü xüsusiyyətləri barədə göstərir ki, "incəsənət ... dünyanın ümumi halını sadəcə təsvir etməməli, bu qeyri-müəyyən təsəvvürdən müəyyən xarakterləri və fəaliyyətləri təcəssüm etdirən obrazlara keçməlidir", çünki "məna... əsərin həqiqi məqsədi kimi... çıxış edir və obraz üzərində onu əyaniləşdirməli olan bir vasitə kimi hökmranlıq edir" (7, T.1, 206).

Estetik Y. Qaraməmmədli "Bədii xarakter anlayışı" mövzusunda dissertasiya işində bədii xarakter və obraz anlayışlarının qarışdırılmasının, hətta

müəyyən mənada sinonim kimi işlədilməsinin əleyhinə çıxaraq, hər birini öz məntiqi həcmi və semantik məzmunu olan anlayışlar kimi götürür, onların sıx əlaqəsini bu anlayışların qarışıq salınmasında deyil, ümumiyyətlə məzmun və onun formasına xas olan dialektik vəhdətində axtarmağı lazım bilir" (6, 18). Göründüyü kimi, burada bədii xarakter bədii məzmunun mərkəzi elementi və deməli, estetik idealın daşıyıcısı, obraz isə onun zahiri forması hesab edilir. Həmin konsepsiyaya görə bu məzmunun incəsənətdə adekvat daşıyıcısı məhz bədii xarakterdir, bədii yaradıcılıq və estetik ideal bütün fərdi mənşəyi və forması ilə yanaşı həm də ictimaidir, sosiallığın təzahürüdür, bədii obraz isə onun fərdi-hissi ifadə vasitəsidir.

Burada incəlik dialektik təfəkkürün inkarı inkar qanununun təsir sferasında əməliyyat aparmalı olduğumuzun nəzərə alınmasıdır. Əks təqdirdə M. Ə. Sabirin misilsiz bədii sənət nümunələri olan satirasını, ümumiyyətlə bütün tənqidi realizm cərəyanını idealsızlıqda ittiham etməli olardıq. Halbuki həqiqi demokratik incəsənətin iqrari forma və janrları ilə yanaşı onun tənqidi-inkari növ və janrları da xəlqilik mövqeyində duraraq humanizm ideallarını tərənnüm edir. Sadəcə, bunu "öz adı ilə"—birbaşa etmir, insan və cəmiyyətin sosial-mənəvi eyiblərini tənqid atəşinə tutmaqla insanpərvərliyə, xeyirxahlığa səsləyir, fəlsəfi dilə çevirsək, inkarı inkar yolu ilə gedir.

Bədii yaradıcılığın ideya tutumunu müəyyən edən, estetik ideal ilə sənət əsərinin yaradılması prosesini üzvi vəhdətdə birləşdirən mühüm göstəricilərdən biri elə onların ictimai-sosial məzmununun nə dərəcədə uyğun gəlməsidir. Demokratik incəsənətdə bu, ilk növbədə, sənətdə xəlqilik problemi ilə bağlıdır. Ümumiyyətlə, bədii yaradıcılıqda xəlqilik kateqoriyasının yeri və funksiyası məsələsi bir çox cəhətdən mühüm metodoloji əhəmiyyət kəsb edir:

birincisi, incəsənətin "elitar və kütləvi", "yüksək və aşağı" sortlara bölünməsini birdəfəlik aradan qaldırmaq, kütlənin intellektual səviyyəsi və bədii zövqünün aşağı düşməsindən gileylənmək əvəzinə ümumi estetik mədəniyyətin yüksəldilməsi qayğısına qalmaq lazımdır;

ikincisi isə, xəlqilik, milli-mənəvi müəyyənlik, demək olar, bütün tarixi dövrlərdə və bütün milli mədəniyyətlərdə, xalqların ictimai-estetik fikir tarixində müxtəlif məzmun və dolğunluqda olsa da, müəyyən yer tutmuşdur. Lakin bu hal incəsənəti məhdud milli çərçivəyə salmır, xəlqiliyi, humanizmi, həyatı daha dərin ümumiləşdirilmiş şəkildə əks etdirməsi, obrazlı formasının estetik təkmilliyi onu ümumbəşəri sərvətə, mənsub olduğu xalqla yanaşı başqaları üçün də yüksək mənəvi dəyərə çevirir.

Beləcə bədii yaradıcılıqla estetik idealın qarşılıqlı təsiri baş verir, onların vəhdəti təmin olunur. Bədii yaradıcılığında xeyirxahlığı dərk etməyə çalışan və bunu ideal seçən insanın gözündə hər şey gözəl görünür. O, özünün mədəni mühitini yaratmağa, bədii fəaliyyət subyekti olmağa səy göstərir. Başqa sözlə, insan bədii fəaliyyətində müəyyən bir ideala söykənərək öz ətraf mühitini həmin ideala uyğun dəyişməyə can atır. Təbii ki, belə bir yaradıcı prosesdə subyekt real hadisələri və faktları qiymətləndirmə metodundun istifadə edir, bunları estetik dünyagörüşü süzgəcindən keçirir. Bu mühüm şərtdir, çünki qiymətləndirmə iradi hərəkətlə dəyişdirici fəaliyyət arasında bir növ əlaqələndirici amil kimi çıxış edir.

Bədii əsərin qiymətləndirilməsi, daha doğrusu, bədii ideyanın incəsənət faktına çevrilmə dərəcəsi üzərində "nəzarət" bədii yaradıcılıq prosesinin tamamlanmasından çox-çox əvvəl başlayır. "Həmin nəzarətin subyekti kimdir və ya kim olmalıdır?" sualına birmənalı cavab metafizik təsir bağışlaya bilər. Amma burada da dialektika zəminində durub qeyd edə bilərik ki, həmin nəzarət bədii yaradıcılığın öz subyekti tərəfindən də, yaradılan sənət əsərinin ünvanlandığı auditoriya tərəfindən də həyata keçirilə bilər.

Bu iki nəzarət növünün hər birinin öz üstünlük və çatışmazlıqları var. Sənətkarın öz nəzarəti daha dəqiqdir, ilkin ideyasını—bədii niyyətini onun özü daha yaxşı təsəvvür edir, əsas məzmunun obrazlı təcəssümünün nə dərəcədə uğurlu getdiyini, təcəssümünə can atdığı estetik ideala uyğun gəlib-gəlmədiyini o hamıdan yaxşı bilir. Lakin burada ciddi bir psixoloji maneə əsla təsirsiz ötüşmür. Bu, sənətkarın təxəyyülündə mövcud olan ideyaya yaratmaqda olduğu bədii əsərin obrazlı materialında ifadə olunan məzmunun nə dərəcədə uyğun gəlməsidir, onu adekvat aça bilib-bilməməsidir. Deməli, sənətkarın öz qiyməti subyektivlik bir yana, tamamilə obyektiv səbəbdən də yanlış ola bilər. Həmin obyektiv səbəb estetik ideyanın sənətkarın öz təxəyyülündəki modelidir. Nəzarət prosesində ideal modellə əsərin obrazlı materialında onun təcəssümü sənətkarın təsəvvüründə qovuşmaqla yanlış nəticəyə gətirib çıxara bilir. Burada əsər müəllifinin "özgələşə bilmək" qabiliyyəti, öz "yetişdirməsinə" özgə (tamaşaçı-oxucu-din-

ləyici) gözü ilə baxa bilməsi köməyə çata bilər. Əlbəttə, psixoloji baxımdan bunun çətinliyi aydındır, həm də "isti-isti" özgələşmək daha çətindir, müəyyən müddət keçməsi, bədii ilhamın yerini soyuq nəzarətçi-qiymətləndirici hissinin tutması lazım gəlir.

Təbii ki, burada "özgə" anlayışı dırnaq işarəsiz də mümkündür, yəni sənətkar estetik mədəniyyəti və zövqünə etibar etdiyi yaxın və ya kənar adamların ilkin qiymət verməsinə müraciət edə bilər. Burada müsbət cəhət yaradıcılıq prosesinin qiymətləndirilməsində obyektivliyin üstün olmasıdır. Lakin müəyyən naqis cəhətləri də nəzərdən qaçırmaq olmaz. Bu, ilk növbədə, kənar nəzarətçinin sənətkarın estetik ideyasını onun özü qədər aydın təsəvvür və ya dərk edə bilməməsidir. Həm də obyektiv səbəb—sadəcə olaraq, əsər hələ bitmədiyinə görə estetik idealın öz təcəssümünü tam tapmaması da təsirsiz qalmır.

Bədii yaradıcılıq aktının müşahidəsi göstərir ki, bədii niyyətin—ideyanın bitkin bədii əsərin tamamlanmış estetik idealına çevrilməsi uzun prosesdir, ilkin ideyadan bütöv əsərin "son nöqtəsinin" qoyulmasınadək davam edir. Həm də burada ikili proses gedir: bir tərəfdən, bədii forma təcəssümü nəzərdə tutulan estetik ideala doğru sərrast irəliləyə bilməyəndə onun təshihi zəruri olur, estetik cəhətdən təkmil olmaq üçün məzmunun gerçək maddi varlıq kəsb etməsi—sözdə, rəngdə, daş və ya metalda, səsdə, naxış və ya ilmələrdə və s. adekvat ifadəsi tələb olunur, digər tərəfdən isə, həmin yaradıcılıq prosesində ilkin bədii ideyanın naqisliyi də üzə çıxa bilir, təkmilləşdirilməsinə zərurət yaranır.

Beləcə, estetik ideya və bədii yaradıcılıq prosesi qarşılıqlı "nəzarət ömrünü" yaşamalı olur. Bəs əsər tam ərsəyə gələndə onun estetik dəyərləndirilməsi kimin tərəfindən və necə aparılmalıdır?

Hesab edirik, burada yenə dialektika zəminində durub, hər iki tərəfdən verilən qiyməti nəzərə almalıyıq. Birincisi, təbii ki, sənətkarın özünün verdiyi qiymətdir. Unutmayaq ki, bədii əsərin hələ müəllifin "yaradıcılıq laboratoriyasında istehsal prosesində" olduğu vaxt model rolunu oynayan estetik ideal eyni zamanda öz subyektinin—sənətkarın yaradıcı sənətə məhəbbət hissi sayəsində onun özünün də formalaşıb təkmilləşməsinə təsir göstərir. O, sırf bədii yaradıcılıqla yanaşı bundan heç də asan olmayan daha bir vəzifəni də yerinə yetirməli olur. Bu, yaradılan əsərin kommunikativliyi problemidir.

Bu vəzifə həm bədii formanın kamillik həddinədək cilalanması, həm də bədii yaradıcılıq prosesində bədii niyyətin—əsərin əsas ideya-məzmununun təkmilləşdirilməsi ilə yerinə yetirilir. Hər halda, bitmiş bədii əsərin gerçək estetik qiymətini kim verməlidir? Sağlam düşüncə qətiyyətlə bildirir ki, bu, bədii əsəri yaradan tərəfin deyil, onun ünvanlandığı tərəf. Amma bu məsələdə paradoksal hallar da az olmur. Metafizik təfəkkürə görə ən dəqiq qiymət həmin sərvəti yaradan tərəfindən verilə bilər, çünki təqdim olunan bədii formaya (əsərə) hansı estetik ideyanın yükləndiyini o hamıdan yaxşı bilir.

Məsələnin belə qoyuluşuna etiraz etmədən bildirək ki, bədii əsərin nəzərdə tutulan ideya yükü ilə yanaşı onun gerçəkləşmə dərəcəsi də var. Bax, burada sənətkarın subyektivizmə uyub "öz ayranına turş deməməsini" bir kənara qoyub düşünə bilərik ki, obyektiv olaraq səhvə yol verməsi, deyilə bilməyənləri öz daxili təsəvvürünün təsiri altında deyilmiş kimi düşünməsi tamamilə mümkündür. Amma hər halda müəllifin öz əsərinə verdiyi qiymət də qiymətdir, xüsusən də deyilə bilməyənlərin, ya da müəmmalı olub açılması lazım gələn məqamların dərki baxımından həmişə əhəmiyyətlidir. Bununla belə, bitkin bədii əsər kamil forma olmaqla öz daxili məzmununu, onun özəyini təşkil edən estetik idealı tam aydınlığı ilə aça bilməlidir, artıq aforizmə çevrilmiş ifadədə olduğu kimi, at şəklinin altında "Bu atdır" izahı yazılmamalıdır. Elmi dilə çevirsək, bu, bədii əsərin estetik kommunikativliyinin təmin edilməsidir.

Beləliklə, bədii yaradıcılığın və onun məhsulunun qiymətləndirilməsinin obyektiv meyarı məsələsinə gəlib çıxmış oluruq. Bu sahədə axtarış bizi sənətkarın öz qiymətləndirməsinin ardınca incəsənətin ünvanlandığı—onu qavrayıb mənimsəməli olan tərəfə gətirib çıxarır. Burada isə iki müstəvidən qiymətləndirmə mövcuddur: elmi-nəzəri fikrin—fəlsəfi, estetik, sənətşünaslıq, bir sözlə, professional mövqedən qiymətləndirmə və bir də kütləvi qiymət. Birinci halda qiymətləndirmənin peşəkarlıq səviyyəsinin yüksəkliyi, ikinci halda isə bədii əsərin ictimai dəyər qiyməti önə keçir. Birincinin akademizmə, ikincinin isə bəsit kütləviliyə yuvarlanma təhlükəsi həmişə qalır. Birinci hal "sənət sənət üçündür" prinsipinə yol aça bilirsə, ikincisi indi mənəvi həyatımızı bürüyən "şoulaşmaya" meydan verir. Burada mühüm təminat həqiqi estetik qiymətləndirmənin daha obyektiv, başlıcası isə, bədii tərəqqiyə kömək edə bilən prinsiplərinin işlənib hazırlanması və əməli istifadədə olmasıdır.

Bədii yaradıcılıq faktına aksioloji münasibətdə, daha doğrusu, onun estetik qiymətləndirilməsində cəmiyyətin bədii-estetik mədəniyyətinin ümumi vəziyyəti, o cümlədən bu sahədə məqsədyönlü iş aparılması da (müasir reklamı nəzərdə tutmuruq) vacib məsələlərdəndir. Lakin buna dialektik yanaşmaq, estetik qiyməti hazır resept formasında təlqin etmək köhnəlmiş didaktizmi ilə yanaşı sənət biliciləri tərəfindən onların estetik zövqünə və idrakına etimadsızlıq kimi qarşılana bilər. Ötən əsrin ikinci yarısında ədəbi tənqidimizdə özünəməxsus yet tutan Əhəd Hüseynov xalq yazıçısı İ.Şıxlının "Dəli Kür" romanı barədə "Ünvansız məktub"unda belə bir maraqlı fikir söyləyir: "Mən hələ bu əsərin müasir Azərbaycan ədəbiyyatının yeni bir nailiyyəti olması barədə qənaətimi əvvəlcədən söyləmək istəmirəm. Ona görə ki, müasir oxucu və dinləyici belə bir fikrə bütöv təhlildən sonra gəlməlidir. Həm də mülahizələrimi heç kəsə qeyd-şərtsiz, dəyişilməz, sabit bir hökm kimi qəbul etdirmək, hamı mənim kimi düşünsün—demək də istəmirəm. Ona görə ki, dünya ədəbiyyatının müasir nailiyyətlərini mütaliə edən oxucunu hər sözlə, hər parıltılı cümlə ilə təəccübləndirmək, onun gözlərini qamaşdırmaq olmaz" (5, 344-345).

Bununla belə, bədii yaradıcılıq nümunələrinin estetik dəyərinin müəyyənləşdirilməsində nə sənətkarın öz "izahları", nə elmi-nəzəri fikrin, o cümlədən, sənətşünaslığın, ədəbi tənqidin deyim və yozumları, nə də ona kütləvi qiymət heç də həmişə obyektiv meyar rolunu oynaya bilmir, belə halda subyektiv başlanğıc müəyyənedici rol oynayır. Yalnız bədii yaradıcılığın bitkin bədii əsərə çevrilən nümunələrinin özü obyektivləşməklə estetik dəyər kəsb edir. Bu hökmümüzün əsassız olmadığını ən azı o təsdiq edir ki, estetik mədəniyyət tarixində konkret sənət nümunələrinə, ayrı-ayrı sənətkarların bütün yaradıcılığına, hətta bədii sənətin bütöv növ və ya janrına münasibətin (estetik qiymətin) diametral-əks istiqamətdə dəyişməsi halları az olmamış, nə qədər bədii fəaliyyət növləri haqlı və ya haqsız yasaq olunmuş, sənət nümunələri məhv edilmişdir.

Burada biz estetik qiymətləndirmə ilə ümumi dünyagörüşünün, bədii yaradıcılıq və estetik ideal-la cəmiyyətdə hakim ideologiyanın qarşılıqlı münasibəti probleminə gəlib çıxırıq. Dini və ya dünyəvi totalitar rejimlər, onların əsaslandığı hakim ideologiyalar dünya estetik mədəniyyətinin inkişaf tarixində az fəsadlar törətməmişdir.

Bədii formanın kamillik həddinədək cilalanması, həm də bədii yaradıcılıq prosesində bədii niyyətin-əsərin əsas ideya-məzmununun təkmilləşdirilməsi ilə yerinə yetirilir.

Estetik ideal o vaxt arzuolunan və lazımlı fenomenə çevrilir ki, o, gerçəkliyin özündə yerləşən imkanlardan meydana gəlsin, real həyatda mövcud olan tendensiyalara söykənsin, bu tendensiyaları özünün ideal formasında ifadə etsin, dəqiqləşdirməli olsaq, həmin tendensiyaların daşıyıcısı olan sosiumun həyati mənafelərinə, dünyagörüşü və ictimai, o cümlədən, estetik ideallarına uyğun gəlsin. Sənətkar üçün insanın həyat idealı həqiqətən də obyektiv reallığın bir hissəsidir, lakin o həm də müəyyən mənada subyektiv yaradıcı fəallığın məhsuludur. Belə halda estetik ideal bədii yaradıcılıqda obyektiv və subyektivin özünəməxsus vəhdəti kimi təcəssümünü tapır, onun qiymətləndirilməsi də əslində hər iki müstəvidə gedir.

Beləliklə, nəzərdən keçirilən problemlər belə bir fikir söyləməyə əsas verir ki, bədii əsər böyük, mürəkkəb bir intellektual prosesin—bədii yaradıcılığın məhsuludur. Onun estetik təsiri oxucu-dinləyici-tamaşaçıya təlqin etməyə çalışdığı estetik ideal vasitəsilə baş verir. Bu isə, hər şeydən əvvəl, estetik idealla bədii yaradıcılığın qarşılıqlı əlaqəsi, dialektik vəhdəti sayəsində mümkündür. Bədii yaradıcılıqla estetik ideal arasında əlaqə sənətkarın yaradıcılıq üslubunun rəngarəngliyinə, dünyagörüşünün zənginliyinə, həyat həqiqətinə sədaqətinə əsaslanır. Sənətkar həyatı düzgün əks etdirərkən hadisələrə siyasi, fəlsəfi, etik, estetik nöqteyi-nəzərdən yanaşır. O heç də insanın fərdi, gündəlik, adi arzularını, hiss və duyğularını vermir, canlı bədii surətlərdə özünün xəyal və fikirlərini, poetik düşüncələrini, həyata baxışlarını ümumiləşdirərək, ictimai praktika ilə uzlaşdıraraq mütərəqqi idealları əks etdirir, həyatı qabaqlamağa, onu gözəllik qanunları ilə qurmağa can atır. Beləcə bədii əsərin obrazlı strukturunda ideal estetik aləm canlanır, insanlığı kamillik dünyasına səsləyir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Cabbarlı N. Yeni nəsil ədəbiyyatı. Bakı: Elm, 2006, 376 (4) s.*

2. *Əliyev A.S. Ədəbiyyat nəzəriyyəsindən mühazirələr.Bakı:ADPU, 2010, 214(2) s*

3. *Əlizadə H.G. İnsan fəlsəfəsi. Bakı: Nurlan, 2003, 121 (1) s.*

4. *Hacıyev A. Sənətkarın yaradıcılıq fərdiliyi. Bakı: APİ, 1990, 87 (1) s.*

5. *Hüseynov Ə.M. Tənqid və ədəbi proses. Bakı: Nurlan, 2009, 416 s.*

6. *ГараммедлиЯ.А.Понятиехудожественного характера: Автореф.дис. канд.филос.наук. Баку, 1978, 23с.*

7. *Гегель Г.В.Ф. Эстетика: В 4-х т. М.: Искусство Т. I, 1968, 312 с.;*


## XÜLASƏ


Bu məqalədə göstərilir ki, estetik idealın meydana gəlməsi bədii niyyətdən və ya ilkin ideyadan başlanır. Müəllif qeyd edir ki, bu ilkin ideya incəsənət əsərinin yaradılmasına hazırlıq mərhələsində meydana gəlir, sənətkarın öz estetik yaşantıları və ya müşahidələrinin nəticəsi olaraq yaranır, estetik ideala çevrilir və obrazlı ifadəsini tələb edir. Estetik ideyanın obrazlarda təcəssümü isə incəsənət əsərinin bilavasitə yaradılması prosesində baş verir.



**Açar sözlər:** *Estetik ideal, bədii yaradıcılıq, obraz, ideya, sənətkar, estetik qiymətləndirmə, incəsənət, xarakter.*



**Гурбанова Рахиля Мустафа гызы**

***Преподаватель кафедры Философии и Социальных Наук АГПУ***


### Образное воплощение эстетического идеала в художественном творчестве

## РЕЗЮМЕ


В данной статье показано, что формирование эстетического идеала начинается с художественного замысла или первоначальной идеи. Автор отмечает, что эта исходная идея появляется на стадии подготовки к созданию художественного произведения, возникает в результате собственных эстетических переживаний или наблюдений художника, превращается в эстетический идеал и требует своеобразного выражения. Воплощение эстетической идеи в образах происходит в процессе непосредственного создания художественного произведения.



**Ключевые слова:** *эстетический идеал, художественное творчество, образ, идея, художник, эстетическая оценка, искусство, характер.*



**Gurbanova Rahila Mustafagizi**

***ADPU Department of Philosofy and Social Sciences the teacher***


### Image embodiment of aecthetic ideal in artistic creativity

## SUMMARY


This article shows that the formation of an aesthetic ideal begins with an artistic concept or initial idea. The author notes that this initial idea appears at the stage of preparation for the creation of a work of art, arises as a result of the artists own aesthetic experiences or observations, turns into an aesthetic ideal and requires its own figurative expression. The embodiment of the aesthetic idea in images occurs in the process of direct creation of a work of art.



**Key words:** *aesthetical ideal, artistic creativity, image, idea, artist, aesthetic assessment, art, character.*

UOT 316
DOI:10.30546/3006-0346.2024.2.80.211123

# ƏQLİ SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN İNSANLARLA SOSİAL İŞ: BİPOLYAR POZUNTU VƏ BORDERLİNE ŞƏXSİYYƏT POZUNTUSU OLAN ŞƏXSLƏRLƏ SOSİAL İŞ

**ÜLVİYYƏ ELYAZOVA**
*Bakı Dövlət Universiteti, doktorant*
*E-mail: ulviyyaali222@gmail.com*

Psixi sağlamlıq problemləri, həmçinin psixi sağlamlıq pozuntuları və ya psixi xəstəlik kimi də adlandırılır, insanın düşüncələrinə, duyğularına, davranışlarına və ümumi rifahına təsir edən amillərdir. Bu amillər gündəlik həyat fəaliyyəti, münasibətləri və həyatın çətinliklərinin öhdəsindən gəlmək qabiliyyətini poza bilər. Psixi sağlamlıq problemləri müxtəlifdir və yüngüldən ağıra qədər dəyişə bilər.

Sosial iş fərdlərin, ailələrin, qrupların və icmaların rifahını və həyat keyfiyyətinin yaxşılaşdırılmasına həsr olunmuş bir peşədir. Sosial işçilər sosial problemləri həll etmək, sosial ədaləti təşviq etmək, problemlərlə və ya zəifliklərlə üzləşə bilən şəxsləri bilikləndirmək məqsədi daşıyır.

Manik-depressiv pozuntu kimi də tanınan bipolyar pozuntu insanın əhvali-ruhiyyəsinə, enerjisinə, konsentrasiyasına və gündəlik fəaliyyətlərini yerinə yetirmək qabiliyyətinə təsir edən psixoloji-psixiatrik pozuntudur.

Bipolyar pozuntunun bir neçə növü var, o cümlədən:

*Bipolyar I pozuntu:* Ən azı yeddi gün davam edən və ya dərhal xəstəxanaya yerləşdirilməsini tələb edəcək qədər şiddətli olan manik simptomları əhatə edir. Depressiv simptomlar da baş verə bilər.

*Bipolyar II pozuntu:* Depressiv simptomlar və hipomanik simptomlar (tam maniyadan daha az şiddətli) ilə xarakterizə olunur.

*Siklotimik pozuntu:* Ən azı iki il (uşaqlarda və yeniyetmələrdə bir il) davam edən hipomanik simptomlar və depressiv simptomlar müddətini əhatə edir [5].

Maniyanın ümumi simptomlarına pozitiv enerji, yüksək əhvali-ruhiyyə, impulsivlik, prinsip düşüncələri və yuxusuzluğun artması daxildir. Digər tərəfdən, depressiv simptomlar arasında davamlı kədər, enerjisizlik, iştaha və ya yuxu rejimində dəyişikliklər və özgüvənsizlik hissləri ola bilər.

Bipolyar pozuntunun dəqiq səbəbi tam başa düşülməmişdir, lakin bunun genetik, bioloji və ətraf mühit amillərinin təsirindən qaynaqlandığına inanılır.

Düzgün müalicə ilə, bipolyar pozuntusu olan bir çox insan bu xəstəlikdən sağala və xoşbəxt, hüzurlu həyat sürə bilər.

Borderline şəxsiyyət pozuntusu (BŞP) şəxsiyyətlərarası münasibətlərdə, özünü müxtəlif simalarda və emosiyalarda geniş yayılmış qeyri-sabitlik nümunələri ilə xarakterizə olunan psixi sağlamlıq pozuntusudur. Borderline şəxsiyyət pozuntusu olan insanlar tez-tez sıx və sürətlə dəyişən duyğular yaşayır, emosiyalarını tənzimləməkdə, sabit və sağlam münasibətləri qorumaqda çətinlik çəkirlər. "Borderline şəxsiyyət pozuntusu" termini əvvəlcə bu pozuntusu olan şəxslərin nevroz və psixoz arasında "sərhəddə" olduqlarına inamı ifadə etdi, lakin bu perspektiv köhnəlmişdir [3].

Borderline şəxsiyyət pozuntusunun əsas xüsusiyyətləri bunlardır:

*Sabit və qeyri-sabit münasibətlər:* Borderline Şəxsiyyət Pozuntusu olan şəxslər sabit münasibətlər qurmaqda və saxlamaqda çətinlik çəkə bilərlər. Onlar tez-tez tərk edilmə qorxusu yaşayırlar. Elə düşünürlər ki, ətraflarında hər kəs onlardan uzaqlaşmaq istəyirlər. Lakin həqiqətdə bu, belə deyil. Sadəcə, onların düşüncələri fərqlidir.

*Əhval dəyişikliyi:* Emosional qeyri-sabitlik Borderline Şəxsiyyət Pozuntusunun əlamətidir. İnsanlar əsəb, stress və depressiya daxil olmaqla, sıx və sürətlə dəyişən duyğularla qarşılaşa bilərlər. Bu əhval dəyişikliyi bir neçə saatdan bir neçə günə qədər davam edə bilər.

*Xroniki boşluq hissləri:* Borderline şəxsiyyət pozuntusu olan bir çox insan özlərində xroniki boşluq hissləri və ya natamamlıq hiss edirlər.

*Başqalarına güvənməkdə çətinlik:* Borderline şəxsiyyət pozuntusu olan şəxslər başqalarına etibar etməkdə çətinlik çəkə bilərlər, bu da yaxın münasibətlərin qurulması və saxlanmasında çətinliklərə səbəb ola bilər.

P*aranoid düşüncələr və dissosiasiya:* Borderline şəxsiyyət pozuntusu olan bəzi fərdlər özlərini və ya reallıqdan qopduğunu hiss etdikləri paranoid düşüncələr və ya dissosiasiya simptomları ilə qarşılaşa bilərlər [1].

Qeyd etmək vacibdir ki, bunlar ümumi xüsusiyyətlər olsa da, Borderline Şəxsiyyət Pozuntusu olan hər kəs bunların hamısını nümayiş etdirməyəcək yəni onlarda fəqli xüsusiyyətlər ola bilər ki, heç biz özümüz onları seçə bilmərik, bu xüsusiyyətləri ilə və simptomların dərəcələri ilə fərqlənə bilərlər. Borderline Şəxsiyyət Pozuntusunun müalicəsi tez-tez psixoterapiyanı, xüsusən də mübarizə bacarıqlarını inkişaf etdirməyə, emosiyaların tənzimlənməsinə və şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırmağa yönəlmiş dialektik davranış terapiyasını (DBT) əhatə edir [2].

Borderline şəxsiyyət pozuntusu (BŞP) və Bipolyar Pozuntu, bəzən dəyişikliyə səbəb ola biləcək bəzi üst-üstə düşən simptomları əks etdirsələr də, iki fərqli psixi sağlamlıq problemidir. Borderline şəxsiyyət pozuntusu ilə bipolyar pozuntu arasındakı əsas fərqlər bunlardır:

Əhvali-ruhiyyə simptomlarının müddəti:

*Bipolyar pozuntu:* Bipolyar pozuntuda əhval-ruhiyyə simptomları adətən günlərdən aylara qədər uzanan uzun müddətli olur.

*Borderline şəxsiyyət pozuntusu:* Borderline şəxsiyyət pozuntusunda əhval dəyişikliyi daha qısa müddətli və ətraf mühitin təsirinə reaksiya verə biləcək qədər olur [7].

*Münasibətlər və şəxslərarası problemlər:*

Bipolyar pozuntu: Bipolyar pozuntusu olan şəxslərdə əhval-ruhiyyə simptomları zamanı əlaqə qurmaqda problemlər ilə üzləşə bilsələr də, şəxsiyyətlərarası çətinliklər pozuntunun əsas xüsusiyyəti deyildir.

*Borderline şəxsiyyət pozuntusu:* Zədələnmiş və təlatümlü şəxsiyyətlərarası münasibətlər Bordeline Şəxsiyyət Pozuntusunun əlamətidir. Borderline şəxsiyyət pozuntusu olan insanlar tez-tez tərk edilmə qorxusu, sıx əlaqələr və sabit əlaqələri saxlamaqda çətinlik çəkirlər.

*Bipolyar pozuntu:* Ümumiyyətlə, bipolyar pozuntusu olan fərdlərin nisbətən sabit mənlik hissi var, bu, manik və ya depressiv epizodlar zamanı pozula bilər, lakin sonradan həmişə olduğu kimi ilkin vəziyyətə qayıdır [4].

*Borderline şəxsiyyət pozuntusu:* Borderline şəxsiyyət pozuntusu olan insanlar tez-tez xroniki boşluq hissi yaşayır, şəxsiyyət pozuntusu və qeyri-sabit bir mənlik simasına sahib olurlar.

Müalicəsi:

Bipolyar pozuntu: Bipolyar pozuntusu olanlar əsasən xüsusi dərman prepatlarından istifadə etməklə sağala bilərlər. Müxtəlif terapiyalarla da bu simptomu sağaltmaq olar.

*Borderline şəxsiyyət pozuntusu:* Dialektik davranış terapiyası (DBT) və digər psixoterapiya formaları çox vaxt Borderline şəxsiyyət pozuntusu üçün əsas müalicədir. Dərmanlar xüsusi simptomları və psixi problemləri aradan qaldırmaq üçün istifadə edilə bilər.

Simptomların müddəti:

Bipolyar pozuntu: Simptomlar fərqli hallarda baş verir, aralarındakı nisbi sabitlik dövrləri fərqli olur.

Borderline şəxsiyyət pozuntusu: Simptomlar daha xroniki xarakter daşıyır və intensivlikdə müəyyən vaxt aralığında dalğalanmalarla davamlı olaraq mövcud ola bilir [8].

Qeyd etmək vacibdir ki, bu pozuntular arasında aydın fərqlər olsa da, diaqnostik mənzərəni daha da çətinləşdirən proseslər (hər iki pozuntunun bir şəxsdə olması) baş verə bilər. Dəqiq diaqnoz və müvafiq müalicə üçün psixi sağlamlıq mütəxəssisləri tərəfindən peşəkar müəyyənləşdirmə və qiymətləndirmə vacibdir.

Sosial iş fərdlərin, ailələrin, qrupların və icmaların rifahını və həyat keyfiyyətini yaxşılaşdırmağa həsr olunmuş bir peşə sahəsidir. Sosial işçilər sosial problemləri həll etmək, insanları gücləndirmək və sosial ədaləti təşviq etmək məqsədi daşıyır. Sosial işin əsas məqsədi fərdlərin və icmaların qarşılaşa biləcəkləri müxtəlif çətinlikləri və maneələri həll etməklə onların ümumi fəaliyyətini artırmaqdır.

Sosial işçi qanunla müəyyən olunmuş qaydada sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxsdir.

Sosial işçilərə məktəblər, xəstəxanalar, psixi sağlamlıq klinikaları, sosial xidmət agentlikləri, icma təşkilatları və dövlət qurumları daxil olmaqla müxtəlif yerlərdə rast gəlmək olar. Sosial işin sahələri genişdir, klinik sosial iş, tibbi sosial iş, məktəbdə sosial işi və s. kimi müxtəlif ixtisasları əhatə edir. Sosial işin əsas məqsədi fərdlərin və icmaların ümumi rifahını və sosial fəaliyyətini artırmaqdır.

Psixi sağlamlıq sosial işçiləri əsasən narkotik və ya alkoqoldan sui-istifadə və yemək pozuntusu, klinik depressiya və posttravmatik stress pozuntusu (PTSP) psixi sağlamlıq vəziyyətləri kimi asılılıq yaradan davranışları aradan qaldırmaq üçün mübarizə aparan pasiyentlərlə məşğul olurlar. Psixi sağlamlıq sosial işçiləri işə götürülərkən əsasən aşağıdakı amillər nəzərə alınır:

Pasientlərlə münasibətlərin qurulması və əlaqələrin yaradılması;

Pasientlərin psixi sağlamlıq ehtiyaclarının qiymətləndirilməsi;

Pasientlər üçün psixi sağlamlıq resurslarının tədqiqi, məsələn, narkotik maddələrdən istifadənin reabilitasiyası proqramları və intiharın qarşısının alınması resursları;

Pasiyentlərə onların xüsusi ehtiyaclarına əsaslanan resurslar haqqında məlumatların verilməsi.

**Psixi sağlamlıqda sosial işin müxtəlif rolları**

Sosial işçilərin psixi sağlamlıqdakı rollarına psixi sağlamlıq araşdırması, müalicə və qarşısının alınması daxildir. ABŞ Əmək Statistikası Bürosunun (BLS) məlumatına görə, psixi sağlamlıq və narkotik maddələrdən sui-istifadə sahəsində ixtisaslaşmış sosial işçilərə tələbat getdikcə artır – bu rollarda məşğulluğun 2020-2030-cu illər arasında 12% artacağı gözlənilir.

Daha çox insan ruhi xəstəlikləri, davranış pozuntuları və emosional çətinliklər üçün müalicə axtardıqca, ixtisaslı psixi sağlamlıq mütəxəssislərinə ehtiyac artmağa davam edəcəkdir. Psixi Xəstəliklər üzrə Milli Alyansın araşdırması müəyyən etdi ki, ABŞ-da hər 5 yaşlıdan 1-i ruhi xəstəlik keçirir və bu, mühüm bir sual doğurur: Sosial işçilər fərdlərin və müxtəlif icmaların psixi sağlamlığını hansı imkanlarla fəal şəkildə dəstəkləyirlər?

**Klinik sosial işçilər**

Klinik sosial işçilər psixi xəstəlikləri olan xəstələrə onların vəziyyətini qiymətləndirmək, diaqnoz qoymaq və müalicə etmək üçün öz bilik, bacarıq və təcrübələrindən istifadə edirlər. Psixologiyada standart təcrübələrdən fərqli olaraq, klinik sosial iş pasientinin fiziki, əqli və emosional rifahına təsir edən ətraf mühit və sosial amilləri nəzərə alır. Bu vahid yanaşma, bu cür problemləri boşluqda müalicə etməkdənsə, fərdin ümumi psixi sağlamlıq problemlərinə töhfə verən əsas çətinlikləri həll etməyə çalışır.

Klinik sosial işçilər narkotik maddələrdən sui-istifadə və asılılıqdan uşaqlıq travması və davranış pozuntusuna qədər genişspektrli psixi sağlamlıq problemlərini həll edirlər. Bu əhatə onlara müxtəlif təcrübə parametrlərində işləməyə və çox fərqli ehtiyacları olan xəstələrə kömək etməyə imkan verir.

**Necə psixi sağlamlıq sosial işçisi olmaq olar?**

Psixi sağlamlıq sosial işçisi karyerasını davam etdirmək, xüsusən də klinik rollar üçün bir sıra təhsil və peşəkar keyfiyyətlər tələb edir. Bu sahədə iş tapmaq üçün ən ümumi addımlar aşağıdakılardır:

**1. Sosial iş sahəsində bakalavr dərəcəsi qazanmaq**

Əksər sosial işçilər sosial iş, psixologiya və ya ictimai sağlamlıq kimi digər müvafiq sahədə bakalavr dərəcəsi qazanmaqla başlayır. Bu tip bakalavr proqramları psixi sağlamlıq konsepsiyalarında və sosial xidmətlərin rolunda güclü bir təməl təmin edə bilər ki, bu da təcrübə əldə etmək üçün vacibdir. Məzun olduqdan sonra bəzi tələbələr real dünya təcrübəsi qazanmaq üçün işçi qüvvəsinə daxil olmağı seçir, digərləri isə qabaqcıl dərəcə proqramına daxil olurlar.

**2. Magistr dərəcəsini tamamlamaq**

Sosial iş magistri (MSW) qazanmaq istəyən tələbələrə müxtəlif mühitlərdə mürəkkəb problemləri həll etməyə, ruhi xəstəlikləri müalicə etməyə və psixi sağlamlıq problemlərinə töhfə verən əsas sosial və ətraf mühitə təsirləri nəzərə almağa hazırlayır.

**3. Nəzarət olunan klinik saatları tamamlamaq**

MSW (Magistr sosial iş) ilə məzun olduqdan sonra, sosial işçilər təcrübə əldə etməzdən əvvəl öz biliklərini və iş təcrübələrini nümayiş etdirməlidirlər [6].

Sosial işçi kimi bipolyar pozuntusu olan şəxslərlə işləyərkən, rolunuza empatiya, anlayış və dəstək vermək öhdəliyi ilə yanaşmaq çox vacibdir. Fərdin öhdəsindən gəlmək bacarıqlarını və özünüidarəetmə strategiyalarını inkişaf etdirməyə kömək edin. Onları müalicə planında və qərar qəbul etmə proseslərində fəal iştirak etməyə həvəsləndirin. Bir sosial işçi kimi bipolyar pozuntusu və Borderline şəxsiyyət pozuntusu olan şəxsləri xoşbəxt həyat sürmək üçün onlara özgüvənli olmağı öyrətmək və onları hər halı ilə dəstəkləmək lazımdır. Bu işə şəfqətlə yanaşmaq və bu psixi xəstəliyi hərtərəfli başa düşməklə, onların rifahına müsbət təsir göstərmək lazımdır.

**Nəticə**

Qeyd etmək vacibdir ki, sosial işçilər, davranış problemi olan tələbələrə məsləhət verməkdən tutmuş, narkotik maddələrdən sui-istifadə ilə mübarizə aparan insanlar üçün müalicə planlarının hazırlanmasına qədər, ictimaiyyətə birbaşa xidmətlər göstərir. Bu praktiki dəstək müxtəlif mədəni və sosial-iqtisadi mənsubiyyətlərdən olan saysız-hesabsız insanlara öz sağlamlıqlarına və rifahlarına cavabdeh olmağa

kömək edir və daha yüksək həyat keyfiyyətinin yaranmasına səbəb olur.

Borderline şəxsiyyət pozuntusundan və bipolyar pozuntudan əziyyət çəkən şəxslər üçün sosial işçilər nə etməlidirlər, necə davranmalıdırlar bu məqalədə öz əksini tapmışdır.

**Açar sözlər:** *sosial iş, bipolyar pozuntu, depressiya, stress, borderline şəxsiyyət pozuntusu.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Miklowitz, D. J., & Porta, G. (2020). Family-Focused Treatment for Adolescents With Bipolar Disorder: A Randomized Controlled Trial. Journal of the American Academy of Child & Adolescent Psychiatry, 59(6), 686–695.*

*2. Goodwin, F. K., & Jamison, K. R. (2007). Manic-depressive illness: Bipolar disorders and recurrent depression (2nd ed.). Oxford University Press.*

*3. Yatham, L. N., Kennedy, S. H., Parikh, S. V., Schaffer, A., Bond, D. J., Frey, B. N., ... & Berk, M. (2018). Canadian Network for Mood and Anxiety Treatments (CANMAT) and International Society for Bipolar Disorders (ISBD) 2018 guidelines for the management of patients with bipolar disorder. Bipolar Disorders, 20(2), 97-170.*

*4. Fountoulakis, K. N., Yatham, L., Grunze, H., Vieta, E., Young, A., Blier, P., & Kasper, S. (2017). The International College of Neuro-Psychopharmacology (CINP) Treatment Guidelines for Bipolar Disorder in Adults (CINP-BD-2017), Part 2: Review, Grading of the Evidence, and a Precise Algorithm. The International Journal of Neuropsychopharmacology, 20(2), 121–179.*

*5. Berk, M., Dodd, S., Kauer-Sant'Anna, M., Malhi, G. S., Bourin, M., Kapczinski, F., & Norman, T. (2007). Dopamine dysregulation syndrome: implications for a dopamine hypothesis of bipolar disorder. Acta Psychiatrica Scandinavica, 116(s434), 41-49.*

*6. Bateman, A., & Fonagy, P. (2006). Mentalization-Based Treatment for Borderline Personality Disorder: A Practical Guide. Oxford, UK: Oxford University Press.*

*7. Gunderson, J. G., & Links, P. S. (Eds.). (2008). Handbook of good psychiatric management for borderline personality disorder. Washington, DC: American Psychiatric Publishing.*

*8. Paris, J. (2008). Treatment of borderline personality disorder: A guide to evidence-based practice. New York, NY: Guilford Press.*

**Ulviyya Elyazova**

**Social work wıth people with mental health dısabilities: social work with people with bipolar and borderline personality disorder**

## SUMMARY

The article refers to bipolar disorder, formerly known as manicdepressive illness, a mental health problem characterized by extreme mood swings or symptoms of mania and depression. Borderline Personality Disorder (BPD) is a mental health condition characterized by widespread patterns of instability in interpersonal relationships and emotions. Social workers are thought to play an important role in supporting individuals with borderline personality disorder (BPD) and bipolar disorder. Their interventions often focus on providing emotional support, connecting individuals to appropriate resources, and promoting general well-being.

**Keywords:** *social work, bipolar disorder, depression, stress, borderline personality disorder.*

**Ульвия Элязова**

**Социальная работа с людьми с ограниченными возможностями психического здоровья: социальная работа с людьми с биполярным и пограничным расстройством личности**

## РЕЗЮМЕ

В статье говорится о биполярном расстройстве, ранее известном как маниакально-депрессивное заболевание, проблеме психического здоровья, характеризующейся резкими перепадами настроения или симптомами мании и депрессии. Пограничное расстройство личности (БЛД) - это состояние психического здоровья, характеризующееся широко распространенными проявлениями нестабильности в межличностных отношениях и эмоциях. Считается, что социальные работники играют важную роль в поддержке людей с пограничным расстройством личности (БЛД) и биполярным расстройством. Их вмешательства часто направлены на оказание эмоциональной поддержки, подключение людей к соответствующим ресурсам и содействие общему благополучию.

**Ключевые слова:** *социальная работа, биполярное расстройство, депрессия, стресс, пограничное расстройство личности.*

UOT 101.1:316
DOI:10.30546/3006-0346.2024.2.80.2108976

# YAPONİYADA MÜHARİBƏDƏN SONRAKI "SIÇRAYIŞLI İNKİŞAF"IN XÜSUSİYYƏTLƏRİ

**ZÜMRÜD HÜSEYNOVA**
*Azərbaycan Milli Elmlər Akademiyası*
*Fəlsəfə və Sosiologiya İnstitutu, doktorant*
*E-mail: zumrud.huseynova2023@gmail.com*

## Giriş

Post-müharibə dövründə modernləşmə prosesi tədrici islahatlarla müşayiət olunan bir mərhələdir. Müharibə elə bir sosial və siyasi hadisədir ki, burada ədalətli və qalib tərəfin də itkiləri qaçılmazdır. Müəyyən mənada müharibə inqilabi xüsusiyyətə malikdir, belə ki, mövcud olanlar tamamilə dağıdılır və post-müharibə dövründə bir çox hallarda bərpa deyil, quruculuq prosesinə başlanılmalı olur. Post-müharibə dövründə quruculuq və ya modernləşmə mərhələsi müharibədən əvvəlki təsərrüfatın və infrastrukturun təkrarlanmasını deyil, gələcək yönümlü, daha innovativ inkişafı nəzərdə tutur. Sosial tarixi təcrübə bir çox ölkələrin post-müharibə dövrü modernləşməsi və böyük nailiyyətlər əldə etdiyini sübut edir. Post-müharibə dövründə uğurlu modernləşmə siyasəti reallaşdıran və model təqdim edən ölkələr sırasında dünyanın inkişaf etmiş ölkələrindən olan Yaponiyanın təcrübəsi xüsusi maraq kəsb edir. Belə ki, Yaponiya tamamilə dağıdılmış ərazilərdə innovativ inkişaf texnologiyalarının tətbiqi sayəsində qısa zaman müddətində böyük nailiyyətlər əldə etmişdir.

## Müharibədən sonra Yaponiyada modernləşmənin inkişaf tarixi

II Dünya müharibəsindən sonra Yaponiya xalqı sosial məhrumiyyətlərlə yanaşı ideoloji cəhətdən də çaşqınlıq və təşviş içində idilər. Onların Yaponiyanın ilahi üstünlüyünə və məğlubedilməzliyinə olan inamları ciddi şəkildə sarsıdılmışdı. Yaponiyada müharibə bitdikdən sonra, 1946-cı ildə sosial çatışmazlıqlarla bağlı yaşayış ən aşağı səviyyədə idi. "Qida qıtlığı əhalinin aclıqdan ölməsi təhlükəsini yaratmışdı..., işsizlik ciddi problemə çevrilmişdi. İşsizliyin 10 milyona çatacağı gözlənilirdi. Bununla belə, nə kütləvi aclıq, nə də kütləvi işsizlik baş vermədi, ...əhalinin kənd təsərrüfatı ilə məşğul olması ...müvəqqəti iş yerləri və qida mübadiləsi mexanizmini təmin etmiş oldu" [1, s 119].

Post-müharibə dövründə modernləşmənin ilkin mərhələsi (1945-1970-ci illər) çox ağır və ən uzun mərhələni əhatə edir. Birinci mərhələdə Yaponiya Şimali Amerika və Avropa ölkələrinin inkişaf xüsusiyyətlərini mənimsəyərək daha uğurlu nəticələrə nail olmağa hədəflənmişdi. Qeyd edilməlidir ki, Yaponiyaya xas korporativizm ənənələri məqsədlərə çatmanın başlıca amili oldu.

İlkin mərhələdə Yaponiya dövləti modernləşmənin hüquqi əsaslarını möhkəmləndirməyə başladı. 1945-ci ilin oktyabrından 1946-cı ilin mayına qədər Şidehara hökuməti qadınların hüquqlarını qəbul etməli və "iqtisadi sistemin demokratikləşdirilməsi" ilə bağlı daha açıq və barışdırıcı yanaşmaları təşviq etməli olan iqtisadi bərpaya imkan verməli idi. Şideharanın "senso naki sekai" ("müharibəsiz dünya") fəlsəfəsi təkcə siyasi deyil, həm də sosial iqtisadi modernləşməni nəzərdə tuturdu.

XX əsrin 40-cı illərində hökumət inflyasiyadan çıxmaq üçün sabitləşdirmə və yenidənqurma layihəsini reallaşdırmağa başladı. Yaponiyada bu layihəni həyata keçirmək üçün 1949-cu ildə modernləşməyə yönəlmiş doqquz bəndlik Dodge Line planı qəbul edildi."Məqsəd Yaponiyanın müharibədən sonrakı iqtisadi mövqeyini unikal vəziyyətdə qurmaq idi" [2, s 6]. Beləliklə, Yaponiya dövləti tərəfindən iqtisadi planlaşdırma müharibədən sonra 1949-cu ilə qədər davam etdirildi. Böhran vəziyyətində iqtisadi nəzarət iflic olmuş özəl sektorun fəaliyyətini əvəz etmiş oldu. Müharibə dövründə olduğu kimi, ehtiyaclar paylanmağa davam etdi və hökumət istehsal və giriş materiallarının tədarükünə rəhbərlik edirdi. Qiymətlərə dövlət nəzarəti ciddi idi, subsidiyalar verilirdi və iqtisadiyyat hələ də sərt şəkildə tənzimlənirdi. Fiskal kəsirin monetizasiyası nəticəsində 1946-cı ildə ölkədə inflyasiya pik həddinə çatdı. Belə bir şəraitdə Yaponiyada islahatlar prosesi başlandı. Bu prosesdə ilk məqsəd Yaponiyanın demilitarizasiyası və demokratikləşdirilməsi idi. General MacArthurdan Yaponiyanın iqtisadi bərpasını təşviq etmək tələb olunmadı. "Soyuq müharibə"nin dərinləşməsi və Asiyada bambuk pərdəsinin yaranması artıq 1947-ci ildə başlamışdı və Amerika Yaponiyanın işğalı siyasətini iqtisadi yenidənqurma və Sakit okeanda sənaye gücünün qurulmasını təşviq etmək siyasətinə dəyişdi.

"Bu dövrdə Yaponiyada üç böyük iqtisadi islahatlar – torpaq islahatı, zaibatsunun (ailə əsaslı, böyük

sənaye və maliyyə şirkətləri) ləğvi və əmək islahatı ilə bağlı idi" [3, s 4-8]. Torpaq islahatı çərçivəsində torpaqdan istifadə etməyən ev sahiblərinin bütün əkin sahələri və müəyyən həddən yuxarı olan təsərrüfat sahələri müsadirə edildi və faktiki əkinçilərə satıldı. Zaibatsu dağılması nəticəsində qrup şirkətləri ayrı-ayrı qurumlara bölündü. Əmək islahatları – yeni əmək qanunlarının qəbulu, həmkarlar ittifaqlarının təşkili, kollektiv sövdələşmələr və əsas iş şəraiti ilə bağlı hüquqlara zəmanət verilməsini nəzərdə tuturdu.

**Yapon möcüzəsinin doğuşu**

XX əsrin 40-cı illərinin sonlarına doğru ölkədə şəhər həyatı canlanmağa başladı. Yoxsulluğun 1950-ci illərə qədər davam etməsi cəmiyyətdə məyusluğun artmasına gətirsə də, 1950-53-cü illərdən etibarən Yaponiyada maddi həyat inkişafa başladı. Cənubi və Şimali Koreya dövlətləri arasında 1950-1953-cü illər müharibəsi səbəbindən Yapon mallarına və xidmətlərinə tələbat genişləndi. 1957-1960-cı illərdə Yaponiyanın iqtisadiyyatı müharibədən əvvəlki səviyyəyə çatdı. 1960-cı illərdə Yaponiyanın artım tempi intensivləşdi və Yaponiya iqtisadiyyatı dünyanın ən böyük iqtisadiyyatlarından birinə çevrildi.

Bu dövrdə Yaponiyanın sosial iqtisadi inkişafına ABŞ nəzarət edirdi. Yaponiya ilə ABŞ arasındakı ticarət münaqişələri 1930-cu illərə – yapon tekstil məhsullarının ABŞ-a ixracının artmasının haqsız rəqabət ittihamlarına səbəb olduğu vaxta təsadüf edir və iki dövlət arasındakı bütün münaqişələr Yaponiyadan ABŞ bazarına idxalın artması ilə bağlı olub. Birləşmiş Ştatlarla müharibədən sonrakı ticarət münaqişələri 1950-ci illərin ortalarında Yapon pambıq tekstil idxalının artması ilə başladı. ABŞ hökuməti idxal kvotaları tətbiq etmək kimi birtərəfli tədbirlər görmək əvəzinə, Yaponiyadan ixracına məhdudiyyət qoymağı xahiş etdi. Bu, könüllü ixrac məhdudiyyətlərinin uzun tarixinin başlanğıcı idi. 1950-ci illərin sonu və 1980-ci illərin əvvəlləri arasında Yaponiya və ABŞ hökumətləri 1970-ci ildə Yaponiya-ABŞ Tekstil Sazişləri və 1977-ci ildə rəngli televizorlar üzrə nizamlı marketinq sazişi də daxil olmaqla, ixracın məhdudlaşdırılmasına dair bir sıra rəsmi razılaşmalar əldə etdilər. "Bu razılaşmaların məqsədi Yaponiya ixracının artması nəticəsində yaranan ticarət münaqişələrini həll etmək idi".[4]

Ümumiyyətlə, lap ilk dövrlərdən ABŞ Yaponiyanı öz müstəmləkəsinə çevirməyə və burada Amerika nümunəsinə uyğun inkişaf modeli qurmağa çalışırdı. Lakin Şərq – Qərb qarşıdurmasında Şərq ənənələri üstün gəldi və Yaponiya iqtisadiyyatı yerli ənənələr üzərində modernləşmə prosesi keçmiş oldu. Məhz bu sıçrayışlı inkişaf Yaponiya modelinin formalaşmasına əsas oldu. Mitsui, Mitsubişi, Fudzi, Sanva və Dayiti kimi ailə şirkətlərinin inkişafı və ABŞ sərmayələri Yaponiyanın böhranlı vəziyyətdən çıxmasına və hətta qısa bir zamanda inkişafa nail olmasına gətirib çıxardı.

Post-müharibə dövründə Yaponiyada modernləşmənin əsas göstəricisi kimi dövlət idarəçiliyində edilən dəyişikliklərlə yanaşı sosial islahatların keçirilməsinə də başlandı.

Sosial islahatlar içərisində təhsil sahəsində həyata keçirilən fəaliyyət mexanizmləri diqqət çəkir. Yaponiyada İkinci Dünya Müharibəsindən sonra icbari təhsilin genişləndirilməsi və orta məktəbə və universitetlərə qəbul nisbətlərinin artmasının müharibədən sonrakı dövrdə iqtisadi artıma töhfə verdiyi güman edilir. Müharibədən sonrakı ilk dövrlərdə iqtisadi və sosial inkişafın tələblərini ödəmək üçün təhsil sistemləri tez-tez dəyişdirilirdi. Orta təhsil müəssisələri orta məktəb, qız liseyi, peşə məktəbi, peşə əlavə məktəbi və normal məktəbdən ibarət idi. Ali təhsil ixtisas məktəbi, ali məktəb, universitet və ali normal məktəbdən ibarət idi. Bundan başqa, orta və ali məktəblərdə çoxlu hazırlıq və xüsusi kurslar fəaliyyət göstərirdi.

Göründüyü kimi, müasir Yaponiya inkişaf etmiş ölkələr qrupuna daxil olmaq üçün çox uzun bir post-müharibə prosesi – əsaslı islahatlar dövrü keçmişdir. Yaponiyanın post-müharibə dövründə modernləşmə modeli bir çox dünya dövlətləri üçün əhəmiyyətli təcrübədir.

M.E.Porterə görə, müharibədən sonra Yaponiyanın modernləşməsi prosesi və özünəxas dövlət modelinin üstünlüyü aşağıdakılarla bağlı olmuşdur:

1. "sabit bürokratiya və aktiv mərkəzi hökumət;
2. körpə sənayeləri və yüksək xarici fayda verən sənayeləri qorumaq üçün birbaşa xarici investisiyaları məhdudlaşdırmaq;
3. həddindən artıq rəqabəti və potensialı minimuma endirmək üçün antiinhisar tətbiqini zəiflətmək;
4. Milli aparıcı şirkətlərin yaradılması, iqtisadi artımı stimullaşdırmaq üçün prioritet sahələrin hədəflənməsi;
5. Dövlət tərəfindən idarə olunan sənayenin yenidən qurulması;
6. Kartellərin rəsmi məhdudlaşdırılması ilə sənayenin qorunub saxlanması;
7. Çətinlikdə olan şirkətləri xilas etmək, iqtisadi artımı stimullaşdırmaq üçün prioritet sənayeləri hədəfləmək;

8. İxracın aqressiv təşviqi;

9. İntensiv rəhbərlik, təsdiq tələbi və lisenziya tətbiqi;

10. Daxili bazarın intensiv qorunması və yerli firmaların seçilmiş sənaye sahələrində xarici rəqiblərə çatmasına imkan verən sağlam makroiqtisadi siyasət" [5,s 12].

Yaponiyada iqtisadiyyatın inkişaf göstəriciləri ölkədə kənd və sənaye təsərrüfatlarının yüksəlişində fərqli göstəricilər təqdim edir. Statistika kənd təsərrüfatının kiçildiyini deməyə əsas verir. Tədqiqatlar göstərir ki, 1952-1973-cü illər arasında əhalinin say göstəricilərindəki dəyişikliklər, yəni əhalinin sayının azalması kənd təsərrüfatının zəifləməsinə birbaşa təsir göstərən amil olmuşdur.

Xüsusilə də 1970-ci illər Yaponiya üçün əhəmiyyətli iqtisadi, sosial və mədəni dəyişikliklərlə bağlı transformasiya dövrü idi. Bu dövrdə Yaponiyanın "iqtisadi möcüzəsi"nin – yüksək artım tempi mərhələsinin – başa çatması və daha sabitləşmiş Yaponiya iqtisadiyyatına keçidi ilə əlamətdar olmuşdur. Məhz bu dövrdə Yaponiyada demokratik idarəçilik və bazar iqtisadiyyatı formalaşmış oldu.

"Elektronika sənayesinin inkişafı sayəsində 1952-ci ildən 1973-cü ilə qədər yaponların sosial həyatında iki böyük dəyişiklik baş verdi. Birincisi, yapon əhalisinin statistik göstəricilərini sabitləşdirən doğum nisbətinin əhəmiyyətli dərəcədə azalması idi. İkincisi, əhalinin kənddən şəhər mərkəzlərinə köçməsi idi. Doğuşa nəzarətlə yanaşı, daha yüksək təhsilli əhali, təhsil və məşğulluq lehinə nikahın təxirə salınması və erkən yetkinlik dövründə daha çox müstəqillik istəyi kimi amillər istehsalatın inkişaf göstəricilərinin dəyişməsinə kömək etdi. Yapon cütlüklər inanırdılar ki, daha az uşaq sahibi olmaq onların iqtisadi maraqlarına uyğundur. Bu dövrdə əhali artımının azalmasına baxmayaraq, Yaponiya dünyanın ən sıx məskunlaşdığı ölkələrindən biri olaraq qaldı" [6,].

Beləliklə, XX əsrin 50 – 70-ci illəri Yaponiyada elm və texnikanın yeni istiqamətli inkişafı mərhələsi kimi sosial həyata əsaslı təsir etmişdir. Məhz bu dövrdə televiziyanın meydana çıxması və ideoloji vasitəyə çevrilməsi şəhər və kənd əhalisinin dünyagörüşlərinin yaxınlaşmasına, Qərb mədəniyyətinin Yaponiyaya daxil olmasına və kütlə mədəniyyətinin formalaşmasına təsir etmiş oldu. Qərb mədəniyyəti yapon ailə modelinə də əsaslı təsir edə bildi. Yapon qadınlar patriarxal ailə münasibətlərinə etiraz olaraq təhsil almağa, işləməyə, daha yaxşı yaşamağa, daha az övlad dünyaya gətirməyə, bir sözlə, modernləşməyə çalışırdılar. Şəhərlərin kəndlərə köçürülməsi prosesi eqalitar ailə formasının genişlənməsinə, o cümlədən yaponların özünü təyin etməsində dəyişikliklərə səbəb oldu.

Əhalinin artımı azaldıqca və iqtisadiyyat genişləndikcə, Yaponiya əhalisi kənd təsərrüfatından uzaqlaşaraq şəhərlərə axın etdilər. Yaponiyada bu dövrdə daxili miqrasiyanın və ya urbanizasiyanın genişlənməsinin nəticəsi olaraq demoqrafik göstəricilərdə əsaslı dəyişikliklər baş verdi. Belə ki, əgər kənd sakinləri 1945-ci ilə qədər ölkə əhalisinin təxminən 50 faizini təşkil edirdilərsə, 1970-ci ildə bu göstərici 20 faizdən də aşağı olmuşdur. Bu proses həm kənd, həm də şəhər həyatında əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Sənaye maqnatları mərkəzi şəhərlərdən kənar regionlarda fabrik və zavodlar inşa etməyə başladılar. Bu deurbanizasiyaya gətirdi, həmçinin kəndin sosial infrastrukturunda əsaslı dəyişikliklərlə sonlandı, məşğulluq problemi həll edilmiş oldu. Yaponiya kəndləri şəhər siması və infrastrukturu əxz etmiş oldu. Kənd təsərrüfatı mexanikləşdi və kommersiyalaşdırıldı. Yaponiya kəndlərində sərt örtüklü yollar çəkildi, beton məktəblər, fabriklər tikildi, kəndli arabalarını avtomobillər və köhnəlməyən samandan tikilmiş evləri təsərrüfat avadanlığı üçün satış məntəqələri əvəz etdi.

Beləliklə, deyə bilərik ki, müharibədən sonrakı dövrdə Yaponiya – 1945-ci ildə hərbi məğlubiyyətin xarabalıqlarından qurtulmaqdan tutmuş 1968-ci ilə qədər özünü dünyanın ikinci ən böyük iqtisadiyyatına çevirənə qədər – istənilən müasir cəmiyyətin ən radikal sosial və iqtisadi transformasiyalarından bəzilərini yaşamışdır.

Yaponiya iqtisadiyyatının yenidən qurulması və canlandırılmasının mərkəzində və dövlətin sosial-iqtisadi gündəliyində sürətli modernləşmə siyasəti dayanırdı. Sosial-iqtisadi dəyişikliklər və yapon iqtisadiyyatının yenidən qurulması strategiyası müharibədən sonrakı yapon cəmiyyətinin əsas kursunu səciyyələndirən başlca element, "modernləşmə"nin "qərbləşmə" ilə eyniləşdirilməsi, qərbin "qabaqcıl" dövlətlərini ötüb keçmək üçün göstərilən səylər təşkil edirdi. Yaponiyanın inkişafında maraqlı olan ABŞ burada öz mədəniyyətini, iqtisadi inkişaf xüsusiyyətlərini və siyasi idarəçilik formasını yaymaq və möhkəmləndirmək niyyətində idi.

"Bu dövrdə makroiqtisadi sahədə əsas maneə sərmayə çatışmazlığı idi. Hökumət sürətli iqtisadi inkişaf üçün vəsaitləri əsas sənaye sahələrinə yönəldən sistem yaratdı. Mikroiqtisadi cəbhədə "Yapon tərzi bazar sistemi" – iqtisadi agentlər arasında uzunmüddətli əlaqələrin qurulmasını vurğulayan sistem formalaşdı. Bu sistem uzunmüddətli məşğulluq, müəssisələr və digər maliyyə institutları ilə qarşılıq-

lı səhmlərə əsaslanan korporativ idarəetmə və bank sistemi üzərində qurulmuşdu və Yaponiyanın sənayeləşmiş iqtisadiyyatlarla "yaxalanmasında" mühüm rol oynayırdı" [7].

Belə qənaətə gəlmək olar ki, müharibədən sonrakı islahatlar Yaponiyanın tarixi inkişafında taleyüklü rol oynamışdır.Yaponiya iqtisadiyyatının uğurlu modernləşməsi onun özünəxas, ənənələrə istinad edən inkişaf siyasətilə əlaqəli idi. Yaponiya iqtisadi inkişaf modelinin başlıca amilləri milli maraqlara uyğun makroiqtisadi sabitlik, insan resurslarının inkişafı və sosial iqtisadi infrastrukturun qurulması ilə bağlı olmuşdur.

Sosial və iqtisadi həyatda baş verən irəliləyişlər bu dövrün "yapon möcüzəsi" adlandırılmasına səbəb olmuşdur. Lakin Yaponiya iqtisadiyyatının sürətli inkişafı XX əsrin 70-ci illərindən başlayaraq zəifləməyə başladı.

XX əsrin 80-ci illərinin sonlarına doğru Yaponiyanın inkişafında davamlı sabitlik izlənilirdi. Bu proses, ilk növbədə, qeyd edilən dövrdə qlobal inflyasiya prosesi ilə bağlı olmuşdur və Yaponiyanın iqtisadi bağlılığı olan ölkələrin və ilk növbədə ABŞ-ın iqtisadi vəziyyətindəki dəyişikliklər Yaponiyaya təsirsiz ötüşmürdü.

1990-cı illərin əvvəllərində köpüklü iqtisadiyyatın partlamasından əvvəl Yaponiya gözəçarpan iqtisadi nailiyyəti və iqtisadi inkişafa unikal yanaşması ilə Şərqi Asiyada iqtisadi lider idi. Xüsusi olaraq qeyd edilməlidir ki, Yapon iqtisadiyyatının möcüzəsi ilk növbədə sosial kapitalın davamlı inkişafı problemilə sıx şəkildə bağlıdır. Putnam və Fukuyamanın sosial kapital ilə bağlı irəli sürdükləri nəzəriyyələr yapon cəmiyyətinin inkişaf xüsusiyyətlərinin aydınlaşdırılmasına imkan yaradır.

Putnam (1993) tərəfindən irəli sürülən nəzəriyyəyə əsasən sosial kapital demokratiyanın inkişafına və fəaliyyətinə imkan verir. Fukuyama (1995) tərəfindən irəli sürülən konsepsiya isə sosial kapitalın inkişafının rifah yaratmağa imkan verir.

XX əsrin 90-cı illərində iqtisadiyyatda müxtəlif sosial inkişaf modellərinin yerli şəraitə uyğunlaşdırılaraq tətbiqi prosesi Yaponiya hökumətinin nəzarəti altında reallaşdırılırdı.

1970 – 80-ci illərdə Yaponiyanın gəliri ABŞ-nin gəlirindən yüksək olsa da yapon xalqı 1990-cı illərdə amerikalılardan daha yüksək yaşayış səviyyəsinə malik deyildi. Bu həm də XX əsrin 90-cı illərində SSRİ-nin dağılması və qlobal böhran prosesi ilə bağlı olmuşdur.

**XXI əsr – Yaponiyada yenidən sıçrayışlı inkişaf mümkündürmü?**

Ümumiyyətlə XX əsrin 90-cı illəri Yaponiya tarixində itirilmiş onillik kimi səciyyələndirilir. Belə ki, 1990 – 2000-ci illərdə ölkənin məruz qaldığı qloballaşma prosesi yapon milli şüurunun sosial-mədəni böhranı haqqında fikirlərin formalaşmasına əsas oldu. Həmin dövrdə Yaponiya Qərb meyillərini kənarlaşdırmadan ənənəvi dəyərlərə sadiqlik yolunu seçdi. Bu, Meydzi hökuməti dövründə keçirilən islahatları xatırladırdı, belə ki, proses bir tərəfdən yerli adət-ənənələrin qorunub saxlanması, digər tərəfdən isə açıq cəmiyyət olaraq, fikir plüralizminin qəbul edilməsi və qərb dünyagörüşünün təsdiq edilməsi xüsusiyyətinə malik idi. ""Üçüncü transformasiya" dövrü kimi səciyyələnən bu mərhələdə yapon cəmiyyəti postmodern xüsusiyyətlər əxz etməyə, post-qeyri-klassik cəmiyyətin yeni riskləri ilə üzləşməyə, təhrif olunmuş siyasi məlumatların müştərisinə, tənzimləyicisinə və istehlakçısına çevrilməyə başladı" [8, s 145-158].

XX əsrin 90-cı illərində həddindən artıq investisiyalar, həddindən artıq məşğulluq, həddən artıq kreditləşmə və həddindən artıq borclanma problemli kreditlərin artmasına səbəb olmuşdu. Düzəlişin gecikməsi uzunmüddətli durğunluq, davamlı deflyasiya və maliyyə böhranları ilə nəticələndi. Bu da öz növbəsində yapon dövlətinin daxili borcunun həddindən artıq artmasına səbəb oldu.

1990-cı illərdə köpük iqtisadiyyatının partlaması nəticəsində tənəzzülə uğrayan Yaponiya iqtisadiyyatında aktivlərin yenidən bölüşdürülməsi və rəqabətin zəiflədilməsi ilə bağlı keçirilən islahatların əsas mövzusu "sosial-demokratiya ilə vida" idi. Təbii ki, Yaponiyada sosial-demokratiya "imitasiya" xüsusiyyətinə malik kvazi-sosial demokratiya idi. Yaponiyada rifah və sosial təminat proqramlarına ayrılan milli büdcənin faizi Avropa ölkələri ilə müqayisədə aşağı idi. Ölkədə işçi qüvvəsi kimi qadınların dəstəklənməsi siyasəti də çox zəif olmuşdur. Post-müharibə dövründə Yaponiyada sabit məşğulluğun təmin edilməsi cəhdləri uğurla nəticələndi.

XXI əsrin əvvəllərində Yaponiya həm daxili, həm də xarici mühitdə müxtəlif aspektlərdə bir sıra mühüm problemlərlə üzləşdi. Bu çətin məsələləri həll etmək üçün Abe administrasiyası əhatəli və mürəkkəb iqtisadi plana, yəni "Böyümə strategiyası"na start vermişdir. Bu strategiyada ölkənin bütövlükdə inkişafı başlıca məqsəd olaraq müəyyənləşdirilmişdir. Belə ki, regional qeyri-bərabərliyin sosial-iqtisadi nəticələri XXI əsrin ilk onilliklərində Yaponiyanın

ciddi inkişaf problemlərindən biri olaraq nəzərə çarpmaqdadır. Regional iqtisadi siyasətdə müəyyən uğurlara baxmayaraq, ərazi iqtisadi proporsiyalarının əsas kəmiyyət göstəriciləri son 30 ildə az dəyişmişdir. Yaponiyada əhali sıxlığı problemi aktual olaraq qalır.

XXI əsr Yaponiyada əhalinin say artımının aşağı düşməsi belə yaşayışla bağlı sıxlıq problemini həll edə bilməmişdir. 2005-ci il Yaponiya əhalisinin inkişafında dönüş nöqtəsidir. “2005-ci ildə Yaponiya mənfi əhali artımı dövrünə qədəm qoymuşdur. Onun 2004-cü ildəki zirvəsindən (127,768 milyon) 2025-ci ilə qədər 119,270 milyona, 2050-ci ilə qədər isə 95,152 milyona düşəcəyi proqnozlaşdırılır. Yaponiya əhalisinin azalması ilə yanaşı, həm də sürətli qocalma prosesi ilə üzləşir. Yaşlılıqdan asılılıq əmsalının, yəni 65 yaş və yuxarı əhalinin əmək qabiliyyətli əhalinin nisbətinə (15-64 yaş) nisbətinin 2005-ci ildəki 30,5 faizdən 2025-ci ilə qədər 51,2 faizə yüksələcəyi proqnozlaşdırılır. 2050-ci ilə qədər 76,4 faiz. Əhalinin qocalması və kiçilməsinin xüsusilə ölkənin sosial təminat sisteminə təsiri çox böyük olacaq”.[9]

Demoqrafik dəyişikliklərin iqtisadiyyata təsiri imkanlarını nəzərə alaraq Yaponiya hökuməti 1990-cı illərdən başlayaraq sosial kapitalın inkişafının başlıca istiqaməti kimi fasiləsiz təhsil alma siyasətini reallaşdırmağa başlamışdır. Həqiqətən fasiləsiz təhsil siyasəti yapon cəmiyyətinin və iqtisadiyyatının yeni istiqamətli inkişafına səbəb olmuşdur. Bu siyasətdə əhalinin qocalmasının tənzimlənməsi mexanizmi kimi pensiya yaşı, əmək qabiliyyəti, əhalinin ərazi üzrə paylanması məsələlərinə xüsusi diqqət ayrılmışdır.

Yaponiyanın faktiki olaraq milli ərazinin hərtərəfli inkişafı üçün növbəti, altıncı plan olan Milli Məkan Strategiyasında (2008) və bu sənədin 2015-ci ildə yenilənmiş variantında - növbəti onilliklər üçün regional siyasətin istiqamətlərini özündə əks etdirən Yeni Milli Məkan Strategiyasında və 2050-ci ilə qədər regional inkişafın “uzunmüddətli, hərtərəfli baxışı” regional planlaşdırmanın və regional siyasətin məqsəd və prinsipləri təqdim edilmişdir.

Qloballaşma və Yaponiyanın dünya bazarındakı mövqeyinin dəyişməsi, Asiya bazarlarında rəqabət mövqelərinin qismən itirilməsi və xarici investisiyalar üçün “beynəlxalq” şəhərlər arasında artan rəqabət Yaponiyada xüsusi aktuallığa malik problem kimi müəyyənləşdirilmişdir. Digər tərəfdən Yaponiya əhalisinin əvvəlcədən gözləniləndən daha yüksək sürətlə azalması, insanların həyat tərzində və dəyərlər sistemində baş verən dəyişikliklər, həmçinin sabitlik, təhlükəsizlik, əlverişli ekoloji şərait, cəlbedici landşaftlar və şaxələndirmə kimi komponentlərin artan əhəmiyyəti Yaponiyanın yeni inkişaf strategiyasını müəyyənləşdirməsinə səbəb olmuşdur. Yaponiyanın “XXI əsrin yeni məkan inkişafı strategiyası” optimallaşdırma əsasında bütün yaşayış məntəqələrinin sakinləri üçün sosial xidmətlərin əlçatanlığının təmin edilməsini nəzərdə tutan çoxsəviyyəli “yığcam və şəbəkələşmiş ərazi strukturu”nun, “ekosistemlərinin”, “yeni şəhər özəyinin” və ya sosial infrastrukturun təkmilləşdirilməsi və ya yenisi ilə əvəz edilməsi ideyasına əsaslanır. İqtisadi artımın təmin edilməsi, sənayedə əmək məhsuldarlığının artırılması, regional resurslar və regionlararası əməkdaşlıq vasitəsilə innovasiyaların yaradılması, qadınların və yaşlı insanların işdə və ictimai həyatda iştirakının artırılması, müasir smart texnologiyalardan istifadə və iqtisadiyyat formatlarının paylaşılması Yaponiyanın yeni dövrdə inkişafı strategiyasının başlıca məqsədləri kimi müəyyənləşdirilmişdir.

XXI əsrdə Yaponiyanın başlıca problemlərindən olan regionların inkişafı və demoqrafik yaşlanmanın qarşısının alınması məsələsilə bağlı bu Strategiyada həm də ölkənin kompakt sosial inkişafı ilkin hədəflərdən birini təşkil edir.

Beləliklə, Yaponiya iqtisadiyyatının iki əsrin qovşağında keçdiyi iqtisadi inkişaf yolunu aşağıdakı kimi ümumiləşdirmək olar.

Post-müharibə dövründə Yaponiya iqtisadiyyatının modernləşməsi və makroiqtisadi inkişaf prosesini ümumiləşdirərək aşağıdakı mərhələlərə bölmək olar:

“I Mərhələ: Müharibədən sonrakı Yenidənqurma və Çatmaq (1945 - 1970). İkinci Dünya müharibəsindən sonra iqtisadi inkişafın I mərhələsi 1945-ci ildən 1960-cı illərə qədər davam etmişdir.

II Mərhələ: Keçid dövrü və “Köpüklü iqtisadiyyat” (1970-ci illərin əvvəlləri - 1980-ci illərin sonu). Bu dövrdə Yaponiya iqtisadiyyatı dünyanın digər sənaye iqtisadiyyatları ilə ayaqlaşaraq, ümumi məqsədə nail oldu.

III Mərhələ. İtirilmiş onillik və sonrası (1990-cı illər və sonrakı illər). XX əsrin 90-cı illərində Yaponiya iqtisadiyyatı “köpük” partlamasının nəticələri ilə mübarizə aparırdı”. [10]

Müharibədən sonrakı Yaponiya iqtisadiyyatında 1970-ci illərdə iki neft şokunun yaşanmasına baxmayaraq sürətlə inkişafın olması, hər kəsin orta sinfə aid olduğunu hiss etdiyi bir cəmiyyətin yaranması,dövlət sərmayələri şəklində davamlı dövlət müdaxiləsinə məruz qalma kimi bəzi xüsusiyyətləri vardır ki, yekdilliklə qəbul edilir.

Hazırda Çinin yüksəlişi Yaponiyanın Şərqi Asiyada iqtisadi möcüzə və model kimi keçmiş şöhrətini

kölgədə qoysa da, Yaponiyanın inkişafa əsaslanan dövlət idarəçiliyi modeli müxtəlif aspektlərdən aktual və əhəmiyyətli olaraq qalmaqdadır və həm siyasi, həm də akademik dairələrdə təqlid və müzakirə olunması davam etdirilməkdədir.

**Nəticə**

Yaponiya dövlətinin post-müharibə dövründə modernləşməsi istiqamətləri xüsusi bir yapon modelinin yaranması ilə nəticələnmiş oldu. Bu model bir çox inkişaf etməkdə olan ölkələr tərəfindən əsaslı analiz edilərək öyrənilmiş, təcrübi əsaslarda uyğunlaşdırılaraq istifadə edilmişdir. Yapon modelinin formalaşması tarixi göstərir ki, hər hansı bir dövlətin post-müharibə dövründə modernləşməsi mürəkkəb prosesdir və özündə kompleks dəyişiklikləri ehtiva edir. Yapon modelinin başlıca xüsusiyyəti insan amilinin ön planda saxlanması, bütün mərhələlərdə sosial kapitalın üstünlüyü, fasiləsiz təhsillənmənin təmin edilməsi və innovasiyalara açıq olan sənayedə texnologiyanın yeniləşməsinin və transferinin reallaşdırılmasıdır. Məhz bu xüsusiyyət innovativ sosial iqtisadi inkişafın mənbəyi olmuş və yapon möcüzəsinin reallaşmasına təkan vermişdir.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Kenichi Ohno. The history of Japanese economic development. Origins of private dinamism and policy competence. New York, 2018, 219p.*

*2. Kijuro Shidehara. The reforms and postwar Japanese economic performance from 1946 to 1993 // "Let us create a world without war". Case Writing by the Japan International Cooperation Agency (JICA) and the International University of Japan (IUJ). Copyright © 2020 International University of Japan (25 p.)*

*3. Hamada, Koichi; Kasuya, Munehisa (1992) : The Reconstruction and Stabilization of the Postwar Japanese Economy: Possible Lessons for Eastern Europe?, Center Discussion Paper, No. 672, Yale University, Economic Growth Center, New Haven, (p. 57 p.)*

*4. TRADE CONFLICTS BETWEEN JAPAN AND THE UNITED STATES OVER MARKET ACCESS: THE CASE OF AUTOMOBILES AND AUTOMOTIVE PARTS.// Pacific Economic Papers. No. 310 December 2000 https://crawford.anu.edu.au/pdf/pep/pep-310.pdf*

*5. C.Can Aktan ve İstiklal Y. Vural. Rekabetin korunması ve desteklenmesi: rekabet politikası. // Fikri mülkiyyet ve rekabet hukuku dergisi. Cilt 4, Sayı 4,2004, s.47*

*6. Japan Economic transformation. https://www.britannica.com/place/Japan/Economic-transformation*

*7. Shigeru T. Otsubo. Post-war Development of war Development of the Japanese Economy the Japanese Economy — Development, Japanese // Asian Style Development. GSID, Nagoya University, 2007, 73 p.*

*8. Сорокина В. С. Инсценирование политической реальности // Полис. Политические исследования. 2019. № 6.*

*9. Estévez-Abe, Margarita. 2008. Welfare and Capitalism in Postwar Japan. Cambridge University Press. http://www.tinyurl.com/koavegs*

*10. Shigeru T. Otsubo. Post-war Development of the Japanese Economy // Asian Style Development. GSID, Nagoya University, 2007, 73 p.*


**XÜLASƏ**


İkinci Dünya müharibəsindən sonra həyata keçirilən sosial-iqtisadi islahatlar Yaponiyada sıçrayışlı inkişaf dövrünün əsasını qoydu. Yaponiya hökuməti və özəl sektorlar sıx əməkdaşlıq edərək, diqqəti ixracın təşviqinə və sənaye istehsalının artırılmasına yönəltdilər. Bu strategiya sürətli sənaye artımına səbəb oldu və Yaponiyanı cəmi bir neçə onillik ərzində dünyanın aparıcı iqtisadiyyatlarından birinə çevirdi. Yapon möcüzəsi ölkənin sürətli inkişafını təmin etdi. Bu inkişaf əhalinin həssas təbəqələrinin sosial vəziyyətinin sabitləşdirilməsinə yönələn sənaye nizamının yaradılması məqsədilə dövlət sərmayələrinin kəndlərə yönəldilməsi ilə əlaqəlidir. Sonradan yapon möcüzəsi mərhələsi başa çatsa da, Yaponiya iqtisadiyyatında aparılan innovativ dəyişikliklər əhalinin rifah halının yüksəldilməsini nəzərdə tuturdu. Sosial-iqtisadi islahatlarla yanaşı Yaponiyada post-müharibə dövründə sosial və mədəni sahələrdə əsaslı islahatlar həyata keçirilməyə başlandı. Hökumət ölkədə demokratiyanın möhkəm bərqərar olması üçün sosial tədbirlər və Yaponiya iqtisadiyyatının sürətli inkişafına təkan verəcək insan kapitalı amilinə xüsusi diqqət yetirməyə başladı.Təhsilin genişlənməsi hesabına insan kapitalının toplanması iqtisadi artımın mühüm amilinə çevrildi.



**Açar sözlər:** *postmüharibə, inkişaf, yapon möcüzəsi, modernləşmə, Yaponiya.*

**Zumrud HUSEYNOVA**
*Doctoral student*
*ANAS, Institute of Philosophy and Sociology*

**CHARACTERISTICS OF JAPAN'S POST-WAR "LEAP DEVELOPMENT"**

**Summary**

Socio-economic reforms implemented after the Second World War laid the foundation for a period of breakthrough development in Japan. The Japanese government and private sectors worked closely together to focus on promoting exports and increasing industrial production. This strategy led to rapid industrial growth and made Japan one of the world's leading economies in just a few decades. The Japanese miracle ensured the rapid development of the country. This development is related to the direction of state investments to the villages in order to create an industrial order aimed at stabilizing the social situation of vulnerable sections of the population. Although the stage of the Japanese miracle ended later, the innovative changes in the Japanese economy meant improving the welfare of the population. In addition to social and economic reforms, fundamental reforms in the social and cultural fields began to be implemented in Japan during the post-war period. The government began to pay special attention to the social measures for the firm establishment of democracy in the country and the human capital factor that will stimulate the rapid development of the Japanese economy. The accumulation of human capital through the expansion of education has become an important factor of economic growth.

**Keywords:** *postwar, development, japanese miracle, modernization, Japan.*

**ЗУМРУД ГУСЕЙНОВА**
***Докторант***
***НАНА, Институт Философии и Социологии***

**ХАРАКТЕРИСТИКИ ПОСЛЕВОЕННОГО «СКАЧОЧНОГО РАЗВИТИЯ» ЯПОНИИ**

**Резюме**

Социально-экономические реформы, осуществленные после Второй мировой войны, заложили основу периода прорывного развития Японии. Правительство Японии и частный сектор тесно сотрудничали, чтобы сосредоточиться на продвижении экспорта и увеличении промышленного производства. Эта стратегия привела к быстрому промышленному росту и всего за несколько десятилетий сделала Японию одной из ведущих экономик мира. Японское чудо обеспечило быстрое развитие страны. Данное развитие связано с направлением государственных инвестиций в села с целью создания индустриального порядка, направленного на стабилизацию социального положения уязвимых слоев населения. Хотя этап японского чуда позже завершился, инновационные изменения в японской экономике означали повышение благосостояния населения. Помимо социальных и экономических реформ, в послевоенный период в Японии начали осуществляться фундаментальные реформы в социальной и культурной областях. Правительство стало уделять особое внимание социальным мерам по прочному установлению демократии в стране и фактору человеческого капитала, который будет стимулировать быстрое развитие японской экономики. фактор экономического роста.

**Ключевые слова:** *послевоенное время, развитие, японское чудо, модернизация, Япония.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

İRADƏ NURİYEVA: URMİYA FACİƏSİ (1917-1918) – İNSANLIQ DRAMIDIR............................ 5
DOI:10.30546/3006-0346.2024.2.80.101

NƏRGİZ NAĞIYEVA: POSTKOLONİAL DİSKURS VƏ ORİYENTALİZM (EDVARD SƏİD).... 9
DOI:10.30546/3006-0346.2024.2.80.110

NURƏDDİN MEHDİYEV: İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MİLLİ
TƏHLÜKƏSİZLİK AMİLİ KİMİ........................................................................................................ 15
DOI:10.30546/3006-0346.2024.2.80.185

MÜBARİZ GÖYÜŞLÜ: TÜRKİYƏ VƏ AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ
QARABAĞ PROBLEMİNİN HƏLLİ MÜSTƏVİSİNDƏ.................................................................... 21
DOI:10.30546/3006-0346.2024.2.80.218

SEÇKİ SİSTEMİ ANLAYIŞI, ONUN MƏZMUNU VƏ ƏSAS MAHİYYƏTİ
(YERLİ VƏ XARİCİ TƏCRÜBƏLƏR ƏSASINDA)............................................................................. 27
DOI:10.30546/3006-0346.2024.2.80.277

ЭМИЛЬ ЗАДАЕВ: ВЛИЯНИЕ МАРКСИЗМА-ЛЕНИНИЗМА НА НАЦИОНАЛЬНУЮ
ИДЕНТИЧНОСТЬ АЗЕРБАЙДЖАНА............................................................................................ 32
DOI:10.30546/3006-0346.2024.2.80.327

ŞAHMİR YADİGAROV: AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏ
SİSTEMİNDƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN HÜQUQİ STATUSU.......................................... 38
DOI:10.30546/3006-0346.2024.2.80.385

GÜLNAZ YUSİFLİ: HİBRİD MÜHARİBƏ ANLAYIŞI HAQQINDA................................................ 43
DOI:10.30546/3006-0346.2024.2.80.434

DURSUN MUSTAFAYEVA: BEYNƏLXALQ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ
HƏRBİ DİPLOMATİYA.................................................................................................................. 47
DOI:10.30546/3006-0346.2024.2.80.475

SƏİDƏ MƏMMƏDOVA: ZƏNGƏZUR DƏHLİZİ VƏ “YENİ İPƏK YOLU”:
İQTİSADİ-SİYASİ PERSPEKTİVLƏR............................................................................................ 52
DOI:10.30546/3006-0346.2024.2.80.521

MƏLƏK CƏFƏRLİ: İSRAİL-FƏLƏSTİN MÜNAQİŞƏSİ VƏ ABŞ-IN ROLU:
SİYASİ DƏSTƏK VƏ DİPLOMATİK TƏŞƏBBÜSLƏR....................................................................... 56
DOI:10.30546/3006-0346.2024.2.80.564

## TARİX VƏ ANTROPOLOGİYA

MƏRYƏM ORUCLU: MÜASİR DÜNYADA ETNİKLİYƏ DAİR NƏZƏRİ MÜLAHİZƏLƏRİN TƏHLİLİ........................................ 61
DOI:10.30546/3006-0346.2024.2.80.615

BƏXTİYAR ƏHMƏDOV: KEÇMİŞ ERMƏNİSTAN SSR-İN BASARKEÇƏR RAYONUNDA YAŞAYAN AZƏRBAYCANLILARIN DEPORTASİYASI (1948-1988-Cİ İLLƏR)............................. 66
DOI:10.30546/3006-0346.2024.2.80.667

KÖNÜL İMAMVERDİYEVA: DÖVLƏTÇİLİK İRSİMİZ: AĞQOYUNLU DÖVLƏTİNİN BAYRAĞI........................................ 75
DOI:10.30546/3006-0346.2024.2.80.755

NÜŞABƏ QULİYEVA: MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA TƏHSİLİN İNKİŞAF STRATEGİYASININ İSTİQAMƏTLƏRİ........................................ 80
DOI:10.30546/3006-0346.2024.2.80.803

RƏŞİD MEHDİYEV: HEYDƏR ƏLİYEV VƏ MİLLİ SİYASƏT KONSEPSİYASI........................... 85
DOI:10.30546/3006-0346.2024.2.80.854

NURLANA ƏLİYEVA: NAXÇIVAN DİYARINDA XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ SƏNƏTKARLIĞIN TARİXİ COĞRAFİYAYA TƏSİRİ........................................ 91
DOI:10.30546/3006-0346.2024.2.80.913

NƏSRİN ABDULLAYEVA: SOVET HAKİMİYYƏTİ QURULAN DÖVRDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN MÜNASİBƏTLƏRİNDƏ ƏRAZİ-SƏRHƏD MƏSƏLƏLƏRİ........................... 95
DOI:10.30546/3006-0346.2024.2.80.958

RENA GURBANOVA: CRISIS SITUATION. NAKHCHIVAN(1991-1993 years)............................... 101
DOI:10.30546/3006-0346.2024.2.80.10092

İLKİN MUSTAFAYEV: İTALİYA 1900-1903-CÜ İLLƏR ÜMUMDÜNYA İQTİSADİ BÖHRAN İLLƏRİNDƏ........................................ 105
DOI:10.30546/3006-0346.2024.2.80.130457

GÜNAY BAXŞƏLİYEVA: ƏBU SƏİD DÖVRÜNDƏ ELXANİ-MƏMLÜK MÜNASİBƏTLƏRİ.. 109
DOI:10.30546/3006-0346.2024.2.80.100875

BAHAR XASIYEVA: ALINMAZ ŞƏHƏRİN FƏTHİ........................................ 114
DOI:10.30546/3006-0346.2024.2.80.1205

## İQTİSADİYYAT

ÜLVİ BİLAL: QLOBAL BAZARDA QİDA İSTEHSALÇILARININ RƏQABƏT QABİLİYYƏTİNİ ARTIRMAQ ÜÇÜN İNNOVATİV STRATEGİYALAR........................................ 119
DOI:10.30546/3006-0346.2024.2.80.1167

K.M.NƏBİYEV: XİDMƏT SAHƏLƏRİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN ÖLKƏLƏR ÜZRƏ MÜQAYİSƏSİ.............................................................................................................. 124
DOI:10.30546/3006-0346.2024.2.80.1009

ALLAHŞÜKÜR ƏHMƏDZADƏ: KİBERTƏHLÜKƏSİZLİYİN GÜCLƏNDİRİLMƏSİ: TƏHLÜKƏNİN AŞKARLANMASINDA İNTERAKTİV VİZUALLAŞDIRMANIN GÜCÜ.......... 128
DOI:10.30546/3006-0346.2024.2.80.1356

ELNUR MƏNƏFLİ: AZƏRBAYCANDA BEYNƏLXALQ YÜK DAŞIMALARIN SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI YOLLARI.................................................................................... 134
DOI:10.30546/3006-0346.2024.2.80.1478

HƏBİB ZEYNALOV: MEHMANXANA KOMPLEKSİNDƏ QİDALANMANIN TƏŞKİLİ TEXNOLOGİYASI.............................................................................................................. 141
DOI:10.30546/3006-0346.2024.2.80.1098

AYSEL İBRAHIMOVA: AZƏRBAYCANDA DAVAMLI PEŞƏKAR KADR HAZIRLIĞI SİSTEMİ:FORMALAŞMASI VƏ İNKİŞAFI YOLLARI.................................... 147
DOI:10.30546/3006-0346.2024.2.80.1423

İLKİN CƏFƏRZADƏ: AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......................................................................................... 155
DOI:10.30546/3006-0346.2024.2.80.15982

DAĞBƏYİ ALLAHVERDİYEV: İQTİSADİ DALĞANIN ARTIM ŞƏRTLƏRİNİN RİYAZİ QURLUŞU.............................................................................................................. 162
DOI:10.30546/3006-0346.2024.2.80.12093

GÜLARƏ İSMAYILOVA: AZƏRBAYCAN RESPUBLİKASININ ƏRAZİSİNDƏN KEÇƏN BEYNƏLXALQ NƏQLİYYAT DƏHLİZLƏRİNİN İNKİŞAFI............................................................. 168
DOI:10.30546/3006-0346.2024.2.80.16009

NIGAR MAMMADOVA: THE EFFECT OF PROCESSED PRODUCTS ON HEALTH.................. 172
DOI:10.30546/3006-0346.2024.2.80.19087

NURAY ORUCOVA: AZƏRBAYCANDA GÖMRÜK REJİMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ.......................................................................................... 176
DOI:10.30546/3006-0346.2024.2.80.17765

VASİF QAFAROV: İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNDƏ DATA ANALİTİKASININ ROLU ........ 179
DOI:10.30546/3006-0346.2024.2.80.17908

ORXAN RÜSTƏMOV: ARMA MODELLƏRİNDƏN İSTİFADƏ EDƏRƏK MALİYYƏ ZAMAN SERİYASININ TƏHLİLİ: PRAKTİKİ BƏLƏDÇİ ........ 184
DOI:10.30546/3006-0346.2024.2.80.10198

ELXAN MƏMMƏDLİ: HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASININ ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU ........ 189
DOI:10.30546/3006-0346.2024.2.80.189078

**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

MÜSLÜM NƏZƏROV: TƏHSİLİN İNNOVATİV İNKİŞAFININ SOSİAL-FƏLSƏFİ ƏSASLARI ........ 193
DOI:10.30546/3006-0346.2024.2.80.190356

KAMINA MAMEDOVA: ART AS A FORM OF SOCIAL CONSCIOUSNESS ........ 198
DOI:10.30546/3006-0346.2024.2.80.198045

RƏVAN ƏLİYEV: TEXNOGEN SİVİLİZASİYA ŞƏRAİTİNDƏ ƏNƏNƏVİ VƏ MODERNİST PRİNSİPLƏRİN MÜQAYİSƏLİ VƏ SOSİAL-FƏLSƏFİ TƏHLİLİ ........ 202
DOI:10.30546/3006-0346.2024.2.80.20003

RAHİLƏ QURBANOVA: ESTETİK İDEALIN BƏDİİ YARADICILIQDA OBRAZLI TƏCƏSSÜMÜ ........ 207
DOI:10.30546/3006-0346.2024.2.80.209089

ÜLVİYYƏ ELYAZOVA: ƏQLİ SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN İNSANLARLA SOSİAL İŞ: BİPOLYAR POZUNTU VƏ BORDERLİNE ŞƏXSİYYƏT POZUNTUSU OLAN ŞƏXSLƏRLƏ SOSİAL İŞ ........ 212
DOI:10.30546/3006-0346.2024.2.80.211123

ZÜMRÜD HÜSEYNOVA: YAPONİYADA MÜHARİBƏDƏN SONRAKI “SIÇRAYIŞLI İNKİŞAF”IN XÜSUSİYYƏTLƏRİ ........ 216
DOI:10.30546/3006-0346.2024.2.80.2108976

**Founder:**
**“Kaspi” Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order № 51**

**Published by**
**“Class Print” LLC publishing house**
**Address: Matbuat avenue 22, Yasamal district,**
**Baku, Azerbaijan**

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №51**

**"Class Print" MMC nəşriyyatının**
**mətbəəsində çap olunub**
**Ünvan: Bakı şəhəri, Yasamal rayonu,**
**Mətbuat pr. 22**